Məmmədova Səadət Davud qızı

# AZƏRBAYCANDA SOSİAL DÖVLƏT: İNKİŞAFI, PERSPEKTİVLƏRİ

Azərbaycan Milli Elmlər Akademiyasının
Elm Tarixi İnstitutunun Elmi Şurasının
9 oktyabr 2017-ci il tarixli (Protokol №01)
qərarı ilə çap olunur.

Bakı - 2017

ELMİ REDAKTOR:**Tahirə Allahyarova**
Fəlsəfə üzrə elmlər doktoru, professor

RƏYÇİLƏR: **İzzət Rüstəmov**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**İlham Məmmədzadə**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**Azər Mustafayev**
Fəlsəfə üzrə elmlər doktoru, professor

**M-52 S.D.Məmmədova.** Azərbaycanda sosial dövlət: inkişafı, perspektivləri. Bakı, "AVROPA" nəşriyyatı - 2017, 232 səh.

*Monoqrafiya dünyada və Azərbaycanda sosial dövlətin inkişaf istiqamətlərinin araşdırılması ilə bağlıdır. Burada sosioloji fikir tarixində sosial dövlət haqqında ideyaların təkamülü, "sosial dövlət" anlayışının təhlili, sosial dövlət konsepsiyasının inkişaf istiqamətləri, müasir sosial dövlətin metodoloji əsasları ilə bağlı tədqiqat təqdim edilir. Kitab Azərbaycanda sosial dövlətin inkişafının nəzəri-ideoloji və konstitusion əsaslarının, o cümlədən ayrı-ayrı sosial institutların müasir inkişaf səviyyəsinin öyrənilməsinə həsr edilmişdir.*

*Monoqrafiya sosial dövlət və Azərbaycanda sosial dövlətin inkişafının əsasları ilə maraqlananlar üçün nəzərdə tutulmuşdur. Əsərdən sosial dövlətin araşdırılması ilə bağlı elmi-tədqiqat işlərində, xüsusi kursların hazırlanmasında, ali məktəblərdə müvafiq fənlərin tədrisi zamanı istifadə edilə bilər.*

M 4702060104
8032-2017

© S.Məmmədova, 2017

MÜNDƏRİCAT

GİRİŞ ...................................................................................................
I.SOSİOLOJİ FİKİR TARİXİNDƏ SOSİAL DÖVLƏT HAQQINDA İDEYALARIN TƏKAMÜLÜ ...............................................
1.1 Sosial dövlət – dövlət idarəçiliyinin daha təkmil forması kimi........
1.2 Sosial dövlət konsepsiyasının inkişaf istiqamətləri.........................
1.3Sosial dövlətin araşdırılması və inkişafı prosesində “sosial sinergetik institutlaşma” istiqaməti metodoloji əsas kimi .............................
II. DÖVLƏTİN SOSİAL SİYASƏTİ: ƏSAS MƏQSƏDLƏRİ, FUNKSİYALARI, İSTİQAMƏTLƏRİ ........................................................
2.1 Sosial siyasət anlayışı, əsas məqsədləri və subyektləri ...................
2.2 Sosial siyasət sosial institutların tənzimlənməsi mexanizmi kimi....
III. AZƏRBAYCANDA SOSİAL DÖVLƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ.....................................................................................
3.1 Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları ..................................................................................................
3.2 Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsasları.............................................................................
IV.AZƏRBAYCANDA SOSİAL İNSTİTUTLARIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ.....................................................................................
4.1Dövlətin sosial siyasətinin həyata keçirilməsində sosial institutların rolu ................................................................................
4.2 Vətəndaşların əmək hüquqlarının təmin edilməsi sosial dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi............................................
4.3 Azərbaycanda sosial sığorta sistemi və qocalığa görə təqaüdlə təmin edilmə .........................................................................................
4.4Sağlamlığın qorunması və tibbi yardım Azərbaycanda sosial siyasətin əsasları kimi ..............................................................................
4.5Azərbaycanda təhsil institutunun müasir inkişaf səviyyəsi..............
4.6 Qaçqınlar və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Respublikasının sosial siyasətinin prioritet məsələsi kimi ..........
NƏTİCƏ...............................................................................................
ƏDƏBİYYAT SİYAHISI ....................................................................

# GİRİŞ

Tarixi inkişaf prosesinin təhlili göstərir ki, insanlar bütün dövrlərdə öz həyat keyfiyyətlərinin yüksəlməsinə və bununla əlaqədar olaraq daha təkmil idarəçilik sisteminə yiyələnməyə çalışıblar. Müxtəlif dövrlərdə irəli sürülən ideal dövlət konsepsiyaları ilk növbədə insanların rifah halı, onun təmin edilməsi yollarının axtarışı ilə bağlı olmuşdur. Bəşər tarixinin ən yeni mərhələsi kimi xarakterizə olunan post-neokapitalizm dövründə insanların həyat keyfiyyətinin yüksəldilməsi, sosial ədalətin təmin edilməsi, sosial əməkdaşlığın və insanların qarşılıqlı sosial məsuliyyətinin möhkəmləndirilməsi, sosial qeyri-bərabərliyin aradan qaldırılması, insanın bütün hüquq və azadlıqlarının təmin edilməsi və ona layiqli həyat şəraitinin yaradılmasınayönələn sosial dövlət növbəti "ideal idarəçilik" modeli kimi qəbul edilir. Sosial dövlətin üstün tərəflərindən biri onun dövlət – cəmiyyət – vətəndaş münasibətlərində qarşılıqlı fəaliyyətə, qarşılıqlıköməyə və dəstəyə əsaslanan dövlət quruluşu olması ilə bağlıdır.

Qeyd edilməlidir ki, "sosial dövlət" – tez-tez istifadə edilən, lakin ümumiqəbul edilmiş vahid tərifə malik olmayan anlayışdır. Sosial dövlət haqqında danışdıqda hər kəs intuitiv səviyyədə ümumi mahiyyəti başa düşür, lakin şəxsi iqtisadi, sosial və siyasi baxışlarından, dilindən və milli mənşəyindən, ünsiyyət mühitindən və bir çox başqa amillərdən asılı olaraq fərqli şərhlər təqdim edir.[1]Hətta lüğətlərdə də "sosial dövlət" anlayışının izahında fərqlər nəzərə çarpır. Məsələn, Kembric lüğətində sosial dövlət "vergilər hesabına ölkənin dövlət strukturları tərəfindən ehtiyacı olan insanların tibbi, işsizliyə görə müavinət və digər sosial xidmətlərlə təmin edilməsinə" yönələn idarəçilik forması kimiizah edilir.[2] Britaniya ensiklopediyasında təqdim edilən "sosial dövlət" konsepsiyasına görə dövlət, yaxud möhkəmlənmiş sosial institutlar vətəndaşların iqtisadi və sosial rifahını müdafiə və təmin etməkdə

---

[1]Социальное государство в странах ЕС: прошлое и настоящее / Отв. ред.Ю.Д. Квашнин. М.: ИМЭМОРАН, 2016. (189 с), с.5

[2]Welfare State". A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English. Oxford Oxford New York. University press 2010, p. 1749

aparıcı rol oynayır. Sosial dövlətbərabər imkanlar prinsipinə söykənir. Sosial dövlətin əsas xüsusiyyəti sosial sığorta ilə bağlıdır.[3]

Geniş mənada bütün dövlətlər ictimai inkişafın nəticəsi kimi sosial hesab edilir. “Sosial dövlətin” fəaliyyəti bilavasitə demokratiya, vətəndaş cəmiyyəti, hüquqi dövlət, azadlıq və bərabərlik, insan hüquqları kimi ictimai təzahürlərlə bağlıdır. Sosial dövlətin əsas prinsipləri azadlıq və insan hüquqlarının təmin edilməsinə yönəlir. Özünü sosial dövlət elan etmiş ölkələrin siyasəti sosial yönümlü olub, hüquqi əsaslarda öz təsdiqini tapmışdır. Ümumiyyətlə, belə qeyd edirlər ki, əslində hüquqi dövlət sosial olmalıdır, sosial dövlət isə hüquqi olmaya bilməz. Sosial dövlət hüquqi dövlət əsasında inkişaf edib və dövlətçilik tarixinin yeni mərhələsi kimi qəbul edilə bilər. Müasir dövlətlər sosial dövlətin hüquqi əsaslarda inkişafı ilə bağlı daha səmərəli yollar axtarırlar. Qeyd edildiyi kimi hüquqi dövlət sosial siyasətə malik olur, lakin sosial dövlətin həm daxili, həm də xarici siyasəti sosial yönümlü olub, əhalinin rifahının təmin edilməsi ətrafında müəyyənləşir.

Hazırda sosial dövlətin əsas göstəriciləri aşağıdakı kimi müəyyən edilmişdir:

1.Şəxsi mülkiyyətin sosial funksiyası;

2.İnsanın və vətəndaşın əmək, istirahət, təhsil, səhiyyə, dövlət pensiyası və s. ilə bağlı hüquqlarının konstitusiyada möhkəmlənməsi;

3. Sosial əməkdaşlıq və sosial həmrəylik;

4.Cəmiyyətin tərəqqipərvər inkişafına kömək edən fərdlərin, həmçinin sosial, milli və digər birliklərin sosial iqtisadi bərabər hüquqluluğu və eyni zamanda mövcud həyat səviyyəsinin bərabərləşdirilməsi;

5.Sosial ədalət;

6.Sosial yönümlü bazar iqtisadiyyatının yaradılması;

7. Cəmiyyətdə sosial-siyasi arbitr rolunun yerinə yetirilməsi;

8.Sosial cavabdehlik və sosial məsuliyyət;

9.Yüksək texnologiyalı dövlət və innovasion dövlət.[4]

---

[3]Welfare state. https://www.britannica.com/topic/welfare-state

Sosial dövlətdə daha çox dövlətin və daha az bazarın müdaxiləsi və yaxud əksinə ola bilər. Əsas odur ki, burada hakimiyyətin açıqlığı və demokratikliyi, sosial ədalət və vətəndaş sülhü, sosial əməkdaşlıq, razılıq və həmrəylik əsasında bütün vətəndaşların maraqlarına uyğun olan sosial siyasət həyata keçirilir.[5]

"Sosial dövlət" anlayışının daha çox İsveçrə, Almaniya, Danimarka kimi ölkələrə aid edilməsinə baxmayaraq, birmənalı demək olar ki, hər bir müasir dövlət özündə sosial dövlətin bu və ya digər xüsusiyyətlərini daşıyır. Hətta, sosial-iqtisadi liberalizmin dərin köklərə malik olduğu ABŞ-da belə məqsədyönlü sosial siyasət həyata keçirilir.[6]

Müasir Azərbaycan dövləti də özünün ən yeni tarixini sosial dövlət quruculuğu istiqamətində müəyyənləşdirib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın müasir inkişaf istiqamətini "sosial yönümlü dövlət" yaradılması kimi müəyyən etmişdir. [7] Akademik Ramiz Mehdiyev Azərbaycan dövlətinin müasir inkişafını "milli iqtisadiyyatın liberallaşması prosesi" kimi xarakterizə edərək, Azərbaycanın müasir inkişaf modelinin konservativ – liberal (ənənə əsasında millətin birliyi və fərdi azadlıq) model olduğunu bildirmişdir.[8]

Hadi Rəcəbli Azərbaycanın müasir sosial inkişaf modelini sosial modernləşmə kimi müəyyənləşdirir. Müəllifin qeyd etdiyi kimi "bu modeldə əsas istiqamət nəticəyə deyil, səbəbin aradan qaldırılmasına yönəlir". Hadi Rəcəbli "sosial rifaha aparan" "modern sosial siyasətin" əsas istiqamətlərini "işsizliyin tamamilə

---

[4] Чиркин В.Е.Индикаторы социального государства. АНО "Юридические программы". Москва, 2009, s. 103-111

[5] НелюбинА.А. Формирование социального государства в России: политико-социологический аспект. Научные публикации КФ РГСУ © 2009

[6] Rəcəbli H. Azərbaycanda yoxsulluğun azaldılması üzrə tədbirlər planı müəyyən edilib. http://anspress.com/index.php?a=2&lng=az&nid=107358

[7] 16 yanvar 2012-ci il tarixdə ARPrezidentiİlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası.http://www.president.az/articles/4098/print

[8] MehdiyevR. "Gələcəyinstrategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti", Bakı, "Qərb-Şərq" nəşr., 2008, s.18

aradan qaldırılması, layiqli həyat standartlarının yaradılması, yoxsulluğun sıfır həddinə endirilməsi, etibarlı sosial müdafiə, gənc ailələrə dövlət qayğısı və müasirləşməyə yönəlmiş yeni inkişaf" kimi müəyyənləşdirir.[9]

A.Rüstəmova İnkişafın Azərbaycan modeli haqqında danışarkən ölkəmizin "yeni inkişaf mərhələsində əsas hədəflərini çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formaladırılması, əhalinin rifahının layiqli, qabaqcıl, inkişaf edən ölkələrin tələblərinə cavab verən səviyyəyə çatdırılması, ...ictimai həyatın bütün istiqamətlərində yeni nailiyyətlərin əldə olunması" kimi müəyyənləşdirir.[10]

Fikirlərin ümumiləşdirilməsi kimi deyə bilərik ki, Azərbaycanda sosial dövlət tiplərinin (liberal, konservativ, sosial-demokrat) müəyyən tərəflərini özündə əks etdirən model formalaşır. Sosial dövlətin Azərbaycan modeli - fərdi azadlığı və şəxsi mülkiyyəti inkişaf etdirən, müasir inkişaf xüsusiyyətlərini nəzərə alaraq, öz milli və dini adət və ənənələrini qorumağa yönələn, böhran və riskli vəziyyətlərdə bilavasitə dövlət tərəfindən tənzimlənən dövlətdir.

Azərbaycan dövləti öz qarşısına əhalinin yüksək rifah halının təmin edilməsi, beynəlxalq aləmdə ölkənin geosiyasi rolunun möhkəmləndirilməsi məqsədlərini qoymuşdur. Bu məqsədlərə nail olmağın yolu iqtisadiyyatın innovasion və sosial yönlü inkişaf modelinə keçilməsi ilə bağlıdır. Ölkə iqtisadiyyatının innovasion inkişaf yoluna keçməsi üçün qlobal miqyasda rəqabətə davamlı milli innovasion sistemin – alətlər, mexanizmlər sisteminin və iqtisadiyyatın, həmçinin ictimai həyatın bütün sahələrində innovasion fəaliyyəti dəstəkləyən infrastrukturun formalaşdırılması lazımdır. Qabaqcıl dünya təcrübəsinə uyğun olaraq səmərəli milli innovasion sistemin yaradılması iqtisadiyyatın innovasion və texnoloji inkişafı, həmçinin yaradılmış innovasion sistemin

[9] Rəcəbli H. Azərbaycanda yoxsulluğun azaldılması üzrə tədbirlər planı müəyyən edilib. http://anspress.com/index.php?a=2&lng=az&nid=107358

[10] Rüstəmova A.B. Müasir dünya və Azərbaycan reallıqları. Fəlsəfi təhlil. Bakı: *"AFPoliqrAF"*, 2017, səh.37 (240 s.)

hissəliliyini aradan qaldırmaq hesabına təmin olunur. İnnovasion inkişaf – elmi-texniki inqilabın yeni şəraitdə davamıdır.[11]

Sosial dövlətin əsas mahiyyətini əks etdirən bu təhlillər Azərbaycan Respublikasının Milli İnkişaf Strategiyasının əsaslarını təşkil edir. Müasir dövrdə inkişafın dəqiq və məntiqi modeli, paradiqma-strategiyasının olması zərurəti "strategiya"nın bir məhfum kimi mahiyyətinin açılmasını tələb edir.[12]

Bir çox elmi lüğətlərdə "strategiya" uzun müddətli perspektivə yönələn fəaliyyətin planlaşdırılması sənəti kimi izah edilir. ***Strategiya*** – mürəkkəb və potensial olaraq güclü silahdır, onun köməyi ilə həm kiçik qruplar, müəssisələr, regionlar, həm də dövlət yeni çağırışlara cavab verə və qarşı dura, hətta əvvəl mümkün olmayan yeni inkişaf səviyyəsinə çata bilər. Eyni zamanda ***strategiya*** – açıq münaqişələrdən qaçmaq, dəyişən vəziyyəti öz xeyrinə istifadə etmək, vəziyyətin dəyişməsini əvvəlcədən görmək bacarığıdır. ***Strateji idarəetmə*** - "uzun zaman müddətində mövcud fürsətdən maksimal dərəcədə istifadə edərək xarici mühitdə meydana çıxan təhlükədən uzaqlaşmaq, təşkilatın idarə edilməsi ilə bağlı çətin sənət" – kimi izah edilir.[13] ***İdarəetmə strategiyasının dövlət səviyyəsi*** dedikdə, bazar iqtisadiyyatı şəraitində dövlətin səmərəli funksiyalaşmasına nail olmaq üçün məqsəd və vasitələrin müəyyənləşdirilməsi ilə yanaşı uğur əldə edilməsi fürsətinin, həmçinin konkret strategiyanın reallaşdırılması zamanı meydana çıxa biləcək təhlükə və çağırışların qiymərləndirilməsi nəzərdə tutulur. Beləliklə, bu zaman ölkə rəhbərliyi cari, operativ və perspektiv vəzifələri proqramlaşdırmalıdır. Dövlət üçün inkişaf strategiyası iqtisadi, siyasi, mədəni və bütövlükdə ictimai həyatın

---

[11] Хребтов А.В. Единые подходы к интеграции национальных инновационных систем стран ЕАЭС в процессе создания Евразийской инновационной системы.http://ac.gov.ru/files/attachment/5035.pdf

[12] Стратегия развития России как научная и политическая проблема http://www.rikmosgu.ru/publications/3559/4608/

[13] Стратегия: сущность и содержание [Электронный ресурс] // Сайт кафедры «Теории и технологий в менеджменте» ЮФУ (РГУ). URL: http://www.management61.ru/index.php?do=static&page=11strateg (дата обращения: 31.10.2011).

bütün səviyyələrini əhatə edir.[14] Dövlətin inkişaf strategiyası üç suala cavab verən kompleks, uzun müddətli fəaliyyət proqramı kimi qəbul edilir: 1.Ölkə özünü sabah necə görmək istəyir? 2. O, hara getmək istəyir? 3. O, bunu necə etməyə hazırlaşır?[15]

Beləliklə, ***strategiya*** – “prioritetlər sistemi, əlaqələndirmə və ehtiyatların bölüşdürülməsi yolu ilə qarşıya qoyulan məqsəd və vəzifələrə nail olmaq üçün özünəməxsus “fəaliyyət modeli”..., həmçinin vəzifələr, onların həyata keçirilmə müddəti və ehtiyatlara görə qarşılıqlı razılaşdırılmış, sistemli sosial iqtisadi problemlərin səmərəli həllini təmin edən məqsədli proqramların, ayrı-ayrı layihələrin və proqramlı tədbirlərin toplusudur”.[16]

Ə.M.Həsənovun qeyd etdiyi kimi – “Hər bir dövlətin daxili və xarici vəziyyətini, milli maraq dairələrini və onların təminatını, beynəlxalq aləm və region ölkələri ilə münasibətlərinin taktikasını, vəzifələrini, yollarını, vasitələrini və ehtiyatlarını, onu əhatə edən geosiyasi subyektlərin hərəkətlərini və buna müvafiq olaraq geosiyasi davranışını müəyyən edən Milli İnkişaf Strategiyasıolur. Bu strategiya ölkənin həyata keçirdiyi praktiki daxili və xarici siyasətin, ölkə daxili ictimai-siyasi, milli-etnik, sosial-dini

---

[14]Пономарева Е. Г. Специфика властной организации современного российского общества [Электронный ресурс] // Информационный гуманитарный портал «Знание. Понимание. Умение». 2010. № 1 — Философия. Политология. URL: http://www.zpu-journal.ru/e-zpu/2010/1/ Ponomareva/ (дата обращения: 31.10.2011).

[15] Армстронг М. Стратегическое управление человеческими ресурсами. М. : Инфра-М, 2002. — 328 с.; Минцберг Г. Структура в кулаке. Создание эффективной организации. СПб. : ПИТЕР, 2011. — 512 с.; Томпсон-мл. А. А., Стрикленд А. Дж. Стратегическийменеджмент. Концепцииаиситуациидляанализа. М. : Вильямс, 2006. — 928 с.; Hamel G., Prahalad C. K. Competing for the Future: Breakthrough Strategies for Seizing Control of Your Industry and Creating Markets of Tomorrow. Boston : Harvard Business School Press, 1994; Beam H. H. Competing for the Future: Breakthrough Strategies for Seizing Control of Your Industry and Creating the Markets of Tomorrow. — book reviews [Электронныйресурс] // Business Horizons. FindArticles.com. URL: http://findarticles. com /p/ articles /mi_m1038/is_n3_v38/ai_16889375/ (датаобращения: 31.10.2011).

[16] Дунаев О. Стратегия — это искусство, без которого не удержать бизнес [Электронный ресурс] // Логинфо. URL: http://loginfo.ru/issue/94/1226 (дата обращения: 31.10.2011)

sabitliyin, yaxın və uzaq ölkələrlə geosiyasi münasibətlərin davamlı, təhlükəsiz inkişafını təmin edən əsas vasitədir".[17]

Bu gün Azərbaycan Respublikasının milli inkişaf perspektivlərinin istiqamətləndirilməsi, "ölkədə makroiqtisadi sabitlik və dinamik iqtisadi inkişaf üçün əsaslı zəmin" yaradılması məqsədilə Strateji Yol Xəritəsi qəbul edilmişdir. Strateji Yol Xəritəsi 12 əsas istiqaməti – milli iqtisadiyyat perspektivi, kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalı, neft və qaz sənayesinin, ağır sənaye və maşınqayırmanın, ixtisaslaşmış turizm sənayesinin, logistika və ticarətin, uyğun qiymətə mənzil təminatının, peşə təhsili və təliminin, maliyyə xidmətlərinin, telekommunikasiya və informasiya texnologiyalarının, kommunal xidmətlərin inkişafı məsələlərini əhatə edir.[18]

Strategiya mütləq dövlətin düşünülmüş uzun müddətli məqsəd və vəzifələrinin, həmçinin onun sərəncamında olan və qarşıya qoyulan məqsədlərə nail olmaq üçün nəzərdə tutulan vəsaitlərinin istifadəsinin istiqamətləndirilməsi ilə bağlı olur.[19] Bu fikrə əsasən deyə bilərik ki, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"nin hazırlanması şəxsi inkişaf modelinin yaradılması istiqamətində atılan əhəmiyyətli bir addımdır və bu strategiya dünya təcrübəsini, milli inkişaf və milli təhlükəsizlik imkanlarını özündə ehtiva edir. Bu, müəyyən edilmiş strateji hədəflərdə də özünü göstərir:

---

[17] Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, 700 s.

[18] "AzərbaycanRespublikasınınmilliiqtisadiyyatperspektivi üzrə Strateji Yol Xəritəsi"haqqında Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı.Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. azertag.az/store/files/news/ 16.03/ STRATEJİ%20YOL.pdf

[19] Подробно об «импорте» институтов и технологий см.: Пономарева Е. Г. Специфика властной организации современного российского общества [Электронный ресурс] // Информационный гуманитарный портал «Знание. Понимание. Умение». 2010. № 1 — Философия. Политология. URL: http://www.zpu-journal.ru/e-zpu/2010/1/Ponomareva/ (дата обращения: 31.10.2011).

1. Fiskal dayanıqlılığın gücləndirilməsi və davamlı monetar siyasətin qəbul edilməsi;

2. Özəlləşdirmə və dövlət mülkiyyətində olan müəssisələrlə bağlı islahatların həyata keçirilməsi;

3. İnsan kapitalının inkişaf etdirilməsi;

4. Əlverişli biznes mühitinin inkişaf etdirilməsi.

Bu hədəflər Azərbaycanda sosial dövlətin və sosial yönümlü bazar iqtisadiyyatının inkişafını nəzərdə tutaraq, təhsilin bütün pillələrində keyfiyyətin yüksəldilməsi, əmək məhsuldarlığının yüksəldilməsi və insan kapitalının inkişafının stimullaşdırılması, iqtisadiyyatda və əlverişli biznes mühitinin yaradılmasında dövlət sektorunun rolunun koordinasiya edilməsi, biznesin davamlılığının möhkəmləndirilməsi, özəlləşdirmənin uğurla icrası və prioritet sektorlarda özəlləşdirmənin həyata keçirilməsi, xarici investisiya üçün uyğun investorların cəlb olunması məsələlərini əhatə edir.[20]

Strateji Yol Xəritəsində bilavasitə sosial iqtisadi inkişaf istiqamətlərinin, o cümlədən sosial sahədə aparılan islahatların və sosial siyasətlə bağlı tətbiq edilən yeniliklərin komparativ analizi təqdim edilir. Bu təhlilə əsasən Azərbaycanda sosial dövlət quruculuğunun əsas istiqamətlərini aşağıdakı kimi müəyyənləşdirmək olar:

- sosial yönümlü bazar iqtisadiyyatının inkişafı;
- sosial infrastrukturun inkişafı;
- regionların inkişafı;
- sosial təminat sahələrinin inkişafı;
- elm, təhsil, səhiyyə sahəsində islahatlar;
- hüquqi sahədə islahatlar;
- sahibkarlığın dəstəklənməsi, yoxsulluğun azaldılması;
- qaçqın və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşdırılması və s.

Onu da qeyd edə bilərik ki, yuxarıda təsnif edilən sahələrin əksəriyyəti ilə bağlı strateji dövlət sənədi qəbul edilmişdir.

---

[20] AzərbaycanRespublikasınınmilliiqtisadiyyatperspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

Nəzərə alsaq ki, sosial dövlətin həyata keçirdiyi əsas siyasət bilavasitə sosial sahələrin inkişafı ilə bağlıdır, qeyd edə bilərik ki, Strateji Yol Xəritəsi sosial sahələrin idarəedilməsinin tənzimlənməsi məqsədilə qəbul edilmiş hüquqi sənəddir. Sosial sahələrin idarə edilməsi dedikdə, burada ilk növbədə aşağıdakılar nəzərdə tutulur:

1.Əhalinin sosial subyekt kimi tələbatının öyrənilməsi və onun həyat səviyyəsinin yüksəldilməsi;

2.Səhiyyənin inkişafı və onun insan inkişafı indeksinə təsiri;

3.Təhsil sahəsinin iqtisadiyyatı və idarə edilməsi;

4.Mədəniyyətin inkişaf etdirilməsi;

5.Mənzil-kommunal təsərrüfatına xidmətin təşkili və bu sistemin əsas istiqamətləri;

6.Sosial sığorta sisteminin inkişafı;

7.Sosial müdafiə problemləri və bu sistemin əsas istiqamətləri;

8.Ekoloji tarazlıq və ekoloji xidmət;

9.Ayrı-ayrı regionlarda əhalinin məskunlaşması, onların rifahı, iş şəraitinin, məişət problemlərinin öyrənilməsi.

Sosial sahələrin idarə edilməsi ilə bağlı olan strateji planlaşma müəyyən ali məqsədlər və onların reallaşdırılmasına yönəldilən proqram xarakterli tədbirlər məcmusu ilə bağlıdır.[21]

Beləliklə, “Strateji Yol Xəritəsi”nin analizi göstərir ki, Azərbaycanda formalaşan sosial dövlət yeni inkişaf modeli kimi dünya təcrübəsinin sintezinə əsaslanan inkişaf modelidir və dövlətin əsas inkişaf istiqaməti sosial modernləşmə ilə bağlıdır. Hər hansı bir inkişaf modeli təhlil edilərkən zaman və məkan faktorları nəzərə alınmalıdır və bu əsasda Azərbaycanda sosial dövlətin özünəməxsus regional (bölgənin geostrateji xüsusiyyətlərindən çıxış edərək) forması yaranır.

Ölkəmizdə həyata keçirilən layihə və proqramlar, beynəlxalq konfranslar və forumlar vasitəsilə sosial dövlətin Azərbaycan modeli dünyaya təqdim edilir. Azərbaycan Prezidentinin 2011-ci il 27 may tarixli Fərmanına uyğun olaraq YUNESKO, BMT-nin

---

[21]Əlirzayev Ə.Q. Sosial sferanın iqtisadiyyatı və idarə edilməsi (dərs vəsaiti). Bakı: “İqtisadiyyat Universiteti” nəşriyyatı, 2010, s.10, 19

Sivilizasiyalar Alyansı, Ümumdünya Turizm Təşkilatı, Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı, Avropa Şurası, ISESCO, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin tərəfdaşlığı ilə davamlı olaraq Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumları (2011, 2013, 2015, 2017), Bakı Beynəlxalq Humanitar Forumları (2010, 2012, 2014, 2016) və s. keçirilir. 2017-ci ildə Azərbaycanda əməyin gələcəyi ilə bağlı aktual məsələlərə həsr olunan milli dialoqun yekunlarına dair keçirilən konfransda 4 mövzu – "Demoqrafik vəziyyət və miqrasiya proseslərinin əmək bazarına təsiri", "Texnoloji inkişafın əmək bazarına və məşğulluğa təsiri", "Layiqli əməyin cəmiyyətin rifahında rolu" və "Təhsilin və təlimin əmək bazarının inkişafında rolu" məsələləri müzakirə edilib. Bunlarla yanaşı Azərbaycanda elm, təhsil, mədəniyyət, idman sahələrinin inkişafı ilə bağlı çox sayda layihə və proqramlar həyata keçirilir, o cümlədən qeyd edilən sahələrdə ölkəmizin əldə etdiyi nailiyyətləri dünyaya çatdırmaq üçün beynəlxalq tədbirlər təşkil olunur.

Sosial dövlət ideyasının köklərini Konfutsinin, Tzı Sının, Pifaqorun, Heraklitin, Platonun, Aristotelin, Polibinin, Siseronun əsərlərində tapmaq olar. İnsan və cəmiyyətin, cəmiyyət və dövlətin qarşılıqlı təsiri problemi G.V.F.Hegel, V.fon Humboltun, N.Y.Danilevskinin, K.Marksın, Ş.L.Monteskyönün və başqalarının əsərlərində araşdırılmışdır. XX əsrin 50 – 60-cı illərində C.Helbrayt, P.Sorokin, R.Aron, Y.Timbergen, R.Darendorf, C.Rolz,C.D.Saks, İ.Vallerstayn, F.Fukuyama, H.Devid, U.Bek, Y.A.Şumpeter, D.Bell, sonrakı dövrlərdə isə L.R.Heilbroner, P.F.Drucker, J.Rifkin və bir sıra digər Qərb tədqiqatçıları bu sahədə araşdırmalar aparmışlar.

Rusiya tədqiqatçılarından N.N.Alekseyeva, S.N.Baburin, M.V.Baqlay, B.Y.Blyaxman, A.V.Butakov, Q.Ellinek, S.Zavadskoy, V.A.İvanenko, İ.A.İlyin, N.M.Korkunov, D.A.Kərimov, V.V.Kojevnikov, Y.Limbax, V.N.Leşkov, E.A.Lukaşova, V.O.Luçin, A.V.Malko, Q.V.Malsev, L.S.Mamut, P.İ.Novoqordsev, Y.İ.Skuratov, V.V.Suboçev, V.A.Torlopov, Y.A.Tixomirov, M.Y.Fedorova, K.Hesse, A.İ.Ekimov və başqaları

sosial dövlətlə bağlı geniş araşdırmalar aparmışlar. [22] Rusiya müəlliflərindən S.B.Kalaşnikov, V.E.Çirkin, V.A.Zatonskiy, M.V.Karqalov, İ.D.Levin, Q.İ.Avtsinova, S.Zavadski, V.A.Uvaçev və başqaları bilavasitə sosial və sosial-hüquqi dövlətin inkişaf istiqamətlərini öyrənmişlər.

Azərbaycanda bilavasitə sosial dövlətlə bağlı elmi araşdırmalar aparılmasa da, onun müxtəlif istiqamətlərinin öyrənilməsinə həsr edilmiş çox sayda tədqiqat işləri mövcuddur. Bu sırada akademik R.Mehdiyevin "Azərbaycanın inkişaf dialektikası", "XXI əsrdə milli dövlətçilik", "Milli məfkurə, Dövlətçilik, Müstəqillik yolu ilə", İ.Ə.Rüstəmovun "Gələcəyə istiqamətlənmiş siyasət (Heydər Əliyev – 85)", İ.R.Məmmədzadənin"Vətəndaş cəmiyyəti və milli ideologiya: Azərbaycanda siyasi proseslərin fəlsəfəsinə dair", S.Hüseynovun "Davamlı insan inkişafı", Q.İmanov və Q.Həsənlinin "Azərbaycanın sosial-iqtisadi inkişafının modelləri", C.T.Əhmədlinin "Cəmiyyət, siyasət, ideologiya", R.C.Əzimovanın "Keçid dövrü cəmiyyətində orta sinif", "İnsanşünaslıq XXI əsrin elmidir", T.Allahyarovanın "Müasir Azərbaycanda siyasi sistemin tranformasiyası", "Qloballaşma problemlərinin təhlilinə müasir metodoloji paradiqmadan nəzər", "İnsan probleminə sinergetik yanaşma insana dair vahid elmi konsepsiyanın metodoloji əsası kimi", A.Rüstəmova "Müasir dünya və Azərbaycan reallıqları.Fəlsəfi təhlil", Ə.Qəşəmoğlunun "Sosial idarəetmənin fəlsəfi, sosioloji problemləri", S.Y.Hüseynovun "Davamlı İnsan İnkişafının strateji istiqamətləri", "Davamlı İnsan İnkişafı", "Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik", ‚S.Y.Hüseynov, İ.Alıyev və A.Əsədovun "Milli iqtisadiyyat: modernləşmə və davamlı inkişaf", Ə.S.Abbasovun "Azərbaycan: dövlət, cəmiyyət, din", "Azərbaycan Respublikası XX əsrin sonu – XXI əsrin başlanğıcında: ümumi səciyyə ", Ə.F.Abbasovun "Milli maraqlar və milli ideologiya.", "İnsan və sivilizasiya: ümumbəşəri böhrandan çıxış naminə", "İnsan və sivilizasiya: qloballaşma və anqlosakson

---

[22] Евстратов А.Э. Генезис идеи социального государства: историко-теоретические проблемы. Авторефератдиссертации на соискание ученой степеникандидата юридических наук, Омск, 2005

liberalizmi”, F.M.Qurbanovun “Tarixin “postqərb” mərhələsinə keçid. Risklər, ssenarilər və proqnozlar”, A.X.Mustafayevin “Heydər Əliyevin siyasi irsində dövlət müstəqilliyi ideyaları”, D.M.Müslümzadənin “İqtisadi (vətəndaş) cəmiyyəti və dövlət: problemin fəlsəfi-etik təhlili”, “Cəmiyyət və dövlətin diferensiasiyası ideyası: fəlsəfi-etik təhlilin təcrübəsi”, A.B.Rüstəmovanın “Müasir dövrdə мilli identiklik məsələlərinə dair”, ‚R.S.Mirzəzadənin“Multikulturalizm siyasəti din və gender dialoqunda”, Ə.M.Tağıyevin “Millikimlikfəlsəfəsi”, A.Əsədovun “Siyasətin fəlsəfəsi”, H.A.Həmidovun “Heydər Əliyev və Azərbaycanın xarici siyasəti”, “Heydər Əliyev - Azərbaycanda təhsil siyasəti”, X.N.Quliyevanın “Heydər Əliyev və mənəvi-estetik dəyərlər”, V.A.Ömərovanın “Etnomədəniyyət və milli-mənəvi dəyərlər”, Ş.M.Musayevanın “Dəyərlər və vətəndaş cəmiyyəti: bəzi etik aspektlərin təhlili”, A.Ş.Həsənovun “Milli ideologiya və milli mənəvi dəyərlər”, M.X.Kərimovun “Azərbaycanın Avropaya inteqrasiyası: problemlər və perspektivlər”, Z.Ağayevanın “Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik”, S.S.Xəlilovun “Lider. Dövlət. Cəmiyyət”, R.Əhmədov “Azərbaycan dövlətçilik fəlsəfəsinə dair” və bir sıra digər əsərləri göstərmək olar.

# I FƏSİL – SOSİOLOJİ FİKİR TARİXİNDƏ SOSİAL DÖVLƏT HAQQINDA İDEYALARIN TƏKAMÜLÜ

## 1.1Sosial dövlət – dövlət idarəçiliyinin daha təkmil forması kimi

Dövlətçiliyin ən yüksək mərhələsi hesab edilən sosial dövlət cəmiyyətin maraqlarına xidmət edən dövlətdir.[23] Sosial dövlətin mahiyyətinin dərk edilməsi problemi aşağıdakı anlayışların izahını tələb edir:

- "dövlət" anlayışının şərhi;
- "sosial" olanın konseptual əsaslarının açılması;
-"sosial dövlətin" əsas meyarlarının və xüsusiyyətlərinin müəyyənləşdirilməsi.[24]

I. Dövlət – müəyyən ərazini idarə edən və həmin ərazi hüdudlarında əhalinin davranışlarını tənzimləyəcək qanunlar yaratmaq iqtidarında olan və vergilərdən əldə edilən vəsaitlər hesabına mövcud olan institutlar məcmusudur.[25]Cəmiyyətin siyasi təşkili forması olan dövlətin əsas əlamətləri aşağıdakılar hesab edilir:

1.hakimiyyət funksiyasını yerinə yetirən və zorakılığın qanuniləşdirilmiş inhisarçısı kimi çıxış edən xüsusi aparatın olması;

2.müəyyən normalar sistemini möhkəmləndirən hüquqi sistemin olması.[26]

Robert Nozik dövlətin əsas xüsusiyyətlərini –"1) müəyyən ərazi hüdudlarında qüvvə tətbiq etmək inhisarına malik olmaq, və 2) "bölüşdürmə" yolu ilə də olsa öz ərazisində yaşayan hər bir

---

[23] КалашниковС.В. "Социальное государство:эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002

[24]Белоусова С.В.Социальное государство как инструмент обеспечения качества жизни : монография / С.В. Белоусова. – Иркутск: ИрГУПС, 2012. – 204 с., s.7

[25]Аберкромби Н., Хилл С., Тернер Б.С. Социологический словарь. (перевод с английского И.Г.Ясавеева), М, изд. «Экономика», 2004, S.92

[26] Социологический энсиклопедический словарь. (редактор Г.В.Осипов), М., Изд. НОРМА, 2000, S.58

insanın hüquqlarını müdafiə edən" siyasi birlik olmaq – kimi müəyyənləşdirir.[27]

Dövlət hakimiyyətinin strukturunda – hakimiyyət subyekti; hakimiyyət obyekti; hakimiyyətin fəaliyyətinin məzmunu; dövlət hakimiyyətinin həyata keçirilməsi vasitəsi, üsulu, qaydaları; hakimiyyət ehtiyatları kimi elementlər fərqləndirilir.Dövlət hakimiyyətinin obyektləri ayrı-ayrı fərdlər, sosial təbəqələr, siniflər, sosial və milli birliklər, bütövlükdə cəmiyyət, xalqlar, millətlər və s. ola bilər. Dövlət hakimiyyətinin subyekti dövlət, onun orqanları və vəzifəli şəxsləri ola bilərlər.Hakimiyyətlə münasibətlər çərçivəsində obyekt və subyekt öz potensial imkanlarını və bacarıqlarını həyata keçirirlər. Əgər demokratik hakimiyyətin və təbəələrin maraq və iradələri üst-üstə düşmürsə, kompromisdən məcbur etməyə qədər olan bütün idarəetmə metodları istifadə edilir.[28]

II. "Sosial" anlayışı –1) cəmiyyət və onun təşkili ilə bağlı atribut kimi izah edilir; 2) cəmiyyətdə müəyyən səviyyə və statusu ifadə etmək üçün işlədilir.[29]

Latın dilində "sosial" anlayışına uyğun gələn "sociālis, e [socius]" ifadəsi - 1) "yoldaşlıq", "dostluq" (beneficium, consilium ), "ünsiyyətcillik", "ictimai" (homo sociale animal est.); 2) "ittifaq", "birlik" (exercitus, copiae, lex) və digər mənalarda istifadə edilir.[30]

Müəyyən mənada "sosial" – şəxsiyyətin, sosiallaşan fərdin mahiyyəti ilə bağlı anlayışdır. V.Bozqurdun qeyd etdiyi kimi: "İnsanlar sosial varlıqdır... Bizim ümidlərimiz, qorxularımız, fürsətlərimiz, mənliyimiz və davranışlarımız sosial anlayışını ifadə edir".[31] Yuxarıda təqdim edilən izahların ümumiləşdirilməsi kimi qeyd edə bilərik ki,müəyyən birlik, yaxud toplumdaxilindəinsanın davranışları (cəmiyyətdəki norma və qaydalarla tənzimlənən hərəkəti), o cümlədən fəaliyyəti (məqsədyönlü və nəticə əldə

---

[27] Нозик Роберт. Анархия, государство и утопия / Роберт Нозик ; пер. с англ. Б. Пинскера под ред. Ю. Кузнецова и А. Куряева. — М.: ИРИСЭН, 2008. 424 с.,S.76
[28] Морозова Л.А. Теория государства и права. Учебник. Москва : Проспект, 2013. - 562 с
[29] WelfareState". A S Hornby Oxford Advanced Learner's Dictionary of Current English. Oxford New York. University press 2010, p. 1464
[30] Дворецкий И.Х. - Латинско-русскийсловарь, «Русскийязык-Медиа», 2005, s.357
[31] Veysel Bozkurt. Değişen dünyada sosioloji. EKİN Basım Yayın Dağıtım, 2007, s.3

edilməsinə yönələn hərəkəti)qarşılıqlı ünsiyyətin səbəbi və nəticəsi olaraq sosial mahiyyət qazanır, yaxud insan özü sosial varlığa çevrilir, sosiallaşır.

III. Beləliklə, ən sadə anlamda "sosial dövlət" –sosiallaşan fərdlərin qarşılıqlı münasibətlər sistemi olan cəmiyyətə yönəlmiş, şəxsiyyəti və onun mənafelərini, rifahını üstün tutan, onun hüquq və azadlıqlarını təmin və müdafiə edən idarəetmə formasıdır, yaxud"şəxsiyyətin dövlətidir".

Sosial dövlətin yaranması və inkişafı prosesi uzun və mürəkkəb tarixə malikdir.

Türkiyəli tədqiqatçı Süleyman Özdemir sosial rifah dövlətinin formalaşması tarixinin aşağıdakı təsnifatını təqdim edir:

1) 1880-cı ildən əvvəlki dövr – Sənaye çevrilişindən əvvələ aid bu dövrdə dövlətin hakim mövqeyini qəbul edən paternalist ideologiya hakim idi. Bu dövrdə problemlərin aradan qaldırılmasında ailələrin, könüllü quruluşların, xeyriyyəçi qurumların, bilavasitə cavabdeh iş təminatçılarının və dövlət gəlir transferlərinin fəaliyyəti daha çox nəzərə çarpır.

2) 1880-1945-ci illər – sənayeləşmə dövrü kimi qəbul edilir. Bu dövrdə işçilər sosial sığorta qurumlarının himayəsi altında idilər.

3) 1945-1975-ci illər – rifah dövlətinin qızıl dövrü, rifah dövrüdür. Bu dönəmdə sosial sığortalara əlavə olaraq rifah dövlətinin funksiyalarının və qurumlarının genişləndiyi, gəlirin davamlılığını saxlamaq və yaşayış standartlarının yüksəldilməsinin məqsədə çevrilməsi nəzərə çarpır.

4) 1975-ci ildən sonrakı dövr – sosial rifah dövlətinin, tədrici tənəzzülü və böhran dövrüdür. Bu dövrdə sosial rifah dövləti yeni mahiyyət kəsb etməyə başlayır.[32]

S.V.Kalaşnikov XX əsrin 90-cı illərindən sonrakı dövrü sosial dövlətin yeni inkişaf mərhələsi kimi müəyyən edir və bu mərhələni *liberal sosial dövlətin* yaranması kimi şərh edir. Belə ki, məhz bu dövrdə liberal ideyalar genişlənməyə və dövlətin sosial rolu

---

[32]Zafer Durdu. Modern devletin dönüşümünde bir ara dönem: sosyal refah devleti. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009 Sayı 22, s.38-50

gücləndirməyə, cəmiyyət tərəfindən sosial siyasətin səmərəliliyinin artırılması tələbləri səsləndirilməyə, sosial dövlət haqqında yeni təsəvvürlər formalaşmağa başladı.[33]

Qeyd edə bilərik ki, sosial dövlət – müasir sivilizasiyanın ayrılmaz hissəsidir, bir çox dünya dövlətləri onun yaradılması, yaxud təkmilləşdirilməsi yolu ilə gedirlər.[34]

Bir çox müəlliflər qeyd edirlər ki, təmiz formalı sosial dövlət yoxdur. Sosial dövlət klassik əsaslarda inkişaf edən, lakin daha çox sosial siyasətə diqqət ayıran hüquqi dövlətdir.[35] Hüquqi dövlətin mahiyyətini dərk etmək üçün ilk növbədə hüquqi və sosial dövlətin müqayisəli təhlili vacibdir. Hüquqi dövlətin yaranması bəşəriyyətin mühüm nailiyyətlərindən biridir və insanın vətəndaş və siyasi hüquqları haqqında qanunların inkişafı ilə bağlı olmuşdur. Bu gün hər bir hüquqi dövlət sosial və hər bir sosial dövlət hüquqi əsaslara malikdir. Birlikdə onlar sosial hüquqi dövlətdir. Onları yalnız mücərrəd formada ayırmaq olar. V.İ.Oseyçukun fikrincə, demokratik hüquqi sosial dövlət milli ərazi və siyasi hüquqi təşkilat kimi insanların əsas hüquq və azadlıqlarının reallaşdırılması üçün konstitusion, iqtisadi, sosial, mənəvi şərait yaradır.[36]

*Müasir sosial hüquqi dövlət* – cəmiyyətə xidmət edən, sosial fərqləri minimuma endirməyə çalışan və bu əsasda da cəmiyyətdə sosial sabitliyə nail olan dövlətdir. Sosial hüquqi dövlət konstitusiya əsasında idarə olunur, burada ictimai həyata nəzarət edən inkişaf etmiş hüquq sistemi mövcuddur və əhalinin hüquqi sosial müdafiəsi təmin edilir.[37]

Qeyd etmək olar ki, müasir dövlətlərin hər birinin konstitusiyasında sosial siyasətlə bağlı maddələr mövcuddur, lakin bu heç də həmin dövlətin sosial olması demək deyil.Belə ki, həmin

---

[33] Калашников С.В. "Очерк теории социального государства". М., 2006. С. 67-68

[34] Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель. – Социально-гуманитарные знания (М.), 2000, № 2

[35] И. В. Леонов, Социальное государство как предмет теоретико-правового исследования : дис. … канд юрид. наук. – М., 2006. – С. 73

[36] В. И. Осейчук, Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : автореф. … дис. д-ра юрид. наук. – Тюмень, 2009. – С. 22

[37]Европейская модель социальной экономики - econominfo.ru

maddələrin hansı səviyyədə həyata keçirilməsi, insan hüquq və azadlıqlarının, layiqli həyat şəraitinin təmin edilməsi, dövlətin insan və onun rifahı naminə mövcud olması sosial dövlətin əsas ideyası və şərti kimi çıxış edir. Qeyd etmək olar ki, sosial dövlətlə bağlı fərqli yanaşmalardan istifadə edən müəlliflər bir məsələdə ümumi fikrə malikdirlər: sosial dövlət fərdin maraqlarına xidmət etməli, onu yüksək dəyərləndirməli onun rifahının təmin edilməsini ali məqsədə çevirməlidir.[38] Beləliklə, müasir cəmiyyət hüquqi vətəndaş cəmiyyəti kimi qəbul edilir. Müasir elmi ədəbiyyatda vətəndaş cəmiyyəti "bərabərhüquqlu, öz şəxsiyyətini azad ifadə edə bilən, əlavə qadağalardan və üzücü inzibati məhdudiyyətlərdən azad insanların cəmiyyəti kimi xarakterizə olunur".[39] Hüquqi vətəndaş cəmiyyətinin əsas xüsusiyyəti onun hüquqa əsaslanmasıdır, burada əsas məqsəd vətəndaşların maraqlarının məqsədəuyğun şəkildə təmin edilməsi ilə bağlıdır. Uyğun olaraq, hüquqi vətəndaş cəmiyyəti elə münasibətlər sistemidir ki, burada bərabərhüquqlu fərdlər və onların yaratdıqları birliklər hüquqi əsaslarda öz maraqlarını reallaşdırırlar. Hüquqi vətəndaş cəmiyyətində şəxsiyyətin həyatının bütün sahələrində və ilk növbədə iqtisadi sahədə onun azad iradəsi, fəaliyyəti və şəxsi maraqları reallaşır.Hüquqi vətəndaş cəmiyyətinin formalaşması sosial hüquqi dövlətin yaradılmasının əsas şərtidir. Bu iki proses qarşılıqlı əlaqəli və qarşılıqlı asılıdır. Məhz sosial hüquqi dövlətin formalaşdırılması hüquqi vətəndaş cəmiyyətinin əsası kimi çıxış edir.[40] Bu baxımdan hüquqi vətəndaş cəmiyyətini sosial hüquqi dövlətin alternativi kimi qəbul etmək olar. Digər tərəfdən sosial hüquqi dövlət və hüquqi vətəndaş cəmiyyəti müxtəlif aspektlərdə təhlil edilə bilər, lakin onların qarşılıqlı münasibətləri xüsusi əhəmiyyət kəsb edir. Mahiyyətinə görə sosial hüquqi dövlət – hüquqi və siyasi

---

[38] Игольникова В А.Социальное правовое государство. Сравнительный анализ подходов к содержанию этого понятия на Западе и России. // Государственная власть и местное самоуправление. 2014. № 4. С. 3-5

[39]Теория государства и права /Под ред. М.Н. Марченко. М., 1996. С.230

[40]Дробязко, С.Г. Соотношение правового государства и правового гражданского общества / С.Г. Дробязко // Конституционно-правовые проблемы формирования социального правового государства : материалы Межд. науч.-практ. конф., 30–31 матра 2000 г. – Минск, 2000. – С. 386–390

institutların konstitusion sistemidir, real olaraq xalqların suveren hüquqlarını və insanın beynəlxalq səviyyədə qəbul edilən hüquqlarını, şəxsiyyətin və cəmiyyətin maraqlarını hüquqi əsaslarda təmin edir. Nəzərə almaq lazımdır ki, hüquq ümumi sosial tənzimləyici kimi şəxsiyyətin və cəmiyyətin maraqlarının ahəngdar uyğunluğuna yönəlir.[41]

Sosial hüquqi dövlətin yaranmasının əsas səbəblərindən biri də hüquqi dövlətin insanların hüquq və azadlıqlarını müdafiə etmək iqtidarında olmamasıdır. Bu yalnız böyük əksəriyyət təşkil edən işçi sinfin hüquqları ilə deyil, həm də mülkiyyətçi sinfin hüquqlarının müdafiə edilməməsi ilə bağlıdır.[42] Onu da nəzərə almaq lazımdır ki, sosial hüquqi dövlətin əsas vəzifələri və məqsədi real vətəndaş cəmiyyətinin sosial, iqtisadi və siyasi əsasları olan orta sinfin yaradılmasıdır.[43]

XXI əsrin əvvəllərində "sosial hüquqi dövlət" anlayışı ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz əksini tapmasa da, həm Qərbdə, həm də Şərqi Avropa ölkələrində, MDB və Rusiyada sosial hüquqi dövlət mövcuddur.

Sosial hüquqi dövlətin meydana çıxması səbəbləri aşağıdakılarla bağlıdır:

1.XX əsrin əvvəllərində Qərbin siyasi-hüquqi həyatında baş verən böhran;

2.XX əsrin əvvəllərində beynəlxalq hüquq və münasibətlərdə baş verən böhran, iki dünya müharibəsinin qarşısının alınmaması;

3. XX əsrin əvvəllərində bütün dünyanı əhatə edən böhran və depressiya;

---

[41]Yenə orada.

[42] Белов В.Г., Пищулин О.В. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009; 74 с.

[43]Дробязко, С.Г. Соотношение правового государства и правового гражданского общества / С.Г. Дробязко // Конституционно-правовые проблемы формирования социального правового государства : материалы Межд. науч.-практ. конф., 30–31 матра 2000 г. – Минск, 2000. – С. 386–390

4. Azad bazar iqtisadiyyatının və azad rəqabətin formalaşması nəticəsində sosial bərabərsizliyin genişlənməsi və iki düşmən sinfin yaranması;

5.Milli azadlıq hərəkatları və xalq üsyanlarının genişlənməsi və müstəmləkələrin dağılması;

6.Avropada və Asiyada milli demokratik və sosialist inqilabları nəticəsində dünya sosialist sisteminin yaranması.[44]

S.S.Alekseyev hüquqi və sosial dövlətin qarşılıqlı münasibətlərində münaqişəli vəziyyətin olduğunu göstərir. Belə ki, sosial dövlət ideyası azad rəqabətə əsaslanan bazar iqtisadiyyatı tələblərinə, demokratik dövlətçilik və hüquqi dövlətin qanunun aliliyi prinsipi isə demokratik cəmiyyətdə insan hüquqları ideyasına ziddir. Sosial hüquqi dövlətdə hüquqi və sosial əsaslar ziddiyyət təşkil edir, daha dəqiq desək, dialektik ziddiyyətə malikdir, ilk növbədə ona görə ki, bu əsaslar sadə məkan ardıcıllığına deyil, dinamik münasibətlərə malikdir.[45]

Bu günkü Qərb cəmiyyəti və onun sosial hüquqi dövləti kapitalizm cəmiyyəti deyil, burada sosializm meylləri də mövcuddur. Bununla yanaşı sosial-hüquqi dövlətdə qarşılıqlı təsir, qarşılıqlı keçid, qarşılıqlı çevrilmə kimi hüquqi və sosial amillər arasında ziddiyyətlər yaranır. Bu, göstərir ki, mövcud ziddiyyətlər sosial dövlətin inkişaf mənbələri, onun özünühərəkət və yeni siyasi-hüquqi vəziyyət və formalara transformasiyası səbəbləri kimi çıxış edir. Hüquqi və sosial əsasların, yəni kapitalist və sosialist elementlərin daimi qarşılıqlı nüfuz etməsi və qarşılıqlı itələməsinə baxmayaraq, sosial hüquqi dövlət hüquqi (liberal) və sosial (kollektiv) istiqamətləri öz hüquqi və iqtisadi siyasəti ilə tənzimləyir.[46]

Sosial dövlətin formalaşması industrial və post-industrial cəmiyyətlərdə mövcud olan ictimai münasibətlərdə dövlətin sosial

---

[44] Белов В.Г., Пищулин О.В. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009; 74 с.

[45] Алексеев С.С. Право: азбука – теория – философия: опыт комплексногоисследования. – М.,1999. – 715с.

[46] Белов В.Г., Пищулин О.В. Социальное государство и гражданское общество. М: ФАЗИС, 2009; 74 с.

rolunun genişlənməsi ilə bağlıdır. Xüsusilə də ikinci dünya müharibəsindən sonra siyasi institut kimi dövlətin rolunun genişlənməsi, iqtisadi məkanın miqyasının dəyişməsi, inteqrativ, funksional təsnif olunmuş və rasional fəaliyyət göstərən sistemə çevrilməsi nəticəsində vətəndaşlar arasında əmlak bərabərsizliyi genişləndi, əhalinin sosial mövqeyi zəifləməyə, maddi vəziyyəti ağırlaşmağa başladı. Hüquqi dövlətin məhdudluğu yeni tipli sənaye ölkələrinin yaranmasına və inkişafına səbəb oldu. Belə bir şəraitdə sosial dövlət haqqında təsəvvürlər dəyişməyə, XX əsrin 70 – 80-cı illərində sosial dövlətin yeni konseptual əsasları formalaşmağa başladı.[47]

Hazırda sosial, yaxud sosial hüquqi dövlət üç səviyyədə mövcuddur:

- elmi, yəni ideya və konsepsiyalar səviyyəsində;
- normativ səviyyədə, yəni bir sıra ölkələrin əsas qanunlarında və konstitusiyalarında;
- empirik səviyyədə, yəni bir sıra sosial problemlərin həll edilməsilə bağlı dövlət institutlarının və sosial qrupların real fəaliyyətində.[48]

Sosial dövlət haqqında ideyalar Antik mütəfəkkirlərin bütün vətəndaşların ümumi rifahının təmin edilməsinə yönəlmiş ideal dövlət quruluşu haqqında fikirlərinə söykənir. Ümumilikdə sosial dövlət ideyasının altı inkişaf mərhələsi fərqləndirilir:

I mərhələ - XIX əsrin 70-ci illəri – XX əsrin 30-cu illərində sosialist dövləti ideyası;

II mərhələ - XX əsrin 30 – 40-cı illərində hüquqi sosial dövlət ideyası;

III mərhələ - XX əsrin 40 – 60-cı illərində sosial xidmətlər dövləti ideyası;

IV mərhələ - XX əsrin 50 – 80-cı illərində ümumi rifah dövləti ideyası;

---

[47] ШамоваЛ.Г. Социальное государство. История. Современность., «Россия: пут к социальному государству». Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.) , Москва, Научны эксперт, 2008, с.387-393

[48] Копташкин С. В. Социальное государство. Научные публикации КФ РГСУ © 2008. // http://kraspubl.ru/content/view/287/68/.

V mərhələ - XX əsrin 80 – 90-cı illərində ümumi rifah dövlətinin böhranı ideyası;

VI mərhələ - XX əsrin 90-cı illərindən hazırkı dövrə qədər liberal sosial dövlət ideyası.[49]

Ümumilikdə, sosial dövlət, yaxud rifah dövləti ilə bağlı tədqiqatlarda – "sosial dövlət" anlayışının mahiyyəti və bu anlayışın ayrı-ayrı istiqamətlərinin deformasiyası, həmçinin ayrı-arı mədəni tarixi şəraitlərdə inkişaf dinamikası nəzərdən keçirilir. Onu da qeyd emək lazımdır ki, artıq yüz ildən çox bir müddətdə formalaşan sosial dövlətin müəyyən edilməsi ilə bağlı ümumi qəbul edilmiş, konkret anlayış yoxdur.[50]

A.F.Xramtsov sosial dövləti "mühafizəkar, kompromisə gəlmiş mühafizəkar, sosialist və liberal siyasi qüvvələrin tarixi qarşıdurmasının nəticəsi kimi" izah edir.[51] Görkəmli rus alimi E.N.Naumovanın fikrincə, ümumi mənada sosial dövlət idarəçiliklə bağlı ümumi işləri nizamlayan ictimai institut kimi çıxış edir, dar mənada sosial dövlət şəxsiyyətin müəyyən tələbatlarının təmin edilməsi, onun statusu ilə bağlı formalaşan münasibətləri, digər insanlarla qarşılıqlı münasibətlərini nəzərdə tutur.[52] L.N.Koçetkovaya görə sosial dövlətin əsas məqsədi şəxsiyyətin şəxsi və ümumi müsəqilliyini təmin etməklə sinfi ziddiyyətlərin yumşaldılmasına, bazar iqtisadiyyatının sabitləşdirilməsinə yönəlir.Sosial dövlət hər bir vətəndaşın maddi həyat fəaliyyəti standartları ilə təmin edilməsinə zəmanət verməlidir.[53]

S.V.Kalaşnikov qeyd edir ki, "sosializmə xas prinsip və məqsədlərin sosial dövlətin atributları ilə üst-üstə düşməsi sosial

---

[49] КалашниковС.В. "Социальное государство:эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002

[50] Braun H., Niehaus M. Sozialstaat Bundesrepublik Deutchland auf dem Weg nach Europa. FrankfurtamMain; 1990. S 152.

[51] Храмцов А.Ф. Социальное государство: Россия и европейский опыт. Москва, изд.ИСПРАН, 2005, с.419

[52]Е. Н. Наумова, Социальное государство в России: проблемы теории и практики : дис. … канд. юрид. наук – Владимир, 2006. – С. 49

[53] В. И. Осейчук, Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : автореф. … дис. д-ра юрид. наук. – Тюмень, 2009. – С. 22

dövlətin və sosializm ideologiyasının sıx bağlı olduğunu göstərir. Öz mahiyyətinə görə sosial dövlət sosialist ideyaların reallaşdırılması kimi çıxış edir”.[54]S.S.Alekseyev isə sosial dövləti sosialist dövlətin analoqu kimi təqdim edərək, bu anlayışların mahiyyətcə çox yaxın olduqlarını vurğulayır.[55]

Bu mənada SSRİ sosialist ideyalarının reallaşdırılmasına yönəlmiş sosial dövlət kimi qəbul edilə bilər. SSRİ-nin sosialist, yaxud müəyyən mənada sosial dövlət tipi kimi ən yüksək inkişaf mərhələsi XX əsrin 70 – 80-ci illərinə təsadüf edir. Bu dövrdə dünyada sosialist dövlətləri qrupu mövcud idi və eyni zamanda SSRİ ilə rəqabət aparan Qərb ölkələrində çox sayda sosial yönlü dəyişikliklər aparılmışdır.

R.Qrinberqin qeyd etdiyi kimi: “Sovet dövləti əhalinin müdafiəsi sahəsində müəyyən nailiyyətlər əldə etmişdi: sosial yardım sistemində, işçilərin sosial sığortası, əmək və istirahət üçün şərait (geniş sanatoriyalar sistemi, istirahət evləri, profilaktorialar, pioner düşərgələri və s.)  yaradılmışdı və burada istirahət qismən, yaxud tam şəkildə dövlət tərəfindən ödənilirdi. Əhali pulsuz poliklinikalar, uşaq bağçaları, kitabxanalar və s. ilə təmin edilmişdi. SSRİ-də uşaq ölümü dünyada ən aşağı səviyyədə idi. Təəccüblüdür ki, bütün bunlar bazar iqtisadiyyatının olmadığı və demokratik azadlıqların məhdudlaşdırıldığı ölkədə baş vermişdir. SSRİ-də sosial dövlət cəmiyyətin maddi deyil, qeyri-maddi inkişafı, ilk növbədə marksizm ideoloji təmayülləri və həmin dövrə uyğun sosial siyasət əsasında qurulmuşdu”.[56]

Qeyd etməliyik ki, sosial sahədə böyük nailiyyətlər əldə edilsə də, zənnimizcə, müəyyən parametrlərə görə SSRİ tam sosial dövlət hesab oluna bilməz, belə ki, sosial dövlət açıq cəmiyyət dövlətidir, SSRİ-də qapalı cəmiyyət hökm sürürdü; sosial dövlət

---

[54] Калашников С.В. Функциональная теория социального государства М., 2006. с.65.

[55] 4 Алексеев С.С. Право: азбука – теория – философия: опыт комплексногоисследования. – М.,1999. – С. 683 – 685.

[56] Гринберг Р. Социальная справедливость и парадоксы становления социального государства в России. Жр. РОССИЯ СЕГОДНЯ И ЗАВТРА, № 10/2008, с.3

azad sahibkarlığın və sosial yönümlü bazar iqtisadiyyatının inkişaf etdiyi dövlətdir, lakin SSRİ planlı təsərrüfata əsaslanan iqtisadi sistemə malik idi; sosial dövlət bütün sahələrdə plüralizmin inkişaf etdiyi dövlətdir, SSRİ-də isə fikir azadlığına şərait yaradılmırdı və s.

Bu mənada, H.Braun və M.Niehaus sosial dövlətin əsas əlamətlərini aşağıdakı kimi təsnif edirlər:

1.“Sosial rifah dövləti ideyası yalnız sosial təminatın təyin edilməsi ilə bağlı deyil, həm də bunu daha yaxşı səviyyədə və xüsusilə də hər bir vətəndaşa sosial təminat imkanlarının təqdim edilməsi ilə bağlıdır”;

2.Mərkəzləşmiş şəkildə tənzimlənən və yüksək təşkil edilmiş qayğıya söykənən mövcudluq, sosial ədalətə uyğun olaraq dəyişmiş iqtisadi liberalizm təsərrüfat sisteminin və müasir demokratiyanın ilkin ictimai reallığı kimi bütün həyat şəraitlərində bütün vətəndaşlara qayğı və xidmət göstərilməsi[57].

Müasir sosial dövlətin yaradılması üçün bir sıra şərtlərin həyata keçirilməsi tələb olunur:

1.Sosial dövlətin yaradılması hüquqi dövlətin növbəti mərhələsi olmalıdır;

2.Orta təbəqə inkişaf etdirilməlidir;

3.Güclü iqtisadi potensial olmalıdır;

4.İnhisarçılığın qarşısı alınmalıdır;

5.Yetkin vətəndaş cəmiyyəti qurulmalıdır;

6.Cəmiyyətin mənəvi səviyyəsi yüksəldilməli, sosial ədalət və bərabərlik təmin edilməlidir.[58]

Son dövrlərdə bir çox müəlliflər sosial dövlətin əsas əlaməti kimi vətəndaş cəmiyyəti institutlarının olmasını qeyd edirlər.[59]

---

[57] Braun H., Niehaus M. Sozialstaat Bundesrepublik Deutchland auf dem Weg nach Europa. FrankfurtamMain; 1990. S 152.

[58] Каменецкий В.А. Проблемы становления социального государства / В.А. Каменецкий, В.П. Патрикеев. – М. : АТиСО, 2001.

[59] Наклонов Д.Н., Шевцова Т.В. Социальное государство в современном мире. – СПб., С.-Пб. Гос. Ун-т экономики и финансов, 1999; Резник Ю. М. Гражданское общество как феномен цивилизации. М., 1993; Роик В.Д. Социальное государство и гражданское общество. – В ж.: Человек и труд, № 11, 1996.

E.A.Lukaşovaya görə, sosial dövlət bilavasitə beynəlxalq hüquqi sənədlərdə öz əksini tapan qanunlarla bağlıdır və bu qanunlar ayrı-ayrı dövlətlərin konstitusiyalarında öz təsdiqini tapır.[60]

V.Q.Belov əmindir ki, “özünü sosial elan etmiş dövlət yüksək yaşayış minimumu, sosial bərabərlik, güvənli sosial təminat və sosial müdafiə, daim yüksələn rifaha təminat verməlidir, yəni öz həcminə və mahiyyətinə görə iri miqyaslı sosial məqsədləri həyata keçirməlidir. Sosial dövlət vətəndaşların mənəvi, mədəni inkişafına yönəlməlidir. O, xeyirxahlıq, inam, humanizm, vətənpərvərlik və mərhəmət ideallarına bağlı olan şəxsiyyətin formalaşmasına çalışmalıdır. Sosial dövlət azadlıq ilə hakimiyyətin şəxsiyyətin rifahı və cəmiyyətin inkişafı məqsədilə birləşməsinə, əmək məhsullarının bölgüsündə sosial ədalət və həmrəyliyin təmin edilməsinə yönəlməlidir. Bu zaman sosial ədalət və sosial həmrəylik dedikdə, nəsillərin və təbəqələrin həmrəy məsuliyyəti – varlıların kasıbların əvəzinə, sağlamların xəstələrə ödəniş etməsi; qadın və kişilərin bərabər hüquqlarının və imkanlarının (gender bərabərliyi) təmin edilməsi nəzərdə tutulur. *Sosial dövlətin əsas məqsədi* – cəmiyyət üzvlərinin daim artan maddi və mənəvi tələbatlarının maksimum təmin edilməsi, ardıcıl olaraq əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial qeyri-bərabərliyin aşağı salınması, əsas sosial nemətlərin və ilk növbədə keyfiyyətli təhsil, tibbi və sosial xidmətlərin hamı tərəfindən əldə edilməsi imkanlarının təmin edilməsidir”.[61]

S.V.Kalaşnikova görə sosial dövlətin əsas əlamətlərindən biri bütün insanların şəxsiyyət kimi bərabərliyi, “dövlət – cəmiyyət” əvəzinə “şəxsiyyət – dövlət” dixotomiyasının hakimliyi ilə bağlıdır, dövlətin əsas məqsədi isə iqtisadi və sosial tərəqqidir.[62]

O.E.Bessonovaya görə, sosial dövlət dedikdə, demokratik əsaslarda qurulan ictimai sistem nəzərdə tutulur, bu zaman iqtisadi

---

[60] Осейчук В.И., Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : автореф. … дис. д-ра юрид. наук. – Тюмень, 2009. – С. 22

[61] Белов В.Г. “Социальное государство и гражданское общество”.М., 2009

[62] Кочеткова Л.Н. Философский дискурсо социальном государстве. М., ИНФРА-М, 2012, 216с.

səmərəlilik sosial ədalət prinsipi ilə tarazlıqda olur, effektiv institusional matrisa belə bir harmoniyanın əsası kimi çıxış edir və ölkənin insan potensialının tam istifadə edilməsinə və genişləndirilməsinə imkan yaradır.[63]

Haydar Baş əmindir ki, sosial dövlət o zaman uğurlu ola bilər ki, o, həm də milli dövlət olsun. Burada müəllif "milli dövlət" deyərkən, "təməlini millətlərin tarixindəki dəyərlərdən alan, başqa ölkələri təqlid etməkdən uzaq olan və müasir mədəni səviyyəyə istiqamətlənərək, bütün digər ölkələrlə rəqabət apara bilən, bütün dünyaya açıq olan, lakin heç bir qüvvəyə ehtiyac hiss etmədən inkişaf edə bilən, yüksəliş üçün yalnız öz mənbələrindən istifadə edən, milli iqtisadi modelə malik olan, dövləti millətinə görə quran, vətəndaşlarına xidmət edərək sosial müdafiəni və sosial xidməti özünün əsas məqsədinə çevirən, vətəndaşlarının insan hüquqlarını və azadlıqlarını təmin edən, ədalət, bərabərlik və hüquqa söykənən bir dövlət" nəzərdə tutur. Əslində bu fikirlər sosial dövlətin inkişaf prinsiplərini əks etdirir. Müəllifə görə, "sosial dövlət olmaq, dövlətin öz vətəndaşlarına ehtiram göstərməsi demək deyil, onun varlığının zərurəti və vəzifəsidir". Heydər Baş qeyd edir ki, "milli dövlətin şərh etdiyi sosial dövlətin üç əsası vardır: sosial müdafiə, sosial xidmət və sosial dəstək".[64]Bu fikirlərdən çıxış edərək, deyə bilərik ki, özlərini sosial dövlət elan edən inkişaf etmiş ölkələrin idarəçiliyində, sosial siyasətində ümumi mahiyyət əhalinin rifah halının yüksəldilməsi ilə bağlı olsa da, onların fərqli tərəfləri məhz qeyd edilən "milli dövlət" ənənələrini nəzərə alan sosial tərəqqi ilə bağlıdır.

Hazırda sosial dövlət konsepsiyasının "inkişaf edən dövlət" konsepsiyası ilə əvəz edilməsi fikirləri də irəli sürülür.[65] Bu zaman insan kapitalının inkişafı əsas məqsəd kimi müəyyənləşdirilir.

---

[63]БессоноваО.Э. Сущность социального государства в контексте общей теории институциональных трансформаций // Россия: путь к социальному государству : Материалы Всероссийской научной конференции (Москва, 6 июня 2008 г.). - М. : Научный эксперт, 2008. - С. 249-263.

[64] Prof.dr. Haydar Baş. "Sosyal devlet Milli devlet". Yayınevi: İctimai Yayıncılık Reklamcılık San.Tic.Ltd.Şti., İstanbul, 2007, 27, 135-136

[65]Геец В.М., Какое будущее у социального государства?"Экономика Украины". 2013, № 7 (612), s.13

BMT-nin 2016-cı il "İnsan İnkişafı Haqqındakı Məruzə"sində qeyd edilir ki, bu konsepsiyanın əsasları "hər bir şəxsin inkişafına" yönəlmə kimi müəyyən edilir. Burada hər bir kəs üçün insan inkişafının əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

1.Kollektiv imkanlar (bütünlükdə qrup üçün əlverişsiz şəraitlər kollektiv fəaliyyət, qrupların gücləndirilməsi əsasında daha yaxşı həll edilə bilər);

2.Dayanıqlı inkişaf (bu sosial ədalət məsələsidir, beynəlxalq ədaləti – nəsillərin bu günkü və gələcək azadlığını nəzərdə tutur);

3.Səs və muxtariyyət (həm ikisi də inkişafın sonu deməkdir, həm də onlar arxada qalanların gücləndirilməsi üçün əsasdır);

4.İnsan hüquqları (arxada qalanların gücləndirilməsi üçün vasitə axtarılması və hökumətlərin hesaba alınması üçün güclü alətdir);

5.İnsan təhlükəsizliyi (əlverişsiz şəraitdə və mariginal olanların himayə edilməsinə yardım etmək. ).[66]

Beləliklə, sosial dövlətin nəzəri əsaslarının araşdırılmasına əsasən deyə bilərik ki:

I. Sosial dövlət ideyası XIX əsrdə formalaşsa da, XX əsrin birinci yarısında hüquqi əsaslarda təsdiqlənmiş, XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən reallaşmağa başlamışdır.

II. Müasir sosial dövlətlər əsasən əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı inkişaf prinsiplərini ehtiva edən sosial siyasət həyata keçirir. Bu sosial siyasət dövlət – cəmiyyət – vətəndaş münasibətlərində sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu əsasda əhalinin sosial müdafiəsini və sosial təminatını nəzərdə tutur.

III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına yönəlir və burada heç bir sosial qeyri-bərabərliyə - etnik, mədəni, dini, cinsi, siyasi və digər

---

[66] Human development report 2016. Human development for everyone © Copyright 2017 Hdro by the United Nations Development Programme. 1 UN Plaza, New York, NY 10017, USA.

ayrıseçkiliyinə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni sahələrdə bərabər iştiraka cəlb edilirlər.

Beləliklə, sosial dövlətin nəzəri əsaslarının araşdırılmasına əsasən deyə bilərik ki:

I. Sosial dövlət ideyası XIX əsrdə formalaşsa da, XX əsrin birinci yarısında hüquqi əsaslarda təsdiqlənmiş, XX əsrin sonu və XXI əsrin əvvəllərindən etibarən reallaşmağa başlamışdır.

II. Müasir sosial dövlətlər əsasən əhalinin sosial rifahının yaxşılaşdırılması ilə bağlı inkişaf prinsiplərini ehtiva edən sosial siyasət həyata keçirir. Bu sosial siyasət dövlət – cəmiyyət – vətəndaş münasibətlərində sosial ədalətin, sosial əməkdaşlığın, sosial məsuliyyətin, sosial həmrəyliyin bərqərar olmasını və bu əsasda əhalinin sosial müdafiəsini və sosial təminatını nəzərdə tutur.

III. Sosial dövlətin inkişaf strategiyası fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə yönəlir. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına yönəlir və burada heç bir sosial qeyri-bərabərliyə - etnik, mədəni, dini, cinsi, siyasi və digər ayrıseçkiliyinə yol verilmir, vətəndaşlar sosial, siyasi, iqtisadi, mənəvi və mədəni sahələrdə bərabər iştiraka cəlb edilirlər.

## 1.2 Sosial dövlət konsepsiyasının inkişaf istiqamətləri

Hələ antik dövrdə dövlətin öz vətəndaşlarının rifahı naminə funksiyalaşması ideyası mövcud olub və sosial dövlət haqqında ideyalar Antik mütəfəkkirlərin bütün vətəndaşların ümumi rifahının təmin edilməsinə yönəlmiş ideal dövlət quruluşu haqqında fikirlərinə söykənir. Sokrat, Politik, Kriti, Protaqor, Qriqori və digərlərinin tədqiqatlarında siyasi-hüquqi mövzu izlənilir.

Qədim Yunanstanda Platonun “Dövlət”, yaxud “Qanunlar”, həmçinin Aristotelin “Siyasət” əsərlərində ayrı-ayrı ictimai institutlar (dövlət, ailə, hüquq) araşdırılırdı. Onlar ilk dəfə olaraq insan və cəmiyyətin rifahı ilə bağlı konsepsiya irəli sürür və cəmiyyətin adət-ənənələrini öyrənərək onun təkmilləşdirilməsi ilə

bağlı təkliflər verirdilər, dövlətin öz vətəndaşlarının qayğısına qalması fikrini inkişaf etdirirdilər. Dövlətin və hüququn fəlsəfəsi ilə bağlı nəzəri araşdırmaların ilk müəlliflərindən olan Platon "Dövlət" əsərində hüquqi dövləti, "Qanun" əsərdə isə düzgün qanunvericiliyə əsaslanan maksimum ideal dövləti təsvir edir. Bir çoxları belə hesab edirlər ki, ideal cəmiyyətdə hər bir insanın tələbatlarının maksimum dərəcədə təmin edilməsi digər insanların arzuları ilə ziddiyyət təşkil edə bilər. Platon özünün "Dövlət" əsərində göstərirdi ki, düzgün dövlət elmin köməyilə qurula bilər. Bu zaman sosial problemlər tənqidi analiz edilməli, dövlətin təkmilləşdirilməsi üçün təkliflər verilməlidir. O, qeyd edirdi ki, ideal dövlət "ayrı-ayrı adamları, hissələri ilə deyil, bütövlükdə xoşbəxt olan dövlətdir", belə bir dövlətdə "hər bir hakimiyyət öz təbəələrinin rifah halını diqqətdə saxlamalı", "həqiqi hökmdar isə özü üçün deyil, öz təbəələri üçün uyğun olanı nəzərdə tutmalıdır". Platon ideal dövlətin dörd əsasını fərqləndirirdi: "müdriklik, cəsarətlilik, məntiqilik və ədalətlilik".[67]

Platona görə, bütün tələbatlar maddi həyatdakı bu və ya digər məqsədlərə nail olmağa yönəlib, ideal dövlətdə hər kəs daha yaxşı bacardığı işlə məşğul olmalı, ruhi tələbatlarına uyğun olan mövqedə olmalıdır. Platon ideal dövlətin funksiyalaşması ilə bağlı iki əsas prinsipi fərqləndirir:

1.Vətəndaşın bacarıqlarının tutduğu mövqeyə uyğun olması və onun qanun və sərəncamlara tam tabe olması;

2. Hər bir insanın mövqeyi və qanunlar filosoflar tərəfindən müəyyən edilməlidir.

Belə bir dövlətdə həyat tam olaraq qanunlarla tənzimlənir. Qanunları yalnız yerli xüsusiyyətləri və əhalinin maraqlarını nəzərə alan filosoflar verə bilərlər. Paltonun fikrincə, vətəndaşların "maraqları" bu və ya digər insanın arzuları deyil, onun ruhu üçün əhəmiyyətli olandır. Platona görə, ruh üçün əhəmiyyətli olan hər şey orta mövqe ilə bağlıdır. "Qanun" əsərində təsvir edilən dövlət qarışıq dövlət formasıdır və burada monarxiya ilə demokratiya

---

[67]Платон. Сочинения в четырех томах. Т. 3. Ч. 1 / Подобщ. ред. А.Ф.Лосева и В. Ф. Асмуса; Пер. с древне-греч. — СПб.: Изд-во С.-Петерб. ун-та; ≪Изд-во ОлегаАбышко≫, 2007, s.224, 228, 235

quruluşlarının əsas elementləri öz əksini tapıb.[68] Beləliklə, "nə demokratiya, nə də oliqarxiya olmayan bu dövlət quruluşu onların aralığında olub, politeya adlanır. Politeya dövlət vəzifələrinin və xüsusilə də ali hakimiyyətin təşkili ilə bağlı quruluşdur. Vətəndaşların bərabər hüquqları və sosial bərabərliyi əsasında qurulan dövlətdə növbə ilə idarə etmək iddiası yaranır. ...Yalnız ümumi xeyri nəzərə alan dövlət quruluşu düzgündür, ancaq idarə edənlərin rifahını düşünən dövlət quruluşu səhvdir. ...Ədalət dövlətin əsas göstəricisi olub, ümumi xeyrə xidmət edir. Müəyyən mənada ədalət bərabərlikdir".[69]

Aristotel qeyd edirdi ki, "dövlət sadəcə yaşamaq üçün deyil, firavan yaşamaq üçün yaradılır".[70] Aristotelə görə ayrılıqda hər bir insanın xoşbəxtliyi, həm də dövlətin xoşbəxtliyi deməkdir və xoşbəxtlik anlayışı insanların onu nədə görməsindən çox asılıdır. Beləliklə, Aristotel vurğulayırdı ki, dövlət yalnız yaşamaq naminə deyil, həm də xoşbəxt yaşamaq naminə qurulur. Onun fikrincə, cəmiyyət "orta insanlardan" təşkil edildikdə, yaxud cəmiyyətdə gəlir səviyyəsi orta olan insanlar çox olduqda sabitlik yarana bilər.[71]

Orta əsrlərdə yaşamış görkəmli mütəfəkkir Nikolo Makiavelli (1469 - 1527) dövlətin iş prinsipi haqqında nəzəriyyəsini yaratmışdı. Onun nəzəriyyəsi daha çox dövlət birliklərinin daxili sabitliyinə, xarici ekspansiyasına və davamlılığına əsaslanırdı. Makiavelliyə görə nə cəmiyyətin xoşbəxtliyi, nə yaxşı həyat, nə də ki, din siyasət haqqında aparıcı təsəvvür yaradır. Makiavelli üçün respublika "bütün digər formalardan yüksəkdədir, çünki, o, ən böyük özünü təsdiqetmə keyfiyyətidir, onun hakim təşkilatı və əxlaqi siması onun maksimum uzunömürlü olacağını təmin edir,

---

[68] ШвецА. Платон об идеальном государстве. Публикуется в эл.журнале «ЗОВУ РИТМ», ноябрь-декабрь 2010г.

[69]Платон. Сочинения в четырех томах. Т. 3. Ч. 1 / Подобщ. ред. А.Ф.Лосева и В. Ф. Асмуса; Пер. с древне-греч. — СПб.: Изд-во С.-Петерб. ун-та; ≪Изд-во ОлегаАбышко≫, 2007, s.141-156

[70] Волков Ю.Е. Сущность, основа и главные черты социального государ-ства / Ю.Е. Волков // Теоретико-методологические основы социологического анализа общественных систем и процессов. – М. : Совет. спорт, 2001. – 360 с.

[71]Аристотель. Политика // Аристотель. Сочинения: В 4 т. М.: «Мысль», 1983. Т. 4. – С. 376–644. Перевод с древне-греч. С.Жебелева.

həm də ona görə ki, respublika keyfiyyəti təsadüfü taleyə qarşı ən uğurlu və enerjili rəqibdir”.[72] “İşğal edilmiş dövlət azad yaşayır və öz qanunlarına malik olur, ...onu qoruyub saxlamaq üçün üç üsul mövcuddur. Birincisi – dağıtmaq, ikincisi – orada yaşamaq üçün məskunlaşmaq, üçüncüsü – həmin ərazinin vətəndaşlarına öz qanunları ilə yaşamaq imkanı yaratmaq... ...əgər öz qanunları ilə yaşamağa adət etmiş dövləti dağıtmaq istəmirsənsə, onu öz vətəndaşları vasitəsilə idarə etmək daha asandır”. [73] Beləliklə, Makiavelli dövlətinin məqsədi vətəndaş fəzilətinin yetişdirilməsi və güclü vətəndaş dövlətinin yaradılmasıdır. Makiavelliyə görə nizam-intizam və təhlükəsizlik dövlətin ən ali məqsədidir. Bununla da Makiavelli vətəndaş dövləti nəzəriyyəsinin əsasını qoydu.[74]

İdeal dövlət quruluşu haqqında ideyalar sonradan orta əsr utopistlərinin əsərlərində inkişaf etdirilir. Bu sırada Tomas Morun (1478-1535) “Utopiya” əsərini qeyd etmək olar. Müəllif ideal şəhər əhalisi arasındakı münasibətləri şərh edərkən göstərir ki, bu “şəhər çox zaman qohumluq əsasında qurulur. Şəhər əhalisinin sayı artdıqda ayrı-ayrı şəhərlərdən insanları toplayaraq koloniyalar yaradırlar. Utopistlər hər hansı bir xalq məskunlaşdığı ərazini istifadə etmədikdə onlarla müharibəyə başlamağı ədalətli səbəb hesab edirlər. Əgər şəhər dövlətdə bədbəxt hadisə nəticəsində əhalinin sayı azalarsa, buraya digər koloniyalardan əhali köçürülür”. Tomas Morun şəhərində iyerarxik idarəçilik hakimdir, burada “kiçiklər böyüklərə tabedirlər”. Utopiyada insanlar puldan istifadə etmirlər, onlar ancaq lazım olan qədər maddi sərvətlər istifadə edirlər, yığıb saxlamaq üçün sərvət toplanılmır və buna görə də burada sosial bərabərlik hökm srürür. Tomas Morun “Utopiya”sında cəmiyyət öz sağlamlığına xüsusi diqqət yetirir, burada “pul hərisliyi” olmadığı üçün əhali natəmiz qidanın gətirilməsinə və istifadəsinə imkan vermir. Utopiyada sosial həmrəylik və sosial yardım geniş yayılıb, burada “hər bir həyətdə

---

[72] Əliyev N.Q. Nikkolo Makiavellinin dövlət konsepsiyası və müasirlik.Bakı, AzTU-nun mətbəəsi, 2012, s.64-65, 104, 107, 109

[73] Макиавелли Н. Государь. М.: Планета, 1990

[74]Əliyev N.Q. Nikkolo Makiavellinin dövlət konsepsiyası və müasirlik.Bakı, AzTU-nun mətbəəsi, 2012, s.64-65, 104, 107, 109

30 ailə nahar etməlidir. Bu zaman xəstələr ilk olaraq diqqətə alınır. Şəhərdəki xəstəxanalar çox gözəl təchiz edilib, burada xəstələrə yüksək xidmət göstərilir. Şəhərdə çirkli və daha çox zəhmət tələb edən işləri qullar yerinə yetirirlər. Bu şəhərdə nəsillər arası münasibətlər xüsusi əhəmiyyət kəsb edir".[75]

Tomazo Kampanella (1568 - 1639) "Günəş şəhəri" adlı əsərində ideal dövlətin əsaslarını təsvir etməyə çalışır. Müəllifin Günəş şəhərində bütün işlər hamı arasında bölüşdürülür və burada insanlar 4 saatdan artıq işləmirlər, asudə vaxtlarında elmi biliklər əldə edirlər, müzakirələr aparırlar, kitab oxuyurlar, gəzintilərdə olurlar, öz əqli və fiziki bacarıqlarını inkişaf etdirirlər və bütün bu işləri böyük sevinclə həyata keçirirlər. Günəş şəhərinin sakinləri əmindirlər ki, həddən artıq kasıblıq insanları hiyləğər, quldur edir, cəmiyyətdən uzaqlaşdırır, onlar yalançı şahidlərə çevrilirlər və s., zənginlik isə insanları təkəbbürlü, lovğa, dəyişkən və s. edir. İcma isə insanları eyni zamanda həm varlı, həm də kasıb edir. Belə ki, insanlar üçün icmada hər bir şey ümumidir. Ayrı-ayrı şəxslərin mülkiyyəti yoxdur və buranın əhalisi kasıbdır. İcmada insanlar əşyalara deyil, əşyalar insanlara xidmət edirlər. Bu şəhərdə qadın və kişilər də bərabər hüquqlara malikdirlər, Spartada və amazonkalarda olduğu kimi qadınlar kişilərlə yanaşı hərbi təlim keçirlər. Şəhər sakinləri başqa ərazilərə hücum etmirlər, lakin onların üzərinə hücum edilməsinə də razı olmurlar və ciddi müqavimət göstərirlər. Günəş şəhərinin sakinləri əmindirlər ki, nə vaxtsa bütün dünya xalqları onların modeli ilə yaşayacaqlar. Onların dövlət idarəçiliyi də demokratik əsaslarda qurulub, belə ki, 12 yaşından başlayaraq hər kəs dövlət idarəçiliyinə daxildir və hər kəs sərbəst şəkildə mövcud çatışmazlıqlar haqqında fikrini bildirə bilər. Hər səkkizinci gün ali vəzifəli insanlar və onunla birgə Qüvvə, Müdriklik, Məhəbbət toplaşırlar. Burada Qüvvə - hərbi iş, Müdriklik – elm, Məhəbbət – iqtisadi və demoqrafik problemləri ifadə edir. Onlar hər gün seçkilərdə qoyulan məsələlərin həyata keçirilməsi səviyyəsini müzakirə edirlər. Vəzifəli insanlar xalqın iradəsi ilə dəyişirlər. Lakin qeyd edilən əsas dörd idarəçi daimi

[75] Томас Мор. УтопияГ. Кудрявцев. Утопия: Academia; 1935, s.104-112

seçilirlər və onlar o qədər ağıllı və düzgün insanadırlar ki, hər bir halda müdriklərə güzəştə gedirlər. Günəş şəhərində ölüm hökmü ancaq xalqın razılığı ilə həyata keçirilə bilər. Dövlət müstəqilliyinə, yaxud Allaha, ali hakimiyyətə qarşı cinayət törədilərsə, ölüm hökmü ləngimədən həyata keçirilir.[76]

Yakob Burkhardtın qeyd etdiyi kimi, "bu dövr dövlətlərində ilk dəfə olaraq, şəxsi maraqları ilə bağlı olan, öz qorxulu eqoizmini nümayiş etdirən, özünü hüquqdan üstün tutan, hər cür sağlam başlanğıcı boğan müasir Avropa dövlətlərinin ruhu hiss olunur. Lakin bu meylin qarşısının alındığı ərazilərdə yeni bir şey meydana çıxır: dövlət hesablanmış və əvvəlcədən düşünülmüş varlıq, incəsənət əsəri kimi qəbul edilir".[77]

Etyen Kabe (1788 - 1856) "İkariyaya səyahət" adlı utopik əsərində bu ölkənin ictimai quruluşunun əsas prinsiplərini təsvir etməyə çalışır. "İkariyalılar tam əmindirlər ki, təşkilat və bərabərlik olmadan xoşbəxtlik mövcud deyil. İkariyalıların yaratdıqları dövlət tam bərabərliyə əsaslanır. Təşkilat üzvləri bütün çətinlikləri və nemətləri bərabər bölüşürlər. Qardaşlıq bəndləri ilə bağlı olan ikariyalılar bir ailəni təşkil edirlər". İkariyalıların əraziləri, onun yeraltı və yerüstü ehtiyatları ümumi ictimai mülkiyyətdir. Daşınan və daşınmaz əmlak ictimai kapital hesab edilir və xalqa məxsusdur və xalq tərəfindən idarə edilir. İctimai kapital bütün maddi nemətlərin bərabər bölüşdürülməsinə imkan verir. İkariya respublika quruluşuna malikdir və bütün mülkiyyət cəmiyyətə, yaxud respublikaya məxsusdur. Burada tərbiyə cəmiyyətin əsası hesab edildiyi üçün bütün uşaqlar bərabər təhsil alırlar.

İkariyada bərabərhüquqlu vətəndaşlar hakimiyyət seçkilərində iştirak edə, seçə və seçilə bilərlər, xalq suverendir, dövlət konstitusiya əsasında idarə edilir. Bütün dövlət işçiləri seçilirlər, Xalq nümayəndəliyi 2 min deputatdan təşkil edilir. Prezidentdən və 15 digər üzvdən ibrət olan İcraedici hökumət Xalq nümayəndəliyinə tabedir və tərkibi hər il yenilənir. Ölkə 100 əyalətə, hər bir əyalət

---

76 Томмазо Кампанелла. Город Солнца. http://bookz.ru/authors/kampanella-tommazo/suntown/1-suntown.html

77 Баренбойм П., Захаров А. Флорентийская утопия:государство как произведение искусства. Москва, ЛУМ., 2012

isə min kommunaya bölünüb. Hər bir əyalət və hər bir kommuna özünə aid olan problemlə məşğul olur. Cəmiyyətdə baş verən hər bir hadisə ümumxalq müzakirəyə çıxarılır. İkariyanın dövlət quruluşu demokratik respublika kimi xarakterizə edilir.[78]

Yeni dövr müəllifləri dövlətin öz vətəndaşları qarşısındakı öhdəliklərinə xüsusi diqqət yetirirdilər və ədaləti zəruri sosial və mənəvi dəyər hesab edirdilər.

Alman filosofu İ.Fixtenin (1762 – 1814) "Qapalı ticarət dövləti" konsepsiyasında dövlətin öz vətəndaşlarının sosial tələbatlarının təmin edilməsində maksimum iştirak etməsi fikri inkişaf etdirilirdi.[79] Alman mütəfəkkiri V.Fon Qumbolt (1769 - 1859) dövlətin hüquqi funksiyalarını cəmiyyətdə sülhün və təhlükəsizliyin təmin edilməsi, fərdlərin hüquq və azadlıqlarının qorunması, hər bir insanın rifah və xoşbəxtliyinin təmin edilməsi ilə bağlayırdı.[80]

Qeyd etmək olar ki, məhz XVIII əsrin sonlarından etibarən sosial siyasətin təcrübədə tətbiqi sahəsində fəaliyyət genişlənməyə başlandı. Bu dövrdə Avropada ictimai yardımın dövlət-inzibati sistemi formalaşdı. Bu sistem üçün aşağıdakılar xarakterik idi:

-Yardımın institusional sisteminin yaranması;

- Hüquqi bazanın formalaşması;

- Ərazi strukturlarını əhatə edən inzibati idarəetmə;

- Dövlətin sosial siyasəti qismən maliyyələşdirməsi.

Beləliklə, sosial siyasət cəmiyyətin bütün üzvlərinə şamil edilir.

XIX əsrdə sənaye və aqrar inqilabları Avropada sosial proseslərə böyük təsir göstərdi, kəndlərdən şəhərlərə axın genişləndi, urbanizasiya prosesi və aqrar dəyişikliklər muzdlu işçi qüvvəsinin genişlənməsinə səbəb oldu, təbəqələşmə dərinləşdi. 1834-cü ildə İngiltərədə yoxsullarla bağlı qəbul edilmiş qanun onlara müəyyən imtiyazlar verilməsinə, onlar üçün iş evlərinin

---

[78] Этьен Кабе. Путишествие в Икарию. Перевод Э.Л.Гуревича. М., Vive Liberta и Век Прсвещения, 2011, с.18-23

[79] Фихте И. Г. Сочинения в 2-х томах. СПб.: Мифрил, 1993. 1485 с.

[80] Вильгельм фон Гумбольдт. Язык и философия культуры. М.: Прогресс, 1985. 452 с.

açılmasına nail oldu.[81] Beləliklə, XIX əsrin ortalarından etibarən dövlətin sosial funksiyalarının inkişafı nəzərə çarpır. Bu inkişaf 1850-ci ildə L.fon Şteyn (1815 - 1890) sosial dövlət ideyasını irəli sürməsinə gətirdi. Onun sosial dövlət nəzəriyyəsi Hegelin fəlsəfəsinin, fransız sosial demokratlarının doktrinalarının təsiri altında və Almaniyada kapitalizmin inkişafı imkanlarının və sinfi mübarizənin analizinin nəticəsi kimi formalaşmışdı. O, sosial dövlət dedikdə, bütün ictimai siniflərin və şəxsiyyətlərin tam hüquqi bərabərliyini nəzərdə tuturdu.[82] Lorens fon Şteynin fikrincə, sosial dövlət hakimiyyəti qanuniləşdirmək və qorumaqla yanaşı xalqın maraqlarına xidmət etməlidir.[83] Lorens fon Şteyn əmin idi ki, islahatlar aparmayan hər cür monarxiya nə vaxtsa süqut edəcək, bu fikirlə mütəfəkkir sonradan sosial dövlət nəzəriyyəsinə transformasiya edən sosial monarxiya konsepsiyasının əsasını qoymuşdu. Lorens fon Şteyn özünün "1789-cu ildən başlayaraq Fransada sosial hərəkat tarixi" adlı əsərində sosial dövlət nəzəriyyəsini əsaslı şəkildə açıqlamışdı. Lorens fon Şteyn burjua cəmiyyətində baş verən sinfi ziddiyyətlərin dövlətin vasitəçiliyi ilə aradan qaldırılması yollarını tapmağa çalışırdı və o, belə bir qərara gəlmişdi ki, kasıb siniflər dövlətin köməyilə öz vəziyyətlərini dəyişməli, maddi azadlıq əldə etməlidirlər. Lorens fon Şteyn islahatlar keçirilməsini dövlətin məqsədyönlü siyasəti hesab edirdi.Belə ki, dövlət kapitaldan və əməkdən yüksəkdə durur və kasıb fəhlə təbəqəsinin asılı vəziyyətinin güclü təsirinə məruz qalır, çünki bu sinif nə qədər çoxsaylı olarsa, dövlət özü də bir o qədər kasıb olar. Dövlət sosial məsələni həll etməklə elə bir quruluş yarada bilər ki, əmək özü mülkiyyətin əldə edilməsinə gətirə bilər. Bu yol dövlətin sosial olmasına şərait yaradır və hər bir insanın rifah halını təmin etməyə imkan verir.[84] Lorens fon Şteynə görə

---

[81]Мосдорф З. «Нами правит пятая власть?», Internationale Politik №5, 19.12.2005г.

[82] Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель. – Социально-гуманитарные знания (М.), 2000, № 2

[83] Гафуров З.Ш.,НиколаенкоИ.Н. Социально-правовое государство: Генезис, объективные основы, социальная природа. Журн. «Ученые записки российского государственного социального университета», № 4, 2008, с.64-67

[84] Кочеткова Л. Н.Теория социального государства Лоренца Фон Штейна// Философия и общество, №3,2008, с. 69-79

məhz siniflərarası sərbəst mobillik nemətlərin hər kəs üçün əldə edilməsinə gətirir. İdarəetmə səviyyəsində sosial dövlətin təyinatı iki istiqamətdə öz ifadəsini tapır:

- birincisi, siniflərarası sərbəst hərəkətə kömək etmək;
- ikincisi, məhrumiyyətlərə məruz qalanlara kömək etmək.

Lorens fon Şteyn bu iki məsələnin reallaşdırılması ilə bağlı dövlətin konkret idarəetmə funksiyalarını göstərirdi:

1. siniflərarası sərbəst hərəkətə mane olan hüquqi maneələri aradan qaldırmaq;
2. hər bir şəxsiyyətin fiziki müstəqilliyini təmin etmək məqsədilə ictimai ehtiyacların diqqətə alınması;
3. kapitala malik olmayan əməyə təsərrüfat müstəqilliyi əldə etmək üçün yardım edilməsi.

Lorens fon Şteyn sosial dövlətin mahiyyətini müəyyən etməyə çalışaraq qeyd edirdi ki, dövlət "öz hakimiyyətindən çıxış edərək bütün ictimai siniflərin və ayrılıqda hər bir şəxsiyyətin tam hüquq bərabərliyini təmin etməlidir. O, öz vətəndaşlarının iqtisadi və ictimai tərəqqisinə kömək etməlidir, çünki son nəticədə birinin inkişafı digərinin inkişaf şərti kimi çıxış edir və məhz bu mənada sosial dövlət haqqında danışmaq olar".

Lorens fon Şteyn sosial dövlətin gərəklilik, məsuliyyətlilik, öz funksiyalarını lazımi səviyyədə yerinə yetirmək bacarığının və marağının olması kimi xüsusiyyətlərini müəyyənləşdirirdi. Sosial dövlətin mahiyyətindən doğan funksiyaları isə - məhdudlaşdırıcı, təmin edici, zəmanət verici hesab edilir.[85]

L.fon Şteynin fikrincə, sosial məsələnin mahiyyəti cəmiyyətin bütün üzvlərinin təkamülü ilə əlaqədar olduğundan onu mülkiyyətlə bağlamaq düz deyil. Mütəfəkkir sosial bərabərlik ideyasını "mülkiyyətçi olmağa və burjuaziya sıralarına daxil olmağa cəhd edən" insan əməyinə yad hesab edir. L.fon Şteynə görə sosial azadlığın mahiyyəti yalnız mülkiyyətlə bağlı olmayıb, həm də hər bir şəxsiyyətin sivilizasiyanın mədəni dəyərlərinə nail olması üçün azad təkamülünün təmin edilməsini nəzərdə tutur. Müəllifin fikrincə, sosial məsələ yalnız maddi deyil, həm də mənəvi və etik

---

[85] Кочеткова Л. Н.Теория социального государства Лоренца Фон Штейна//Философия и общество, №3,2008, с. 69-79

əsaslarla bağlı olduğundan bir-biri ilə əlaqəli olan sosial məsələlər şəbəkəsi haqqında danışmaq olar. L.fon Şteyn qeyd edir ki, sosial məsələləri sosial inqilabla aradan qaldırmaq mümkün deyil, çünki hər cür inqilab təsirsizdir, belə ki, inqilab nəticəsində hakimiyyət dəyişir və mövcud vəziyyət daha da kəskinləşir.[86] L.fon Şteynə görə dövlət yalnız bir ictimai sinfə xidmət edə bilməz, o, bütün maraqlardan və siniflərdən üstün olmalıdır, cəmiyyət və dövlət arasında mübarizə qaçılmazdır. L.fon Şteyn sosial dövlətin yaradılmasını bu iki tərəfin qarşıdurmasının obyektiv nəticəsi kimi qəbul edir, belə ki, dövlətə qarşı duran cəmiyyət onu öz istədiyi kimi və özünə uyğun şəkildə formalaşdırmağa çalışır və belə bir şəraitdə dövlətin cəmiyyətə qarşı fəaliyyəti demokratiyaya qarşı fəaliyyət kimi qiymətləndirilir. Buna görə də dövlət hakim və tərbiyəçi rolunda qalmalı, təzyiqlərə baxmayaraq öz mahiyyətini qoruyub saxlamağa çalışmalıdır, yəni özünə uyğun ictimai quruluş yaratmalı, cəmiyyətin dağıdıcı elementlərinə nəzarət etməli, ictimai siniflər arasında tarazlığa nail olmalıdır. Dövlət ancaq özü üçün yaşaya bilməz, o, cəmiyyətin sosial problemləri ilə məşğul olmalı, onun ictimai maraqlarının gözətçisi olmalıdır, əks təqdirdə hər bir canlı orqanizm kimi dövlət məhv ola bilər. Fərdlərin inkişafı dövlətin özünün inkişaf göstəricisi kimi çıxış etdiyindən dövlət bütün fərdlərin inkişafını, zənginliyini, qüvvətli və təhsilli olmasını özünün əsas inkişaf məqsədinə çevirməlidir. L. fon Şteyn sosial islahatları siyasi və sosial iqtisadi quruluşun modernləşməsinin aparıcı elementi hesab edir.[87]

S.Zavadski, S.Y.Barsukova, Q.Rormozer kimi bir sıra müasir tədqiqatçılar belə hesab edirlər ki, L.fon Şteynin sosial dövlət konsepsiyası liberalizmlə kommunizm nəzəriyyələrinin kompromisi üzərində qurulmuş bir nəzəriyyədir.

Alman iqtisadçısı, dövlət xadimi və xristian sosializminin tərəfdarı olan Adolf Vaqner (1835 - 1917) 1879-cu ildə *intervensionist sosial dövlətin* radikal nəzəri əsaslarını təqdim

---

[86] Эйдукене Д.Д. Социальный реализм Лоренца фон Штейна. Вестник ТГПУ. Выпуск 7 (58), 2006. Серия: Гуманитарные науки.с.58-60

[87] Эйдукене Д.Д. Социальный реализм Лоренца фон Штейна. Вестник ТГПУ. Выпуск 7 (58), 2006. Серия: Гуманитарные науки.с.58-60

etmişdir. Onun konsepsiyasında dövlətin mədəni və ümumi rifah dövlətinə çevrilməsi fikri irəli sürülürdü. A.Vaqnerə görə, dövlət yalnız hakimiyyətdən deyil, həmçinin sivil cəmiyyətdən, ənənələrdən, hüquq, adətlər, dil və mədəniyyətdən ibarətdir. Müasir dövrdə dövlətin fəaliyyəti daha geniş sahələri əhatə etməyə başlayır, dövlət ideyası inkişaf etdikcə insanlar da sivilizasiya və mədəniyyətin daha yüksək səviyyələrinə çatmağa çalışırlar və nəticə olaraq dövlət qarşısında daha çox tələblərlə çıxış edirlər. Bununla yanaşı siyasi iqtisadın qanunu kimi əhali inkişaf etdikcə dövlətin tələbatları da genişlənir. A.Vaqner insanların fəaliyyətində iki sahəni – hüquq və güc, mədəniyyət və rifahı – fərqləndirir. A.Vaqnerə görə, "hüquq və iqtidar dövlətin vəzifələrini gücləndirən sahələrdir, özəl sektorun fəaliyyət sahəsinə daxil olan dövlət daha yüksək peşəkarlıq nümayiş etdirə bilir. İqtisadiyyatın inkişafı ilə əlaqədar hüquq sahəsi mürəkkəbləşməyə başlayır və tələbatların tənzimlənməsinə yönəlir. Mədəniyyət və rifah sahəsində isə dövlətin rolu genişlənməyə başlayır, çünki infrastruktur, sığorta sistemi, yaxud inhisar kimi əsas istehsal fəaliyyətləri dövlətin əlinə keçir. Dövlət tərəfindən təmin edilən xidmətlərin keyfiyyəti yüksəldikcə kollektiv və mədəni ehtiyaclar dövlətin funksiyasını genişləndirir".[88]

A.Vaqnerə görə, dövlətin fəaliyyəti və funksiyaları genişləndikcə insanların iqtisadi tələbatları da təmin edilmiş olur. A.Vaqnerin qanununa əsasən dövlət azad bazar kapitalizminə uyğun olaraq təkmilləşir, burada əhali sosial xidmətlərin səviyyəsinin yüksəldilməsinə səs verir. A.Vaqnerə görə dövlət məsrəflərinin artırılması zərurəti üç əsas səbəblə bağlıdır:

1. dövlətin sosial fəaliyyəti;
2. inzibati və mühafizə fəaliyyəti;
3. rifah funksiyaları.

A.Vaqner bu səbəbləri aşağıdakı kimi izah edir:

1. Dövlətin inkişaf tarixi dövründə sosial siyasətin təkmilləşməsilə əlaqədar onun sosial funksiyaları da genişlənir.

---

[88] Wagner Adolph. The state in economic perspective. Jena, 1901

2. Elmi-texniki tərəqqi nəticəsində dövlətin elmə ayırdığı vəsaitlər, müxtəlif yatırım layihələrinin və s. artması ilə əlaqədar iqtisadiyyat inkişaf edir.

3. Dövlət gözlənilməyən məsrəflərin maliyyələşdirilməsi üçün icarə götürdüyündən ilbə-il dövlət borcları çoxalır.[89]

Sosial dövlət nəzəriyyəsini bir qədər fərqli istiqamətdə inkişaf etdirən digər alman mütəfəkkiri Fridrix Naumannın (1860 - 1919) dövlətin təsərrüfat və sosial münasibətlərə fəal müdaxiləsi haqqındakı fikirləri erkən alman liberalizminin əsasına çevrilmişdir. Liberallar şəxsi mülkiyyətin qorunması, sosial nizam, həmçinin sosial islahatlar aparılması əsasında aşağı siniflərin maddi və mənəvi inkişafını dövlətin əsas vəzifələri kimi müəyyən edirdilər. Bu ideya F.Naumannın bütün yaradıcılığı boyu izlənilir və inkişaf etdirilir.

Qeyd etmək lazımdır ki, F.Naumann Almaniyanın müharibə ərəfəsindəki ideologiyasının yaradıcılarından olmuşdur. Müharibədən sonrakı dövrdə isə F.Naumannı M.Veber və V.Ratenau ilə birlikdə nasional-sosializmin banisi adlandırırdılar. XX əsrin 60-cı illərində başlanan demokratikləşmə və sosial-demokratların hakimiyyətə gəlməsi dövrü F.Naumanna yeni qayıdış dövrü oldu. [90] Bu dövrdə F.Naumannın sosial ədalət, xalq hakimiyyəti, vətənpərvərlik, kütlənin siyasi həyatda iştirakı və s. ilə bağlı ideyaları yenidən məşhurlaşdı. F.Naumann fərd və cəmiyyətin bərabər səviyyəli siyasi ittifaqa daxil olmasına gətirəcək liberal siyasət haqqında fikir irəli sürürdü. F.Naumann demokratiyanı sənaye siyasəti adlandırırdı və qeyd edirdi ki, sənaye siyasətini fəhlələr olmadan təsəvvür etmək mümkün deyil, lakin bu siyasət eyni dərəcədə burjuaziya olmadan da mümkün ola bilməz. “Demokratik sənaye siyasəti hər cür texniki tərəqqiyə açıqdır... Tərəqqi və şəxsiyyət həm köhnə, həm də yeni demokratiyanın mahiyyətini əks etdirir”. Xalqın sosial tələbatlarına xüsusi diqqət ayrılmasını vurğulayan Naumann göstərirdi ki, demokratiya məktəbin kilsədən ayrılması, azad təhsillə, dövlətin demokratik

---

[89]Адольф Вагнер — немецкий экономист. http://opisdela.ru/?p=1570

[90]СадоваяГ. Германия: от кайзеровской империик демократической республике (1914 – 1922 гг.). Самара, изд. «Самарский университет», 2008, s.62-67

əsasları isə xalq təmsilçiliyinin, seçki hüquqlarının təmin edilməsi, konstitusiya, referendum və s. ilə bağlıdır. Naumanna görə “xalq dövləti” və “milli dövlət” sinonim anlayışlardır, xalq dövlətinin gücü azad xalqın dövlətə sədaqətilə bağlıdır. O, dövlətin inkişafını fəhlə və burjuaziya siniflərinin həmrəyliyində görürdü və bu məsələdə şəxsiyyət azadlığına xüsusi diqqət yetirirdi.[91]

F.Naumann ümumi əxlaqi prinsiplərə əsaslanan iqtisadi inkişaf haqqında ideyalarla çıxış edərək sosial ədalət, həmrəylik, insanın dəyərləndirilməsi kimi amilləri ön plana çəkirdi. F.Naumanna görə etik əsaslı liberal iqtisadiyyatın inkişafı sosial-demokratiyanın sona çatdığı yerdən inkişafa başlasa da, özündə sosial demokratik ideyaları da daşıyır. Marksizmə qarşı olan mütəfəkkirə görə, “sosial məsələnin” inkişafı haqqında danışarkən qarşıya kapital və təşkilatlanma ilə bağlı problem çıxır. Sosial demokratlar kimi biz də düşünürük ki, fəhlə və həmkarlar ittifaqlarının yaradılması gələcək inkişafa kömək edə və ticarət işçilərinin təşkilatlanmasına gətirə bilər. F.Naumannın toxunduğu əsas məsələlərdən biri işsizlikdir, müəllif qeyd edir ki, zəngin insanların sayı artdıqca işsizlərin də sayı artır, bu isə anti-kapitalist hərəkatın genişlənməsinə şərait yaradır. F.Naumann çıxış yolunu islahatların keçirilməsində görürdü. F.Naumanna görə “insan təşkilatları” və “anti-kapitalizm” anlayışları sonsuz məşğulluq mənbəyi ola bilər. Bu zaman F.Naumann kapitalist iqtisadiyyatına qarşı çevrilmiş fəhlə hərəkatlarında fəhlə və həmkarlar ittifaqlarının yaradılması ideyasının səsləndirilməsinin və məhz bu istiqamətdə mübarizə aparılmasının doğru olacağını bildirirdi. [92] Beləliklə, F.Naumannın dövlət quruluşu iki mövqenin – fəhlə və sahibkarların bərabər fəaliyyət imkanlarının yaradılmasına, yəni insan azadlığına söykənən dövlətdir.

---

[91]СадоваяГ. Германия: от кайзеровской империик демократической республике (1914 – 1922 гг.). Самара, изд. «Самарскийуниверситет», 2008, s.69-73

[92] Friedrich Naumann. "What Does Christian-Social Mean?" (1894)http://germanhistorydocs.ghi-dc.org/docpage.cfm?docpage_id=1158. Source: Friedrich Naumann. “Was heist Christlich-Sozial?“ ["What Does Christian-Social Mean?"]. Heft 1 and 2, Leipzig 1894 and 1896

Sosial dövlət nəzəriyyəsinin formalaşmasında ingilis iqtisadçısı C.Keynsin (1883 – 1946) təlimi də böyük əhəmiyyət kəsb edir. Belə demək olarsa, məhz C.Keynsin təsiri ilə *ümumi rifah dövləti konsepsiyası* formalaşmışdır.[93]

Sosial dövlət ideologiyasının yaradıcısı olan C.Keyns bazar və rəqabət qanunlarına uyğun şəkildə dövlətin sosial həyatın müxtəlif tərəflərinə çevik təsir etmə sistemini təqdim etmişdi. C.Keynsə görə zəruri hallarda dövlət sosial proqramlar həyata keçirməklə maliyyə sabitliyinə nəzarət etməli, əsaslı elmi araşdırmaları maliyyələşdirməli, böhran təzahürlərinin nəticələrini yumşaltmalıdır. Belə bir siyasi quruluş *"ümumi rifah dövləti"*, yaxud *"sosial dövlət"* adı almışdır.

C.M.Keyns qeyd edir ki, kapitalizm quruluşunun tam məşğulluğun təmin ediləcəyinə zəmanət verən mexanizmi yoxdur. C.M.Keynsə görə işsizlik üzvi olaraq kapitalizmə xas olan təzahür kimi müasir kapitalist individualizmini də müşayiət edir və azad rəqabət sisteminin üzvi qüsurlarından doğur. Bununla belə C.M.Keyns əmindir ki, iqtisadiyyat tarazlı ola bilər. C.M.Keynsin makroiqtisadi tarazlıq modelinin əsas məqamı belədir: milli gəlir səviyyəsi müstəqil məsrəflərin səviyyəsindən daha çox dəyişir. Keynsə görə iqtisadi siyasətin əsas strategiyası investisiya fəaliyyətinin dəstəklənməsi, pulun maksimum kapital qoyuluşuna yönəldilməsi olmalıdır. C.M.Keyns və onun tərəfdarları məhz investisiya səviyyəsinin aşağı düşməsini XX əsrin 30-cu illərindəki "böyük depressiyanın" əsas səbəbi hesab edirdilər. Dövlət kapitalist iqtisadiyyatının əsas zəifliyini dəf etmək üçün kapital qoyuluşuna şərait yaratmaqla yanaşı özü də investisiya yatırıcısı funksiyasını yerinə yetirməlidir.[94]

C.M. Keynsin iqtisadi nəzəriyyəsinin əsas mahiyyəti belə idi ki, bazar iqtisadiyyatı münasibətləri mükəmməl deyil və özünü tənzimləyə bilmir, buna görə də maksimal məşğulluq və iqtisadi inkişaf yalnız dövlətin fəal şəkildə iqtisadiyyata müdaxiləsi

---

[93] http://opisdela.ru/?p=1570

[94] ФроловаТ.А. История экономических учений: конспект лекций. Таганрог: ТРТУ, 2004; http://www.rostinv.ru/teoreticheskaj_sistema_i_ykonomicheskaj_programma-1.html

əsasında mümkün ola bilər. C.M. Keyns dövlət və insanların psixologiyasının qeyri-iqtisadi amillər kimi iqtisadi inkişafa əsaslı təsir göstərdiyini vurğulayır. C.M. Keyns belə bir nəticəyə gəlirdi ki, "cəmiyyətin psixologiyası belədir ki, ümumi real gəlirlər artdıqca eyni dərəcədə olmasa da ümumi istehlak səviyyəsi də artır".[95]

Sonralar C.Keynsin qeyd edilən fikirlərini P.A.Samuelson, C.Helbreyt, L.Lerner, S.Harrison və digər mütəfəkkirlər inkişaf etdirmişdilər. Yeni keysiyançılar isə inkişaf etməkdə olan dövlətlərə icarə pul verilməsini müsbət qiymətləndirirdilər və belə hesab edirdilər ki, xarici borclar inkişaf etməkdə olan ölkələrdən əmtəə və xidmətlərin ixracına şərait yaradır, bu isə, alıcı ölkələrin inkişafına təkan verir, yeni bazarların və s. yaranmasına gətirir.

Görkəmli alman hüquqşünası K.Xasse sosial dövləti sosialist dövləti ilə eyniləşdirirdi. Onun fikrincə, həm sosial dövlət, həm də sosialist dövləti cəmiyyət üzərində hərtərəfli nəzarət sisteminə malik olur, yalnız planlaşdırıcı deyil, həm də idarəedici dövlət kimi çıxış edir, bütün maddi və mənəvi nemətləri istehsal və təyin edir.[96]

T.X.Marşala görə sosial dövlət – fərdin liberal-demokratik cəmiyyətdə lazımı səviyyədə iştirakı məqsədilə onun minimal rifah halının saxlanmasına təminat verən dövlətdir. T.Parsons mürəkkəb sənaye cəmiyyətlərində mövcud olan münaqişələrin həllində dövlətin müdaxiləsini zəruri sayırdı. Marksistlər ümumi rifah dövləti deyərkən istehsal vasitələrinin genişləndirilməsi, əməyin təkrar istehsalı ilə bağlı itkilərin qarşısının alınmasına yönələn dövləti nəzərdə tuturdular. Qərbi Avropa ölkələrində sənaye inqilabı və ölkələrin sənayeləşməsi cəmiyyətin təbəqələşmənin yeni xüsusiyyətlər kəsb etməsinə, fəhlə və burjuaziya sinifləri arasında kəskin antoqonizmin yaranmasına səbəb oldu. Bu ziddiyyətin həlli

---

[95] John Maynard Keynes. The General Theory of Employment, Interest and Money. by, Fellow of the King's College, Cambridge, published by Harcourt, Brace and Company, and printed in the U.S.A. by the Polygraphic Company of America, New York; First Published: Macmillan Cambridge University Press, for Royal Economic Society in 1936; Transcribed for M.I.A., corrected and formatted by Andy Blunden; This Edition: marxists.org 2002, s.163-169

[96] Белов В.Г. "Социальное государство и гражданское общество". М., 2009

ilə bağlı sol radikallar marksizm nəzəriyyəsinə istinad edirdilər və çıxış yolunu sosialist inqilabı və sosialist quruculuğunda görürdülər. Sosial islahatçılar isə tədrici təkmilləşmə, ictimai quruluşun təkamülü, həmçinin sosial dövlətin yaradılması, sosial iqtisadi və siyasi islahatlar keçirilməsi ideyası ilə çıxış edirdilər. Hazırda cəmiyyətdə dövlətin institutlaşmış rolunun genişlənməsi və sosial dövlətin demokratiyaya uyğunluğu ilə əlaqədar sol demokratik partiyalar da sosial dövlətin inkişafında maraqlıdırlar.[97]

Müasir "sosial dövlət" – ümumi rifah dövləti, vətəndaşların vəziyyətinin yaxşılaşdırılmasına yönəlmiş sosial təminat dövlətidir. [98] "Ümumi rifah dövləti" anlayışı II Dünya müharibəsindən sonra sosial demokratlar tərəfindən irəli sürülmüşdür. A.Briggs ümumi rifah dövlətini bazar qaydalarını dərk edilmiş şəkildə dəyişərək minimum gəlirlərə zəmanət verən, risk səviyyəsini azaldan və bütün vətəndaşlara sosial təminat imkanları yaradan dövlət kimi şərh edir. Bir sıra tədqiqatçılar rifah halından danışarkən – iqtisadi səmərəlilik, sosial bərabərlik, sosial inteqrasiya və sabitliyin, müstəqilliyin olmasını və yoxsulluğun azaldılmasını əsas göstəricilər kimi qeyd edirlər.[99]

Müasir dövrdə sosial, yaxud ümumi rifah dövlətinin böhranı problemi aktual məsələlərdən biri kimi səsləndirilir. Qeyd etmək lazımdır ki, son onilliklərdə çox sayda müəlliflər bu istiqamətdə tədqiqat işləri aparmışlar. Bu sırada P.Rozanvallon, L.S.Mamut, O.Tofler, B.Vexner, Q.Brant, F.Hayek, Q.Ritter, K.Pirson, H.Habeçmann, V.P.Miletski və digərlərini göstərmək olar.

Tədqiqatçılar sosial dövlətin böhranını aşağıdakı amillərlə bağlayırlar:

1.Həmrəyliyə əsaslanan sığorta sisteminin ümumi böhranı.

---

[97]ШамоваЛ.Г. Социальное государство. История. Современность., «Россия: пут к социальному государству». Материалы Всероссийской научной конференции (Москва, 6 июн 2008 г.) , Москва, Научны эксперт, 2008, с.387-393

[98]ШамоваЛ.Г. Социальное государство. История. Современность., «Россия: пут к социальному государству». Материалы Всероссийской научной конференции (Москва, 6 июн 2008 г.) , Москва, Научны эксперт, 2008, с.387-393

[99] Briggs A. The Welfare State in Historical Perspective. Concepts and Issues. Archives Europeennes deS sociologie. II (1961): 221-258

2.Artan sosial təsisatların genişlənməsi ilə biznesdə vergi yüklərinin azalması zərurəti arasında yaranan ziddiyyətlər.

3.Vergi ödəyiciləri ilə sosial təminat hüquqları olanların sayı arasındakı fərqlərin genişlənməsi.

4.1980 və 1990-cı illərdə istehsalın modernləşdirilməsinin sürətləndirilməsi sosial himayənin ləğv olunmasına və bununla 60-cı illərə aid olan sosial müqavilənin pozulmasına səbəb oldu.

Sosial dövlətin tənqid edilməsinin əsas səbəblərindən biri iqtisadi cəhətdən ümumi rifah halının təmin edilməsinin qeyri mümkünlüyünün dərk edilməsi və cəmiyyətdə başqasının hesabına yaşamaq əhval-ruhiyyəsinin genişlənməsi təhlükəsi ilə bağlıdır. Bununla əlaqədar olaraq, neoliberal və sosial demokrat siyasətçilər bu anlayışı istifadə etməkdən imtina etmişdilər.[100]

Qeyd edildiyi kimi sosial, yaxud ümumi rifah dövlətinin tənqid edilməsinin səbəbləri istehlakçı təbəqənin, sosial yardımlarla yaşamağa alışaraq işləmək istəməyən, dövlətdən imtiyazlar almaq həvəsində olan insanların sayının artması ilə izah olunur. Fransalı iqtisadçı F.Bastiat bu vəziyyəti "qarşılıqlı soyğun" adlandırır və ehtiyatların istismarı nəticəsində tükənməyə səbəb olacağını bildirir.

Tədqiqatçılar göstərirlər ki, əslində ehtiyacı olan təbəqələrə yardım göstərən dövlət özü onları yoxsul olmağa məhkum edir. Belə ki, güclü, təhsilli, məmur təbəqələr azad əmək bazarına cıxışı məhdudlaşdırırlar, təhsilsiz, hüquqsuz və sosial yardımlarla sakitləşdirilmiş insan qrupları sayəsində özləri üçün hər cür imkanlar yaradırlar.[101]

Müasir sosial dövlət ümumi rifah dövlətindən fərqli olaraq, öz himayəçi rolundan imtina edir və sosial yönümlü bazar təsərrüfatına əsaslanan əlverişli sosial şərait yaratmağa çalışır. Son tədqiqatlarda "sosial dövlət" dedikdə, evristik və təcrübi potensiala malik olan dövlətin məqsəd, mahiyyət və funksiyalarının layiqli həyat şəraitini təmin etməyə yönəlməsi nəzərdə tutur.[102]

---

[100] Калашников С.В. "Очерк теории социального государства". М., 2006. С. 67-68
[101] Tom G. Palmer, After the welfare state. Printed in the United States of America, 2012
[102] КалашниковС.В. "Очерк теории социального государства". М., 2006. С. 67-68

Almaniyanın siyasi xadimi Z.Mosdorf post-kapitalizm dövründə dövlətin mahiyyəti haqqında danışarkən qeyd edir ki, hazırda inkişaf etmiş Qərb tipli dövlətlərin əvvəlki nüfuzu və mahiyyəti zəifləyir, sosial rolu isə genişlənməkdə davam edir. Müəllifin fikrincə, bu ilk növbədə son 200 ildə iqtisadiyyatın dövlət üzərindəki təsirinin yüksəlməsi və yeni "corporate citizen" tipli dövlətə təzyiqin genişlənməsilə bağlıdır, yəni hazırda ictimaiyyət heç zaman olmayan bir fəallıqla iqtisadiyyatı müşahidə edir və bu istiqamətdə qəbul edilən qərarlarda iştirak edir. Hazırda şəxsi iqtisadiyyat cəmiyyətin "canlı orqanizminə" çevrilib və demokratik cəmiyyətdən asılı vəziyyətə düşüb. Z.Mosdorfa görə XXI əsrin əvvəllərində "beşinci hakimiyyət" olan iqtisadi sistem (İ.Ramonet) dövlət idarəçiliyi üzərində hakimiyyəti ələ almaqdadır, yaxud cəmiyyət bütövlükdə "iqtisadiləşməyə" məruz qalacaq. Müəllif belə güman edir ki, 2020-ci ildə cəmiyyəti şəxsi iqtisadiyyat idarə edəcək.

Z.Mosdorf müasir tipli cəmiyyətin formalaşması imkanlarını analiz edərək qeyd edir ki, XXI əsrdə yüksək inkişaf etmiş ölkələrdə iki əsaslı dəyişikliklər prosesi izlənilir: dövlətin hakim rolu daha çox şübhə doğurur, digər tərəfdən müəssisələrin üzərinə daha çox sosial məsuliyyət düşür və özəl iqtisadiyyat bazarın hüdudlarından çıxır. Dövlətin təsirinin zəifləməsi dövlətin maliyyə, hüquq, mühafizə, xidmət strukturlarının çox yüklənməsi ilə bağlıdır. Hazırda dövlətlə iqtisadiyyatın qarşılıqlı fəaliyyətinin yeni modelini yaratmağa çalışırlar, dövlətin və özəl iqtisadiyyatın fəal kooperasiyası istiqamətləri axtarılır.

Bu istiqamətdəki dəyişikliklərlə bağlı ikinci proses müəssisələrin dəyişməsilə bağlıdır, belə ki, əksəriyyəti qlobal bazara işləyən bu müəssisələr cəmiyyətdə də müəyyən nüfuz qazanmağa çalışırlar və bu məqsədlə vətəndaş cəmiyyətinin sosial inkişaf, səhiyyə və ekoloji istiqamətli layihələrinə qoşulmağa çalışırlar, fondlar və korporativ universitetlər yaradırlar, sosial və mədəni maliyyə köməkliyində iştirak edirlər, etik kodekslər, sosial və mədəni proqramlar müasir korporativ mədəniyyətin yeni elementi kimi çıxış edir. Z.Mosdorfa görə əsaslı dəyişikliklər cəmiyyətin quruluşunda dəyişikliklərə səbəb olur, cəmiyyət

iqtisadiləşir, yaxud dövlətsizləşir, iqtisadi mütləqiyyət formalaşır, bu isə cəmiyyət üçün heç də əhəmiyyətli meyl deyil. Müəllif əmindir ki, yeni cəmiyyət quruluşu dövlət və özəl iqtisadiyyat, dövlət və bazar nizamı, kollektiv və fərdi sosial təminat arasında yeni balans tapılmasını tələb edir.[103]

Sosial dövləti tənqid edənlər qeyd edirlər ki, kapital qanunları sərtdir və bazar məntiqinə tabe olan cəmiyyət nə dərəcədə humanst və ədalətli ola bilər. Bununla yanaşı sosial dövlət işləmək istəməyənlərə daimi olaraq yardım etməyə hazırdırmı? Hər hansı bir sosial ədalətsizliyin aradan qaldırılması, yaxud hər hansı bir sosial qərarın gözlənilməyən tərəfləri də təzahür edir. Müasir cəmiyyətdə dövlət hesabına yaşamaq istəyənlərin sayı çoxalır. Əmək etikası dağılıb, təbliğat təsadüfi xoşbəxtlik vəd edir, lakin vətəndaşların sosial məsuliyyətini möhkəmlədə bilmir, insanların şəxsi təşəbbüskarlığı zəifləyir, cəmiyyətin infantilləşməsi, məsuliyyətsizliyi, kənar yardımla yaşamaq istəyi genişlənir. Bunun qarşısının alınması üçün dövlət himayəsinin azaldılması, bazarın dövlət tənzimlənməsinin təmin edilməsi təklif edilir. Belə ki, ictimai ideal olan sosial dövlət zəhmətkeşlik, nizam-intizam, məsuliyyətə əsaslanır.

Sosial dövlətin tənqid edilməsinin digər səbəblərindən biri iqtisadiyyatın özəlləşdirilməsi ilə bağldır. Belə ki, bu zaman inzibati metodların tətbiq edilməsi zəruri hesab edilir. Belə ki, fundamental liberalizm müasir sosial dövlətin inkişafında əsas ola bilməz.

Bununla yanaşı sosial dövlətin inkişafında uğurlu sosial lobbiləşmə əsas şərtlərdən biri kimi qəbul edilir. Bu ilk növbədə onunla bağlıdır ki, sosial təzadlar dərinləşib, əhalinin kasıb təbəqəsinin və varlıların gəlirləri arasındakı fərq həddən çox böyükdür. Sosial dövlət ideyası qızıl ortanın tapılmasına cəhddir. Burada özəl və ictimai maraqlar, cəmiyyət və dövlət arasında ahəngdarlıq əldə edilməsinə nail olmağa cəhd edilir, eqoizm və sosiallığı barışdırmağa çalışılır, cəmiyyət ümumi tale kimi qəbul edilir.

---

[103]Mosdorf S. New economy, new society // Wirtschaftswoche. Frankfurt.a.M., 2001. Jg.55, № 7. S.28.

Sosial dövlətdə - dövlət cəmiyyətin ədalətli sosial nizamına görə məsuliyyət daşıyır, “dövlət necədirsə, onun tərəfindən tənzimlənən cəmiyyət də oxşardır”.

Sosial dövlətdə bütün institutların səmərəli sosial fəaliyyəti əsas şərtdir. Belə ki, dövlətçiliyin yüksək pilləsi olan sosial dövlət kiçik varlılar təbəqəsinə deyil, bilavasitə cəmiyyətin maraqlarına xidmət etməlidir. N.A.Berdyayevin qeyd etdiyi kimi, “dövlət yer üzündə cənnətin olması üçün deyil, cəhənnəmin olmaması üçün mövcuddur”.[104]

Hazırda bir sıra müəlliflər sosial dövlətin ümumi nəzəriyyəsini yaratmağın qeyri-mümkün olduğunu bildirirlər və bu fikri sosial dövlət nəzəriyyəsinin yaradılmasının çox çətin bir məsələ olması ilə əsaslandırırlar. Onların fikrincə, sosial dövlətin təbiəti və real mahiyyəti, onun formalaşması və inkişaf dinamikası, həmçinin bu və ya digər dövlətin sosial olmasını müəyyənləşdirən amillər qeyri-müəyyəndir. [105] Əslində sosial dövlət nəzəriyyəsi üçüncü yol kimi qəbul edilə bilər. Sosial dövlətin əsas vəzifəsi cəmiyyətdəki mövcud ziddiyyətlərin dövlətin gücü ilə aradan qaldırılması, sosial təminatın, layiqli həyat şəraitinin və azad inkişaf imkanlarının təşkili, təbəqələrin maraqlarının tarazlı təmin edilməsi və beləliklə də, dağıdıcı inqilabi proseslərdən kənarlaşmaqla bağlıdır.

Sosial dövlətlə bağlı aparılan ilkin konseptual araşdırmaların ümumi şərhi belə bir nəticəyə gəlməyə imkan yaradır ki, daim daha yaxşı dövlət quruluşu formalaşdırılmasında maraqlı olan bəşər cəmiyyəti ayrı-ayrı dühaların aparıcı fikirləri əsasında təkmilləşmişdir. Təqdim edilən ümumiləşdirmədən o da aydın olur ki, dövlət – cəmiyyət və dövlət – şəxsiyyət münasibətlərinin tərəqqisi müasir sosial dövlətin əsas xüsusiyyəti kimi çıxış etsə də, hər bir dövlətin əsas inkişaf göstəricisi iqtisadi amillə bağlıdır və sosial yönümlü bazar iqtisadiyyatı müasir sosial dövlətdə bilavasitə sosial siyasətlə bağlı istehsal münasibətlərinin formalaşdırılmasını tələb edir.

---

[104]Концепция социального государства. Материалы круглого стола. – М., 2003

[105] Храмцов А.Ф., Социальное государство: проблемы индикации // Государственная власть и местное самоуправление. – 2007. – № 2. – С. 9

Digər tərəfdən, sosial dövlət tarixən mövcud olmuş ən yüksək səviyyəli dövlət forması kimi bütün vətəndaşların sosial müdafiəsinin təmin olmasına yönəlir. Sosial dövlət cəmiyyətin sosial, iqtisadi və digər sahələrinin dövlət tərəfindən tənzimlənməsi, sosial ədalətin və həmrəyliyin təmin edilməsi, dövlət institutları ilə cəmiyyət arasında harmonik əlaqələrin yaradılmasına istiqamətlənmiş dövlətdir.

Araşdırmaya əsasən deyə bilərik ki, elmdə sosial dövlətlə bağlı çox sayda nəzəriyyələrin olmasına baxmayaraq, hələ də sosial dövlət ideyasının yaranması tarixi, sosial dövlətin mahiyyəti və əlamətləri, inkişaf xüsusiyyətləri və s. ilə bağlı bir çox məsələlər açıq qalır.

## 1.3. Sosial dövlətin araşdırılması və inkişafı prosesində "sosial sinergetik institutlaşma" istiqaməti metodoloji əsas kimi

Sosial dövlətin inkişaf meyllərinin müəyyənləşdirilməsində institutlaşma və sosial sinergetik yanaşmalarını özündə inteqrasiya edən "sosial sinergetik institutlaşma" konsepsiyası geniş imkanlar açır. Sosial institutlar qaydalar, normalar, sərəncamlarla təsdiqlənmiş sosial münasibətlər məcmusu kimi çıxış edərək, institutlaşırlar. [106] İnstitutlaşma nəzəriyyəsi sosial institutların mahiyyətini və təyinatını təhlil etməyə kömək edir.

İnstitusional nəzəriyyənin banisi T.Veblenə görə, institutlar - insan və şəxsiyyət arasında münasibətlər toplusu kimi özünəməxsus funksiyaları yerinə yetirir. İnstitutlar – ictimai sistem kimi cəmiyyətin müəyyən inkişaf mərhələsində təsnif olunmuş fəaliyyətə malik olur və psixoloji cəhətdən cəmiyyətin həyat tərzi haqqında yayılan mənəvi mövqe kimi xarakterizə oluna bilər.

---

[106] The Sage Dictionary of Sociology. SAGE Publications Ltd1 Oliver's. London EC1Y 1SP © Steve Bruce and Steven Yearley 2006. P.154

T.Veblen qeyd edir ki, institut bu və ya digər sosiumda informasiyanın yayılması ilə bağlı “adət olunmuş təfəkkür tərzidir”. Sivilizasiyanın inkişafını institutlarla bağlayan T.Veblenə görə -

- İnstitutların inkişafı, həm də cəmiyyətin inkişafı deməkdir.
- İnstitutlar cəmiyyət və şəxsiyyət arasında xüsusi münasibətlər sistemi kimi özünəməxsus funksiyaları yerinə yetirir.
- İnstitutlar keçmişdə baş verən və daha çox keçmiş zamana uyğunlaşmış proseslərin nəticəsi kimi təzahür edir və mühafizəkar xüsusiyyətlərə malik olduğundan müasir dəyişikliklərə uyğunlaşmaqda çətinlik çəkir.[107]

Təkamüllü institutlaşma nəzəriyyəsinin görkəmli nümayəndələri Riçard Nelson, Sidney Qrehem Uitner, Geoffery Hodgson hesab edilir. Bu istiqamətin əsas müddəaları aşağıdakılardan ibarətdir:

1.Optimallaşdırmanın əsaslarının və metodoloji individualizmin inkarı.

2.İqtisadi dəyişikliklərin tədqiqinin vurğulanması.

3. Bioloji analogiyaların aparılması.

4. Tarixi zamanın rolunun nəzərə alınması.

5. Trafaret (rutin) və firmanın təkamülü nəzəriyyəsi.[108]

Yeni instituonalizmin görkəmli nümayəndəsi O.Uilyamson institutları müqaviləli münasibətlərin idarə edilməsi mexanizmləri kimi nəzərdən keçirir. Ona görə firmalar, bazarlar və müqaviləli münasibətlər başlıca iqtisadi institutlar hesab edilməlidir.[109]

Ənənəvi və yeni institualizm bir-birilərindən üç məqama görə fərqlənirlər:

- Birincisi, "əgər ənənəvi institualizm digər ictimai elmlərin metodlarından istifadə etməklə əsasən iqtisadi problemləri araşdırırdısa, "yeni" institualizm müasir mikro-iqtisadiyyatın və

---

[107]Веблен, Т. Теория праздного класса / Т. Веблен. - М.: Прогресс, 1984. -С.202.

[108] Васильцова В.М., Третышный С.А. Институциональная экономика: Учебное пособие. Стандарт третьего поколения. Спб.: Питер, 2014, с..224-240; Основные концепции неоинституционализма: теория эволюционного неоинституционализма. http://studopedia.org/6-37923.html. Студопедия.Орг - 2014-2016 год.

[109] Уильямсон О. Экономические институты капитализма. СПб., 1996. С.48.

oyun nəzəriyyəsinin anlayışlar aparatına söykənən neoklassik nəzəriyyənin metodlarından istifadə edirlər.

- İkincisi, ənənəvi institualizm ayrı-ayrı vəziyyətlərin ümumiləşdirilməsində induktiv metoda söykənir, neoinstitualizm isə konkret təzahürlərin şərhində deduktiv metod və ümumelmi prinsiplərdən istifadə edir.

- Üçüncüsü, əgər ənənəvi institualizm əsas diqqəti kollektiv fəaliyyətə yönəldirdisə, yeni institualizmin əsas tədqiqat obyekti ayrıca şəxsiyyət, onun fərdi davranışıdır".[110]

D.Nort İnstitusional dəyişikliklər nəzəriyyəsinin banisi hesab edilir. Bu nəzəriyyənin əsas məqsədi həm ayrı-ayrı institutlar daxilində, həm də cəmiyyətin institusional strukturunda baş verən dəyişikliklərə gətirən endogen (daxili) amillərin aşkar edilməsi ilə bağlıdır. D.Norta görə, institutlar – insanlar arasında təkrarlanan qarşılıqlı fəaliyyəti strukturlaşdıran qaydalar, mexanizmlər, davranış normalarıdır.[111] O, qeyd edir ki, institusional nəzəriyyənin əsas vəzifəsi cəmiyyətin institusional strukturunda baş verən dəyişikliklərin gedişini göstərməkdir.[112]

D.Nortun fikrincə, insanlar tərəfindən yaradılmış institutlar onlar tərəfindən inkişaf etdirilir və dəyişdirilir. İnstitutlar insanların davranışlarına təsir edir və seçimlərini məhdudlaşdırır, məhz institutlar hüdudunda insanların qarşılıqlı fəaliyyəti müəyyənləşir. İnstitutlara aiddir:

-qayda və göstərişlər (məsələn, konstitusiya, müqavilələr, sərəncamlar və s.) formasında rəsmi (yazılı);

- qoyulan qaydalardan yayınan davranışları aşkar və qadağan edən prosedurlar;

---

110 Файзуллин Т.Ф., Файзуллина А.И. "Сущность институционализма и его значение в исследовании социально-экономических явлений". Вестник ОГУ №9/сентябрь, 2007, с.37

111 Норт Д. Институты и экономический рост: историческое введение // Тезис. Т.1. Вып.2. М., 1993. С.73.

112 ГулъбинаН.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

-rəsmi qayda və prosedurları məhdudlaşdıran qeyri-rəsmi (yazılmamış) davranış kodeksləri, adətlər, vərdişlər.[113]

D.Norta görə, "İnstitusional quruluş oyunun qaydalarını müəyyən edir... yaxud, insanlar tərəfindən kəşf edilmiş məhdudiyyətlər kimi insanlar arasındakı qarşılıqlı münasibətləri yaradır".[114] D.Nort və R.Tomas institusional təkamülün "optimist" modelini inkişaf etdirmişdilər. Bu modelə görə, institusional dəyişikliklər gedişində kiçik itkilər şəraitində qeyri-səmərəli institutlar səmərəli olanlarla əvəz edilirlər ki, bu da transaksion itkilərin azaldılmasına və iqtisadiyyatın yüksək templə inkişafına şərait yaradır.[115]

C.Kommonsun sosial-hüquqi institualizmi bu yöndə yeni istiqamətdir. C.Kommonsa görə, institut – fərdi davranışa nəzarət edilməsi, azad edilməsi və genişləndirilməsi ilə bağlı kollektiv fəaliyyətdir. Con Kommons belə hesab edirdi ki, sosial iqtisadi inkişafın əsasında hüquqi münasibətlər, hüquqi normalar durur və buna görə də işçi aristokratiyanın, yəni "orta sinfin" bir hissəsinin maraqlarını ifadə edən iqtisadi institutlar əslində hüquqi nizamın kateqoriyaları kimi çıxış edir. C.Kommons sosial institutlara ailəni, istehsal korporasiyalarını, ticarət birliklərini, həmkarlar ittifaqlarını, dövləti aid edirdi. Onun fikrincə, kapitalizmin bütün çatışmazlıqları hüquqi normaların natamamlığı ilə bağlıdır və bu natamamlıq ədalətsiz rəqabətə aparır. C.Kommons bu problemin həllini dövlətin qanunvericilik orqanları ilə bağlayırdı.[116]

İnstitualizmin digər bir istiqaməti U.Mitçellin konyuktur-statistik institualizmi hesab edilə bilər. U.K.Mitçell institutlaşma

---

113 Гулъбина Н.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

114 Норт Д. Институты, идеология и эффективность экономики // от плана к рынку: будущее посткоммунистических республик., М., 1993, с.307

115 Гулъбина Н.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

116 КоммонсДж. "Институциональная экономика" (Перевод Курышевой А.А). История экономической мысли. Экономический вестник Российского государственного университета, 2007, №4, стр.59-70

konsepsiyasının – iqtisadiyyata sosial nəzarətin həyata keçirilməsi – ilə bağlı əsas ideyasının tərəfdarı kimi çıxış edir.[117]

İnstitualizmin digər istiqamətlərindən biri institusional konstruktivizmdir. Klassik sosial nəzəriyyə sosial konstruktivizmi sosial dəyişikliklərin əsas mexanizmi kimi qəbul edir və hesab edir ki, sosial fəaliyyətin səmərəliliyi subyektlərin tarixin gedişini, onun qanunlarını və sabit meyllərini dərk etmə səviyyəsindən asılıdır.[118] İnstitusional konstruktivizm bəşəriyyətin təkamül yolu ilə dayanıqlı inkişafının müəyyənləşdirilməsinə və fenoloji qavrayışına yönəlir və bu əsasda Yer kürəsinin noosferasının qorunub saxlanmasını, ictimai münasibətlərin transformasiyası proseslərinə uyğun olaraq enerjinin dəyişməsi, istehlakı və yayılması şəraitində insan potensialının gücünün qorunub saxlanmasını xarakterizə edir. İnstitusional konstruktivizm siyasi və ictimai münasibətlər sisteminin inkişafını nəzərdə tutur, dayanıqlı inkişaf amillərinin formalaşmasında, mənfi nəticələrin, o cümlədən, insanın Yer kürəsində və ola bilər ki, gələcəkdə onun hüdudlarından kənardakı fəaliyyətinin nəticəsi olan sosial-psixoloji, texnogen və ekoloji halların aradan qaldırılmasında dövlətin və ictimai münasibətlərin rolunu və yerini müəyyən edir. İnstitusional konstruktivizm sosial iqtisadi münasibətlərin konvergensiyasına yönəlir.[119]

İnstitutlaşma nəzəriyyəsi sosial dövlətin inkişaf xüsusiyyətlərinin və istiqamətlərinin araşdırılması və təkmilləşdirilməsi baxımından əhəmiyyətli yanaşma olsa da, bir qədər tamamlanmamış metodologiya təsiri bağışlayır. Belə ki, institutlaşma nəzəriyyəsi mövcud şəraitin təhlilinə yönəlir və tətbiqi-dəyişdirici imkanlar açmır. Bu baxımdan sosial dövlətin

---

[117] Митчел У. «Экономические циклы. Проблема и его постановка». М.-Л., 1930.

[118] Токарева С.Б. Методология социального конструирования и социальный конструктивизм. Социальная философия и социальное проектирование. ISSN 1998-9946. Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2011. № 2 (14) 113

[119] Наумов Е.А. Устойчивое развитие и теория институционального конструктивизма. Электронное научное издание «Международный электронный журнал. Устойчивое развитие: наука и практика» www.yrazvitie.ru вып. 2 (9), 2012, ст. 3 Выпуск подготовлен по итогам Второй Международной конференции по фундаментальным проблемам устойчивого развития в системе «природа – общество – человек» (29 и 30 октября 2012 г., проект РФФИ №12-06-06085-г).

sistemli öyrənilməsində institutlaşma nəzəriyyəsinin əhəmiyyətini nəzərə alaraq, o cümlədən sosial institutlarda mövcud münasibətlərin inkişafında və ümumiyyətlə, sosial institutların və dövlətin idarə edilməsində sosial sinergetik yanaşmadan istifadə edərək "sosial sinergetik institutlaşma" istiqamətinin metodoloji əsaslar kimi götürülməsi məqsədəuyğun hesab edilir.

Sinergetika mürəkkəb, açıq və özünütəşkil prosesində olan sistemləri təhlil edir. Bu nəzəriyyəcəmiyyətin 1) tarazlıqda və 2) tarazlığa yaxın vəziyyətlərdə mövcudluğunun tədqiqinə hesablanmışdır; onun nisbi sabitlik, təkamül yolu ilə tərəqqiyə gedən dövrləri üçün nəzərdə tutulmuşdur. Cəmiyyət mürəkkəb sinergetik sistemdir.Cəmiyyətdə sosial nizam və təşkilatlanmanın bir mərhələsindən digərinə keçid sinergiya – müxtəlif, əks qüvvələrin qarşılıqlı təsiri, bir araya gəlməsi yolu ilə baş verir. İstənilən strukturun və sistemin təşkilatlanmasının əsasında qarşılıqlı birlik dayanır.[120]

Bu mənada vətəndaş cəmiyyətinin qurulmasına yönələn sosial dövlətin sosial sinergetik-institutlaşma konsepsiyası əsasında öyrənilməsini məqsədəuyğun hesab edirik. Beləki, inkişafla bağlı nəzəriyyə kimi sosial sinergetika sosial dövlətin özünüdeterminasiya, özünütəşkilatlandırma və özünüidarəetmə meyllərini öyrənir və dövlətin inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə geniş imkanlar açır. Digər tərəfdən, sosial sinergetika sosial öznütəşkilatlandırmanın ümumi qanunauyğunluqlarını, yəni sosial nizam və sosial xaosun qarşılıqlı münasibətlərini tədqiq edir. Burada "nizam" deyərkən, aralarında sabit, zaman və məkanda təkrarlanan münasibətlər olan çoxsaylı elementlər nəzərdə tutulur.[121] T.B.Allahyarovanın qeyd etdiyi kimi: "...xaos nizamla bərabər inkişafın qanunauyğun mərhələsidir. O, yeni inkişaf kanalının təkanı ola bilər. ...inkişaf prosesi nizamla xaosun qanunauyğun və dəfələrlə növbələşməsidir (determinik

---

[120] Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi: Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) dissertasiyası. Bakı, 2007, s.44, 81, 163, 167

[121] Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. Общественные Науки и Современность 1999 • № 6, s.117-127

xaos)... ...xaos ...yeni nizam yaratmaq üçün yaradıcı qüvvəyə malikdir”.[122] Dissipativ strukturlar reallığın bu aspektləri arasındakı fərqin aradan qalxaraq sintez yaratması məsələsini araşdırır. Sadə dissipativ strukturların daha mürəkkəb dissipativ strukturlarla davamlı birləşməsi iyerarxiyalaşmaya səbəb olur.[123]

İyerarxiya mürəkkəb çoxsəviyyəli sistemlərin struktur təşkilatlanması prinsipi kimi yuxarıdan aşağıya doğru nizamda səviyyələr arasındakı qarşılıqlı təsirin tənzimlənməsinə yönəlir. Bu zaman hər iki, yaxud daha çox səviyyələr bütün yuxarı səviyyələrə nisbətdə tabe, aşağı səviyyələrə nisbətdə isə idarə edən kimi çıxış edir. İyerarxik quruluşa malik olan sistemdə həm struktur, həm də funksional diferensiasiya yer alır, yəni hər bir səviyyə müəyyən funksiyalar dairəsini həyata keçirir və daha yüksək səviyyələrdə iyerarxiya razılaşma, inteqrasiya funksiyalarını yerinə yetirir.[124]

İyerarxiyalaşma və deiyerarxiyalaşma proseslərinin növbələşməsi sosial özünütəşkilatlandırmaya gətirir. Deiyerarxiyalaşma daha mürəkkəb dissipativ strukturların daha sadə dissipativ strukturlara bölünməsi ilə bağlı olur. Sosial aspektdə bu proses sosial institutların davamlılığı və nizamsızlığı əsasında müşahidə edilir. Bu prosesdə sosial seçim əsaslı rola malik olur və sosial təşkilatlanmanın mahiyyətini aydınlaşdırır. Burada tezaurus, detektor və selektor sosial seçimin əsası kimi çıxış edir. Tezaurus mövcud struktur daxilində uyğun bifurkasiyanın nəticəsi kimi potensial olaraq yaranan çoxsaylımümkün dissipativ strukturlardan ibarət olur. Sosial sistemin elementlərinin daxili qarşılıqlı təsiri detektor rolunda çıxış edərək, tezaurusdan müəyyən bifurkasion strukturu seçir və mümkün olanı real olana çevirir. Detektor rəqabət və əməkdaşlığın vəhdəti kimi çıxış edərək, sosial dinamikanı müəyyən edir. Bu zaman sosial seçim prosesinə üçüncü amil kimi

---

[122]Allahyarova, T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi : fəlsəfə elm. dok. ... dis. avtoreferatı: 09.00.11 / T. B. Allahyarova ; Bakı Dövlət Universiteti. – Bakı, 2007. – 53 s. ;

[123] Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. Общественные Науки и Современность 1999 • № 6, s.117-127

[124] Философский энциклопедический словарь, М., «Советская энциклопедия», 1983, с.201

selektor daxil olur. Daxili seçim qanunu belədir ki, xarici qarşılıqlı təsir və dayanıqlılıq prinsipi əsasında detektor çoxsaylı bifurkasion strukturlar arasında mövcud mühit üçün ən dayanıqlı olanı seçir. Beləliklə, yalnız hər üç amilin – tezaurus, detektor və selektor əsasında sosial seçimin yaradıcı qüvvəsi aydınlaşır.[125]

İctimai proseslərin sinergetik idarə edilməsinin mahiyyəti belədir ki, mürəkkəb qeyri-xətti sistem insan və bütün Kainat kimi özünüyaratmaq, özünüstrukturlaşdırmaq, özünüqurmaq imkanlarına malikdir. Burada sosial sistemlərin fatal idarəçiliyi deyil, sosial sistemlərlə insan üçün daha yaxşı yönümdə dialoq qurulması yollarının reallaşdırılması nəzərdə tutulur.[126]

Sosial sinergetika sosial sistemlərin inkişafının çoxvariantlı inkişaf yollarını təqdim edir. Sosial sinergetika dövlətin inkişaf perspektivləri ilə bağlı istiqamət kimi qəbul ediə bilər. Belə ki, sosial sinergetika sosial dinamikanın öyrənilməsinə yönəlir, sosiumun transformasiyasına səbəb olan gözlənilməz, qeyri-xətti sosial dəyişikliklərin və onların nəticələrinin izahına çalışır. Sosial sinergetika əsasən sosial reallığı diqqətdə saxlayır ki, bu da böhran vəziyyətlərində həlledici rol oynaya bilər. Sosial sinergetika çərçivəsində cəmiyyətin inkişafı özünüqurma kimi qiymətləndirilə bilər, belə ki, burada hakimiyyət subyekti ilə yanaşı vətəndaşlar faktoru da nəzərə alınır. [127]

**Tədqiqatın metodologiyasının xarakteristikası**.

İnstitusional yanaşma sosial münasibətlərin, sosial davranış, adət və ənənələrin təsnifatlı və qarşılıqlı təsir və qarşılıqlı fəaliyyət çərçivəsində araşdırılmasına kömək edir. Bu yanaşma sosial dövlətin tədqiqi üçün əhəmiyyət kəsb etsə də, natamam təsir bağışlayır. Belə ki, institutlaşma nəzəriyyəsi real şəraitin təhlilinə

---

[125] Бранский В.П.Социальная синергетикакак постмодернистская философия истории. Общественные Науки и Современность 1999 • № 6, s.117-127

[126] Колосова О.Ю. Социальная синергетика в управлении социальными системами. Исторические, философские, политические и юридические науки, культурология искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011. № 1 (7). С. 118-120. ISSN 1997-292X. www.gramota. net/materials/3/2011/1/

[127] Пономарева Ю.Е.Возможности и ограничения социальнойсинергетикипри исследовании прогресса реформирования. Общество Вчера, Сегодня, Завтра., s.31-33. http://www.novapdf.com

yönəlib və tətbiqi-dəyişdirici imkanlar açmır. Sosial dövlətin araşdırılması ilə bağlı institutlaşma nəzəriyyəsinin əhəmiyyətini nəzərə alaraq və sosial institutlar arasındakı münasibətlərin inkişafı, sosial institutların və dövlətin idarə edilməsi ilə bağlı sosial-sinergetik yanaşmaya söykənərək, "sosial sinergetik institutlaşma" konsepsiyasını metodoloji əsaslar kimi qəbul etməyi məqsədəuyğun hesab edirik.

Sosial sinergetikanın köməkliyi ilə sosiumun bütün formalarının (fərd, ailə, sosial qrup, mədəniyyət, din, iqtisadiyyat və s.) mahiyyəti, təkmilləşməsi və gələcək inkişafı analiz edilə və proqnozlaşdırıla bilər. Sosial sinergetikanın üstünlükləri sosial risklərin, sosial böhranların və transformasiyaların, inqilabi və islahatlı dəyişikliklərin öyrənilməsi, dövlətin və cəmiyyətin inkişafının, o cümlədən sosial institutların rekonstruksiyası, yaranması və yenidən özünütəşkilatlandırması, birinin öz əhəmiyyətini itirərək yenisi ilə əvəzlənməsi, və s. proseslərin təhlilinin mümkün olması ilə bağlıdır.

İnstitusional yanaşma diferensional qarşılıqlı təsir və qarşılıqlı əlaqə əsasında sosial münasibətlərin, sosial davranış və adətlərin tədqiqi imkanlarını açır.

Sosial dövlətin formalaşması və inkişafı onu təşkil edən makro və mikro sistemlərin, sosial institutların təkamül istiqamətləri, bu inkişafa təsir edən endogen və ekzogen sosial amillərlə sıx bağlıdır. Müasir cəmiyyətlərin əsas xüsusiyyəti onların davamlı şəkildə mürəkkəbləşməsi ilə bağlıdır. Sosial dövlətinəsas prinsipləri cəmiyyətinözünün-özünə yardım etməsi, sosial aktorların qarşılıqlıköməyi, yəni müxtəlif təbəqədən olan insanların ehtiyacı olan təbəqələrə kömək etməsi, xeyriyyəçiliyin, maraq qruplarının inkişaf etdirilməsi, dövlət idarəçiliyində vətəndaşların iştirakı və s. ilə bağlıdır, bu isə sosial sinergetikanın əsas ideyası olan özünütəşkilatlandırma və özünüidarəetmənin əsaslarını təşkil edir. Eyni zamanda sosial dövlətə sosial sinergetik yanaşma şəxsiyyətin və sosial institutların özünütəkmilləşdirməsi, özünütənzimləməsi, böhranlı vəziyyətlərdə daxili və xarici amillərin təsiri ilə şəxsiyyətin əsas tələbatlarının təmin edilməməsi, sosial institutlarda baş verən innovasion dəyişikliklər nəticəsində

şəxsiyyətin sosial təcrid olunması, marginallaşması, müharibə və faciəli hadisələr nəticəsində şəxsiyyətin mənəvi-psixoloji zədə alması və bütövlükdə şəxsiyyət sisteminin və sosial institutların struktur transformasiyaya məruz qalması və s. məsələlərin şərhi, təhlili, proqnozlaşdırılması və perspektivlərin müəyyən edilməsi baxımından xüsusi aktuallıq kəsb edir. Sosial sinergetika bifurkasion (şaxələnmiş) seçim şəraitində sosial institutlar və şəxsiyyətin özünütəşkilatlandırması və gələcək inkişafı üçün müəyyən, özünə uyğun bir yolu seçmək imkanlarını açır. Sosial sinergetika bu zaman destruktiv təsirlərin gələcək inkişaf imkanlarını ləngitməsi və böhran vəziyyətinin yarana biləcəyi ehtimallarını da nəzərə alır. Belə ki, əks təsirlərə müqavimət göstərə bilməyən sosial sistem (sosial institutlar və şəxsiyyət) özünütəşkilatlandırma və özünütənzimləmə bacarığını itirərək reqressiyaya məruz qala bilər. Bu zaman sosial institutların və şəxsiyyətin gələcək inkişafla bağlı seçim imkanları məhdudlaşır. Bununla belə sinergetik alimlərin qeyd etdikləri kimi, sosial sistem hər zaman öz imkanlarını nəzərə alaraq, daha optimal olan inkişaf istiqamətini seçmək, qabaqcadan müəyyən etmək, mövcud maneələri dəf edərək, təkamül imkanlarını sürətləndirmək iqtidarına malikdir.

Digər tərəfdən, tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edən institutlaşma nəzəriyyəsi dövlətin əsasını təşkil edən sosial institutlara, o cümlədən şəxsiyyətə idarəetmənin təsiri imkanlarını açmağa kömək edir. Bununla yanaşı institutlaşma nəzəriyyəsi dövlət idarəçiliyinin əsası olan sosial institutların təkmilləşdirilməsi məqsədilə aparılan islahatların mahiyyətini və mövcud sosiumun və dövlətin inkişaf istiqamətlərini müəyyənləşdirməyə imkan yarada bilər.

“Sosial-sinergetik institutlaşma” nəzəriyyəsi sosial dövlətin nəzəri və tətbiqi əsaslarda öyrənilməsi və onun gələcək inkişafını proqnozlaşdırmaq və müəyyən etmək imkanlarını açır. Sosial sinergetika və Sosial İnstitutlaşma nəzəriyyələrinin qovşağında “sosial sinergetik institutlaşma”nın tədqiqatın metodoloji əsasları kimi qəbul edilməsində əsas səbəblər aşağıdakılarla bağlıdır:

1.Məlum olduğu kimi, nə qədər mükəmməl inkişaf strategiyası seçilsə də, mürəkkəb sistemlərin inkişaf istiqamətlərini konkret olaraq müəyyənləşdirmək və gözlənilən nəticələr əldə etmək qeyri-mümkündür. Bu baxımdan sosial sinergetika proqnozlu inkişafa yönəldiyi üçün daha əlverişlidir.

2.Sosial institutların və onların inkişafının idarə edilməsi dövlət, onun seçdiyi inkişaf strategiyası ilə bilavasitə bağlıdır. İnstitutlaşma nəzəriyyəsi cəmiyyətin sistemli şəkildə araşdırılmasına şərait yaradır. İnstitutlaşma və sosial sinergetik yanaşmaların birgə tətbiqi, yaxud "sosial sinergetik institutlaşma" sosial institutların müəyyən tarixi məqamlarda seçim etmək imkanlarını nəzərə almağa kömək edə bilər ki, bu da özünütənzimləmə və özünütəşkilatlandırma və kritik anda sosial institutların tənəzzülünün qarşısının alınması imkanları ilə bağlı olan çox vacib məqamdır. Sosial sinergetik yanaşma sosial institutlar üçün bifurkasion inkişaf və uyğun attraktanın seçilməsi və beləliklə də xaosun, böhranlı şəraitin idarə olunması imkanlarını açır. Bu zaman həm mürəkkəb sosial sistem (dövlət), həm də onun alt sistemləri (sosial institutlar) ayrılıqda özünü qoruyub saxlamaq imkanlarına malik olurlar.

3. İnstitutlaşma nəzəriyyəsi böhran vəziyyətlərində meqa, mezo və mikro sistemlərin (sosium, sosial institutlar, fərd) ümumi və sistemli inkişaf istiqamətlərini şərh edir, sosial sinergetika isə mürəkkəb sistemlərin böhran vəziyyətlərini nəzərə alır, böhranın idarə edilməsi məqsədilə proqnozlu ssenarilər təklif edir. Bu baxımdan sosial dövlətin yaranması və inkişaf istiqamətlərinin "sosial sinergetik institutlaşma" konsepsiyasına uyğun olaraq, İnstitutlaşma nəzəriyyəsi əsasında sistemli araşdırılması və Sosial sinergetik yanaşma əsasında daim dəyişən dünyamızda həm təməl, həm də alt sistemlərin özünütəşkilatlandırması, özünütənzimləməsi və özünüidarəetməsi prosesinin proqnozlu inkişafı imkanlarının araşdırılması xüsusi aktuallıq və əhəmiyyət kəsb edir.

Sosial dövlətin inkişaf xüsusiyyətlərinin şərhi və proqnozlaşdırılmasına yönələn "Sosial sinergetik institutlaşma" konsepsiyasının qısa xülasəsini aşağıdakı kimi təqdim etmək olar:

- sosial dövlət mərkəzəyönəlmiş idarəçilik sistemi olan sosial institutları qanuniləşdrir, yaxud sıradan çıxmasına şərait yaradır, institutların inkişafına təkan verməklə özü də konstitusion əsaslarda yenidən formalaşır;

- sosial dövlətin və onun alt idarəetmə sistemləri kimi çıxış edən sosial institutların inkişafı obyektiv və subyektiv, ekzogen və endogen amillərin nisbi qarşılıqlı asılılığına, sivilizasiyanın inkişaf qanunauyğunluqlarına və milli xüsusiyyətlərə əsaslanan mürəkkəb proses kimi şərh edilə bilər.

- sosial dövlətin inkişafı sosial institutların transformasiyasına, bəzi hallarda diferensiasiya yaxud inteqrasiya olunmasına, yaxud tamamilə öz əhəmiyyətini itirərək məhv olmasına, destruksiyasına gətirir ki, bu da sosial subyektlərin davranışlar sisteminin və onun əlaqələndirilməsi mexanizmlərinin dəyişməsi ilə nəticələnir.

-sosial tarixi böhranlar, müharibələr, inqilablar, sinfi toqquşmalar və digər hadisələr, sosial subyektlərin tələb və maraqlarının inkişafı, texnoloji tərəqqi, sosial institutlar arasındakı rəqabət, məqsədyönlü innovasion fəaliyyət, sosial agentlərin fəaliyyəti və s. institusional dəyişikliklərin ilkin səbəbi kimi çıxış edir.

- sosial dövlətin institusional sistemi onun inkişaf imkanlarını müəyyənləşdirir.

-sosial böhranlar dövründə sosial institutlarda baş verən keyfiyyət dəyişikləri sosial norma və qaydaların, sosial münasibət və əlaqələr sisteminin dəyişilməsi ilə müşayiət olunur və dövlətin institusional idarəetmə sistemində innovasiyaların tətbiq edilməsini tələb edir.

- sosial dövlətdə islahatlı dəyişikliklərin həyata keçirilməsinə yönələn inkişaf strategiyası sosial institutların strukturunun yenidən formalaşmasına, onların funksiyalaşmasının innovativ əsaslarda bərpa olunmasına, həmçinin sosial tələbatı nəzərə alan yeni institutların yaradılmasına istiqamətlənir.

- institusional dəyişikliklər bir çox hallarda səmərəli institusional strukturların formalaşması ilə nəticələnmir, yaxud yeni yaranan və ya innovativ əsaslarda bərpa olunan sosial institutların

effektli funksiyalaşması üçün müəyyən zaman müddəti tələb olunur.

- böhranlı vəziyyətlərin, institusional qeyri-sabitliyin, sosial transformasiya prosesinin idarə olunması məqsədilə sosial sinergetik proqnoz ssenarilərdən istifadə edilir və sosial tələbatdan doğan və dominanat xüsusiyyət daşıyan qeyri-formal qayda və normalar sistemi qanuni əsaslarda möhkəmlənməyə, institutlaşmağa başlayır və bu, öz növbəsində sosial gərginliyin zəifləməsinə, sosial adaptasiya prosesinin asan davam etməsinə kömək edir. Sosial subyektlərin uyğunlaşma meyli institutların yenidən formalaşması prosesinə ziddiyyətli təsir göstərir, belə ki, bir tərəfdən yeni xüsusiyyətlər mənimsənilir, digər tərəfdən isə əvvəlki xüsusiyyətlərdə durğunluq yaranır.[128]

-sosial dövlət sosial tələbatları nəzərə alaraq, innovasiyaların mənimsənilməsi, yeni institutların yaradılması, sosial kommunikasiyanın və sosial koordinasiyanın qorunub saxlanması və genişləndirilməsi strategiyasına üstünlük verir.

---

[128]ГражевскаяН.И."Теоретико-методологические новации институционализма в исследовании экономических трансформаций".жр." Європейськийвекторекономічногорозвитку". 2012. № 2 (13), 48 - 49

# FƏSİL II. DÖVLƏTİN SOSİAL SİYASƏTİ: ƏSAS MƏQSƏDLƏRİ, FUNKSİYALARI, İSTİQAMƏTLƏRİ

## 2.1 Sosial siyasət anlayışı, əsas məqsədləri və subyektləri

Sosial dövlət iqtisadi, siyasi, mədəni və sosial sahələrin vəhdətdə inkişafına yönəlir. Bu mənada əhalinin rifah halının yaxşılaşdırılması mövcud sosiumun tərəqqisini nəzərdə tutur. Sosial dövlət davamlı sosial inkişaf və bu inkişafın idarəedilməsi mexanizmlərinin müəyyənləşdirilməsi əsasında fərdin və cəmiyyətin tarazlaşdırılmış tərəqqisinə nail olmaq üçün əsaslı tədbirlər planı və strategiya həyata keçirir. Sosial dövlətin əsas ideyası sosial ədalət prinsipindən çıxış edərək, cəmiyyətdə heç bir ayrıseçkiliyə yol vermədən sosial inkişafa nail olmaqıdr. Sosial inkişaf prosesi sosial həyat keyfiyyətinin yüksəlməsi ilə bağlı olub, fərdin və cəmiyyətin tərəqqisini nəzərdə tutur. Sosial inkişaf dəyərlər və davranışlar sistemi olan sosial institutların funksiyalaşmasını müəyyənləşdirir. Aşağıdakı cədvəldə əhalinin sosial rifah halının yaxşılaşdırılmasına, sosial inkişafa təsir edən istiqamətlər öz əksini tapmışdır.

## Cədvəl 1.Cəmiyyət və onun müxtəlif sferaları[129]

| Mədəni inkişaf | Sosial inkişaf |
|---|---|
| informasiyanın istehsalı, toplanılması, emalı və ötürülməsi mədəni rasionalizm, intellekt<br>- mədəni həmrəylik<br>- ortaq fikrin mövcudluğu | - cəmiyyətin inkişafı və möhkəmlənməsi<br>- ümumi həmrəylik<br>- ümumi məsuliyyət<br>- ümumi identiklik<br>- ümumi sosial inam |




| İqtisadi inkişaf | Siyasi inkişaf |
|---|---|
| - instrumental rasionalizm, bacarıq və texnika<br>- resurslardan səmərəli istifadə<br>- itkinin azalması<br>- yoxsulluğun azalması<br>- daha normal inteqrasiya | - azadlığın artması<br>- demokratiya<br>- ümumi iştirak<br>- məqsədlər uğrunda birləşmək və həmrəylik |

---

[129]Gray, Mel (2007) "The progress of social developmentin south Africa" International Journal of social welfare, vol: 15, Issue: S1 P. S53, p.7

Cədvələ əsasən deyə bilərik ki, sosial dövlətin inkişafı iqtisadi, siyasi, mədəni, sosial sahələrin kompleks inkişafından asılıdır. Sosial dövlətin sosial siyasəti bu sahələrin inkişafına təsir edən göstəricilərin təmin edilməsini nəzərdə tutur və qeyd edilən sferaların inkişafı bilavasitəcəmiyyətin və insanın rifah halının yüksəlişini ehtiva edir.

Müasir dövrdə dövlətin sosial siyasətinin tənzimlənməsi istiqamətində fəaliyyətin genişləndirilməsi zərurəti aktuallaşıb. Dövlətin sosial funksiyasının xüsusi mahiyyət qazanması isə sosial dövlətin inkişafına şərait yaradır. Bu proses bilavasitə sosial olanın iqtisadiyyat üzərində üstünlük əldə etməsi, insanın layiqli həyat şəraitinin təmin edilməsinin dövlətin əsas məqsədinə çevrilməsi ilə bağlıdır.

Dövlətin sosial və iqtisadi sferanın tənzimlənməsi istiqamətində məqsədyönlü fəaliyyəti sosial siyasət prinsiplərini şərtləndirir. Bu mənada sosial siyasət dövlətin digər iqtisadi subyektlərin həyat və əmək şəraitinin dolğun təminatına yönəldilmiş fəaliyyətidir.

Dövlətin sosial sahədə apardığı islahatlar sosial siyasət zəminində qurulur və ərsəyə yetir. Beləliklə, sosial siyasətdövlətin, yerli hakimiyyət orqanlarının, müəssisə və təşkilatların əhalini işsizlikdən, istehlak qiymətlərinin artımından müdafiə edən kompleks sosial iqtisadi tədbirlər sistemidir.[130]

Müasir qloballaşma prosesi sosial siyasətin yeni mahiyyət kəsb etməsinə və standart proqramlar əsasında həyata keçirilməsinə, o cümlədən müxtəlif ölkələrdə sosial siyasətlə bağlı oxşar islahatların aparılmasına səbəb olmuşdur. Beynəlxalq, milli və sub-milli sosial siyasətlər ölkələrin yoxsulluq əleyhinə qlobal fikir birliyinə gələrək inkişaf edən sosial birliyin dəyişməsinə təsir etməkdədir.[131]

"Sosial siyasət" anlayışı XIX əsrin sonu – XX əsrin əvvəllərində Qərbi Avropada, bazar iqtisadiyyatının ilkin inkişaf

---

[130] Hacızadə E.M. "Sosiallaşan iqtisadiyyat". Bakı - Elm – 2006, s.114-118

[131] Jane Jenson "Diffusing Ideas for After Neoliberalism. The Social Investment Perspective in Europe and Latin America". 2010, p.61. Global Social Policy. Published by SAGE, http://www.sagepublications.com

mərhələsində meydana gəlib. Bu dövrdən etibarən sosial siyasət dövlət siyasətinin zəruri elementinə çevrilərək əhalini bazarın mənfi təsirlərindən müdafiə etməyə başlayıb.[132]

XIX əsrdə kapitalist bazar təsərrüfatının inkişafı cəmiyyətdə təbəqələşmə prosesini daha da dərinləşdirdi, şəhərin aşağı təbəqələrinin vəziyyəti daha da ağırlaşdı, yoxsul əhalinin sayı artdı. XIX – XX əsrlərin qovşağında İngiltərədə yoxsul əhalinin vəziyyətini araşdıran tədqiqatçı Ç.But "London əhalisinin həyatı və əməyi" adlı əsərində 4 milyonluq şəhərin 30,7% əhalisinin çox yoxsul insanlardan ibarət olduğunu göstərirdi.

XIX – XX əsrin əvvəllərində belə bir vəziyyət Avropa ölkələrinin hər birində müşahidə edilirdi. Yaranmış vəziyyət ictimai narazılıq doğururdu və zəhmətkeşlərin yoxsulluğu ziyalıların və daha sonra isə siyasətçilərin sosial proqramlar hazırlanması fikri ilə çıxış etməsinə gətirdi. İlk dəfə 1834-cü ildə İngiltərədə yoxsullara sosial yardım haqqında qanun qəbul edildi, pauperlər adlandırılan yoxsul insanlara pul yardımı və müvəqqəti yaşayış yerinin təmin edilməsi qərarı verildi.

1881-ci ildə Otto Bismark sosial qanunvericilik layihələrində birinin şərhi ilə bağlı qeyd etmişdi ki, "Dövlət ehtiyacı olanlara kömək etmək qayğısına qalmalıdır. Bu həm də dövlətin möhkəmləndirilməsinə çalışan siyasətin əsas məsələsidir, belə ki, onun əsas məqsədi yoxsul siniflərə aşılanmalıdır ki, dövlət yalnız zəruri deyil, həm də xeyir yaradan müəssisədir... dövlət yalnız daha təmin edilmiş əhalinin ehtiyac və maraqlarına xidmət edən institut deyil".[133] 1883-cü ildə Otto fon Bismark tərəfindən sağlamlığın sığortalanması ilə bağlı proqram qəbul edildi, 1889-cu ildə isə qocalığa görə müavinət verilməyə başlandı.[134] Sonra isə

---

[132] Дина О'Брайен "Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

[133] ЧикаловаИ.Р. "У истоков социальной политики государств Западной Европы".http://www.socpolitika.ru/rus/social_policy_research/applied_research/document469.shtml

[134] Дина О'Брайен "Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

Danimarka, Belçika, Fransa, İtaliya, Böyük Britaniya və Niderlandda qocalığa görə təqaüd verilməyə başlandı.

1883 – 1911-ci illərdə Avropanın 10 ölkəsində (Almaniya, İtaliya, İsveçrə, Danimarka, Belçika, Fransa, Norveç, İsveç, Böyük Britaniya) xəstəlik və əlilliyə görə sığorta haqqında qanun qəbul edildi. XIX əsrin sonlarında sənaye ölkələrinin xarici görünüşü dəyişdirilməyə, gecəqondular sökülməyə, kasıb əhalinin daimi yaşayış yeri ilə təmin edilməsinə, kommunal sistemin yaxşılaşdırılmasına, şəhərlərdə parklar salınmasına başlandı. 1908-ci ilə qədər Londonda bu məqsədlə 7880 mənzil tikilmişdi.[135]

I və II Dünya müharibələrinin doğurduğu iqtisadi çətinliklər sosial problemlərin dərinləşməsinə və müharibədən sonra sosial siyasətin yeni yönümdə inkişafına səbəb oldu. II Dünya müharibəsindən sonra Avropa dövlətləri "Ümumi rifah dövlətinin" qurulmasına başladılar. "Ümumi rifah dövləti" deyərkən əsasən vətəndaşlarının tələblərinin minimal səviyyədə təmin edilməsinə yönələn dövlət nəzərdə tutulur.[136] Ümumi rifah dövləti, yaxud sosial dövlət həm də hüquqi, demokratik dövlətdir və yüksək inkişaf etmiş, sosial yönümlü bazar iqtisadiyyatı əsasında funksiyalaşır. Müasir dövrdə sosial dövlətin bir sıra fərqli modelləri mövcuddur – neoliberal (ABŞ, Böyük Britaniya), mühafizəkar-korporativ (Fransa, Almaniya, İtaliya və digər Avropa ölkələri), sosial demokratik (Finlandiya, İsveçrə, Danimarka, Norveç). Bu modellər sosial əmək münasibətlərinin tənzimlənməsi, sosial sahəyə ayrılan dövlət xərcləri, əhaliyə təqdim edilən zəmanət və imtiyazlara görə fərqlənir.[137] Bu ölkələrdə sosial siyasət bilavasitə sosial rifah, rifah dövləti, sosial xərclər və s. anlayışlarla bağlıdır. Dövlətin bölgü, risklərin idarə edilməsi, sosial təcridolunmanın

---

[135] ЧикаловаИ.Р. "У истоков социальной политики государств Западной Европы".http://www.socpolitika.ru/rus/social_policy_research/applied_research/document469.shtml

[136] Дина О'Брайен "Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

[137] Олейникова Е.Г. «Модели социальной политики государства: проблемы теории и практики». Философия социальных коммуникаций. 2012. № 1 (18)

azaldılması ilə bağlı həyata keçirdiyi tədbirləri sosial siyasətin əsas istiqamətlərini təşkil edir.[138]

Bununla yanaşı sosial siyasətin hazırlanması və reallaşdırılması ilə bağlı obyektiv şərait fərqləndirilir:

1. Təbii-coğrafi şərait: ərazi və bu ərazinin təbii xüsusiyyətləri (iqlim, relyef, su ehtiyatları, coğrafi mövqeyi və s.), istehsal fəaliyyəti texnologiyaları, ictimai həyat formaları.

2. Təbii-ictimai şərait: insan və təbiətin uzunmüddətli qarşılıqlı fəaliyyəti əsasında mədəniyyət yaranır. Təbiətin və insanların həyat fəaliyyətinin ahəngdarlığı zərurəti.

3. Təbiət və insanların həyat fəaliyyətində ahəngdarlığın yaradılması, onlar arasında bərabər münasibətlərə nail olmaq, əməyin, məişətin və sosial birgəyaşayışın strukturu, mexanizmləri və texnologiyalarının hazırlanması zərurəti.

Mədəni-tarixi irs: insanların şüurlu yaradıcı fəaliyyətinin məhsulu, onların fikirlərinin, biliklərinin və əməklərinin əşyalaşması.[139]

Bununla əlaqədar olaraq sosial siyasətin aşağıdakı tipləri fərqləndirilir:

1.sosial sabit cəmiyyətlərdə sosial siyasət;

2.sistemli böhran və ya inqilabi vəziyyətdə olan cəmiyyətlərdə sosial siyasət;

3. deformasiya vəziyyətində olan sosial siyasət.[140]

Beləliklə, cəmiyyətin tərəqqi etmək imkanları sosial siyasətin yeni istiqamətli inkişafına gətirir və bu mənada “sosial siyasət” anlayışının vahid izahı yoxdur.[141]

---

[138] Ахинов Г.А., Калашников С.В.Социальная политика.Теория и практика. Москва, 2008, с.8, 9, 10

[139] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

[140]Григорьева И.А. Модели социальной политики в современном обществе: одна, две или больше?//Управленческое консультирование.1998. №1.С. 1825;Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

"Sosial siyasəti" aşağıdakı kimi müəyyən etmək olar:

Sosial siyasət – cəmiyyətdə xüsusi münasibətlər sistemidir

↓

İnsanların birgə fəaliyyəti, onların qarşılıqlı əlaqə və asılılığı ilə xarakterizə olunur

↓

Müəyyən sosial məqsədlər güdür və sosial mahiyyətli nəticələrə yönəlir

↓

Sosial-siyasi fəaliyyətin subyektləri və obyektlərinin aktiv fəaliyyəti əsasında reallaşır

↓

Sosial siyasətə xas qanunauyğunluqları, meylləri, keyfiyyətləri formalaşdırır

↓

Sosial siyasi qarşılıqlı təsir prinsiplərini müəyyən edir

↓

Şəxsiyyətin fəallığı ideyasına – sosial siyasi fəaliyyətin və sosial siyasi qarşılıqlı təsirin məqsədyönlü subyektinə əsaslanır.[142]

Ümumilikdə, "sosial siyasət" anlayışı iki əsas mənada işlədilir. Birinci mənada akademik anlayış kimi istifadə edilir, ikinci mənada isə hökumətlərin xarakterinə görə sosial mahiyyət daşıyan niyyət və fəaliyyətlərini ifadə edir.[143]

---

141 Дина О'Брайен"Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

142 Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

143 John Baldock "Social policy, social welfare ,and the welfare state". "The origins, character, and politics of modern social welfare systems". p. 8-20, www.oxfordtextbooks.co.uk/orc/baldock4e/.

Sosial siyasətin tənzimlənməsi ilə bağlı 1962-ci il 117 nömrəli "Sosial siyasətin əsas məqsədləri və normaları haqqında" Bəyannaməyə görə hər bir sosial siyasət ilk növbədə əhalinin rifahına və sosial tərəqqi cəhdlərinin genişləndirilməsinə istiqamətlənməlidir".[144] Onu da qeyd etmək olar ki, inkişaf etmiş ölkələrdə sosial siyasətə diqqətin artması inkişaf etməkdə olan ölkələrdə də bu sahəyə münasibətin dəyişməsinə səbəb olur. Beləliklə, sosial siyasət dinamik xüsusiyyətə malik olub sosial şərait və prioritetlərdən asılı olaraq dəyişir.[145]

Müasir sənaye cəmiyyətlərinin təməlində sosial siyasət və sosial xidmətlər durur.[146]Meryem Koraya görə, "sosial siyasət hər şeydən əvvəl iqtisadiyyat və siyasətlə yaxın əlaqəli olub, məhz bu çərçivədə məna kəsb edir. Sosial-iqtisadi haqlardan sosial xidmətlərə qədər aparılan dəyişikliklər sosial siyasətə təsir edir. İqtisadi sistemin sosial sistemdən uzaqlaşaraq müstəqillik qazandığı, siyasətin milli-ictimai hüdudlardan uzaqlaşdığı və milli dövlətin dünya iqtisadiyyatı ilə birləşdiyi, liberal iqtisadiyyatın hər sahədə öz siyasəti və iddiaları ilə önə çıxdığı müasir dövrdə sosial siyasət də buna uyğun müəyyənləşir".[147]

"Sosial siyasət – sosial proseslər və insanlar arasındakı münasibətlər kompleksinin tənzimlənməsinə yönəlmiş dövlət tədbirlərindən ibarətdir.[148]Ümumi anlamda sosial siyasət dövlətin ümumi rifah vəziyyətinə nail olmaq üçün gəlirlərin

---

[144]Бастина А.Ю., Ахмеева В.И.Направления и приоритеты социальной политики в россии на современном этапе. IV Международная студенческая электронная научная конференция. «Студенческий научный форум». 15 февраля – 31 марта 2012 года

[145] Дина О'Брайен "Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

[146] Ахинов Г.А., Калашников С.В.Социальная политика.Теория и практика. Москва, 2008, с.8, 9, 10

[147]Meryem Koray "Sosyal politikanın anlamı ve işlevini tartışmak…". Çalışma ve Toplum, 2007/4, s.20

[148]Бастина А.Ю., Ахмеева В.И.Направления и приоритеты социальной политики в россии на современном этапе. IV Международная студенческая электронная научная конференция. «Студенческий научный форум». 15 февраля – 31 марта 2012 года

bölüşdürülməsinə yönəlmiş fəaliyyət prinsiplərini və praktiki icra imkanlarını özündə birləşdirir. Bu ilk növbədə vətəndaşların sosial həmrəylik və minimal həyat səviyyəsi hüquqlarına malik olmaq haqqında inamlarına söykənir. Belə ki, əsas insan tələbatları ilə bağlı sosial minimumlar hər kəs üçün əlçatan olmalı və buna dövlət tərəfindən zəmanət verilməlidir. Ənənəvi olaraq sosial siyasət səhiyyə, təhsil, mənzillə təmin edilmə proqramlarını, sosial müdafiə və başqa sahələri özündə birləşdirir. Lakin sosial siyasət vətəndaşların sosial rifah halı ilə bağlı sahələrlə məhdudlaşmır, dolayısı ilə aidiyyəti olan sahələri də əhatə edir.[149]

Belə ki, ümumi siyasi prosesin çətin proqnozlaşdırılan, qeyri-müəyyən hissəsi və dəyişikliklərin pozitiv alətikimi nəzərdən keçirilən bölüşdürücü sosial siyasət məsələn, orta sinfin qocalıq təminatı haqqında proqramlar və başqa vasitələrlə maddi və qeyri-maddi ehtiyatları xidmət müddətindən, gəlirlərindən asılı olaraq kasıblar və varlılar, etnik və sosial qruplar, sosial siniflər arasında bölüşdürmək haqqında qərar verə bilər.[150]Belə demək olarsa, sosial siyasət cəmiyyətin bütün sahələri – gəlirlərin bölüşdürülməsi, insan hüquqlarının müdafiəsi və sosial ədalətlə,[151] yaşlılar, uşaqlar, cinayət, iqtisadiyyat, elm, təhsil, ailə, bərabər imkanlar, gender, səhiyyə, gəlir, sosial xidmət, rifah institutları, yoxsulluq, sosial qayğı, mass media, işsizlik, məşğulluq, gənclər və s. ilə bağlıdır.[152]

Sosial siyasətin özünəməxsus xüsusiyyətləri aşağıdakı cədvəldə aydın şəkildə təsnif edilir:

| **Özünəməxsus əlamətləri** | **Sosial siyasətin özünəməxsus xüsusiyyətləri** |
|---|---|
| 1. Reallaşma istiqamətləri və sahələri | -sosial əmək münasibətləri sahəsi;<br>-təhsil sahəsi; |

[149] Дина О'Брайен"Краткий обзор эволюции социальной политики". Центр Экономического Анализа "Ракурс. "Обзоры литературы и статистики, № 6.2, 19 Ноября 2009г., с.1-2

[150]Richard M. Titmuss "Welfare States: Construction, Deconstruction, Reconstruction I", 1974, p.141

[151]Ortiz, Isabel. Social Policy.

[152] Ахинов Г.А., Калашников С.В. Социальная политика. Теория и практика. Москва, 2008, с.8, 9, 10

| | |
|---|---|
| üzrə | -səhiyyə sahəsi;<br>-bədən tərbiyəsi və idman sahəsi;<br>-dövlətin mənzil təminatı siyasəti;<br>-əhalinin sosial müdafiəsi sahəsi. |
| 2. İşlənmə və reallaşma səviyyəsinə görə | -dövlətin sosial siyasəti;<br>-regional sosial siyasət;<br>-munisipal sosial siyasət;<br>-müəssisədə, təşkilatda, idarədə sosial siyasət. |
| 3. Formalaşma və reallaşma mexanizmlərinə görə | -sosial siyasətin maliyyə-iqtisadi təminatı;<br>-normativ-hüquqi təminat;<br>-elmi-metodoloji təminat;<br>-informasiya təminatı;<br>-kadr təminatı. |
| 4. Sosial-demoqrafik kateqoriya və obyektlərin reallaşması üzrə | -ailə ilə bağlı sosial siyasət;<br>-gənclərlə bağlı sosial siyasət;<br>-əlillərlə bağlı sosial siyasət;<br>-uşaqlarla bağlı sosial siyasət;<br>-ahıl yaşlı vətəndaşlarla bağlı sosial siyasət;<br>-qadınlarla bağlı sosial siyasət və s. |
| 5.Sosial siyasətin mərhələliyi | - uzun müddətli;<br>- orta müddətli;<br>- qısa müddətli;<br>- cari. |
| 6. Sosial siyasətin səmərəliliyi və qeyri-səmərəliliyi üzrə | - Səmərəli – təsirli, nəticəli, müəyyən səviyyədə reallaşan, əhali tərəfindən anlaşılan;<br>- Qeyri-səmərəli – qeyri-təsirli, nəticəsiz, əhali tərəfindən anlaşılmayan. |

Öz xarakterinə görə sosial siyasət sistemlidir, yəni qarşılıqlı əlaqəli və qarşılıqlı asılı elementlər toplusu kimi çıxış edir.[153] Sosial siyasət sistem kimi subyekt və obyektə, subyekt-obyekt münasibətlərinə, məqsəd və mexanizmlərə malikdir. Sistem olduğundan sosial siyasət müəyyən subyekt-obyekt münasibətlərinə və vəziyyətə uyğun olaraq şəcərəli struktura malikdir və ehtiyatlarla təmin olunur.[154] Sosial siyasətin əsas elementləri aşağıdakılardır:

[153] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

[154] Ахинов Г.А., Калашников С.В.Социальная политика.Теория и практика. Москва, 2008, с.8, 9, 10

- Obyekt;
- Subyekt;
- Məqsəd və vəzifələr;
- Funksiyalar;
- Prioritetlər və prinsiplər;
- Reallaşdırılması formaları, vasitələri və metodları.

Müasir sosial siyasətin üfüqi struktur modeli aşağıdakı kimi təqdim edilə bilər:[155]

| **subyekt** | **mexanizm** | **vasitə** | **obyekt** | **məqsəd** | **nəticə** |
|---|---|---|---|---|---|
| ↓ | ↓ | ↓ | ↓ | ↓ | ↓ |
| dövlət → | sosial siyasət → | tələbatların reallaşması → | insan → | insan inkişafı → | cəmiyyətin sosial sahənin inkişafı; cəmiyyətin inkişafı |

Sosial siyasətin üç əsas istiqaməti mövcuddur:

1.Əmək fəaliyyəti üçün şəraitin yaradılması, məşğulluğun və əmək haqqının tənzimlənməsi, işçinin əmək keyfiyyətlərinin təkmilləşdirilməsi.

Funksiyası – fəallıq.

Obyekti – iqtisadi fəal əhali.

2. Sosial təminat sistemi vasitəsilə gəlirlərin birbaşa dəstəklənməsi.

Funksiyası – Müdafiə.

Obyekti – Əhalinin daha çox ehtiyacı olan, iqtisadi cəhətdən müdafiə olunmayan təbəqələri.

---

[155] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

3.İnsan şəxsiyyətinin inkişafı, sağlamlığın qorunması, mədəni səviyyənin yüksəldilməsi, sosial infrastruktur sistemi vasitəsilə “təbii” xidmətlərin təmin olunması.

Funksiyası – konstruktiv.

Obyekti – bütün əhali təbəqələri.[156]

Yuxarıda qeyd edilənlərə əsasən sosial siyasətin obyektlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

- Ölkənin bütün əhalisi (sosial birliklər və qruplar);
- Sosial münasibətlər;
- Cəmiyyətdəki müxtəlif formalı sosial təzahürlər və proseslər.

Sosial siyasətin başlıca **obyekti***cəmiyyətin sosial sahəsi* hesab edilir, belə ki, sosial sahə yuxarıda qeyd edilən bütün elementləri özündə birləşdirir.

Sosial siyasətin **subyektləri** dedikdə, vətəndaşlar və sosial qruplar, həmçinin onların maraqlarını əks etdirən institutlar, təşkilatlar və sosial sahədə qarşılıqlı fəaliyyət göstərən hökumət orqanları başa düşülür. Sosial siyasətin əsas subyekti dövlət hesab edilir və onun əsas vəzifələri –

-cəmiyyətdə sosial ədalətə nail olmaq istiqamətində fəaliyyət;

-sosial bərabərsizliyin zəifləməsi;

-hər bir kəsin işlə, yaxud digər mövcud olma mənbələri ilə təmin edilməsi;

-cəmiyyətdə sülh və əmin-amanlığın qorunub saxlanması;

-insan üçün əlverişli həyat şəraitinin formalaşdırılması kimi müəyyənləşdirilir.[157]

Müasir dövrdə bazar yönümlü münasibətlərin formalaşması sosial siyasi fəaliyyətin – şəxsi sahibkarlıq, işgüzar dairələr, ictimai fondlar, ailələr, əmək kollektivləri, siyasi partiyalar və hərəkatlar kimi yeni subyektlərinin yaranmasına səbəb olub. Bu gün sosial

---

[156]Бастина А.Ю., Ахмеева В.И.Направления и приоритеты социальной политики в России на современном этапе. IV Международная студенческая электронная научная конференция. «Студенческий научный форум». 15 февраля – 31 марта 2012 года

[157]Социальная политика / под общ. ред. Н.А. Волгина. 4-е изд., перераб. и доп. М.: Издательство «Экзамен», 2008. 943 с.

siyasətin əsas subyektlərindən biri iş təminatçılarıdır, lakin onların fəaliyyəti hakimiyyət orqanları tərəfindən müəyyən edilən ümumi sosial qaydalarla məhdudlaşdırılır. Belə bir fikir mövcuddur ki, sosial siyasətin ilkin subyektləri – sosial qruplar və birliklər, ikinci dərəcəli subyektləri isə, ictimai hərəkatlar və təşkilatlar, ilkin sosial subyektlərin maraqlarına iddia edən hökumət-idarəetmə təşkilatlarını strukturlaşdırır. Bu institutlar aşağıdakılar ola bilər:

1.hüquqi münasibətlərdə:

-dövlət və qeyri-dövlət təşkilatları;

-dövlət və qeyri-dövlət;

-qanuni və qeyri-qanuni.

2.təşkilati münasibətlərdə:

- az və ya çox strukturlaşmış (siyasi partiyalar, həmkarlar ittifaqları, ictimai birliklər və hərəkatlar, hökumət idarəetmə strukturları);

- az strukturlaşmış və ya praktiki olaraq struktursuz (nizamsız çıxışlar və qiyamlar tipli qeyri-təşkilati sosial hərəkatlar).[158]

Sosial siyasət subyektləri – cəmiyyətdəki vəziyyəti ilə əlaqədar qarşılıqlı fəaliyyətdə olan sosial qrupların nümayəndələridir. Sosial siyasət subyektləri – real olaraq müstəqil və faktiki fəaliyyət göstərən sosial qruplar və onları təmsil edən orqanlar, təşkilatlar, institutlar, strukturlardır. Beləliklə, sosial siyasətin ilkin subyektləri olan sosial qruplar –

-fəal iştirakçılar – fəaliyyət göstərən sosial qüvvələr;

-passiv iştirakçılar – qeyri-təşkilati, potensial, formal sosial qüvvələr hesab edilir.

İkinci dərəcəli sosial subyektlər – birincilərin maraqlarından çıxış edən orqan və təşkilatlardır.

Sosial siyasi fəaliyyətin xüsusi qrupları isə özündə müasir sosial-siyasi elitanı cəmləşdirir. Bu –

- siyasi liderlər;

- elita;

- idarəedicilər;

- məmurlar;

---

[158]ВолгинН.А.«Социальная политика», Изд. "Экзамен", Москва, 2003, с.735

- dövlət qulluqçularıdır.

Bununla yanaşı sosial siyasət subyektlərini aşağıdakılara da bölürlər:

-rezident (daimi) olanlar, yəni ölkə ərazisində fəaliyyəti konstitusiya və digər qanunverici aktlar əsasında müəyyən edilən şəxslər;

- qeyri-rezident olanlar, yəni hökumətə müəyyənləşmiş, o cümlədən sosial şərtlər əsasında kredit verən, həmçinin fəaliyyət göstərdikləri ölkə ərazisində mövcud sosial qanunvericiliyin tələblərini nəzərə almalı olan xarici iş təminatçıları.[159]

Sosial siyasətin formaları, vasitələri və reallaşdırılması metodları da fərqləndirilir. Sosial siyasətin **forması** dedikdə, sosial siyasətin reallaşdırılması üzrə konkret fəaliyyət növləri – qərarlar, proqramlar, planlar və s. nəzərdə tutulur. Vasitələr isə sosial siyasətin reallaşdırılması ilə bağlı resurslar (maliyyə, iqtisadi, texniki, informasiya, kadr) məcmusudur. Sosial siyasətin reallaşdırılması metodları – inandırma, qanuna söykənmə, ictimai rəyin yaradılması, stimullaşdırma, analiz və proqnoz, fəaliyyətin əlaqələndirilməsi, sosial eksperimentlərin keçirilməsi, təcrübənin yayılması və s. ibarətdir.[160]

Sosial siyasətin reallaşması **mexanizmləri** vacib sosial problemlərin həllinə yönəlir. Mexanizmlər aşağıdakıkimi təsnif edilir:

1.Sosial siyasətin reallaşdırılması subyektlərinin müəyyən edilməsi;

2.Sosial siyasətin obyektlərinin seçilməsi;

3.Normativ-hüquqi sistemin hazırlanması;

4.Sosial siyasətin reallaşması ilə bağlı metod və tədbirlərin müəyyənləşdirilməsi;

5.Sosial siyasətin reallaşması ilə bağlı praktik fəaliyyət;

---

[159] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

[160] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

6.Sosial siyasət kursunun səmərəliliyinin qiymətləndirilməsi.[161]

Sosial siyasət özündə siyasi, sosial və sosial-siyasi **funksiyaları** birləşdirir. Siyasi funksiyalar aşağıdakı kimi müəyyən edilir:

- adaptasiya – daxili və xarici mühit şəraitinə uyğunlaşma;
- inteqrasiya – cəmiyyətin bütün elementlərinin razılaşdırılması;
- artikulyasiya – ayrı-ayrı sosial qrupların maraqlarının ifadə edilməsi;
- məqsədyönümlük – cəmiyyətin inkişafı məqsədlərinin və vəzifələrinin qoyulması;
- koordinasiya – sosial siyasətin müxtəlif növ və istiqamətlərinin qarşılıqlı fəaliyyətinin təsis edilməsi;
- sosiallaşma – cəmiyyət üzvlərinin sosial-siyasi fəaliyyətə uyğunlaşdırılması;
- cəmiyyət üzvlərinin müəyyən norma və dəyərlərə yönəldilməsi;
- siyasi elitanın seçilməsi və hazırlanması (recruitment).

Sosial siyasi funksiyalar:

- cəmiyyətin dəyərlərinin qorunub saxlanması;
- cəmiyyətin sosial sahəsinin məqsəd və vəzifələrinin müəyyənləşdirilməsi;
- cəmiyyətdə sosial diferensiasiya prosesinin məhdudlaşdırılması;
- sosial münaqişələrin qarşısının alınması;
- sosial münasibətlərin tənzimlənməsi;
- fərdlərin və qrupların sosial-siyasi fəallığının stimullaşdırılması.

Sosial funksiyalar:

- demoqrafik vəziyyətin yaxşılaşdırılması;
- kütləvi kasıblığın qarşısının alınması;

[161] Шумеев В.Г. "Механизмы формирования и реализации социальной политики в регионе в условиях современных российских реформ: Политологический аспект". Диссертация на соискание ученой степени к.полит.н., Ростов-на-Дону, 2004.

- əhalinin səmərəli məşğulluğunun təmin edilməsi;
- işçi qüvvəsinin və insanın özünün yenidən istehsalı;
- ailənin əsas sosial institut kimi qorunub saxlanması;
- əhalinin sosial müdafiəsinin təmin edilməsi.[162]

Bir çox müəlliflərə görə, sosial siyasətin əsas **məqsədi** fərdlərin və sosial qrupların tələbatlarının ödənilməsi ilə bağlıdır. Əsasən sosial siyasət maddi və mənəvi tələbatların ödənilməsi əsasında fərdin və cəmiyyətin inkişaf etdirilməsinə yönəlir. Bu zaman sosial siyasətin əsas kateqoriyası olan "tələbat" məqsəd kateqoriyasından məqsədə nail olma vasitəsi kateqoriyasına keçir.[163] Beləliklə, sosial siyasətin əsas məqsədi ayrı-ayrı qrupların ehtiyac və fikirlərini nəzərə alaraq sabitlik və razılığı təmin etməyə yönəlmiş vahid siyasətin hazırlanması ilə bağlıdır.[164]

Müasir sosial siyasətin məqsədi – insan şəxsiyyətinin inkişaf etdirilməsi, onun tam ahəngdar mövcudluğu üçün əlverişli şəraitin yaradılması, insanın yaşayışı və həyatı üçün zəruri maraq və tələbatları ilə bağlı onda məsuliyyət hissinin tərbiyə edilməsi kimi müəyyən edilir.[165]

Sosial siyasətin məqsədləri dedikdə aşağıdakılar nəzərdə tutulur:

- insanların maddi vəziyyətinin və həyat şəraitinin yaxşılaşdırılmasına nail olmaq;
- əhalinin məşğulluğunun təmin edilməsi, işçi qüvvənin keyfiyyətinin və rəqabət davamlılığının yüksəldilməsi;
- əmək, sosial müdafiə, təhsil, sağlamlığın müdafiəsi, mədəniyyət, mənzil təminatı sahəsində vətəndaşların konstitusiya hüquqlarına zəmanət verilməsi;

---

[162] Ракитский Б.В. Социальная политика, социальная защита, самозащита трудящихся в обществе. Ч. 1. М, 1998. С.25 -26.; Товма Н.А., Социальная политика и благосостояние общества // "Вестник" - КазНУ, Серия Экономика 2007 1- Том, №2, 185 - 188

[163] Экономикс: принципы, проблемы и политика: Учебник. Под ред. Кэмпбелла Р., Макконнелла, Стэнли Л., М.: Республика. - 1995.

[164]Ortiz, Isabel. SocialPolicy.

[165] Экономикс: принципы, проблемы и политика: Учебник. Под ред. Кэмпбелла Р., Макконнелла, Стэнли Л., М.: Республика. - 1995.

- sosial siyasətin ailəyə, qadınlara, uşaqlara və gənclərə verilən sosial hüquq və sosial zəmanətin təmin edilməsinə yönəlmə;

- demoqrafik vəziyyətin normallaşdırılması və yaxşılaşdırılması, əhalinin, xüsusilə də uşaq və əmək qabiliyyətli vətəndaşların ölüm səviyyəsinin aşağı salınması.[166]

İlkin məqsədlər kimi əmək haqqının, təqaüd və imtiyazların ödənilməsində gecikmələrin aradan qaldırılması, dövlətin minimal sosial standartları (sosial normativlər) sisteminin formalaşdırılması, yaşayış minimumunun qanuni əsaslarda müəyyənləşdirilməsi, onun hesablanması metodikasının dəqiqləşdirilməsi, vergi kodeksinin qəbul edilməsi. Bununla yanaşı əhalinin müəyyən qruplarının əmək haqqının və əmək təqaüdləri ilə bağlı dövlətin minimal zəmanətlərinin yüksəldilməsi, daha ədalətli bölgü məqsədilə pul gəlirləri və vergi sisteminin yenidən nəzərdən keçirilməsi, vətəndaşların əmək hüquqlarının müdafiəsi sisteminin yaradılması, təqaüd sistemində, sosial sığorta və mənzil-kommunal təsərrüfatı sistemində geniş miqyaslı islahatların keçirilməsi nəzərdə tutulur.[167]

Sosial bazar funksionallığını hədəf seçən ölkələrdə sosial siyasət özünün başlıca məqsədlərini aşağıdakı geniş həlqədə ehtiva edir:

- ən ümdə sosial və rifah təminatlarını bərqərar edən vətəndaş cəmiyyətinin formalaşdırılması və təkmilləşdirilməsi;

- vətəndaşların təhsil hüquqlarının reallaşmasına müvafiq şəraitin yaradılması;

- əhalinin ən geniş təbəqəsinə real səhiyyə yardımının göstərilməsi, tibbi xidmətin keyfiyyətinin yüksəldilməsi, idman və bədən tərbiyəsinin kütləvi inkişafının əldə olunması;

- mədəni potensialın inkişafı və ölkənin mədəni irsinin qorunması;

- mədəni mühitin vahidliyinin və mədəni dəyərlərin geniş əhali təbəqəsi tərəfindən istifadəsinin təmin edilməsi;

---

[166] Социальная политика и социальная работа в изменяющейся России / Под ред. Ярской – Смирновой Е., Романова П. – М; ИНИОН-РАН, 2002, с.351

[167] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

- effektiv və sivilizasion əmək bazarının yaradılması;

- sosial təminatlar sırasında mütəmadi maliyyə dayanıqlığının təminatını;

- əhalinin ödəniş qabiliyyətli tələbləri əsasında sosial standartlı mənzil şəraitinin yaradılması;

- dövlət gəlirləri, büdcə vəsaitlərinin təkrar bölgüsü sistemini obyektiv səbəblərdən özlərini sərbəst təmin edə bilməyən ən ehtiyaclı əhali təbəqəsinə yönəldilməsi və əhalinin sosial müdafiəsində ünvanlılıq institutunun möhkəmləndirilməsi;

- aztəminatlı əhalinin mənzil-kommunal, nəqliyyat, təhsil, tibbi xidmətlərdən geniş istifadəsinin təminatı;

- sərbəst gəlir əldə etmək şəraiti yaratmaqla peşəkar kadr hazırlığının effektiv sisteminin formalaşdırılması;

- müxtəlif əhali təbəqələri üçün ölkə daxilində və xaricdə vakansiyalar haqqında ümumi imkanlı informasiyalara girişin təminatı və yeni peşələrə yiyələnmə proqramlarının hazırlanması.[168]

Sosial siyasətin əsas **vəzifələri** kimi aşağıdakıları müəyyən etmək olar:

1.ictimai münasibətlərin ahəngdarlığı;

2.vətəndaşların həyat fəaliyyəti üçün sosial zəmanətli şəraitin yaradılması;

2.elmi-texniki tərəqqinin təmin edilməsi, innovasion texnologiyaların tətbiq edilməsi, innovasion fəaliyyətin inkişafı;

3.ailə institutunun möhkəmləndirilməsi;

4.cəmiyyətdə sosial ədalətin təmin edilməsi.[169]

Sosial siyasətin **prinsipləri**:

1.Sosial ədalət prinsipində ədalət bərabər imkanlar və şəxsi əməyə və nailiyyətlərə görə mükafatlandırma kimi nəzərdən keçirilir. Burada ədalətin bölüşdürücü və təyinedici növləri fərqləndirilir.

2.Sosial məsuliyyət prinsipi fərddən və sosial qrupdan maksimum özünütəminetmə cəhdləri tələb edir. Dövlət yalnız

---

[168] Hacızadə E.M. "Sosiallaşan iqtisadiyyat". Bakı - Elm – 2006, s.114-118

[169] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

müstəqil şəkildə özünü təminetmə imkanı olmayan insanlara yardım etməlidir.

3.Sosial həmrəylik prinsipinə görə cəmiyyət vahid sistemdir və burada nemətlərin güclülərdən zəiflərə bölüşdürülməsi aparılır. Bölüşdürmənin əsas mexanizmləri vergi sistemi və müavinətlərlə bağlıdır.

4.Sosial əməkdaşlıq prinsipinə görə tripartizm ideyası həyata keçirilməlidir. Bu ideyaya görə iş təminatçısı, işçi və dövlət arasında hüquq bərabərliyi olmalıdır.

5.Sosial kompensasiya prinsipi sosial statusları ilə əlaqədar müəyyən məhdudiyyətləri (imtiyazların verilməsi, sosial xidmət və s.) olan vətəndaşların sosial müdafiəsini nəzərdə tutur.

6.Sosial təzminat prinsipi vətəndaşlara bütün həyat sferalarında zəmanətli minimumların verilməsi ilə bağlıdır.

7.Ehtiyat (subsidinarlıq) prinsipinə görə ilkin birliklərin hüquq və maraqları daha yüksək səviyyəli birliklərin hüquq və maraqlarından üstün tutulur. Sosial siyasətdə bu ictimai təşəbbüslərə üstünlük verilməsi, ağırlıq mərkəzinin regional və özünüidarəetmə səviyyəsinə ötürülməsidir.[170]

Keçid iqtisadiyyatının sosial siyasətində regionların rolu yüksəlir. Sosial ədalət prinsipi regionların sosial inkişaf səviyyəsinin bərabərləşdirilməsini nəzərdə tutur.

Regional məşğulluq, sosial müdafiə, sahibkarlığın dəstəklənməsi proqramlarının hazırlanması zəruridir. Regional sosial siyasətdə əsas diqqət aşağıdakı məsələlərə yönəlir:

- sosial əhəmiyyətli xərclərin büdcədən maliyyələşdirilməsi şərtlərinin bərabərləşdirilməsi;
- problemli regionlarda sosial islahat və sosial inkişafın dəstəklənməsi;
- sosial islahatların ərazi şərtlərinə uyğunlaşdırılması.[171]

---

[170] Гонтмахер Е.Ш. Принципы и основные элементы социальной стратегии // Территориальные проблемы социальной политики. - М., 2008. - С. 16-18.

[171] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

Bazar iqtisadiyyatına keçidlə bağlı yaranan böhran şəraitində əhalinin sosial müdafiəsinin əsas elementləri sosial yardım, pul, yaxud natural şəkildə, xidmət, yaxud imtiyazlar formasında, sosial təzminat əsasında və dövlət tərəfindən qanunla müəyyənləşdirilmiş sosial yardım hesab edilir. Sosial xidmətlər, tibbi-sosial, sosial iqtisadi, sosial məişət, sosial psixoloji, sosial pedaqoji və insanların dövlət və qeyri-dövlət orqanları tərəfindən digər müdafiə formaları da sosial müdafiə sisteminin əsas elementlərini təşkil edir.

Müasir dövrdə əhalinin sosial müdafiəsi aşağıdakıları əhatə edir:

- sosial təminat;
- sosial sığorta;
- sosial yardım;[172]
- sosial xidmət.

*Sosial təminat* dedikdə, vətəndaşların maddi, yaxud sosial vəziyyətinin dəyişməsi ilə əlaqədar dövlət tərəfindən yaradılmış və həyata keçirilən hüquqi, iqtisadi və təşkilati tədbirlər sistemi nəzərdə tutulur. *Sosial sığorta* – dövlətin sosial müdafiə sisteminin bir hissəsi olub, məşğul əhalinin maddi və sosial vəziyyətinin onlardan asılı olmayan səbəblərdən dəyişilməsi ehtimalının qarşısının alınmasına yönəlir.[173] Sosial xidmətlər sistemi (səhiyyə, təhsil, peşə hazırlığı, məşğulluq xidməti) dövlətin sosial infrastrukturuna söykənir və dövlət sosial xidmətin maliyyələşdirilməsində, istehsalında və müəyyənləşdirilməsində iştirak edir.[174]

Sosial müdafiənin və sosial təminatın əsas üstünlükləri və istiqamətləri aşağıdakılar hesab edilir:

---

[172] Шевяков, А. Ю. Социальная политика и распределительные отношения: проблемы и пути реформирования / А. Ю. Шевяков // Экономическая наука современной России. – 2005. – № 3. – С. 52–67.

[173] Денисов, П. В. Бюджетно-страховой механизм регулирования рынка социальных услуг / П. В. Денисов // Экономические науки. – 2009. – № 4. – С. 39–42.

[174] Денисов, П. В. Бюджетно-страховой механизм регулирования рынка социальных услуг / П. В. Денисов // Экономические науки. – 2009. – № 4. – С. 39–42.

- Əhalinin gəlirlərinin indeksləşdirilməsi, yəni əhalinin əsas gəlirlərinin real istehlak mahiyyətinin yüksəldilməsi ilə bağlı kompleks tədbirlər;

- Gəlirlərlə bağlı minimal sosial təzminatların, yaşayış minimumunun təmin edilməsi;

- Minimal standartların və normativlərin tənzimlənməsi, büdcədən təhsil, səhiyyə, yaşayış, sosial xidmət və digər sahələrə minimal normativ xərclərin müəyyən edilməsi;

- İmtiyaz, endirim və subsidiyaların təqdim edilməsi. Əsas problem onların maliyyə təminatsızlığı ilə bağlı olduğundan imtiyazlar kasıb əhaliyə ünvanlı sosial yardım kimi verilir.

- Məcburi sosial sığorta. Məcburi sosial sığorta yaşla əlaqədar müddətli, yaxud daimi olaraq işin itirilməsi, xəstəlik, istehsalat zədəsi ilə bağlı yaranan maddi itkilərin əvəzlənməsidir (təqaüd, xəstəliyə və işsizliyə görə müavinət ödənilməsi və s.);

- Sosial təminat - əmək qabiliyyətindən məhrum olan cəmiyyət üzvlərinə - ahıllar, əlillər, uşaqlar, himayədarını itirmiş şəxslərə yönəlir. Sosial xidmət də (qocalar evi, müvəqqəti yaşayış mərkəzləri, protez qoyulması) bu sistemə daxildir.

- Sosial yardım daimi konkret xüsusiyyətlidir. Bu tip yardım almaq üçün gəlirin ailənin bir üzvünün yaşayış minimumdan aşağı olması gərəkdir.[175]

Əhalinin sosial müdafiəsi bilavasitə dövlət və yerli idarəetmə orqanlarının, sosial fondların, qeyri-hökumət fondlarının büdcəsi əsasında həyata keçirilir. Əhalinin sosial müdafiəsinin əsas prinsipləri humanistlik, sosial ədalət, ünvanlılıq, komplekslilik, şəxsiyyətin hüquq və azadlıqlarının təmin edilməsi hesab edilir. Əhalinin sosial müdafiəsinin əsas məqsədləri aşağıdakılardır:

1.ailənin orta aylıq gəliri yaşayış minimumundan aşağı olduqda mütləq kasıblıqdan xilas etmək;

2.ekstremal şəraitlərdə əhaliyə maddi kömək göstərilməsi;

3.sosial həssas qrupların bazar iqtisadiyyatı şəraitinə uyğunlaşmasına yardım etmək.

---

[175] Гринберг, Р. О социальной политике современной России / Р. Гринберг, А. Рубинштейн // Экономические стратегии. – 2004. – № 1. – С. 64–67.

Çətin həyat şəraitində sosial yadım aşağıdakı formalarda həyata keçirilir:

1.pul ödənişləri (sosial yardım, subsidiyalar, kompensasiyalar və digər ödənişlər);

2.maddi kömək (yanacaq, qida məhsulları, paltar, ayaqqabı, dərman ləvazimatları və digər formalı maddi yardımlar).[176]

Dövlət sistemində pulsuz sosial xidmət aşağıdakı insan qruplarına şamil edilir:

1.kömək və xidmət edəcək qohumları olmayan və özünə xidmət edə bilməyən yaşlı, xəstə, əlil vətəndaşlar;

2. işsizlik, təbii fəlakətlər, qəzalar, müharibə və etnik münaqişələrdə zərər çəkən vətəndaşlar;

3.çətin həyat şəraitində olan azyaşlılar.[177]

Müasir sosial siyasətin *əsas prioritetləri* aşağıdakıları əhatə edir:

1.Prioritetlər – sosial siyasətin ilkin, zəruri və daha əhəmiyyətli problemləridir.

2.Prioritetlər – dövlətin və cəmiyyətin əsas fəaliyyət istiqaməti kimi ən əhəmiyyətli sosial problemlərin həllinə yönəlir.

Müasir sosial siyasətin *meqaprioritetləri* – milli təhlükəsizliyin və ölkənin müstəqilliyinin təmin edilməsi ilə bağlıdır.

*Sosial siyasətin mezoprioritetləri* – cəmiyyətdəki sosial ədalətsizliyin və kəskin təbəqələşmənin qarşısının alınması; orta sinfə aid olan insanların sayının artırılması; yeni dəyərlər sisteminin yaradılması; sosial müdafiənin demokratik sisteminin yaradılması; iqtisadi fəallıq üçün şərait yaradılması; müasir sosial infrastrukturun yaradılması; əhalinin həyat fəaliyyətinin sosial sahələrində tərəqqinin təmin edilməsi hesab edilir.

---

[176] Шевяков, А. Ю. Социальная политика и распределительные отношения: проблемы и пути реформирования / А. Ю. Шевяков // Экономическая наука современной России. – 2005. – № 3. – С. 52–67.

[177] Денисов, П. В. Бюджетно-страховой механизм регулирования рынка социальных услуг / П. В. Денисов // Экономические науки. – 2009. – № 4. – С. 39–42.

*Mikroprioritetlər* – həyat səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi; əhalinin tam məşğulluğunun təmin edilməsi; mənzil təminatı; təhsil və səhiyyə sisteminin inkişafı; demoqrafik vəziyyətin yaxşılaşdırılması, ailə siyasətinin hazırlanması və s. kimi qəbul edilir.[178]

Uğurlu sosial siyasət ədalətli cəmiyyət quruculuğunda təcəssüm olunur. Utopik baxışlar sistemindən fərqli olaraq müasir *ədalətli cəmiyyət* yüksək sosial zəmanətli olub, real amal və istəklərə əsaslanır. Ədalətli cəmiyyət quruculuğu aşağıdakı prioritetləri əks etdirir:

- sosial müdafiənin ünvanlı sisteminin inkişafı;
- əlillərin cəmiyyətə inteqrasiyası;
- uşaq fəqirliyinin xəbərdarlığı və məhdudlaşdırılması;
- pensiya sisteminin təkmilləşdirilməsi;
- keyfiyyətli təhsil və səhiyyə xidmətinə giriş.

Beləliklə, sosial siyasət ədalətli vətəndaş cəmiyyətini, rifah halındayüksəlişləri kommulyativ birləşdirərək özünün imperativləri ilə çıxış edir.[179]

## 2.2 Sosial siyasət sosial institutların tənzimlənməsi mexanizmi kimi

Sosial siyasi fəaliyyətin əsas məsələləri yalnız insanların həyat şəraitinin təkmilləşdirilməsi deyil, həm də sosial keyfiyyətlərin - əməksevərlik, nizam-intizam, sosial məsuliyyət, ictimai fəallıq, mənəvi dəyərlər və həmçinin bu keyfiyyətlər əsasında insanların həyat tərzinin təkmilləşdirilməsi kimi müəyyənləşdirilib. Bu mənada hökumətin əsas məqsədi əhalinin həyat şəraitinin yaxşılaşdırılması və sosial qeyri-bərabərliyin

[178] Куликов, В. Социальная политика как приоритет и приоритеты социальной политики / В. Куликов, В. Роик // Российский экономический журнал. – 2005. – № 1. – С. 3–17.
[179] Hacızadə E.M. "Sosiallaşan iqtisadiyyat". Bakı - Elm – 2006, s.114-118

azaldılması, sosial nemətlərin hər kəs tərəfindən əldə edilməsi, keyfiyyətli təhsil, səhiyyə və sosial xidmətlərin təmin edilməsi kimi müəyyənləşdirilir. [180] Gələcək üçün daha zəruri olan insan ehtiyatlarını istifadə edən, unikal və çətin istehsal olunan ehtiyatların aşkar edilməsi və qorunub saxlanması texnologiyalarını axtaran sosial institutların dəstəklənməsi müasir dövlətlərin yürütdüyü sosial siyasətin əsas vəzifələrindən hesab olunur. Bu zaman ilk növbədə təhsil və elm institutlarının inkişafı nəzərdə tutulur. Uğurlu sosial siyasət ölkənin gələcək inkişafına şərait yaradılmasına yönəlir [181] və sosial siyasəti dövlətin sosial institutlarının və cəmiyyətdəki sosial iqtisadi və sosial siyasi münasibətlərin sosial subyektlərinin tənzimlənməsi mexanizmi kimi nəzərdən keçirmək olar. Belə ki, sosial siyasət dövlət və digər siyasi və sosial institutların cəmiyyətin sosial sahələrinin inkişafına, insanların həyat şəraitinin, tərzinin və keyfiyyətinin təkmilləşdirilməsinə, onların həyat tələbatlarının təmin edilməsinə, onlara zəruri sosial dəstəyin göstərilməsinə, uyğun institutun maliyyə və ictimai potensialını istifadə etməklə onlara kömək və müdafiəyə yönəlmiş fəaliyyətidir.[182]

Bir sıra müəlliflər sosial siyasəti dövlətin və digər ictimai institutların sosial sahələrin inkişafına, insanların həyat şəraitinin, tərzinin və keyfiyyətinin təkmilləşdirilməsinə, onların həyati tələbatlarının müəyyən bir hissəsinin təmin edilməsinə, vətəndaşların zəruri sosial təhlükəsizlik, yardım və müdafiə ilə təmin edilməsinə yönələn fəaliyyəti kimi izah edirlər. Göründüyü kimi dövlətin sosial siyasəti bilavasitə sosial fəallıq və digər sosial institutlarla bağlıdır. Sosial siyasət yalnız dövlət və onun institutları vasitəsilə deyil, həm də digər subyektlər tərəfindən həyata keçirilir

---

[180] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

[181] Денисов, П. В. Бюджетно-страховой механизм регулирования рынка социальных услуг / П. В. Денисов // Экономические науки. – 2009. – № 4. – С. 39–42.

[182] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

və bu siyasətmövcud hüquqi çərçivədə olub, müəyyən mənada dövlətin sosial siyasəti ilə üst-üstə düşür.[183]

Sosial institutlar sosial mühiti strukturlaşdırır. Dövlətin sosial siyasətinin müvəffəqiyyəti sosial institutların fəallığına söykənir. Belə ki, dövlətin sosial siyasətinin uğuru məhz sosial institutların mövcud qanunvericilik çərçivəsində həyata keçirilən məqsədyönlü fəaliyyəti ilə bağlıdır. Dövlətin sosial siyasətində əsas məqsədlərdən biri sosial-peşə və sosial ərazi qrupları ilə münasibətlərin saxlanması, həmçinin əhalinin rifah halının, yaşayış səviyyəsinin yüksəldilməsi, sosial zəmanətin təmin edilməsidir.[184]

Sosial siyasətin reallaşdırılması istiqamətləri aşağıdakılar kimi müəyyən edilir:

1.Əhalinin gəlir siyasəti (həyat səviyyəsi, rifah halı, yaşayış minimumu, istehlak zənbili).

2.Əmək və əmək münasibətləri sahəsi ilə bağlı siyasət (əməyin ödənilməsi, əməyin müdafiəsi, sığorta, məşğulluq).

3.Sosial dəstək və müdafiə (təqaüd təminatı, sosial xidmət, sosial təzminat, əmək qabiliyyəti olmayanların, aztəminatlıların və s. müdafiəsi).

4. Sosial sahələrin inkişafı (səhiyyə, təhsil, elm, mədəniyyət, bədən tərbiyəsi, idman və s.).

5.Sosial-ekoloji siyasət.

6.İnfrastrukturla bağlı siyasət (nəqliyyat, yollar, əlaqələr, ticarət və məişət xidməti və s.).

7. Miqrasiya siyasəti (məcburi köçkünlük, xarici əmək miqrasiyası, xaricdə həmvətənlərin hüquqlarının müdafiəsi və s.).

8.Əhalinin müxtəlif kateqoriyaları ilə bağlı siyasət (ailə siyasəti, uşaq siyasəti, gənclər siyasəti, hərbi xidmətlə bağlı siyasət və s.).[185]

---

[183] Ахинов Г.А., Калашников С.В.СОЦИАЛЬНАЯ ПОЛИТИКА.Теория и практика. Москва, 2008, с.8, 9, 10

[184]Институты реализации социальной политики и услуг на макро и микроуровне. © Электронный научный журнал «Инженерный вестник Дона», 2007–2013

[185] Тимофеева Г.В. «Государственная социальная политика в РФ на современном этапе: опыт рыночных трансформаций перспективы развития». Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2012. № 1 (16), с.74-82

Sosial siyasətin bir neçə aspektini fərqləndirirlər:

-sosial strukturun yaradılmasında dövlətin rolunun müəyyənləşdirilməsi;

-sosial proqramın reallaşdırılmasında biznesin iştirak səviyyəsinin müəyyənləşdirilməsi;

-biznesin sosial məsuliyyət səviyyəsinin müəyyənləşdirilməsi.

Beləliklə, sosial siyasət sosial institutların fəaliyyətini müəyyənləşdirdiyi kimi, sosial institutlar da sosial siyasətin həyata keçirilməsini təmin edir. İnstitusional mühit nə qədər səmərəli olarsa sosial siyasət o qədər səmərəli həyata keçirilər.[186]

Sosial siyasət vasitəsilə hakimiyyət bazar institutlarını və sosial institutları tənzimləyir və təchiz edir. Sosial siyasəti çox zaman təhsil, səhiyyə, məşğulluq və sosial təminat kimi sosial xidmətlərlə eyniləşdirirlər. Lakin sosial siyasət həm də bölüşdürmə, vətəndaşların müdafiəsi və sosial ədalət məsələlərini özündə birləşdirir. Sosial siyasət vətəndaşların siyasi kursun seçilməsində fəal iştirakına cəhd edir və onlara sosial birlik və sosial sabitliyin asılı olduğu bölmələrdə öz ehtiyacları haqqında məlumat verməklə siyasi kursun seçilməsinə təsir etməyə şərait yaradır. Hökumətlər vətəndaşların siyasi dəstəyinə və iqtisadiyyatda müsbət nəticələrə nail olmaq üçün sosial siyasətdə insan kapitalının və məhsuldar məşğulluğun genişləndirilməsindən istifadə edirlər. Ölkə həyatının bütün sahələrini əhatə edən sosial siyasət insan amili və iqtisadi inkişafı ideal şəkildə özündə birləşdirə bilər, bu isə, ölkədə tələbi artıra və sabit bütöv cəmiyyət yarada bilər.[187]

Sosial institutların əsas məqsədi - cəmiyyətin inkişafı gedişində sabitliyin əldə edilməsi ilə bağlıdır. Buna uyğun olaraq sosial institutların aşağıdakı funksiyalarını fərqləndirirlər:

- cəmiyyətin tələbatlarının təmin edilməsi;
- sosial proseslərin tənzimlənməsi.[188]

---

[186]Институты реализации социальной политики и услуг на макро и микроуровне. © Электронный научный журнал «Инженерный вестник Дона», 2007–2013

[187] Изабель Ортиз "Социальнаяполитика. Организация Объединенных Наций. Департамент экономических и социальных вопросов. Нью-Йорк,2007, с.7

[188] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/socialnye-instituty.html

Bu mənada sosial institutlar sosial nəzarəti həyata keçirir, bu yalnız insanların davranışına nəzarət deyil, həm də cəmiyyət üzvlərinə konkret fəaliyyət formalarının qəbul etdirilməsi ilə bağlıdır. İnstitusional təcrübə insan fəaliyyətinin məhdudlaşdırılması və onun sabitləşdirilməsinə xidmət edir.[189]

Cəmiyyətin elementləri olan sosial institutlar ictimai həyatın təşkilatlanması və tənzimlənməsi ilə bağlı sabit formalar kimi çıxış edir. Dövlət, təhsil, ailə və digər institutlar sosial münasibətləri nizamlayır, insanların fəaliyyətini və onların cəmiyyətdəki davranışlarını tənzimləyir. Sosial institutlar (insitutum - müəssisə, qurum) dəyər-normativlər kompleksi (dəyərlər, qaydalar, normalar, təmayüllər, nümunələr, müəyyən vəziyyətlərdə davranış standartları) olub, onların cəmiyyət həyatında reallaşmasını və təsdiqini təmin edir.[190]

Sosiologiyada sosial institutlar aşağıdakı kimi təsnif edilir:

1.ailə - nəslin təkrar istehsalı və şəxsiyyətin sosiallaşması;

2. siyasi institutlar – təhlükəsizlik və ictimai nizama olan tələbat əsasında siyasi hakimiyyət yaradılır və dəstəklənir;

3.iqtisadi institutlar – yaşamaq üçün vasitələrin istehsalı və əldə edilməsi, nemət və xidmətlərin istehsalı və bölüşdürülməsi prosesini təmin edir;

4.elm və təhsil institutları – biliklərin əldə edilməsi və ötürülməsi və sosiallaşma tələbatı;

5. dini institut – ruhi problemlərin həlli, həyatın mənasının axtarışı.[191]

A.A.İvinə görə, sosial institutlar – təşkilatlanmış əlaqələr və sosial normalar sistemi olub, özündə cəmiyyətin əsas tələbatlarını

---

[189] Кравченко Ю.В., Панкратов С.А. Представление концепции социального конструирования реальности в рамках институционального подхода // Социокультурные исследования: Межвуз. сб. науч. тр. / Редкол.: Н. В. Дулина (отв. ред.) и др. / Волгоград. гос. техн. ун-т. - Волгоград, 2004. - Вып. 9. - С.128-133.

[190] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/socialnye-instituty.html

[191] Понятие социального института. Признаки, роль и значение социальных институтов.http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya__konspekt_lekciii.html

ödəyən əhəmiyyətli ictimai dəyərləri və prosedurları birləşdirir. Sosial institut tarixən formalaşan, sabit əxlaq və hüquq normalarında möhkəmlənən ictimai münasibətlər sistemidir. Sosial institutlar bu və ya digər tələbatın təmin olunmasına, qoyulan məqsədə nail olunacağına inam yaradır.

Sosial institutlar möhkəmlənmiş sosial əlaqələr sistemi kimi çıxış edir. Cəmiyyətin institutlaşması xaotik, qeyri-sabit, qeyri-təşkilati, təsadüfü olana qarşı durur. Buna görə də məhz institutlaşmış, yəni sosial həyatın təsdiq olunmuş, müntəzəm amil olub, bütövlükdə şəxsiyyətin və cəmiyyətin həyat fəaliyyətini müəyyən edir.

Sosial institut – formal və qeyri-formal normalar, qaydalar və prinsiplərin sabit sistemi olub, insan fəaliyyətinin müxtəlif sahələrini tənzimləyir və bu sahələri sosial statuslar və rollar sistemində təşkilatlandırır.[192]




[192]Ивин А. А. Основы социальной философии: Учеб. пособие для вузов/ А. А. Ивин.–М.: Высш. шк., 2005.–440с.; Социальные институты. http://www.politlogia.narod.ru/s/SANZ_SOC/g-062.htm




Bir sıra müəlliflər cəmiyyəti sosial sistem, sosial institutları isə bu sistemin alt-sistemləri kimi müəyyənləşdirirlər. Cəmiyyəti sosioetal sistem kimi xarakterizə edən Q.İmanov bu sistemin alt-sistemlərinin özünəməxsus xüsusiyyətlərini əks etdirən göstəriciləri aşağıdakı cədvəldə təsnif edir.

Sosial sistemin alt sistemlərinin göstəriciləri.[193]

---

193 İmanov Q., Əkpərov R. "Sosial sistemlərin keyfiyyətinin qiymətləndirilməsinin qeyri-səlis modelləri. Sosial sistemlərin modelləşdirilməsi". LAP LAMBERT Academic Publishing, Saarbrücken, Deutschland, 2013, s.7




Lakin bəzi müəlliflərə görə ictimai həyat sahələrinə uyğun olaraq sosial institutlar da dörd əsas qrupa bölünür:

- iqtisadi institutlar - əmək bölgüsü, bazar, ticarət, əmək haqqı, bank sistemi, birja, menecment, marketinq və s.;
- siyasi institutlar - dövlət, ordu, polis, parlamentarizm, prezidentlik, monarxiya, məhkəmə, partiya, vətəndaş cəmiyyəti;
- təbəqələşmə və qohumluq - sinif, təbəqələşmə, kasta, cinsi ayrıseçkilik, irqi ayrıseçkilik, zadəganlıq, sosial təminat, ailə, nikah, analıq, övladlığa götürmə, qardaşlıq;

- mədəniyyət institutu - məktəb, ali məktəb, orta peşə təhsili, teatr, muzeylər, klublar, kitabxanalar, kilsələr və s.

Əslində sosial institutların təsnifatı bununla bitmir. Böyük institutlar daha aşağı səviyyəli institutları özündə birləşdirə bilər. İnstitutlaşma - ictimai münasibətlərin tənzimlənməsi, dəqiq qaydalar, nümunələr və mərasimlərə əsaslanan sabit sosial qarşılıqlı təsir nümunələrinin formalaşması prosesidir. Məsələn, elmin institutlaşması prosesi - elmin fərdi fəaliyyətdən dərəcələr, elmi dərəcələr, tədqiqat institutları, akademiyalar və s. ibarət münasibətlər sisteminə çevrilməsidir.[194]

Hər bir sosial institut aşağıdakı xüsusiyyətlərə malikdir:

1. davranış qaydaları və nümunələrinə, hüquqlar, vəzifələr və məsuliyyətlər bölgüsünə, həmçinin dəyərlər və məqsədlər toplusu olan statuslu rollar bölgüsünə;

2.simvolik mədəni əlamətlərə, yəni mövcud münasibətlər sistemini məcazi ifadəsinə;

3. faydalı mədəni əlamətlərə, yəni insanlar tərəfindən onların həyatı üçün zəruri olan tələbatlarının və həmçinin institutların normal funksiyalaşmasının təmin edilməsi məqsədilə yaradılmış süni yaşayış mühitinə;

4. Şifahi və yazılı davranış qaydaları, normaları kodeksinə, həmçinin onların yerinə yetirilməməsilə bağlı cəza tədbirlərinə;

5.ideologiyaya, yaxud insanların və bütövlükdə institutun fəaliyyətini xarakterizə edən hakim baxışlar, nəzəriyyələr sisteminə.[195]

Sosial institutların strukturu aşağıdakıları yaradır:

- qrupların, şəxsiyyətlərin tələbatlarını təmin edən sosial qruplar və sosial təşkilatlar;

- davranış normaları, nümunələri, sosial dəyərlər sistemi ilə bağlı tələbatları təmin edir;

---

[194] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/ socialnye-instituty.html

[195] Ивин А. А. Основы социальной философии: Учеб. пособие для вузов/ А. А. Ивин.–М.: Высш. шк., 2005.–440с.; Социальные институты. http://www.politlogia.narod.ru/s/SANZ_SOC/g-062.htm

- iqtisadi fəaliyyət sahəsi ilə bağlı münasibətləri tənzimləyən simvollar sistemi (ticarət markası, bayraq, brend və s.);

- sosial institutların ideoloji əsasları;

- institutun fəaliyyətində istifadə edilən sosial ehtiyatlar.

Sosial institutları müəyyənləşdirmək üçün aşağıdakı əlamətlər müəyyən edilir:

- cəmiyyətin bu və ya digər tələbatlarının təmin edilməsinə yönələn müəssisə, sosial qruplar toplusu;

- mədəni nümunələr, normalar, dəyərlər, simvollar sistemi;

- bu norma və nümunələrə uyğun davranış sistemi;

- məsələlərin həlli üçün zəruri olan maddi və insan ehtiyatları;

- ictimai qəbul edilmiş missiya, məqsəd, ideologiya.[196]

Geniş mənada sosial institut – insanların tələbatlarını təmin etmək üçün onları təşkilatlandıran dəyərlər, normalar və əlaqələr sistemi kimi izah edilir. Sosial institutlar tarixi mənşəyə malik olub daimi dəyişməyə və inkişafa məruz qalır. Onların formalaşması institutlaşma adlanır. İnstitutlaşma – sosial normaların, əlaqələrin, statusların və rolların müəyyənləşməsi və möhkəmlənməsi, onların sistemləşdirilməsi prosesi olub bir sıra ictimai tələbatların təmin edilməsinə yönəlir. Bu proses bir neçə mərhələdən ibarətdir:

1.yalnız birgə fəaliyyət nəticəsində təmin edilə bilən tələbatların meydana çıxması;

2.mövcud tələbatların təmin edilməsi ilə bağlı qarşılıqlı fəaliyyəti tənzimləyən norma və qaydaların yaranması;

3.mövcud norma və qaydaların qəbul edilməsi və praktikada reallaşdırılması;

4. institutun bütün üzvlərini əhatə edən statuslar və rollar sisteminin yaranması.[197]

Sosial institutlar aşağıdakı funksiyaları yerinə yetirir:

---

[196] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/ socialnye-instituty.html

[197] Понятие социального института. Признаки, роль и значение социальных институтов.http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya__konspekt_lekciii.html

1.təkrar istehsal – ictimai münasibətlərin möhkəmlənməsi və təkrar istehsalı, fəaliyyət nizamının və çərçivələrinin təmin edilməsi;

2.tənzimləyici – davranış nümunələri hazırlamaqla cəmiyyət üzvləri arasındakı qarşılıqlı münasibətlərin tənzimlənməsi;

3.sosiallaşma – sosial təcrübənin ötürülməsi;

4.inteqrativ – institusional normalar, qaydalar, qərarlar və rollar sisteminin təsiri ilə qrup üzvlərinin toplanması, qarşılıqlı əlaqəsi və qarşılıqlı məsuliyyəti;

5.kommunikativ – institut daxilində və xarici mühitdə informasiyanın yayılması, digər institutlarla qarşılıqlı əlaqənin saxlanması;

6.avtomatlaşma – müstəqilliyə cəhd.

İnstitutların yerinə yetirdiyi funksiyalar açıq və gizli ola bilər.

İnstitutun gizli funksiyaları cəmiyyətə elan ediləndən daha çox xeyir gətiriləcəyi haqda məlumat verir. Sosial institutlar cəmiyyətdə sosial idarəetmə və sosial nəzarət funksiyalarını yerinə yetirir, cəza və mükafatlandırma sistemi vasitəsilə birlik üzvlərinin davranışını idarə edir. Sanksiyalar sisteminin yaranması institutlaşmanın əsas şərti hesab edilir. Belə ki, cəzalar vəzifə borclarının qeyri-dəqiq, düzgün olmadan yerinə yetirilməsinin qarşısını alır. Pozitiv sanksiyalar (minnətdarlıq, maddi kömək, əlverişli şəraitin yaranması) düzgün və təşəbbüskar davranışın dəstəklənməsi və stimullaşdırılmasına yönəlir. Beləliklə, sosial institut qarşılıqlı razılaşma əsasında formalaşmış davranış standartları sistemi vasitəsilə sosial fəaliyyətin və sosial münasibətlərin istiqamətini müəyyən edir.[198]

İnstitutlaşmış sosial əlaqələr formal və qeyri-formal ola bilər.

Sosial əlaqələrin institutlaşması aşağıdakılar əsasında mümkündür:

1.Xüsusi reqlamentləşdirmə tipi (sosial nəzarət, sanksiyalar əsasında).

---

[198] Понятие социального института. Признаки, роль и значение социальных институтов.http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya__ konspekt_lekciii.html

2.İnstitutlaşmış qarşılıqlı fəaliyyət iştirakçılarının funksiyalarının, hüquqlarının və məsuliyyətlərinin dəqiq müəyyənləşdirilməsi.

3.Sosial institutların böyük əksəriyyətinin müntəzəmliyi və özünü yeniləşdirməsi institutun fəaliyyətinə qoşulanlara qarşı olan tələblərin şəxssizləşməsini təmin edir.

4.Müəyyən vəzifələr dairəsinin yerinə yetirilməsi əmək bölgüsünə və funksiyaların yerinə yetirilməsinin təkmilləşməsinə gətirir.

5.Öz funksiyalarını yerinə yetirməsi üçün institut müəssisəyə malik olur və bu və ya digər institutun fəaliyyəti həmin müəssisə çərçivəsində təşkil edilir, fəaliyyətinin idarə edilməsi və nəzarəti həyata keçirilir. Hər bir institut zəruri vasitə və ehtiyatlara malik olmalıdır.[199]

Sosial institutlar müxtəlif istiqamətli tələbatların təmin edilməsinə yönəlir. Məsələn, cəmiyyətin təhlükəsizliklə bağlı tələbatları müdafiə institutu tərəfindən həyata keçirilir. Hər bir institut bir neçə tələbatları yerinə yetirə bilər (kilsə bilavasitə dini, əxlaqi, mədəni tələbatları təmin edir), yaxud eyni bir tələbat müxtəlif institutlar tərəfindən təmin edilə bilər (mənəvi tələbatlar incəsənət, elm, din və s. bağlı tələbatları ödəyə bilər). Tələbatların təmin edilməsi prosesi (məsələn, əmtəənin istehlakı) institusional olaraq tənzimlənə bilər.[200]

İctimai mahiyyətli funksiyaları yerinə yetirən sosial institutlar adətən nisbi sabit sosial əlaqələr və münasibətlərə nail olunmasını təmin edir, lakin sosial institutlar tərəfindən təmin edilməyən sosial tələbatlar yeni qüvvə və tənzimlənməyən fəaliyyət formalarının yaranmasına gətirir. Təcrübədə belə bir vəziyyətdən çıxmaq üçün aşağıdakı yollardan istifadə edilir:

1.köhnə sosial institutların yenidən yönəldilməsi;

2.yeni sosial institutların yaradılması;

---

[199] Ивин А. А. Основы социальной философии: Учеб. пособие для вузов/ А. А. Ивин.–М.: Высш. шк., 2005.–440с.; Социальные институты. http://www. politlogia.narod.ru/s/SANZ_SOC/g-062.htm

[200] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/socialnye-instituty.html

3.ictimai şüurun yönəldilməsi.[201]

Onu da qeyd etmək lazımdır ki, sosial institutlar üzərində qurulan cəmiyyətin inkişafı prosesində bəzi norma və dəyərlər aradan çıxır, bəziləri isə yeni formada təzahür edir, yaxud yeni norma və dəyərlər sistemi müəyyənləşir.[202]

Dövlət siyasətinin həyata keçirilməsi mühiti və aləti kimi çıxış edən sosial institutlar cəmiyyətin ayrı-ayrı sosial sahələrinin perspektivli inkişafına şərait yaradır.

Cəmiyyət qanunvericilik yolu ilə insan həyatı və ailə üçün zəruri olan minimum nemətlərə zəmanət verir. Bu minimumun səviyyəsi zaman və ölkəyə görə dəyişir. Bu, hər hansı bir ölkənin özünəməxsus xüsusiyyətləri - ərazi, iqlim, əhalinin sayı, ictimai sistemin xüsusiyyəti, ideologiya və hakim qrupların praktiki fəaliyyəti, siyasi vəziyyət, iqtisadi inkişaf səviyyəsi, milli xüsusiyyətlər, davranışla bağlı mövcud mədəni stereotiplər əsasında müəyyənləşir. Sosial siyasət əhalinin pul gəlirlərinə, həmçinin nemət və xidmətlərin lazımı sayda istehsalına, əhalinin tələbatlarının həcmi və strukturuna təsir göstərir. Aparıcı istiqamətlər - əmək haqqının, gəlirlərin, məşğulluğun tənzimlənməsi, işçilərin əmək keyfiyyətlərinin yüksəldilməsi, sağlamlıq, mədəni və təhsil səviyyələrinin dəstəklənməsi, sosial infrastrukturun inkişafı, sosial təminatla bağlıdır. Sosial siyasətin reallaşdığı institusional mühitin səmərəliliyini müəyyən edən kəmiyyət göstəriciləri bilavasitə iqtisadiyyat, siyasət, mədəniyyət, səhiyyə mühitilə bağlıdır. Məlum olduğu kimi iqtisadi vəziyyət məşğulluq və işsizlik məsələlərinə böyük təsir göstərir. Sosial iqtisadi siyasət iş yerlərinin yaradılması yolu ilə həyata keçirildiyi halda işçi qüvvənin təklifinə uyğun olar və bu zaman əmək bazarı daha yaxşı funksiyalaşar, işsizlik azalar.[203]

---

[201] Понятие социального института. Признаки, роль и значение социальных институтов.http://www.e-reading.mobi/chapter.php/99772/40/Davydov_-Sociologiya __konspekt_lekciii.html

[202] Социальные институты. http://www.grandars.ru/college/sociologiya/socialnye-instituty.html

[203]Институты реализации социальной политики и услуг на макро и микроуровне. © Электронный научный журнал «Инженерный вестник Дона», 2007–2013

Bir sıra müəlliflər dövlətin sosial siyasətinin aşağıdakı aparıcı istiqamətlərini fərqləndirirlər:

-gənclərlə bağlı sosial siyasət;

-veteranlarla bağlı sosial siyasət;

-yaşlı adamlarla bağlı sosial siyasət;

-analıq və uşaqlarla bağlı sosial siyasət;

-əlillərə münasibətdə sosial siyasət;

-əhalinin sağlam həyat tərzi ilə bağlı biliklərinin formalaşdırılması;

-əhalinin mədəniyyətinin və təhsil səviyyəsinin inkişaf etdirilməsi;

-sahibkarlar və innovasion yönümlü mütəxəssislər üçün inzibati məhdudiyyətlərin azaldılması.

Son illərdə sosial iqtisadi inkişafın əsas vəzifələrindən biri regionların rolunun genişləndirilməsi hesab edilir. Əhalinin sosial vəziyyəti, dövlətə və onun institutlarına inam bilavasitə yerlərdə dövlət orqanlarının səmərəli funksiyalaşması ilə bağlıdır. Regionların sosial iqtisadi vəziyyətinin yaxşılaşdırılması məqsədilə sərmayə qoyuluşu fəaliyyətinin genişləndirilməsi zəruridir. Sərmayələrin cəlb edilməsi üçün ölkədə və regionda əlverişli şəraitin yaradılması tələb olunur. Bu prosesdə dövlətin fəaliyyəti iqtisadi, siyasi və sosial xüsusiyyətli ölçülərin götürülməsi ilə bağlıdır.[204]

# FƏSİL III. AZƏRBAYCANDA SOSİAL DÖVLƏTİN İNKİŞAF İSTİQAMƏTLƏRİ

## 3.1 Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları

[204]Институты реализации социальной политики и услуг на макро и микроуровне. © Электронный научный журнал «Инженерный вестник Дона», 2007–2013

Müasir Azərbaycan Respublikasının ən yeni tarixi sosial dövlət qurmaq istiqamətində müəyyənləşdirilib. Azərbaycanda formalaşan sosial dövlət modeli milli ənənələri özündə ehtiva edir, həmçinin müasir inkişaf meyllərini nəzərə alır və əsas ideyası azərbaycançılıqdır. Belə ki, azərbaycançılıq ideologiyasının banisi Heydər Əliyev öz çıxışlarında qeyd edirdi ki: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır". Ümummilli liderə görə "Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafını təmin etmək deməkdir".[205]

Ə.M.Həsənovun qeyd etdiyi kimi "Heydər Əliyev birləşdirici azərbaycançılıq ideyasının – Azərbaycanın müstəqil dövlətçiliyi üzərində qurulmuş milli inkişaf siyasətinin ideoloji əsaslarını qoydu".[206]

Ümummilli lider H.Əliyev milli inkişaf siyasətinin və ya milli ideologiyanın mahiyyətini belə açıqlamışdır: «Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, himni – bütün bunlar mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər

---

205 Azərbaycançılıq - birliyimizin əsasıdır. (2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında və "Gülüstan " sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi). Azərbaycan Nəşriyyati. BAKI – 2002, s.25, 17

206 Həsənov Ə.M., Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, s.42 (700 s.)

əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır»[207].

Ümummilli lider Heydər Əliyev azərbaycançılıq ideologiyasının əsas prinsiplərini 7 fevral 1994-cü il İstanbulda keçirilən Beynəlxalq "Sülh və Səbr" Konfransındakı çıxışında bir daha açıqlamışdır: "Azərbaycan çoxmillətli dövlətdir. Respublikamızda bir çox millətlər əsrlər boyu birlikdə yaşayırlar. ...Azərbaycanda İslam dini ilə yanaşı, Xristianlıq və iudaizm dinləri də var və onlar bir-biri ilə çox mehriban şəraitdə fəaliyyət göstərirlər. ...ölkəmizin vətəndaşları dini, irqi mənsubiyyətindən, siyasi baxışlarından asılı olmayaraq eyni hüquqlara malikdirlər və onların hüquqları Azərbaycan dövləti tərəfindən qorunur. Əmin ola bilərsiniz ki, biz bu prinsiplərimizə daim sadiq qalacağıq...".[208]

S.Xəlilovun qeyd etdiyi kimi: "Azərbaycançılıq ideologiyası mühüm funksional elementlərlə zəngindir. "Azərbaycançılıq" ...real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Bu gün "azərbaycançılıq" milli həyatın, konfessiyaların harmoniyasının çoxəsrlik ənənəsi, ölkədə yaşayan bütün millətlərin və etnik qrupların qardaşlğı, qarşılıqlı əlaqə və təsirinin tarixi, onların ümumi taleyi və müstəqil Azərbaycanın bütövlüyü uğrunda birgə mübarizəsinin tarixi təcrübəsidir".[209]

Ə.M.Həsənovun qeyd etdiyi kimi: "Bunları nəzərə alaraq, Heydər Əliyevi müasir azərbaycançılıq ideologiyasının - dövrün, zamanın tələblərini, dövlətçiliyin əsaslarını, milli-etnik şəraiti nəzərə alan yeni milli təlimin banisi hesab etmək olar". Onu da qeyd etmək lazımdır ki: "Milli-ideoloji baxışlar sisteminin formalaşması prosesində Azərbaycan Xalq Cümhuriyyətinin varislik prinsipi saxlanıldı və onun birləşdirici ideya kimi irəli sürdüyü "azərbaycançılıq" ideologiyasına müraciət edildi.

---

[207] Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. "Azərbaycan" qəz., № 51(2163), 1999

[208] Heydər Əliyev siyasəti :TOLERANTLIQ (çıxışlar, nitqhr, göriişhr, tıbrikbr). Bakı, "Elm və Təhsil" - 2015. s.24

[209]Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. (müəllif-tərtibçi: prof. S.Xəlilov) — Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002 — 232 səh.

Azərbaycançılıq ideyasına tamamilə yeni məzmun verildi və bu ideya ölkənin milli-etnik xüsusiyyətlərinə, müasir inkişafının tələblərinə və dünyanın yeni şəraitinə uyğunlaşdırıldı. Heydər Əliyev azərbaycançılıq ideyasını bütöv bir xalqın vahid milli birlik platformasınaçevirdi.[210] İ.Həbibbəylinin qeyd etdiyi kimi: "Heydər Əliyevin azərbaycançılıq təlimi dünya azərbaycanlılarını tarixi vətən və vahid ideologiya ətrafında birləşdirir".[211]

N.Cəfərov azərbaycançılıq ideologiyasının təkamülündə İlham Əliyev mərhələsini fərqləndirir və bu mərhələnin XXI əsrin 10-cu illərinin əvvəllərindən başladığını vurğulayır. [212] İ.Həbibbəyliyə görə "Ümummilli lider Heydər Əliyevin milli, müstəqil dövlətçilik təlimi Prezident İlham Əliyevin fəaliyyət strategiyasını təşkil edir..." və "bu mənada Prezident İlham Əliyev daim inkişafda olan, yeniləşib zənginləşən Heydər Əliyevçi siyasi təlimin, yeni dövlətçilik nəzəriyyəsinin yaradıcısıdır".[213]

Azərbaycançılıq ideologiyası İlham Əliyev mərhələsində zamanın tələblərini bilavasitə nəzərə alan sosial və siyasi istiqamətlərin inkişafına – Azərbaycan dövlətinin mövqeyinin dünya siyasi arenasında düzgün dərk və təbliğ edilməsinə, Azərbaycan dövlətinin və xalqının milli-məkan birliyinin və müstəqilliyinin qorunub saxlanmasına, ümumazərbaycan vətəndaşlarının rifah halının yüksəldilməsinə və bu yöndə onların hüquq və azadlıqlarının təmin edilməsinə yönəlib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev azərbaycançılıq ideologiyasının bir istiqaməti kimi multikulturalizmi dövlət siyasəti elan edib: "Multikulturalizm Azərbaycanın dövlət siyasəti və həyat tərzidir" və "Bu gün

---

[210]Həsənov Ə.M. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, "Zərdabi LTD", 2016, s.57-58

[211] Həbibbəyli İ. Azərbaycançılıq idealının rəmzi. "Yeni Azərbaycan".-2013.-11 aprel.- N 62.-S.4. H. Əliyev haqqında məqalələr(2009 – 2014-cü illər). dq.mia.gov.az/upload/2.pdf, s.895-899

[212] Cəfərov N. Azərbaycançılıq ideologiyasının təkamülündə yeni mərhələ - İlham Əliyev mərhələsi. http://525.az/site/?name=xeber&news_id=48477

[213] Həbibbəyli İ. Azərbaycançılıq idealının rəmzi. "Yeni Azərbaycan".-2013.-11 aprel.- N 62.-S.4. H.Əliyev haqqında məqalələr (2009 – 2014-cü illər). dq.mia.gov.az/upload/2.pdf, s.895-899

Azərbaycan artıq dünyada tanınmış multikulturalizm mərkəzlərindən biridir”.[214] Qeyd edə bilərik ki, multikulturalizm siyasəti azərbaycançılıq ideologiyasının əsaslarının və prinsiplərinin yeni müstəvidə inkişafı ilə bağlıdır. Belə ki, bu siyasətin əsas məqsədi ölkədə yaşayan xalqların etnik-mədəni dəyərlərinin qorunmasına, inkişafına və cəmiyyət daxilində bu xalqların inteqrasiyasına nail olmaqdır, [215] yəni azərbaycanlı şüurunun, ümumi vətən ideyasının inkişaf etdirilməsi, milli ayrıseçkiliyə yol verilməməsi ilə bağlıdır. N.S.Kirobayevanın qeyd etdiyi kimi: “Multikulturalizm müxtəlifcinsli mədəni qrupların eyni həyat məkanında münaqişəsiz mövcudluğu haqqında nəzəriyyə, təcrübə və siyasətdir”. Multikulturalizm siyasəti şəxsiyyətin sosiallaşması ilə bağlı müxtəlif modellərin fəal inteqrasiyasının əsası kimi milli strategiyanın innovasion inkişafının vacib amili və sürətlə dəyişən dünyada millətin yeni rolu və yerinin axtarışına əsas ola bilər.[216]

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş“Azərbaycan - 2020: gələcəyə baxış” inkişaf konsepsiyasında da azərbaycançılıq ideyasından çıxış edərək, göstərilir ki, “Mədəniyyətlərin qovşağında yerləşən Azərbaycanın zəngin və tolerant tarixi irsinin, müxtəlif etnoslara və dinlərə aid çoxsaylı tarix və mədəniyyət abidələrinin tədqiqi, qorunması və təbliği üçün görülən işlər sistemli şəkildə davam etdiriləcək... ...Ölkədə xüsusi sosial qrupların mədəniyyət obyektləri və xidmətlərindən istifadə etmə imkanlarının genişləndirilməsini nəzərdə tutan fəaliyyət inkişaf etdiriləcəkdir”.[217]

---

[214] İlham Əliyev: “Multikulturalizm Azərbaycanın dövlət siyasətidir”. http://musavat.com/news/meneviyyat/ilham-eliyev-multikulturalizm-azerbaycanin-dovlet-siyasetidir-foto_171713.html

[215] Multikultural təhlukəsizlik. II Dəyirmi masa, 2015. Etibar Nəcəfovun çıxışından., BAKI 2015, s.11. http://cdn.bbmm.az/pdf/rt2.pdf

[216] Медведева О.О.“Дискуссия о мультикультурализме и актуальные проблемысоциальной политики государства”. «Политика и политические науки», 2009. cyberleninka.ru

[217] “Azərbaycan - 2020: gələcəyə baxiş” inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir., s.36-37, http://www.president.az/files/future_az.pdf

Qeyd edildiyi kimi xalqların etnik-mədəni dəyərlərinin qorunması Azərbaycan Respublikasının ümumi inkişafının mühüm hədəflərindən olan demokratik inkişafın, insanların hüquq və azadlıqlarının müdafiə olunmasının tərkib hissəsidir. Bu mənada multikulturalizm Azərbaycan Respublikasının dövlət siyasətinin vasitəsi kimi ölkənin suverenliyini, ərazi bütövlüyünü, demokratik inkişafını, milli təhlükəsizliyini, xüsusilə də, multikultural təhlükəsizliyini, vətəndaşlarda vətənpərvərlik şüurunun inkişafını, əhalinin rifah və etnik-mədəni dəyərlərini təhdid edən etnik millətçilik, etnik separatçılıq, dini separatçılıq və digər dezinteqrasiya proseslərinin qarşısının alınmasında istifadə olunur.[218]

Beləliklə, multikulturalizmin inkişafı həm qlobal, həm də lokal səviyyədə milli identikliyin formalaşdırılmasına və milli qarşıdurmaların qarşısının alınmasına yönələn addımdır. Məlum olduğu kimi milli identiklik (özünütəyinetmə) yüksək tənzimləmə xüsusiyyətlərinə malikdir.[219] Bu fikirlərə əsasən demək olar ki, Azərbaycan hökumətinin həyata keçirdiyi multikulturalizm siyasəti mümkün separatçı və terrorçu meyllərin qarşısının alınmasına yönəlmişdir. Bu baxımdan Azərbaycanda keçirilən çoxsaylı beynəlxalq tədbirlərdə dünyada milli və dini tolerantlığın gücləndirilməsi, mutikulturalist dəyərlərin təbliği, dini zəmində ekstremizmə və ayrıseçkiliyə qarşı birgə mübarizə yollarının araşdırılması, fərqli dinlərin və mədəniyyətlərin daşıyıcısı olan insanlar arasında dialoq və qarşılıqlı anlaşmanın bərqərar edilməsi və s. aktual problemlər geniş müzakirə olunur.[220] 2014-cü il oktyabrın 2-də "XXI əsr: ümidlər və çağırışlar" şüarı ilə keçirilən IV Bakı Beynəlxalq Humanitar Forumunun rəsmi açılış mərasimindəki nitqində

---

[218] Multikultural təhlukəsizlik. II Dəyirmi masa, 2015. Etibar Nəcəfovun çıxışından., BAKI 2015, s.11. http://cdn.bbmm.az/pdf/rt2.pdf

[219] Современная глобалистика об угрозе смерти человечества. Тексты // Косов Ю.В. // Современная глобалистика об угрозе смерти человечества (в альманахе «Фигуры Танатоса №5») Фигуры Танатоса. Философский альманах. Пятый специальный выпуск. СПб., 1995 (web – кафедра философской антропологии)

[220] ŞirməmmədNəzərli. Azərbaycanmultikulturalizmin əsasməkanlarındanbiridir., İnteraz - 10 Mart 2014, http://www.interaztv.com/society/13838

prezident İlham Əliyev xüsusi olaraq qeyd etmişdi ki: “Multikulturalizm ayrıseçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir".[221]

Bu əsasda qeyd edə bilərik ki, multikulturalizm xüsusi geosiyasi mövqeyə və etnik müxtəlifliyə malik olan və bu istiqamətdə öz modelini formalaşdıran Azərbaycan Respublikasının milli inkişaf strategiyasının əsası kimi çıxış edir.

Məlum olduğu kimi multikulturalizm ideyası Qərbdə formalaşıb və inkişaf edərək, milli dövlətlərin sosial inkişafının əsas istiqamətlərindən birinə çevrilib. Belə ki, Qərb dövlətləri əhalinin loyallığına nail olmaq, öz siyasi legitimliyini təmin etmək və qoruyub saxlamaq, unitar milli identikliyə nail olmaq üçün həm yerli əhalinin, həm də immiqrantların sosial müdafiəsini təmin etməyə çalışan sosial siyasət həyata keçirirdi.[222]

Multikulturalizmin əsas prinsipləri aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Etnomədəni müxtəlifliklərə pozitiv münasibət. Mədəni müxtəliflik cəmiyyəti zənginləşdirir və onu daha çox həyata davamlı edir;
- Mədəni müxtəliflik hüququ. Bütün birlik üzvləri öz mədəniyyətlərinin qorunub saxlanması hüququna malikdirlər;
- Mədəni bərabərlik və qarşılıqlı dözümlülük;
- Şəcərəli struktura malik olan ikili (çoxtərəfli) identiklik;
- Çoxluqda təklik. Qrupun mədəni müstəqilliyi çoxluğun əsas dəyərlərinə müxalif olmayan səviyyədə qəbul edilir;
- Fərdin özünü bu və ya digər etnomədəni qrupla identikləşdirməsi onda sabit özünüdərk formalaşdırır, onun psixoloji müdafiəsinə kömək edir, onun etnomədəni qruplarla münasibətlərinin açıq və tolerant olmasına zəmin yaradır;

---

[221] Nəzərli Ş. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir., İnteraz - 10 Mart 2014, http://www.interaztv.com/society/13838

[222] Боммес М. Международная миграция и дерегуляция коллективных форм социальной идентичности в национальных государствах [Электронный ресурс] //Центр независимых социологических исследований. <http://www.cisr.ru/files/publ/Migr_Bommes.pdf>. Датадоступа: 26.03.2006.

- Bərabər şanslar hüququ. Mədəni müxtəliflik qeyri-ayrıseçkilik və sosial sahədə bərabərlik prinsipi ilə tamamlanır;

- Siyasi idarəçilik. Multikulturalizm özünü inkişaf etdirən fenomen deyil, onun formalaşması və inkişafı üçün siyasi iradə və dəstək zəruridir.[223]

Göründüyü kimi, multikulturalizm mədəni plüralizmin qəbul edilməsi və ona dəstək konsepsiyasıdır. Müasir cəmiyyətlərdə mədəni birlik yaradılmasının və mədəniyyətlərin universallaşmasının əksinə olaraq, multikulturalizm mədəni müxtəlifliyi təbliğ edir və onu müdafiə etməyə çalışır.[224]

N.S.Kirobayeva görə "Multikulturalizm müxtəlifcinsli mədəni qrupların eyni həyat məkanında münaqişəsiz mövcudluğu haqqında nəzəriyyə, təcrübə və siyasətdir".[225]

Beləliklə, multikulturalizmin əsas ideyası xalqların və mədəniyyətlərin qarşılıqlı fəaliyyətinin qarşılıqlı anlam və razılaşma, tolerantlıq, dialoq və əməkdaşlıq[226]prinsipləri üzərində qurulması ilə bağlıdır. Bu prinsiplər bilavasitə azərbaycançılıq ideologiyasının əsasları kimi təzahür edir.Azərbaycançılıq ideologiyanın banisi ümummilli lider Heydər Əliyev öz siyasi fəaliyyətində bu prinsiplərdən çıxış etmişdir. Onun siyasi fəaliyyətində müxtəlif dinlərə və millətlərə xüsusi barışdırıcı münasibəti müşahidə etmək olar. Heydər Əliyev Peyğəmbər Əleyhissəlamın mövludu, Orucluq bayramı, Qurban bayramı günü, Ramazan bayramı, Məbəs bayramı (Məhəmmədə (s) peyğəmbərlik verilən gün), Aşura günü mərasimlərində, o cümlədən İsa peyğəmbərin mövlud bayramı, Azərbaycandakı pravoslav icmasının Pasxa bayramı, Milad bayramı münasibətilə, Yəhudi xalqının

---

223 Geißler, R. Multikulturalismus in Kanada — Modell fuer Deutschland? [Elektronische Ressource] // Bundeszentrale fuer politische Bildung. <http://www.bpb.de/publikationen/XPXZV2.html>. Datum des Zugangs: 26.03.2006.

224 Большой толковый социолоический словарь. Т.1, А – О, Вече – АСТ, М., 1999, с.445

225 Медведева О.О."Дискуссия о мультикультурализме и актуальные проблемысоциальной политики государства". «Политика и политические науки», 2009.cyberleninka.ru

226 Толерантность как результат межкультурной коммуникации. http://www.grandars.ru/college/sociologiya/tolerantnost.html

müsibəti günü münasibətilə keçirilən mərasimlərdə bilavasitə iştirak etmiş, həmçinin Azərbaycandakı dini konfessiyaların başçıları ilə görüşlər [227] keçirmişdir ki, bütün bunlar Azərbaycançılıq ideologiyasının, multikulturalizm siyasətinin reallaşdırılması ilə bağlı atılan zəruri addımlardır. Göründüyü kimi, milli-mənəvi, milli-dini dəyərlərin yüksək formada qorunması, qarşılıqlı inteqrasiya etdirilməsi, xüsusən də tolerantlıq mədəniyyətinin formalaşdırılması birbaşa Umummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.[228]

Bildiyimiz kimi dünya dinləri yüksək normativ kodlar vasitəsilə onlara aid olan etno-mədəni lokusları birləşdirir. Bir çox sivilizasiyalar polikonfessional (çoxdinli) hesab edilirlər.[229]Müasir dövrdə sivilizasiyaların, xalqların mənəvi yaxınlaşması tələbatı yaranır. A.Toynbiyə görə, məhz mənəvi vəhdət gələcək ümumdünyəvi cəmiyyətin əsası ola bilər. A.Toynbiyə görə, «dörd ali din – xristianlıq, islam, induizm və buddizmin mahayanist forması ümumdünyəvi missiya daşıyır». [230] Bu missiya yüksək əxlaqi dəyərlərin qorunub saxlanması, o cümlədən xalqlar və insanlar arasında dialoq, mənəvi bağlılıq, barışdırıcı ünsiyyət yaradılması ilə bağlıdır. Mənəvi yaxınlaşmanın əsasında tolerantlıq prinsipi dayanır. Belə ki, məhz tolerantlıq bərabərliyə hörmət və qəbul etmə, hakimlik və zorakılıqdan imtina, bəşər mədəniyyətinin, davranış normalarının rəngarəngliyinin qəbul edilməsi, ümumi nəzər-nöqtəsinin əldə edilməsi ilə bağlıdır. Mədəni tolerantlıq mədəniyyətlərarası ünsiyyət prosesində yaranır, bu zaman digər xalqlara, onların ənənələrinə, dəyərlərinə və nailiyyətlərinə hörmət hissi formalaşır, dünyanın etnik və mədəni müxtəlifliyi dərk və qəbul edilir.[231]

---

[227] Heydər Əliyev siyasəti: Tolerantlıq (çıxışlar, nitqhr, göriişhr, tıbrikbr). Bakı, "Elm və Təhsil" - 2015. 504 səh.

[228]Alıyev Y. "Heydər Əliyev və millimənəvi dəyərlər". Tarixi və milli-mənəvi dəyərlər kontekstində Azərbaycan milli kimliyi (məqalələr toplusu). Bakı, 2014, s.172

[229] Баранов Н.А. Ведущие геополитические парадигмы и современная методология геополитики. http://nicbar.ru/geoproblemy_lekzia2.htm

[230] Две концепции столкновения цивилизаций. http://deyerler.org/; /islamnews/

[231] Толерантность как результат межкультурной коммуникации. http://www.grandars.ru/college/sociologiya/tolerantnost.html

Müasir dövrdə dünya mədəniyyətlərinin yaxınlaşması bəşəriyyətin təhlükəsizliyinin sivil yolla təmin edilməsinin strateji əsaslarına çevrilir. UNESCO-nun məlumatlarına görə XX əsrin sonlarında artıq dünyada heç bir monoetnik dövlət qalmamışdır. Bununla əlaqədar olaraq yeni nəsillərin digər xalqlar və onların mədəniyyətlərinə hörmət ruhunda tərbiyə edilməsi, onların digər mədəniyyətlərlə ünsiyyətə və dialoqa hazır olması zərurəti yaranıb.[232]

Bu mənada azərbaycançılıq özündə bəşəri mahiyyət daşıyan, lakin müəyyən məkana aid olan ideologiyadır. Azərbaycançılıq ideologiyasının mahiyyətinin analizi göstərir ki, bu ideologiya ciddi nəzəri və konstitusion əsaslara malikdir. Belə ki, 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası bütün Azərbaycan vətəndaşlarının Qanun qarşısında bərabər olduğunu təsdiq edir. Konstitusiyaya əsasən dövlət mənşəyindən, irqindən, milliyyətindən, dinindən və dilindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarına hörməti və sosial bərabərliyi təmin edir (maddə 25). Konstitusiyasının 44-cü maddəsinə əsasən, «hər kəsin milli mənsubiyyətini qoruyub saxlamaq hüququ vardır. Heç kəs milli mənsubiyyətini dəyişdirməyə məcbur edilə bilməz».[233]

Qeyd edə bilərik ki, azərbaycançılıq ideologiyası həm siyasi, həm də qanuni əsaslarda öz təsdiqini taparaq cəmiyyətə tətbiq edilir. Eyni zamanda Azərbaycançılıq ideologiyasının "vahid milli dövlət ideologyiası kimi yaradılması cəmiyyətdə mövcud ideoloji boşluqların doldrulmasına, milli həmrəyliyin əldə olunmasına ..., ...azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına ..., azərbaycanlıların bir millət kimi formalaşdırılmasına, azərbaycanlı şüurunun inkişaf etdiriliməsinə... xidmət edir".[234]

Ə.Abbasovun fikrincə, "milli ideologiyanın əsasında ictimai mənafe dayanır. ...bu ideologiya yalnız ayrı-ayrı qrup və təbəqələrin, icma və birliklərin maraqlarını deyil, dövlətin ərazisində yaşayan bütün sosial, etnik, dini qrup və birliklərin

---

[232] Бедалова Н. Ч.Толерантность и формы ее проявления в условиях глобализации. http://psychology.az/tolerantnost.php

[233] Azərbaycan Respublikasının Konstitusiyası, "Qanun", Bakı, 2005, 64s

[234] Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər., Bakı, "MBM", s.134

mənafeyini ifadə edir. ...Milli ideologiya cəmiyyətin iqtisadi, siyasi, sosial və mənəvi fəaliyyət sahələrində, həmçinin beynəlxalq aləmlə dövlətin qarşılıqlı münasibətlərində əsas kimi qəbul olunan ideya və prinsiplərin, müddəa və şərtlərin cəmini ifadə edir". Müəllif milli ideologiyanın – suverenlik, demokratiya, respublikaçılıq, ədalət, millilik, azərbaycançılıq, müxtəlif vasitələrlə birliyə cəhd etmə, tolerantlıq, sinergizm, zəruri məhdudiyyət, sosial rekonstruksiya" kimi prinsiplərini müəyyənləşdirir.[235]

R.Əhmədlinin qeyd etdiyi kimi: "Milli dövlətçilik ideologiyası kimi azərbaycançılıq ...real müstəqilliyə nail olmağın, vahid bölünməz Azərbaycanın qorunub saxlanması və möhkəmləndirilməsinin siyasi əsasıdır. Azərbaycançılıq ölkədə yaşayan bütün etnosların qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və Azərbaycanın bütövlüyü və inkişafı uğrunda mübarizənin ümumi tarixi təcrübəsidir ".[236]

Beləliklə, milli dövətçilik ideologiyası kimi azərbaycançılığın əsas mahiyyəti aşağıdakılarla bağlıdır:

- Azərbaycan milli kimliyi - Azərbaycan Respublikasının vətəndaşlarının, Azərbaycan xalqının özünüidentifikasiyası;

- azərbaycançılıq – Azərbaycan xalqının milli birliyini, Azərbaycan (türk) dilinin, milli adət və ənənələrinin (dəyərlərinin), mənəvi (islam) dəyərlərinin kənar təsirlərdən qorunaraq Azərbaycan xalqının qəbul etdiyi şəkildə saxlanması və təbliği, bunların əsasında müasir tipli dövlət quruculuğu və sürətli inkişafı özündə ehtiva edən Azərbaycan Respublikasınının milli dövlətçilik ideologiyası.[237]

S.Xəlilovun qeyd etdiyi kimi: "İdeya-nəzəri və siyasi baxımdan "azərbaycançılıq" və neokonservatizm bir-biri ilə sıx bağlıdır. "Azərbaycançılıq" coğrafi məkan baxımından, sanki, neokonservatizmin bir hissəsi, milli şəraitdə bu ideologiyanın əlavəsidir. Bu ideologiya Azərbaycanda vahid birlik, vahid sosium

---

[235] Abbasov Ə.F. "Milli maraqlar və milli ideologiya". Bakı, "Təknur", 2012, s.205-222
[236] Əhmədli R.A. "Azərbaycan dövlətçilik fəlsəfəsinə dair". Bakı, "Təknur", s.296
[237]Milli Kimlik. http://millikimlik.az/info/konsepsiya.html

formalaşdırır. "Azərbaycançılığın" mahiyyəti müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların vəhdətidir".[238]

Qeyd etmək lazımdır ki, neokonservativizm siyasi norma və baxışlar sistemi kimi 1960-70-ci illərdə klassik konservativizmin ideoloji böhranından sonra Böyük Britaniyada və ABŞ-da formalaşıb. Neokonservativizm müəyyən dərəcədə Qərb cəmiyyətində "rifah dövlətinin" yaradılmasına reaksiya kimi meydana çıxıb. Ümumilikdə neokonservativizm ənənəvi konservativizmin müddəalarına söykənir.[239]

Neokonservatorlar dövlətin cəmiyyətin həyatında fəal iştirakını sistemli tənqid edir, dövlətin iqtisadi və sosial proseslərə müdaxiləsinin zərər gətirdiyini elan edir, ideologiyaların müasir dövrlə bağlı münasibətlərini qeyri-adekvat hesab edirlər. Onlar cəmiyyətin rifah halının yüksəlməsində dövlətə deyil, "vasitəçi təşkilatlara" – ailə, kilsə, icmalara böyük ümid bəsləyirlər. Onlar "azad bazar iqtisadiyyatı" tərəfdarı deyillər və siyasi islahatların müvəffəqiyyətli olmasını sosial və mədəni amillərlə bağlayırlar.[240]

Neokonservativizm ideologiyasında əxlaqi-etik məsələlər mərkəzi mövqedədir. Neokonservatorların fikrincə, hazırda cinayətkarlıq və narkomaniya, ailələrin dağılması, təhsilin keyfiyyətinin aşağı olması, mədəni ənənələrin unudulması həlli vacib olan məsələlərdir. Neokonservatorlar ictimai sabitliyin əsası olan ailə institutuna xüsusi diqqət yetirirlər. Onların nəzərincə, bu sırada təhsil də əsaslı rola malikdir. Neokonservatorlar qeyd edirlər ki: "Uşağın ala biləcəyi ən böyük miras – yaxşı təhsildir". Beləliklə, müasir konservatorların əsas məsələsi insanın "istehsalı" ilə bağlı sahələrin – təhsil, mədəniyyət, sağlamlığın mühafizəsi və s. – inkişaf etdirilməsi ilə bağlıdır. [241] Belə demək olarsa, neokonservatorlar cəmiyyətin inkişafında bilavasitə sosial

---

[238]Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. (müəllif-tərtibçi: prof. S.Xəlilov) — Bakı, "Azərbaycan Universiteti" nəşriyyatı, 2002 — 232 səh.

[239] Мюллер Д.Г. «Новый консерватизм» в современной России(реальность и перспективы)Казанский государственный университет, 2001, s. 190-195

[240]Громыко А. Метаморфозы американского неоконсервативизма: идеология на излете. Внешне-поитический аспект. Жн. Observer – Аброзователь, 8/2008, s.57

[241]СмирноваВ.И. "Консерватизм: между прошлым и будущим". Вісник СевНТУ: зб. наук. пр. Вип. 112/2010. Серія: Політологія. — Севастополь, 2010, s.143-146

institutların rolunu vurğulayır, cəmiyyətin özünüinkişaf ideyasını təbliğ etdirirlər.

Bu və ya digər ölkənin tarixi inkişafı ilə bağlı olan çoxsaylı fərqliliklərə və sosial iqtisadi vəziyyətin özünəməxsusluğuna baxmayaraq, konservativizm aşağıdakı ümumi müddəalarla çıxış edir:

1.İlk növbədə ənənəvi dəyərlərin qorunması, ənənələr şəcərəsinə əməl etmək, nüfuzlu insanlara, nizam-intizama, əxlaqa, fərdin normaları və məsuliyyətinə, əsas ictimai institutlar olan ailə, din, icmalara hörmət edilməsi.

2.Mədəni böhran mövzusu, o cümlədən Qərb mədəniyyəti üçün təhlükə hesab edilən eqalitarizm (bərabərlik) qarşısında qorxu.

3.Sabitlik ideyası və qeyri-sabitliyin əhəmiyyətli sosial dəyişikliklərə mane olmasının dərk edilməsi.

4.Cəmiyyətin iqtisadi strukturunda bazarın öncüllüyü mövzusu.

5. Cəmiyyətin nüfuzlu himayəçisi rolunda çıxış edən və bürokratiyanın hakimliyinə səbəb olan "Ümumi rifah dövlətinin" tənqidi.[242]

Neokonservativizmin üstün tərəflərindən biri onun "ümidlərlə dolu" olmasıdır, "o, gələcəyə baxır, keçmişə görə darıxmır, o, şən əhval-ruhiyyəyə köklənib, qüssəli və əzgin deyil. XX əsrdə Teodor Ruzvelt, Franklin Delano Ruzvelt və Ronald Reyqan neokonservator olublar. Neokonservatizmin əsas ideyası belədir ki, cəmiyyətin bütün təbəqələrinin rifahı mülkiyyətçiləri və vergi ödəyicilərini eqalitar xülyalar və demaqoq çağırışlar üçün daha həssas və əsas iqtisadi hesablar üçün daha rassional edir. Neokonservatorlar dövlətin xidmətlərinə konsentrasiya olunmağı düzgün hesab etmirlər və onlar bu xidmətlərin təqdim edilməsilə bağlı alternativ yollar axtarırlar.[243]

[242]Е. Осипова, Р. Соколова, "Кризис цивилизации и неоконсерватизм", 1993. ecsocman.hse.ru/data/986/771/1217/008ons3-93-0094-106.pdf

[243]Irving Kristol, 'The Neoconservative Persuasion', Weekly Standard, 2003 (August 25), Vol. 8, Issue 47. (ИРВИНГ КРИСТОЛ "Неоконсервативное убеждение1" Л ОГОС 6 (45) 2004, Перевод с английского Артема Смирнова)

Neokonservativizm ümumi ideyalarına əsaslanaraq qeyd edə bilərik ki, neokonservatorlar sosial dövlətin cəmiyyətin özünütəşkilatlandırması, özünüidarəetməsi, özünütənzimləməsi ideyasını inkişaf etdirirlər. Digər tərəfdən neokonservativizm cəmiyyətlərin özünəməxsusluğunu qoruyub saxlamağa yönəlib və məhz bu özünəməxsusluq fərqli sosial dövlət modellərinin yaranmasına gətirir.

Azərbaycanlı cəmiyyətində neokonservativ baxışların genişlənməsi XX əsrin 90-cı illərinin sonlarına aiddir. 1993-cü ildə atəşkəs elan edildikdən sonra Azərbaycanda siyasi, iqtisadi, sosial və mədəni islahatlar dövrü başlayır. Məhz bu dövrdə bir tərəfdən qloballaşma, digər tərəfdən isə milli özünütəyinetmə prosesi genişlənmişdir. Müasir dövrdə Azərbaycanda modernləşmə prosesinin növbəti mərhələsi müşahidə olunur və bu mərhələdə mənəvi-əxlaqi dəyərlərin transformasiyası nəzərə çarpır. Bu transformasiya azərbaycançılıq ideologiyasının və bu ideologiyanın multikulturalizm istiqamətinin təbliği və təşviqi ilə bağlıdır.

Məhz neokonservativizmə əsaslanan azərbaycançılıq ideologiyası Azərbaycanda yaranan sosial dövlətin mahiyyətinə özünəməxsusluq verir və fərqli sosial dövlət modelinin yaranmasına şərait yaradır.

## 3.2 Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsasları

Elə ölkələr vardır ki, orada milli ideologiyanı konstitusiya əvəz edir, konstitusiya milli mənafelərin ideoloji-siyasi əsası olur.[244] Bu baxımdan Azərbaycan Respublikasının sosial dövlət kimi formalaşmasının konstitusion əsaslarının öyrənilməsi xüsusi

---

[244] Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər., Bakı, "MBM", s.134

aktuallıq kəsb edir. Prezident İlham Əliyev öz çıxışlarında xüsusi olaraq vurğulayır ki, "Azərbaycan özünü dünyaya sosial dövlət kimi təqdim edir. Bizim siyasətimiz məhz bundan ibarətdir".[245] Lakin Avropanın inkişaf etmiş bir sıra ölkələrindən fərqli olaraq Azərbaycan Respublikasının Konstitusiyasında "sosial dövlət" anlayışı istifadə edilməyib. Belə ki, Azərbaycanın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika (1, maddə 7.1), dövlətin ali məqsədi isə İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi (1, maddə 12.1) elan edilir.[246]

Həmçinin Konstitusiyamızda sosial siyasətlə bağlı maddələr sosial dövlətin əsas xüsusiyyətlərini əks etdirən əsas ideyalara söykənir. Konstitusiyanın 15-ci, 16-cı və 38-ci maddələri bilavasitə sosial inkişaf məsələlərinə həsr edilib. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi göstərilir. Konstitusiyanın 16-cı maddəsi Sosial inkişafla bağlıdır. Burada dövlətin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı vurğulanır (1, maddə 16). Sosial məsələlərlə bağlı digər 38-ci maddə Azərbaycan vətəndaşlarının sosial təminat hüquqlarını əks etdirir. Burada qeyd edilir ki, hər kəsin sosial təminat hüququ vardır (maddə 38.1) və hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat hüququna malikdir (1, maddə 38.3), təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir (1, maddə 38.4). Sosial dəstək məqsədilə dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial

---

[245] İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012.12.Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. http://www.president.az/articles/4098/print

[246] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64 s.

sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır (1, maddə 38.5).[247]

Sosial dövlətin konstitusion prinsipləri aşağıdakılarla bağlıdır:

-insan hüquq və azadlıqlarının təmin edilməsi;

-insanların özləri və ailələri üçün maddi rifahın təmin etməsi məqsədilə əmək və əqli potensialın azad reallaşdırılması imkanlarının yaradılması;

-dövlət tərəfindən “insana” sərmayə qoyulmasına, vətəndaşların əksəriyyətinin yüksək həyat standartlarına nail olmasına, əhalinin həssas təbəqələrinə və qruplarına ünvanlı yardım edilməsinə yönəlmiş güclü və davamlı sosial siyasətin həyata keçirilməsi;

-hakimiyyətin bütün səviyyələrində idarəetmə qərarlarının hazırlanması və sosial ekspertizasında cəmiyyətin əsas istehsal qüvvələrinin real iştirakı üçün əlverişli şəraitin yaradılmasına zəmanət verilməsi;

- sosial əməkdaşlıq sistemini sosial iqtisadi və əmək münasibətlərinin tənzimlənməsi ilə bağlı ictimai razılıq əldə edilməsinə, işçilərin, işlə təmin edənlərin və dövlətin maraqlarının tarazlaşdırılmasına yönələn əsas mexanizmlər kimi qəbul edən və reallaşdıran hüquq və təminatlar;

-hər bir təsərrüfat subyektinin, hər bir mülkiyyətçinin müəyyən sosial yükə malik olması zəmanəti;

-ailənin möhkəmləndirilməsinə, vətəndaşların və ilk növbədə gənclərin mənəvi, mədəni, ruhi inkişafına, ululların irsinə ehtiyatlı yanaşmaya və nəsillərin varisliyinə, milli və tarixi özünəməxsusluğun qorunmasına yönələn hüquq və təminatlar.[248]

1948-ci ildə qəbul edilmiş İnsan hüquqları haqqında Ümumi Bəyannamədə göstərilir ki: milli səylər və beynəlxalq əməkdaşlıq vasitəsilə və hər bir dövlətin strukturuna və resurslarına əsaslanaraq hər bir insan cəmiyyətin üzvü kimi iqtisadi, sosial və mədəni sahələrdə zəruri sosial təminat almaq və onun ləyaqətinin müdafiə

---

[247] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64s.

[248] Каменецкий В. А., Патрикеев В. П. Лекции по экономике. Проблемы становления социального государства. – М.: АТиСО, 2001. - С. 314

edilməsi və şəxsiyyətinin azad inkişaf etdirilməsi hüquqlarna malikdir (maddə 22).[249]

Bu prinsiplərdən çıxış edərək, qeydə edə bilərik ki, Azərbaycan Respublikası bütün əsas insan hüquqları və ya onların böyük bir hissəsi təsbit olunmuş ümumi beynəlxalq müqavilələrdən olan 19 dekabr 1966-cı il tarixli "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktın, 19 dekabr 1966-cı il tarixli "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktın, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta birinci Fakültativ Protokolun, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Pakta 15 dekabr 1989-cu il tarixli ikinci Fakültativ Protokolun, 4 noyabr 1950-ci il tarixli "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiya və onun 1, 4, 6, 7 saylı Protokollarının iştirakçısıdır. 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında, "İnsan Hüquqları Haqqında Ümumi Bəyannamədə", "İqtisadi, sosial və mədəni hüquqlar haqqında" Beynəlxalq Paktda, "Vətəndaş və siyasi hüquqlar haqqında" Beynəlxalq Paktda, "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyada və digər insan hüquqlarına dair beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş insan hüquq və azadlıqları tam, əhatəli şəkildə təsbit olunmuşdur. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının II bölməsinin III fəsli bütünlüklə insan hüquq və azadlıqları ilə bağlı müddəaları əhatə edir. Konstitusiyasının "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəslində mülki, siyasi, iqtisadi, sosial, mədəni, prosessual və digər hüquqlar təsbit olunmuşdur. Konstitusiyada təsbit olunmuş insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.[250]

---

[249] Всеобщая декларация прав человека. Принята резолюцией 217 A (III) Генеральной Ассамблеи ООН от 10 декабря 1948 года. http://www.un.org/ru/documents/decl_conv/declarations/declhr.shtml

[250] Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti, Bakı, Qanun, 2003, s.58

Sosial sahə dövlət idarəçiliyinin prioritet istiqamətlərindən biri olduğu üçün hökumət büdcənin təsdiq edilməsi zamanı bu sahəyə xüsusi diqqət ayırır. Belə ki, Azərbaycan Respublikasının Büdcə sistemi haqqındakı Qanununda qeyd edilir ki, "Azərbaycan Respublikası dövlət büdcəsinin məqsədi ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanmasını və istifadəsini təmin etməkdir" (Fəsil II, maddə 8). Dövlət büdcəsindən sosial sahəyə ayrılan xərclər: "cari xərclər, o cümlədən əmək haqqı, əmək haqqına üstəlik, pensiya və başqa sosial müavinətlər və ödənişlər, ...və başqa xidmətlər üzrə xərclər, ...qrantlar, subsidiyalar ..." kimi təsnif edilir (maddədə 10.1.1).[251]

Sosial inkişafla bağlı büdcədən ayrılan məbləğ elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət və idman xərclərinin əsas istiqamətləri üzrə aşağıdakı kimi bölüşdürülür:

1.Elm sahəsi.

2.Təhsil.

3.Səhiyyə.

4.Mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyət.

5.Sosial müdafiə və sosial təminat.[252]

**Cədvəl 1.**

**Azərbaycan Respublikasının Dövlət büdcəsinin xərcləri[253]**

---

[251] Büdcə sistemi haqqındaAzərbaycan Respublikasının Qanunu. Heydər Əliyev,Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2 iyul 2002-ci il, № 358-IIQ

[252] 2013-cü ilin dövlət və ictimai büdcələrinin layihələrinin təqdimatı. http://www.maliyye.gov.az/sites/default/files/2013-1.pdf

[253] Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 30 noyabr 2012-ci il № 473-IVQ; Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 22 noyabr 2013-cü il ; Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının

| sosial sa-hə-lər / illər | Ümumi büdcəi | Elm xərcləri | Təhsil xərcləri | Səhiyyəi | Mədəniyyət, ıcəsənət, ıasiya, bədən /əsi və digər ɔriya-lara aid əyən sahədə /yət xərcləri | Sosial müdafiə sosial təminati |
|---|---|---|---|---|---|---|
| 2013 | 19.850.000.000,0 | 130.499.837,0 | 1.530.482.591,0 | 669.250.451,0 | 289.729.709,0 | 1.813.581.507,0 |
| 2014 | 20.063.000.000,0 | 146.815.903,0 | 1.653.445.192,0 | 725.586.166,0 | 311.410.550,0 | 2.072.233.879,0 |
| 2015 | 21.100.000.000,0 | 150.457.284,0 | 1.711.180.403,0 | 777.668.395,0 | 348.317.149,0 | 2.040.534.753,0 |
| 2016 | 19.906.500.000,0 | 131.700.000 | 1.713.500.000 | 744.900.000 | 652.700.000 | 1.896.600.000 |
| 2017 | 16.600.000.000,0 | 125.318.640.0 | 1.859.499.497.0 | 755.785.130.0 | 513.011.808.0 | 2.117.719.373.0 |

Məlum olduğu kimi sosial dövlətin əsas prioritetlərindən biri büdcənin böyük bir qisminin sosial sahəyə ayrılması ilə bağlıdır . Cədvəldən göründüyü kimi2013-cü ildə büdcədən sosial sahəyə (elm, təhsil, səhiyyə) və sosial müdafiə və sosial təminat sahəsinə ayrılmış xərclər 4.433.544.095,0 manat (23%), 2014-cü ildə - 4.909.491.690,0 manat (24%), 2015-ci ildə - 5.028.157.984,0 manat (25%), 2016-cı ildə - 5.139.400.000,0 manat (25%) olmuşdur, 2017-ci ildə isə - 5.371.334.448,0 manat (32%) olacağı proqnozlaşdırılır.

Ölkədə pensiya və müavinətlərin, ünvanlı sosial yardımın, məcburi köçkünlərin sosial məsələlərinin və digər sosial tədbirlərin maliyyə təminatı üçün 2013-cü ilin dövlət büdcəsində sosial müdafiə və sosial təminat xərclərinə 1813,6 mln. manat vəsait proqnozlaşdırılmışdır ki, bu da 2012-ci illə müqayisədə 27,8 mln. manat və ya 1,6%, 2011-ci ilin faktiki icrasına nisbətən isə 318,2

---

Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 28 noyabr 2014-cü il; Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı, Bakı, 2016; Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2016-cı il

mln. manat və ya 21,3% çoxdur.[254] Sosial müdafiə və sosial təminat xərcləri 2014-cü ildə 2.072 mln. manat, 2015-ci ildə 2.040 mln. manat, 2016-cı ildə 1.896 mln. manat, 2017-ci ildə 2.117 mln. manat müəyyən edilmişdir. Sosial sahənin inkişafı ilə bağlı ayrılmış məbləğin böyük bir qismi təhsilin inkişafı ilə bağlı olmuşdur. Təhsil sahəsinə 2013-cü ildə 1.530 mln. manat, 2014-cü ildə 1.653 mln. manat, 2015-ci ildə 1.711 mln. manat, 2016-cı ildə 1.713 mln. manat, 2017-ci ildə 1.859 mln. manat ayrılmışdır ki, bu da sosial dövlətin inkişafının genişləndirilməsi sahəsində atılan zəruri addımdır.

Sosial dövlətin konstitusion əsaslarının formalaşması sosial inkişafla bağlı qəbul və tətbiq edilən qanun layihələri və dövlət proqramlarında öz əksini tapır. Bu istiqamətdə əsas diqqət qeyri-neft sektorunun və regionların inkişafına yönəldilir. Büdcə xərcləri də əsasən bu istiqamətlərə uyğun müəyyən edilir.

Qeyd etmək lazımdır ki, 1995-ci ildən etibarən hökumət makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatda dəyişikliklər etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində bir sıra proqramlar hazırlamış və həyata keçirmişdir. Hazırda ölkədə regionların hərtərəfli inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasət həyata keçirilir. Ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail olunması məqsədilə 2004-cü ildən başlanmış tədbirlərin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Prezidentinin "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "2011-2013-cü illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı", "Azərbaycan Respublikası Regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı

[254] 2013-cü ilin dövlət və ictimai büdcələrinin layihələrinin təqdimatı. http://www.maliyye.gov.az/sites/default/files/2013-1.pdf

inkişaf Dövlət Proqramı", "2008—2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" qəbul edilmişdir. "Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda qeyd edilir ki, "Müasir Azərbaycanın qurucusu, inkişafın Azərbaycan modelinin müəllifi Ümummilli lider Heydər Əliyev strategiyasının həyata keçirilməsi nəticəsində ölkədə siyasi və makroiqtisadi sabitliyə nail olunmuş, iqtisadiyyatın bütün sahələrində köklü islahatlar aparılmış, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməli yaradılmışdır".

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" regional tarazlığın təmin edilməsi istiqamətində ...əhalinin işgüzar fəallığının artmasına, regionlarda sahibkarlıq fəaliyyətinin daha da genişlənməsinə, infrastruktur layihələrinin həyata keçirilməsinə, beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlərin yaradılmasına səbəb olmuş, vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəricilərini əhəmiyyətli dərəcədə yaxşılaşdırmışdır". Bu layihənin əsas məqsədi qeyri-neft sektorunun davamlı inkişafı, ölkə regionlarının tarazlı inkişafının təmin edilməsi, regionlarda kommunal xidmət və sosial infrastruktur təminatının yaxşılaşdırılması, yeni iş yerlərinin və müəssisələrin yaradılması nəticəsində əhalinin məşğulluq səviyyəsinin artırılması və həyat səviyyəsinin yüksəldilməsindən ibarət olmuşdur.[255]

Azərbaycan Respublikasında məcburi dövlət sosial sığortasını, əmək pensiyaları sahəsində idarəetməni həyata keçirən mərkəzi icra hakimiyyəti orqanı kimi Dövlət Sosial Müdafiə Fondu fəaliyyət göstərir. Bununla yanaşı ölkənin milli məclisində "Sosial siyasət daimi komissiyası" fəaliyyət göstərir. Sosial siyasət daimi komissiyasının fəaliyyəti aşağıdakılardan ibarətdir: sosial inkişaf, əmək, məşğulluq, insanların, xüsusilə qaçqın və məcburi köçkünlərin sosial problemləri, ailə, qadın və uşaq məsələləri,

---

[255]Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı. Azərbaycan Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir.

gənclər, bədən tərbiyəsi və idman, turizm, səhiyyə, sanitariya, sosial təminat və sığorta sahələri üzrə, sağlamlığın mühafizəsi sahəsində dövlət siyasətinin formalaşdırılmasına aid qanun layihələrinin hazırlanması və ya təqdim olunmuş qanun layihələrinə dair rəy verilməsi.

Beləliklə, qeyd edə bilərik ki, Azərbaycan hökuməti sosial dövlətin mahiyyəti ilə bağlı olan sahələrin inkişafını Azərbaycanda sosial dövlət quruculuğunun prioritet istiqamətləri kimi müəyyənləşdirərək, qanuni əsaslarda möhkəmləndirir və proqramlı şəkildə həyata keçirir.

# FƏSİL IV.AZƏRBAYCANDA SOSİAL İNSTİTUTLARIN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

## 4.1Dövlətin sosial siyasətinin həyata keçirilməsində sosial institutların rolu

Müasir qlobal transformasiya şəraitində Azərbaycanda sosial dövlətin inkişaf istiqamətlərinin öyrənilməsi ilk növbədə mövcud dövlət idarəçiliyi və burada sosial institutların fəaliyyətinin araşdırılmasını tələb edir. Sosial dövlətdə idarəçilik bilavasitə ehtiyacı olan təbəqələrin sosial problemlərinin həlli, onların sosial müdafiəsi və təminatı, cəmiyyətin ədalətli sosial tənzimlənməsi məsələlərinə yönəldiyi üçün mövcud qanunvericilik və sosial institutlar da bu əsasda qurulur. Ümumdünyəvi qlobal dəyişikliklər şəraitində Azərbaycanda daimi yeniləşmə, ardıcıl sosial islahatların həyata keçirilməsi müşahidə edilir. Hazırda Azərbaycan dövlətinin və cəmiyyətinin təkamüllü sosial inkişafa yönəldiyini qeyd etmək olar.

İlham Əliyev 2003-cü il 15 oktyabrda Azərbaycan Republikasının Prezidenti seçilmişdir. Həmin ili Azərbaycan tarixinin yeni istiqamətinin başlanğıcı kimi qəbul etmək olar. Belə ki, prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu siyasi kursu davam etdirsə də, onun idarəçiliyi dövrünü innovasion islahatlar dövrü kimi xarakterizə etmək olar. Məhz bu dövrdən etibarən Azərbaycan növbəti modernləşmə mərhələsinə qədəm qoymuşdur, ölkənin sosial, siyasi, iqtisadi həyatında əsaslı yeniliklər tətbiq edilməyə, sosial institutlar yeni prinsip və vəzifələr əsasında təkmilləşdirilməyə başlanmışdır. Bu gün hökumət tərəfindən sosial institutların səmərəli fəaliyyətinin təşkili ilə bağlı proqramlar və strategiyalar hazırlanır və həyata keçirlir.

Qeyd edilməlidir ki, Sosial institutlar mürəkkəb sistem olan dövlətin əsasını təşkil edən alt sistemləridir. Eyni zamanda sosial institutlar mürəkkəb quruluşa və diferensiasiyaya malik sistemlər kimi müxtəlif elementlərdən və tərkiblərdən ibarət olurlar. Bu mənada tarixən sabit, çoxvariantlı sosial münasibətlərə malik olan "baza institutlar" anlayışı istifadə edilir. "Baza institutlar" cəmiyyətin əsasını təşkil edirlər, sosial vəziyyətin ümumi xüsusiyyətlərini ifadə edirlər, kollektiv və fərdi davranışların istiqamətini müəyyənləşdirirlər. Baza institutlar tarixən xarici mühitin şərtləri ilə təşkilatlanan sosiumla qarşılıqlı təsir imkanları əsasında formalaşırlar. Onlar cəmiyyətin növbəti inkişaf

xüsusiyyətlərini müəyyən edən sabit sosial texnologiyalar kimi çıxış edirlər.[256]

Sosial institutlar eynicinsli qurumlar kompleksi kimi çıxış edirlər. Onlar sosial qəbul edilmiş və zəruri fəaliyyətin tam sistemi kimi təkrar istehsalı və özünütənzimləməni təmin edirlər. Uyğun olaraq sosial institut müəyyənləşmiş təşkilati (təsisat) model kimi çıxış edir, agentlərlə kliyentlər arasında sabit əlaqə və münasibətlərin struktur-funksional çərçivədə formalaşmasına imkan yaradır.[257]

Qeyd edilənlərdən çıxış edərək deyə bilərik ki, sosial institutlar dövlətə xas bir sıra funksiya və səlahiyyətləri bölgü sisteminə uyğun şəkildə realizə edirlər. Sosial institutların bu fəaliyyəti hökumət tərəfindən qəbul edilmiş qanunlar və digər hüquqi sənədlərlərə söykənir.

Azərbaycan Respublikasının Konstitusiyasında göstərilir ki, Azərbaycan Respublikasında dövlət hakimiyyəti hakimiyyətlərin bölünməsi prinsipi əsasında həyata keçirilir:

- qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir;
- icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur;
- məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının məhkəmələri həyata keçirir.

Konstitusiyada qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətdə olması və öz səlahiyyətləri çərçivəsində müstəqil olduqları bildirilir (II Fəsil, maddə7).[258]

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri dövlətin baza institutları kimi çıxış edir və dövlət idarəçiliyinin sonrakı

[256] Кирдина С. Г. "Теория институциональных матриц (пример российского институционализма)", В монографии "Постсоветский институционализм" /Под ред. Р.М. Нуреева, В.В. Дементьева. - Донецк: Каштан, 2005, с. 75-101.

[257]Иншаков О.В., Фролов Д.П. Институционализм в российской экономической мысли: В 2 т. Т. 2. Волгоград: Изд-во Волгоградск. гос. университета, 2002, с.39-44

[258]Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64s.

mərhələləri alt sistemlər hesab edilən dövlət qurumları və ictimai təşkilatlar tərəfindən həyata keçirilir.

I. Azərbaycan Respublikasında qanunvericilik hakimiyyətini Azərbaycan Respublikasının Milli Məclisi həyata keçirir (Maddə 81). Milli Məclis aşağıdakı sosial qurumlarla qarşılıqlı fəaliyyətdə olur:

1) məhkəmə, prokurorluq, vəkillik və notariat;
2) bələdiyyələr;
3) mülki hüquq obyektləri;
4) vergilər, rüsumlar və ödənişlər;
5) sosial təminat;
6) müdafiə və hərbi qulluq;
7) dövlət qulluğu;
8) rabitə və nəqliyyat işi;
9) statistika;
10) gömrük işi;
11) ticarət işi və birja fəaliyyəti;
12) bank işi, mühasibat, sığorta (maddə 94).

II. Azərbaycan Respublikasında icra hakimiyyəti Azərbaycan Respublikasının Prezidentinə mənsubdur (maddə 99). Azərbaycan Respublikasının Prezidenti bilavasitə aşağıdakı sosial qurumlarla qarşılıqlı fəaliyyətdə olur:

1) Azərbaycan Respublikasının Milli Məclisi;
2) Azərbaycan Respublikası Nazirlər Kabineti;
3) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti;
4) mərkəzi və yerli icra hakimiyyəti orqanları;
5) Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apellyasiya məhkəmələri;
6) Azərbaycan Respublikasının Milli Bankı;
7) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyəti;
8) Azərbaycan Respublikası Prezidentinin icra Aparatı;
9) Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili;

10) Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası (Maddə 109).

III. Məhkəmə hakimiyyəti aşağıdakı sosial qurumlarla – Ümumi və digər ixtisaslaşdırılmış məhkəmələrlə qarşılıqlı fəaliyyətdə olur (Maddə 125).

IV. Yerli özünüidarəni bələdiyyələr həyata keçirir (Maddə 142). Bələdiyyələr aşağıdakı sosial qurumlarla qarşılıqlı fəaliyyətdə olur:

1) yerli vergilər;
2) yerli büdcə;
3) bələdiyyə mülkiyyəti;
4) yerli sosial müdafiə və sosial inkişaf;
5) yerli iqtisadi inkişaf;
6) yerli ekoloji (Maddə 144).

Bələdiyyələrə qanunvericilik və icra hakimiyyətləri nəzarət edirlər.

Beləliklə, sosial institutlar tarixən sabit və təkrar istehsal olunan münasibətlər sistemi olub, müəyyənləşmiş norma və qaydalar əsasında mövcud olur. Sosial institutlar insanlar tərəfindən ümumi tələbatların təmin edilməsi və ümumi dəyərlərin daimi tətbiqi (mübadiləsi) məqsədilə yaradılır. Sosial institutlara məxsus münasibətlərin mahiyyətini "yaradıcı ↔ istehlakçı" elementlərindən təşkil olunmuş sxem daha yaxşı ifadə edir. Sosial institutun digər əlamətləri əsasən yaradıcı və istehlakçı arasında əlaqənin keyfiyyəti ilə, yəni yaradıcı və istehlakçı arasında sabit və zəruri sosial qarşılıqlı təsir, yaxud onlar arasında maddi və qeyri-maddi məhsulun mübdailəsi ilə bağlıdır. Sosial institutun əsas xüsusiyyəti onun sabit, zəruri, əsaslı əlaqələr sistemi olmasıdır.[259]

Yuxarıda qeyd edildiyi kimi, sosial institutlar rəsmi və qeyri-rəsmi, yəni ictimai əsaslarda fəaliyyət göstərə bilər.

Bu fəaliyyətlərin hər biri qanuni olaraq həyata keçirilir. Bu mənada Azərbaycan Respublikasının Konstitusiyasında insanların

---

[259] Полтавская Е.И. " Проблема «социальный институт и организация» и её решение с помощью схем понятий" Философия. Культуралогия. Вестник Нижненовгородского Университета им.Н.И.Лобачевского. Серия Социальные науки, 2012, №3 (27), с.132-137

birləşmək hüququ ilə bağlı 58-ci maddədə göstərilir ki, "hər kəs istənilən birlik, o cümlədən siyasi partiya, həmkarlar ittifaqı və digər ictimai birlik yaratmaq və ya mövcud birliyə daxil olmaq hüququna malikdir. Bütün birliklərin sərbəst fəaliyyətinə təminat verilir" (maddə 58). Konstitusiyada sərbəst toplaşmaq və müvafiq dövlət orqanlarını qabaqcadan xəbərdar etməklə dinc, silahsız yığışmaq, yığıncaqlar, mitinqlər, nümayişlər, küçə yürüşləri keçirmək, piketlər düzəltmək hüququ təsbit edilir (maddə 49). İnsanlara İrqi, milli, dini, sosial ədavət və düşmənçilik oyadan təşviqat və təbliğat aparmadan öz fikir və əqidəsini açıqlamağa icazə verilir (maddə 47).

Beləliklə, göründüyü kimi sosial institutların digər forması olan qeyri-rəsmi təşkilatlar da hüquqi əsaslarda, dövlətin müəyyən etdiyi qaydalar əsasında fəaliyyət göstərməlidirlər. Məlumdur ki, QHT, maraq qrupları, lobbi təşkilatları və digər qeyri-formal təşkilatların yaradılması vətəndaş cəmiyyətinin formalaşmasının əsas əlamətləridir. Belə deyə bilərik ki, Azərbaycan dövləti vətəndaş cəmiyyətinin hüquqi əsaslarda yaradılmasına şərait yaradır. Dövlət Statisika Komitəsinin məlumatlarına əsasən bu gün Azərbaycanda vətəndaş cəmiyyətinin əsas sosial institutlarından olan QHT-lərin ümumi sayı 2800-dən çoxdur onlardan 1500-ü xeyriyyə cəmiyyətləri, boks, güləş federasiyaları və s. ibarətdir.[260] Əksəriyyəti Bakı şəhərində yerləşən QHT-lərin əsas fəaliyyət istiqamətləri aşağıdakı kimidir:

-siyasi partiyalar və siyasiləşmiş kütləvi hərəkatlar;

- qadın, gənclər, tələbə təşkilatları və hərəkatları;
- dini birliklər;
- etnik birliklər;
- hər cür ictimai fondlar;
- şəxsi elmi-tədqiqat və təhsil mərkəzləri;
- veteranlar, idmançılar, azarkeşlər, ekoloqlar və s. təşkilatları.

QHT-lərin fəaliyyəti ayrı-ayrılıqda fərqlənsə də, onların ümumi məramı aşağıdakılarla bağlıdır:

---

[260] İsgəndərli A.,Mehdizadə G. Ədliyyə Nazirliyinin qeydiyyat labrinti… http://www.bizimyol.info/news/17103.html

-üçüncü sektorun (QHT) inkişafına kömək etmək;

-cəmiyyətin aztəminatlı təbəqələrinə maddi və mənəvi kömək etmək;

-vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsinə şərait yaratmaq.

27 iyun 2007-ci ildə "Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət köməyi" ilə bağlı qanun qəbul edilmişdir. Bu qanun dövlətlə QHT-lər arasındakı münasibətlərin yeni mərhələsinə səbəb olmuşdur. Hökumət QHT-lərə metodiki, texniki, maliyyə və s. yardımı təklif edir. "Qrantlar haqqında" Qanunda bildirilir ki, dövlət özü donor kimi çıxış edərək, müsabiqə yolu ilə qrantlar verir. Hökumət QHT-lərə dövlət büdcəsindən pul ayırmaqla dövlətin maraqlarına zidd olan tədqiqatların və fəaliyyətin qarşısını almağa, QHT-ləri maddi asılılıqdan qurtarmağa çalışır. QHT-lərə kömək milli donor institutunun formalaşmasına, vətəndaş təşkilatları ilə dövlət orqanları arasında əlaqələr yaratmağa, QHT-lərin gələcək inkişaf və fəaliyyət strategiyasını formalaşdırmağa çalışır. Vətəndaş cəmiyyətinin formalaşmasında QHT-lərin rolu danılmazdır. Vətəndaş cəmiyyətinin strukturyaradıcı elementi olan QHT-lər cəmiyyətlə dövlət arasında əlaqələndirici sistem kimi çıxış edir, dövlət orqanları üzərində müəyyən təsirə malik olur və demokratiyanın inkişafına kömək edirlər.[261]

Sosial dövlətin formalaşması və inkişafına təsir edən digər ictimai əsaslı təşkilatlar kimi lobbi qruplaşmalarını göstərmək olar. Azərbaycanda lobbi təşkilatları əsasən QHT-lər kimi fəaliyyət göstərirlər. Müasir dövrdə lobbizm ayrı-ayrı təbəqədən olan insanların və sosial qrupların məqsədə çatması üçün ciddi vasitə hesab olunur. Lobbiçilik istər hərəkat formasında (müxtəlif ictimai birliklərdə: qadınlar, gənclər və ya komitələrdə: etnik, mədəni və s.), istərsə də peşəkar fəaliyyətdə (siyasətdə, iqtisadiyyatda və s.) təzahür edir. Hər hansı bir ölkədə lobbizmin inkişafı və yayılması həmin ölkənin siyasi (diplomatik) və iqtisadi inkişaf səviyyəsi,

[261] Məmmədova S.D. QHT-lər vətəndaş cəmiyyətinin strukturyaradıcı elementi kimi. Türk dünyası sosioloqlarının III konqresi, Qazaxıstan, Almata, 2008, s.

həmçinin həmin ölkədə formalaşmış dövlət ənənələri və institutları ilə müəyyən olunur.[262]

Lobbi qruplaşmaları aşağıdakı funksiyaları yerinə yetirirlər:

1.Lobbilər vətəndaşlarla dövlət arasında vasitəçi rolunu yerinə yetirirlər və ilk növbədə informasiya mübadiləsini həyata keçirirlər. Lobbilər dövlət orqanlarını yalnız ayrı-ayrı qruplaşmaların deyil, həm də cəmiyyətin ayrı-ayrı təbəqələrinin maraqları ilə bağlı informasiya ilə təmin edirlər. Bu zaman lobbilər təzyiq qrupları kimi çıxış etsələr də, həm özləri, həm də müəyyən əhali qrupu və bütövlükdə cəmiyyət üçün əhəmiyyətli olan qanunların qəbul edilməsinə nail ola bilirlər.

2. Lobbiçilik ictimai maraqların təmsilçisi kimi cəmiyyətdə plüralizmin inkişafına şərait yaradır. Lobbizm idarəetmə qərarları qəbul edilərkən ayrı-ayrı maraqlar arasında ümumi məqamın tapılmasına, kompromiss və konsensus əldə edilməsinə kömək edir.

3.Lobbizm demokratik hakimiyyətin konstitusion sistemini tamamlayır, siyasi qərarların qəbul edilməsi və reallaşdırılması üçün müəyyən qrupların bu prosesdə iştirakını mümkün edir.[263]

Ümumilikdə, lobbizm hakimiyyət orqanları ilə iş texnologiyasıdır və GR (goverment relations) dövlətlə əlaqənin yaradılması funksiyasını yerinə yetirir. Lobbizm vətəndaş cəmiyyətinin dövlətlə münasibətlər mexanizmini korrektə edir və nəzarətdə saxlayır.[264]

Ümumilikdə, lobbizm hakimiyyət orqanları ilə iş texnologiyasıdır və GR (goverment relations) dövlətlə əlaqənin yaradılması funksiyasını yerinə yetirir. Lobbizm vətəndaş

---

[262]BabanlıY. Diasporçuluq, Lobbiçilik və onların mahiyyəti. «Qarapapaqlar».2012.-№7.-S.14-17.

[263] БеляковичН.Н.Лоббистские группы как институтыгражданского общества. Право и демократия: Сборник научных трудов / Белорусский государственный университет; Редкол.: В.Н. Бибило (гл. ред.) и др. – Минск: Право и экономика, 1999. – Вып. 10

[264] Гросфельд Е.В. Лоббизм и Government Relations: контуры теории.Грані Політологія, № 6 (80) Листопад - Грудень `2011

cəmiyyətinin dövlətlə münasibətlər mexanizmini korrektə edir və nəzarətdə saxlayır.[265]

Lobbizm yalnız bu və ya digər sosial, siyasi, iqtisadi qrupların maraqlarını hakimiyyət orqanlarında təmsil etmir, müəyyən mənada faktiki hakimiyyətlə birgə formal hakimiyyət kimi çıxış edir. Kiçik, az nüfuzlu qruplar lobbiçiliklə məşğul olaraq öz maraqlarını müdafiə etsələr də onlar lobbizmin periferiyaları kimi çıxış edirlər. Əsas təzyiq qrupları isə hakimiyyətə təsir edən iri korporasiyalar bazasında formalaşır.

Lobbizm demokratik prosesin sağlam, normal, həyat üçün zəruri təzahürü kimi xarakterizə olunur. Lobbizm aşağıdakı iki halda sosial institut kimi çıxış edir:

1.Cəmiyyətdə baş verən sosial diferensiasiya, təbəqələşmə, "ixtisaslaşma" çox sayda maraqların yaranmasına səbəb olur.

2. Demokratik rejimlərə xas xüsusiyyət kimi siyasi plüralizm hakimiyyətə çıxış imkanlarını genişləndirir. Ayrı-ayrı qruplar və təbəqələr siyasəti öz mənafelərinə uyğun yönəltmək üçün hakimiyyətə təsir göstərirlər, onlar üçün əlverişli olan idarəetmə qərarlarının qəbul edilməsini stimullaşdırırlar.[266]

Sosial dövlətin formalaşdığı Azərbaycan üçün də lobbizm fəaliyyəti çox aktualdır. Azərbaycanda sosial məsələlərlə bağlı maraq qruplarının mənafelərini müdafiə edən və bu istiqamətdə qanunvericiliyə təsir edə biləcək lobbi təşkilatları çox zəif nəzərə çarpır, daxili lobbiçilik fəaliyyətini əsasən QHT-lər yerinə yetirirlər. Ölkəmizdə lobbizm əsasən xarici siyasi məsələlərə təsir qrupları kimi formalaşır. ABŞ-da və digər ölkələrdə Azərbaycan diasporunun inkişafı və lobbisinin formalaşması prosesinin əsası Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlişindən sonra başladı. Məhz bu dövrdən etibarən diasporun təşkilatlanması və institutlaşdırılması dövlət siyasətinin əsas istiqamətlərindən birinə çevrildi. Azərbaycan Respublikasının

---

[265] Гросфельд Е.В. Лоббизм и Government Relations: контуры теории.Грані Політологія, № 6 (80) Листопад - Грудень `2011

[266]Малько А. «Лоббизм». 3 Общественные науки и современность, № 4,1995, s.58-65

nüfuzunun güclənməsi Azərbaycan diasporunun fəallaşmasına və onların lobbiçilik fəaliyyətinə qoşulmasına mühüm təsir göstərdi.

2000-ci il sentyabrın 8-də ABŞ-da səfərdə olan prezident Heydər Əliyevin Amerikanın nüfuzlu yəhudi təşkilatları, Yəhudi Komitəsi, Prezidentlər Konfransının, Yəhudi Konqresinin, Sovet Yəhudiləri Komitəsinin rəhbərləri ilə görüşü də Azərbaycan lobbisinin formalaşmasında və siyasi imicinin yüksəlməsində böyük əhəmiyyət kəsb etdi.[267] 2001-ci ildə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin sərəncamı ilə Bakı şəhərində Dünya Azərbaycanlılarının 1 Qurultayı keçirildi.[268] Azərbaycan Prezidentinin 2002-ci il 5 iyul tarixli 730 saylı fərmanına müvafiq olaraq Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı.[269] Daha sonra bu işin geniş müstəviyə çıxarılması üçün 21 fevral 2003-cü ildə "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu[270] təsdiq edildi.

Prezident İlham Əliyevin müvafiq fərmanları və iştirakı ilə 2006-cı il mart ayının 16-da Dünya Azərbaycanlılarının II[271], 2011-ci ilin 5-6 iyul tarixlərində isə III Qurultayı[272] keçirildi. Diaspor və lobbi işinin müasir dünyanın reallıqlarına uyğun həyata keçirilməsi və bu sahədə konkret işin görülməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti 19 noyabr 2008-ci il tarixdə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin

---

[267] BabanlıY. Diasporçuluq, Lobbiçilik və onların mahiyyəti. «Qarapapaqlar».2012.-№7.-S.14-17.

[268] "Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 may 2001-ci il tarixli, 724 nömrəli Sərəncamı

[269] Azərbaycan Respublikasının Diaspor ilə İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 noyabr 2008-ci il.

[270] "Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu. Heydər ƏLİYEV, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 27 dekabr 2002-ci il, № 413-IIQ

[271] "Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 8 fevral 2006-cı il tarixli, 1291 nömrəli Sərəncamı

[272] "Dünya Azərbaycanlılarının III Qurultayının keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 21 yanvar 2011-ci il tarixli, 1293 nömrəli Sərəncamı

bazasında Diasporla İş üzrə Dövlət Komitəsinin yaradılması haqqında sərəncam imzaladı.[273]

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində lobbiçiliyə verdiyi böyük önəmi belə ifadə edir: “Ümumazərbaycan məsələləri ilə bağlı təsirli addımlar atılmalı, aparıcı ölkələrdə güclü Azərbaycan lobbisi formalaşdırılmalıdır. Dost icmalar və lobbi təşkilatları ilə səmərəli əməkdaşlıq qurulmalı, diaspor quruculuğu sahəsində onların müsbət təcrübəsindən istifadə olunmalıdır”.[274]

Yuxarıda qeyd edilənlər əsasında deyə bilərik ki, Azərbaycanda xarici lobbiçilik inkişaf etmişdir. Ölkədə daxili lobbiçiliyin mütəşəkkilliyi demək olar ki, nəzərə çarpmır, onlar ancaq QHT-lər formasında çıxış edirlər. Müəyyən mənada lobbilər qeyri-hökumət təşkilatları olsalar da, lobbilərin QHT-lərdən fərqi onların əsasən eyni məramlı (məs. ayrı-ayrı etnosların birliyi, əllillər birliyi, azarkeşlər birliyi və s.) insanları birləşdirməsidir. Beləliklə, daxili lobbiçilik müxtəlif istiqamətli sosial birliklərin (idmançılar, əlillər, təqaüdçülər, yaşlılar, gənclər, etnik birliklər, sahibkarlar, ekoloqlar və s.) və ayrı-ayrı ittifaqların (Həmkarlar İttifaqı, Bəstəkarlar İttifaqı, Yazıçılar Birliyi, Rəssamlar İttifaqı və s.) maraqlarının (məs., yerləşmək, lazımi avadanlıqlarla təmin edilmək, səfərlər, müəyyən sosial imtiyazlar və s.) dövlət orqanlarına çatdırılması və hüquqlarının müdafiəsi ilə bağlı olur. Zənnimizcə, daxili lobbiçiliyin inkişafı Azərbaycan cəmiyyəti üçün əhəmiyyətli ola bilər. Belə ki, daxili lobbiçilik yalnız siyasi fəaliyyət deyil, ayrı-ayrı sosial təbəqələrin və bilavasitə həssas qrupların maraqlarını hakimiyyət orqanlarına çatdırmaq üçün əlverişli vasitədir.

Qeyd etmək lazımdır ki, maraq qrupları cəmiyyətin strukturunu mürəkkəbləşdirməklə yanaşı, sosial qarşılıqlı təsiri də sıxlaşdırır, sosial qrupların özünüidarəsi və özünütəşkilatlandırması prosesini genişləndirir.

---

[273]BabanlıY. Diasporçuluq, Lobbiçilik və onların mahiyyəti. «Qarapapaqlar».2012.-№7.-S.14-17.

[274] Dünya Azərbaycanlılarının I qurultayı. I FƏSİL. Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Prezident Kitabxanası. http://files.preslib.az/site/diaspora/gll.pdf

Göründüyü kimi daxili lobbilər dövlətin sosial siyasətini öz mənafelərinə uyğun yönəltməyə çalışan insanlar birliyidir. Demokratik cəmiyyətlərdə lobbilərlə dövlət strukturları fasiləsiz qarşılıqlı fəaliyyətdə olurlar, onlar vətəndaş cəmiyyətinin və dövlətin əsas sosial institutlarından biri kimi çıxış edərək, siyasi hakimiyyətə birbaşa çıxışı olmayan ayrı-ayrı sosial qrupların maraqlarını müdafiə edirlər, dövlətlə vətəndaşlar arasında vasitəçi rolunu oynayırlar və lobbilərin fəaliyyəti xüsusi qanun, yaxud hüquqi sənədlərlə tənzimlənir.[275]

Beləliklə, qeyd edə bilərik ki, sosial dövlət, həm də vətəndaş cəmiyyətinin inkişaf etdiyi, vətəndaşların dövlət idarəçiliyində iştirakına, həmçinin cəmiyyətin, o cümlədən rəsmi və qeyri-rəsmi sosial institutların özünütənzimləməsi və özünüidarə etməsinə imkanlar yaradılan dövlətdir.

## 4.2 Vətəndaşların əmək hüquqlarının təmin edilməsi Sosial dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi

Vətəndaşların əmək hüquqlarının təmin edilməsi Sosial dövlət quruculuğunun hüquqi əsaslara malik olan əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilir. Azərbaycan Respublikası Konstitusiyasının "Əmək hüququ" ilə bağlı 35-ci maddəsində göstərilir ki, "Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır" (maddə 35.II). Burada əmək müqaviləsinin bağlanması əmək hüququnun təmin edilməsinin əsası kimi çıxış edir. Konstitusiyada əmək fəaliyyətinin sərbəst seçilməsi və təhlükəsiz əmək şəraitində işləmək hüququ vurğulanır: "Hər kəsin təhlükəsiz və sağlam şəraitdə işləmək, heç bir ayrı-seçkilik

[275] БеляковичН.Н.Лоббистские группы как институты гражданского общества. Право и демократия: Сборник научных трудов / Белорусский государственный университет; Редкол.: В.Н. Бибило (гл. ред.) и др. – Минск: Право и экономика, 1999. – Вып. 10

qoyulmadan öz işinə görə dövlətin müəyyənləşdirdiyi minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququ vardır" (maddə 35).[276]

Azərbaycan Respublikasının Konstitusiyasında əməyə, əməkçi insanlara münasibətlə bağlı möhkəmlənən hüquqi norma və prinsiplər bilavasitə sosial dövlətin mahiyyəti, formalaşması və mövcud olma imkanları ilə bağlıdır. Belə ki, burada Əmək hüququ İnsanın əsas hüquq və azadlıqlarından biri kimi müəyyən edilmişdir. Əmək hüquqları bir tərəfdən vətəndaşların sosial müdafiəsi, onların rifah halının yaxşılaşdırılması ilə bağlıdır, digər tərəfdən isə bu hüquqların təmin edilməsi dövlətin iqtisadi inkişafının əsasları kimi çıxış edir.

13 bölmə, 48 fəsil və 317 maddədən ibarət olan Azərbaycan Respublikasının Əmək Məcəlləsi Konstitusiyadan çıxış edərək vətəndaşların əmək hüquqlarını müəyyən edən, dövlətin əmək üçün əlverişli şərait yaratmasına, işçilərin və işlə təmin edənlərin hüquq və maraqlarının qorunmasına zəmanət verir.

Əmək məcəlləsində tərəflərin əmək müqaviləsi (kontraktı) üzrə öhdəliklərinin icrasına hüquqi təminat yaradılması ilə bağlı əsas prinsiplər aşağıdakı kimi müəyyən edilir:

- hüquq bərabərliyinin təmin edilməsi;
- mənafelərinin haqq-ədalətlə və qanunun aliliyinin təmin olunması ilə qorunması;
- maddi, mənəvi, sosial, iqtisadi və digər həyati tələbatlarını ödəmək məqsədi ilə əqli, fiziki və maliyyə imkanlarından sərbəst istifadə etməsinin təmin edilməsi.

Burada "Əmək münasibətlərində tərəflər" dedikdə, işçilərlə işəgötürənlər, müvafiq dövlət hakimiyyəti orqanları, hüquqi şəxslər nəzərdə tutulur.

Əmək məcəlləsində əsas vəzifəflər aşağıdakı kimi müəyyənləşdirilir:

- Əmək münasibətlərindəki tərəflər arasındakı münasibətlərin tənzim edilməsi;

[276] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64 s.

- fiziki şəxslərin əmək hüquqlarının və bu hüquqların həyata keçirilməsini təmin edən qaydaların minimum normalarını müəyyən edilməsi nəzərdə tutulur (maddə 2).[277]

Əmək məcəlləsinin tənzimlədiyi əsas sahələrdən biri də əmək şəraitinin tənzimlənməsi ilə bağlıdır. AR ƏM-də əmək şəraitinin təmin edilməsi dedikdə, aşağıdakılar nəzərdə tutulur:

- peşə (vəzifə) adlarının, ixtisasların, əməyin ödənilməsi dərəcələrinin müəyyən edilməsi;
- əməyə görə haqqın miqdarının müəyyən edilməsi və onun ödənilməsi;
- əmək normaları və əməyin qiymətləndirilməsi normalarının müəyyən edilməsi;
- sanitariya və gigiyena normalarına cavab verən iş yerinin və iş şəraitinin yaradılması;
- əməyin mühafizəsi, texniki təhlükəsizlik normalarının gözlənilməsi;
- əmək funksiyasının bu Məcəllə ilə müəyyən edilmiş iş vaxtı müddətindən artıq olmayan iş vaxtında yerinə yetirilməsi;
- bu Məcəllə ilə müəyyən edilmiş istirahət vaxtından, məzuniyyətlərdən istifadə olunması;
- işçilərin qanunvericiliklə müəyyən olunmuş məcburi dövlət sosial sığorta edilməsi;
- işçilərə əmək funksiyasının icrası üçün zəruri olan avadanlıqların, materialların, alətlərin, texniki və digər sənədlərin vaxtında verilməsi və onların lazımi keyfiyyətdə olması;
- əmək müqavilələrində, kollektiv müqavilələrdə nəzərdə tutulan şərtlər (maddə 54).[278]

Əmək müqaviləsi haqqındakı qanunda göstərilir ki, təhlükəsiz və sağlam əmək şəraitinin yaradılması işə götürənin üzərinə düşür. Əks təqdirdə əmək zədəsi almış (sağlamlığını

---

[277] Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (1 fevral 1999-cu il tarixli, 618-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir). http://dialoq.info/kitabxana-azərbaycan-respublikasinin-əmək-məcəlləsi-pdf-fayli

[278] Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (1 fevral 1999-cu il tarixli, 618-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir). http://dialoq.info/kitabxana-azərbaycan-respublikasinin-əmək-məcəlləsi-pdf-fayli

itirdikdə və şikəst olduqda) işçi müəssisə tərəfindən maddi yardımla təmin edilməlidir. Konstitusiyada əmək fəaliyyəti ilə məşğul olan insanlar (qadınlar, uşaqlar, kişilər, yaşlılar, əlillər, xarici vətəndaşlar və s.) arasında ayrıseçkiliyə yol verilməməsi, əməyin ödənilməsində onlar arasında fərq qoyulmaması və hər kəsin öz işinə, işin keyfiyyətinə və kəmiyyətinə görə qiymətləndirilməsi məsələləri öz əksini tapmışdır.[279] Beləliklə, ölkədə minimum əmək haqqı dövlət tərəfindən müəyyən edilir və işçi müəssisənin tipindən (dövlət, yaxud özəl təşkilatlar) asılı olmayaraq minimum əmək haqqı miqdarından az olmayan haqq almaq hüququna malikdir. Konstitusiyada Əmək hüququnun əsas maddələrindən biri işsizlərin dövlət tərəfindən müavinət almaq hüququ ilə bağlıdır. Əmək müqaviləsi haqqındakı qanuna əsasən işsizlər kateqoriyasına aşağıdakı hallarda işdən azad edilən şəxslər aid edilir:

- Əmək müqaviləsində göstərilən şərtlər üzürsüz əsaslarda pozulduqda;
- ştatlar ixtisar edildiyi halda;
- müəssisənin rəhbəri dəyişdirildiyi halda;
- işçi tutduğu vəzifəyə uyğun gəlmədiyi halda.[280]

Konstitusiyada işsizlərin dövlətdən sosial müavinət alması hüququnun olduğu qeyd edilir.[281]

Azərbaycanda yoxsulluğun aradan qaldırılması, məşğulluğun təmin olunması istiqamətində “Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu” və “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)” qəbul edilmişdir.“Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu” “məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də vətəndaşların əmək sahəsində və işsizlərin sosial müdafiəsi sahəsində dövlət

[279] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64 s.
[280] Azərbaycan Respublikasının Əmək Məcəlləsi. (1 fevral 1999-cu il tarixli, 618-IQ nömrəli Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir). http://dialoq.info/kitabxana-azərbaycan-respublikasinin-əmək-məcəlləsi-pdf-fayli
[281] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64 s.

təminatlarını müəyyən edir”.[282] Məşğulluq Strategiyasında qeyd edilir ki, “Azərbaycan Respublikasında məşğulluq strategiyasının əsas məqsədi əmək ehtiyatlarından daha dolğun istifadə etməklə əhalinin səmərəli məşğulluğunu təmin etməkdən ibarətdir”.[283]

Beləliklə, məşğulluğun təmin edilməsilə bağlı dövlət xüsusi siyasət həyata keçirir. Bu siyasətin nəticələri kimi qeyd edə bilərik ki, 2014-cü ildə ölkədə iqtisadi fəal əhalinin sayı 2000-ci illə müqayisədə 470,5 min nəfər artaraq 4840,7 min nəfər olmuş, onların da 4602,9 min nəfərini iqtisadiyyatda məşğul olanlar, 237,8 min nəfərini isə işsiz əhali təşkil edir.[284]

İşsizliyin qarşısının alınması məqsədilə yeni iş yerlərinin açılması dövlətin sosial siyasətinin prioritet məsələlərdən biri kimi həyata keçirilir. “Azərbaycan Respublikasında əhalinin məşğulluğu haqqında” Qanunda işsiz statusu belə izah edilir: “işsiz vətəndaş - işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında işaxtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir”.[285]

Dövlətin məşğulluq siyasətinin əsas istiqamətləri işsiz vətəndaşların səmərəli və sərbəst işlə təmin edilməsinə yönəlib. Dövlət işsizliyin azaldılması ilə bağlı vəzifələri kimi əmək və sahibkarlıq təşəbbüsünü müdafiə edir, sahibkarlığın inkişaf etdirilməsinə, işsizlərin sosial müdafiəsinin təmin edilməsinə köməklik göstərir, məşğulluğun təmin edilməsinə yönəldilmiş tədbirlərin hazırlanmasına və həyata keçirilməsinə, Azərbaycan Respublikasının dövlət orqanlarının, həmkarlar ittifaqlarının, işəgötürənlər birliklərinin fəaliyyətinin əlaqələndirilməsinə şərait yaradır. Bununla yanaşı dövlət Sosial müdafiəyə xüsusi ehtiyacı

---

[282] Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev. Bakı şəhəri, 2 iyul 2001-ci il. № 170-IIQ. https://ses.gov.az/upload-files/.../meshqulluq%20qanunu.doc

[283] “Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)”. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2005-ci il 26 oktyabr tarixli 1068 nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. www.e-qanun.az/ framework/ doc/10793

[284] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http:// www. stat.gov.az /source/labour/

[285] Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə 1. Bakı şəhəri, 2 iyul 2001-ci il № 170-IIQ. “Azərbaycan” qəzeti, 26 noyabr 2010-cu il, № 259

olan vətəndaşların (20 yaşadək gənclərin, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlərin, sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən valideynlərin, pensiya yaşına 2 ildən az qalmış şəxslərin, əlillərin, sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşların, məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin) məşğulluğu üçün əlavə təminatlar verir, əlavə iş yerləri və ixtisaslaşdırılmış müəssisələr, təşkilatlar yaradır, xüsusi proqramlar üzrə təlimlər təşkil edir, müəssisə, idarə və təşkilatlarda onlar üçün kvota müəyyən edir (maddə 9). Dövlət məşğulluğun tənzimlənməsi və təşkilinə, məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin yaradılmasına, iş axtaranların və işsiz vətəndaşların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə, işaxtaranların peşə hazırlığına və əlavə təhsil almasına, haqqı ödənilən ictimai işlərin təşkilinə şərait yaradır.[286]

İşsizliyin aradan qaldırılması məqsədilə yaradılmış Məşğulluq xidməti orqanları Bakı şəhərində, regionlarda və Naxçıvan MR-də fəaliyyət göstərir. Məşğulluq xidməti orqanları tərəfindən göstərilən xidmətlər aşağıdakılardan ibarətdir:

- Vətəndaşlara münasib iş yerlərinin axtarılmasında, işəgötürənlərə lazımi kadrların seçilməsində köməklik.
- Əmək bazarında olan tələb və təklif haqqında məlumat.
- Gənclərin peşə seçiminə köməklik məqsədiləpeşəyönümününtəşkili.
- İşsiz və işaxtaran vətəndaşların peşə hazırlığı, yenidən hazırlığı və ixtisaslarının artırılması.
- Haqqı ödənilənictimai işlərintəşkili.
- Əmək yarmarkalarınıntəşkili.
- İşsiz statusunun verilməsi, işsizlik müavinətinintəyin olunması və ödənilməsi.
- Əmək birjalarıvasitəsilə vətəndaşların müvəqqəti məşğulluğunun təşkili.

[286]Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə 1. Bakı şəhəri, 2 iyul 2001-ci il № 170-IIQ. “Azərbaycan” qəzeti, 26 noyabr 2010-cu il, № 259

Dövlət Məşğulluq Xidməti orqanlarında işaxtaran və işsiz vətəndaşların peşə hazırlığı işinin əmək bazarının real tələblərinə, eləcə də beynəlxalq standartlara uyğun səviyyədə təşkilinin təkmilləşdirilməsi məqsədi ilə Azərbaycan Hökuməti ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış "Milli Sosial Müdafiə Sisteminin İnkişafı" Layihəsi çərçivəsində "İşaxtaran və işsiz vətəndaşların peşə təhsili sisteminin tədris-metodiki bazasının və texniki-proqram təminatının təkmilləşdirilməsi üzrə Proqram" həyata keçirilmişdir. Qeyd olunan Layihə çərçivəsində əmək bazarında rəqabət qabiliyyətli 15 peşə və ixtisaslar, əsasən fəhlə peşələri üzrə modul tədris proqramları hazırlanmışdır. Peşə hazırlığı kurslarının səmərəliliyinin artırılması məqsədi ilə Bakı şəhərində və Göyçay rayonunda yeni yaradılmış Reqional Peşə Tədrisi Mərkəzlərində peşə hazırlığı kurslarının təşkilində modul tədris üsulu tətbiq olunmaqla 70-dən çox müxtəlif peşələr üzrə peşə hazırlığı kursları təşkil edilir.

İşaxtaran və işsiz vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək üçün həyata keçirilən mühüm tədbirlərdən biri də haqqı ödənilən ictimai işlərin təşkilidir. Haqqı ödənilən ictimai işlər işaxtaran və işsiz vətəndaşların xüsusi peşə hazırlığı tələb edilməyən müvəqqəti əmək fəaliyyətidir.[287]

İşaxtaran və işsiz vətəndaşların xüsusi ilə gənclərin layiqli işlə təmin olunması sahəsində mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biri də respublikanın bütün bölgələrində hər il Əmək Yarmarkalarının təşkil olunmasıdır. Yarmarkaların keçirilməsində əsas məqsəd işəgötürənlərlə işsiz və işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi, işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı, peşəkar, təcürbəli kadr seçiminə geniş imkanlar yaradılması, eyni zamanda işsiz və işaxtaran vətəndaşların mövcud vakant iş yerləri haqqında məlumat almalarına və layiqli işlə təmin olunmalarına köməklik göstərilməsini təşkil etməkdir. Bununla yanaşı 2007-ci ildən başlayaraq Bakı, Gəncə və Mingəçevir şəhərlərində fəaliyyət göstərən ali təhsil ocaqlarının məzun və tələbələrinə aldıqları

---

[287] Dövlət məşğulluq xidməti. http://www.ses.gov.az/az/structure.html

ixtisaslar üzrə iş yerlərinə cəlb olunmaları məqsədi ilə məzunların və tələbələrin əmək bazarına inteqrasiyası məqsədi ilə "Karyerada ilk addım" devizi altında tədbirlər keçirilir. Bu tədbirlərin keçirilməsində məqsəd tələbələrə aldıqları ixtisaslar üzrə əmək bazarında olan tələbat haqqında məlumat vermək, iş adamlarına (sahibkarlara) gələcək kadrların seçiminin aparılmasına köməklik göstərmək və eyni zamanda məzun və tələbələrin ixtisasları üzrə boş (vakant) iş yerlərinə cəlb olunmalarına köməklik göstərməkdir.[288]

«Məşğulluq haqqında» Azərbaycan Respublikası Qanununa müvafiq olaraq işsiz statusu verilməsi qaydaları belədir: İşi və qazancı olmayan, işə başlamağa hazır olub, rayon (şəhər) Məşğulluq Mərkəzlərində işaxtaran kimi qeydiyyata alınmış və işaxtaran kimi qeydiyyata alındıqdan sonrakı 10 gün müddətinə münasib iş təklif edilməsi mümkün olmayan əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli vətəndaşlara müvafiq sənədləri təqdim etdiyi andan işsiz statusu verilir və işsizlik müavinəti təyin edilir. «Məşğulluq haqqında» Qanuna müvafiq olaraq aşağıdakı vətəndaşlara işsiz statusu verilə bilməz:

- 15 yaşına çatmayan vətəndaşlara;
- pensiya (ailə başçısını itirməyə görə uşaqlar üçün təyin olunmuş pensiyalar istisna olmaqla) hüququ qazanmış vətəndaşlara;
- işaxtaran kimi qeydiyyata alındıqdan sonrakı 10 gün müddətində münasib iş axtarmaq məqsədi ilə üzürsüz səbəbdən şəhər (rayon) Məşğulluq Mərkəzlərinə gəlməyənlər və ya bu müddət ərzində təklif edilən iki münasib işdən imtina edənlərə (vətəndaşa eyni iş təkrarən təklif edilə bilməz);
- ilk dəfə işaxtaranlara;
- azadlıqdan məhrum etmə cəzasını çəkənlərə;
- məşğul şəxslərə, o cümlədən sahibkarlara, fərdi əmək fəaliyyəti ilə məşğul olanlara və mülkiyyətində torpaq payı olanlara.[289]

---

[288] Dövlət məşğulluq xidməti. http://www.ses.gov.az/az/structure.html

[289] Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə 1. Bakı şəhəri, 2 iyul 2001-ci il № 170-IIQ. "Azərbaycan" qəzeti, 26 noyabr 2010-cu il, № 259

Əhalinin məşğulluğunun gücləndirilməsi, xüsusi ilə sosial müdafiəyə ehtiyacı olan gənclərin, təqaüdçülərin, əlillərin, natamam iş günü və natamam iş həftəsi əsasında işləyənlərin, xüsusi ilə qadınların müvəqqəti məşğulluğunu təmin etmək, onların boş vaxtları ərzində əlavə qazanc əldə etmək, müvəqqəti xarakterli o, cümlədən birdəfəlik, qısa müddətli, mövsümü işlərlə təmin edilməsində köməklik göstərilməsi məqsədi ilə 1999-cu il may ayının 10-da ilk dəfə Bakı şəhərində "Əmək Birjası" yaradılmışdır. Hazırda Sumqayıt, Naxçıvan, Gəncə, Mingəçevir şəhərlərində də «Əmək Birjaları» yaradılmışdır. Əmək Birjası müvəqqəti iş axtaranlara əmək bazarının vəziyyəti haqqında məlumat verərək onların qeydiyyatını aparır, iş axtaranların peşəsinə və ixtisasına uyğun müvəqqəti işlərə göndərilməsini, eləcə də müvəqqəti iş yerləri haqqında işəgötürənlərdən bilavasitə məlumat toplayaraq, işəgötürənlərlə müvəqqəti iş axtaranlar arasında vasitəçiliyi təmin edir.[290]

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən 2014-cü ildə ölkə əhalisinin 4840,7 min nəfərini İqtisadi fəal əhali təşkil etmişdir. Lakin bu əhalinin 237,8 min nəfəri işsiz olmuşdur. İqtisadi fəal əhalinin yalnız 28690 nəfəri məşğulluq xidmətləri orqanlarında işsiz statusu almışdır. Rəsmi işsiz statusu alanların 1613 nəfərinə sosial müavinət kəsilmişdir.

### Cədvəl 1. İqtisadi fəal əhali.

| | 2000 | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|
| İqtisadi fəal əhalinin sayı – cəmi, min nəfər[1)] | 4370,2 | 4380,1 | 4587,4 | 4626,1 | 4688,4 | 4757,8 | 4840,7 |
| kişilər | 2263,0 | 2268,8 | 2329,7 | 2354,7 | 2395,3 | 2436,0 | 2475,7 |
| Qadınlar | 2107,2 | 2111,3 | 2257,7 | 2271,4 | 2293,1 | 2321,8 | 2365,0 |
| İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar – cəmi, min nəfər | 3855,5 | 4062,3 | 4329,1 | 4375,2 | 4445,3 | 4521,2 | 4602,9 |
| kişilər | 2016,5 | 2104,7 | 2227,4 | 2250,0 | 2291,8 | 2337,5 | 2376,1 |
| Qadınlar | 1839,0 | 1957,6 | 2101,7 | 2125,2 | 2153,5 | 2183,7 | 2226,8 |
| İşsizlər[2)] - cəmi, min nəfər | 514,7 | 317,8 | 258,3 | 250,9 | 243,1 | 236,6 | 237,8 |
| kişilər | 246,5 | 164,1 | 102,3 | 104,7 | 103,5 | 98,5 | 99,6 |

[290] Dövlət məşğulluq xidməti. http://www.ses.gov.az/az/structure.html

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| Qadınlar | 268,2 | 153,7 | 156,0 | 146,2 | 139,6 | 138,1 | 138,2 |
| onlardan: | | | | | | | |
| məşğulluq xidmətləri orqanlarında işsiz statusu alan şəxslər – cəmi, nəfər | 43739 | 56343 | 38966 | 38330 | 36791 | 36206 | 28690 |
| kişilər | 19283 | 27265 | 21979 | 21851 | 21298 | 21188 | 17383 |
| Qadınlar | 24456 | 29078 | 16987 | 16479 | 15493 | 15018 | 11307 |
| onlardan: | | | | | | | |
| işsizliyə görə müavinət alanlar - cəmi, nəfər | 2768 | 2087 | 87 | 1002 | 934 | 636 | 1613 |
| kişilər | 1313 | 1316 | 70 | 671 | 611 | 437 | 1122 |
| Qadınlar | 1455 | 771 | 17 | 331 | 323 | 199 | 491 |

2014-cü ildə Azərbaycan Respublikasının dövlət büdcəsindən sosial məsələlərlə bağlı 18 699,3 milyon manat pul ayrılmışdır ki, bunun da sosial müdafiəyə 1 946,8 (3,3%) milyon manatı səhiyyə sistemi üçün nəzərdə tutulmuşdur.[291]

Son illərdə ölkə iqtisadiyyatında aparılan islahatlar nəticəsində əmək bazarında əhəmiyyətli dərəcədə müsbət dəyişikliklərə nail olunmuşdur. Belə ki, 2000-ci ildə dövlət sektorunda çalışanların xüsusi çəkisi iqtisadiyyatda məşğul olanların ümumi sayının 33,2 faizini təşkil edirdisə, 2014-cü ildə bu göstərici 25,6 faizə enmiş, qeyri-dövlət sektorunda işləyənlərin sayı isə bu dövrdə 1,3 dəfə artmışdır.

2014-cü ildə istehsal sahələrində (kənd təsərrüfatı, balıqçılıq, sənaye və tikinti) 2350,0 min nəfər və ya iqtisadiyyatda məşğul olanların ümumi sayının 51,1 faizi qədər işçi çalışmış, xidmət sahəsində isə məşğul olanların sayı 2252,9 min nəfər olmuşdur ki, bu da məşğul əhalinin 48,9 faizini təşkil emişdir.

2014-cü ildə iqtisadiyyatda məşğul olan əhalinin ümumi sayından 1519,7 min nəfəri və yaxud 33,0 faizi muzdla işləyənlərin payına düşmüşdür. Muzdla işləyənlərin əksəriyyəti iri və orta müəssisələrdə əmək fəaliyyəti ilə məşğul olmuşdur.[292]

İqtisadi fəal əhali üçün seçmə statistik sorğunun nəticələrinə əsasən (DSK), 2003-2008-ci illər ərzində gənclər arasında (15-24

---

[291] Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

[292] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http://www. stat.gov.az/source/labour/

yaş) işsizlik səviyyəsi 21.8%-dən 14%-ə düşmüşdür. Bu göstərici gənc qadınlar arasında 25.7%-dən 9.8%-ə qədər kəskin azalmışdır. 2003-2009-cu illər ərzində işsiz gənclərin ümumi işsizlərə nisbəti (15-24 yaş) 40.9%-dən 35.6%-ə düşmüşdür. 2003-2008-ci illər ərzində işsiz gənclərin ümumi gənclərə nisbəti (15-24 yaş) 10.2%-dən 5.1%-ə enmişdir. Bu göstərici gənc kişilər arasında 10.1%-dən 6.8%-ə, gənc qadınlar arasında isə 10.3%-dən 3.4%-ə enmişdir.[293]

Dövlət işləməyən əhaliyə müəyyən parametrləri nəzərə alaraq sosial müavinətlər təyin etmişdir. Bu sosial müavinətlər ilbə-il artırılır. Belə ki, əgər 2007-ci ildə əhalinin 259712 nəfəri sosial müavinət alırdısa, artıq 2015-ci ildə müavinət alanların sayı 338231 nəfərə qədər çoxalmışdır.

**Cədvəl 2. Dövlət tərəfindən sosial müavinətlər təyin olunmuş işləməyən əhali**

| | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Sosial müavinət təyin olunmuş şəxslərin sayı, nəfər | 259712 | 275402 | 287375 | 293528 | 297198 | 308831 | 317110 | 316361 | 338231 |

Sosial müavinət ayrılmış şəxslər əsasən cəmiyyətin xüsusilə həssas və ehtiyacı olan təbəqələrini təşkil edir. Buraya yaşlılar, əlillər, ailə başçısını itirmiş şəxslər, 16 yaşadək əlil uşaqlar, sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlar, özəlləşdirilən və idarəetməyə verilən dövlət müəssisələrinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçisi və ya bu səbəbdən həlak olmuş işçisinin ailə üzvləri və himayəsində olan digər şəxslər, əmək xəsarəti və ya peşə xəstəliyi nəticəsində zərərçəkənlər, uşaqlı ailələr, 1 yaşadək uşağı olan ailələr, beşdən çox uşağı olan qadınlar, valideynlərini itirmiş və valideyn

293 Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

himayəsindən məhrum olmuş uşaqlar, penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslər və digərləri aid edilirlər.

Sosial müdafiə sahəsində dövlətin əsas məqsədi əhalinin əmək və təsərrüfatçılıq fəaliyyətini stimullaşdıraraq ölkə vətəndaşlarının həyat səviyyəsini yüksəltməkdir. 2014-cü ildə Azərbaycan Respublikasının dövlət büdcəsinin xərcləri üçün 18 699,3 milyon manat pul ayrılmışdır ki, buradan sosial təminat üçün 24,4 (0,04%) milyon manat nəzərdə tutulmuşdur.[294]

2000-2014-cü illər ərzində muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı 10,0 dəfə artaraq 444,5 manat təşkil etmiş və 2013-cü illə müqayisədə 4,6% artmışdır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına uyğun olaraq, minimum aylıq əmək haqqının məbləği 2013-cü il sentyabr ayının 1-dən 105,0 manat müəyyən edilmişdir.[295]

Yoxsulluq və işsizlik problemi ilə bağlı aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, işsizlik və yarımçıq məşğulluq yoxsulluğun yaranmasının əsas səbəbləridir. Səmərəli məşğulluğun təmin edilməsi yoxsulluğun aradan qaldırılması və sosial-iqtisadiyyatın inkişafının zəruri amili hesab olunur. İqtisadi inkişaf şəraitində yoxsulluğun aradan qaldırılmasına əsaslı şəkildə təsir edə bilən amillərdən biri də yoxsulların işçi qüvvəsinə olan tələbata cavab vermə bacarıqları ilə bağlıdır.

Hazırda yoxsulluğun azaldılması məqsədilə BMT və bir sıra digər uyğun təşkilatlar bu sahədə müəyyən qanunlar qəbul edir və beynəlxalq səviyyəli layihələr həyata keçirlər. 1996-cı ildə BMT Baş Assambleyası tərəfindən 1997 – 2006-cı illərdə yoxsulluğun aradan qaldırılması ilə bağlı İlk on illik sənəd qəbul edilmişdir. 19 dekabr 2007-ci ildə isə BMT-nin Baş Assambleyası tərəfindən 2008 – 2017-ci illərdə yoxsulluğun ləğv olunması ilə bağlı İkinci onillik sənəd qəbul edilmişdir. Bu Assambleyada qəbul edilmiş Minillyin

---

[294] Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

[295] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az/source/labour/

bəyannaməsində yoxsulluğun aradan qaldırılması istiqamətləri müəyyənləşdirilirdi.[296]

2000-ci ildə Azərbaycan Respublikası Minilliyin Bəyannaməsinə qoşulduqdan sonra yoxsulluğun azaldılması siyasəti üzrə qanunvericilik bazasının formalaşdırılması prosesinə başlanılmışdır. Minilliyin İnkişaf Məqsədləri (MİM) 2015-ci ilə qədər yoxsulluğun azaldılması üçün müvafiq öhdəlikləri əks etdirir.

Azərbaycan Respublikasının Prezidenti 2 mart 2001-ci il tarixində "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramının hazırlanması üçün komissiyanın yaradılmasına dair" sərəncam imzalanmışdır və bu əsasda 2003 – 2005-ci illərdə Kasıblığın aradan qaldırılması sahəsində dövlət proqramı hazırlayan xüsusi Hökumət Komissiyası yaradılmışdır. Komissiya inkişaf məqsədilə qlobal tərəfdaşlığın inkişaf etdirilməsinə və işsizliyin aradan qaldırılmasına çalışır.

2003-cü ildə təsdiq edilən "Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" 2003-2005-ci illəri əhatə etməklə yoxsulluğun azaldılması istiqamətində həyata keçirilən tədbirlərin ilk mərhələsini təşkil etmişdir. Birinci yoxsulluq proqramı çərçivəsində həyata keçirilən tədbirlər aşağıdakı istiqamətləri əhatə etmişdir:

1) İqtisadi inkişaf və məşğulluğun artırılması;
2) Sosial siyasət və insan inkişafı;
3) Regional siyasət və infrastrukturun inkişafı;
4) İnstitusional islahatlar və potensialın artırılması.[297]

Prezident İlham Əliyev "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planını (2011-2015-

---

[296] Второе Десятилетие ООН по борьбе за ликвидацию нищеты (2008–2017 годы). Веб-услуги Департамента общественной информации ООН | © 2008–2009 Организация Объединенных Наций.http://www.un.org/ russian/conferen/ socsum/socsum.htm

[297] Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

ci illər) təsdiq emişdir. Plana görə 5 istiqamətdə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur:

- makroiqtisadi sabitlik və iqtisadi artım;
- məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi;
- insan kapitalının inkişafı və sosial tərəqqi;
- institusional siyasət və səmərəli idarəetmə;
- iştirak və monitorinq.

Azərbaycanda yoxsulluğun aradan qaldırılması, az təminatlı ailələrə kömək üçün 113 min ailəni əhatə edən ünvanlı sosial yardım edilir.[298]

2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramında YADİDP-nin aşağıdakı əsas doqquz strateji məqsədi müəyyənləşdirilmişdir:

1) makroiqtisadi sabitliyi saxlamaqla və qeyri-neft sektorunu tarazlı inkişaf etdirməklə davamlı iqtisadi artımın təmin edilməsi;

2) əhalinin gəlir əldə etmək imkanlarının genişləndirilməsi, yoxsul əhalinin sayının əhəmiyyətli dərəcədə azalmasına nail olunması;

3) səmərəli sosial müdafiə sistemini inkişaf etdirməklə yaşlı əhalinin, aztəminatlı ailələrin və sosial cəhətdən xüsusilə həssas qrupların sosial riskinin azaldılması;

4) qaçqınların və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması tədbirlərinin sistemli şəkildə davam etdirilməsi;

5) təhsil və səhiyyə sahəsində əsas xidmətlərin keyfiyyətinin yüksəldilməsi və onları əldə etmək üçün bərabər imkanların yaradılması;

6) sosial infrastrukturun inkişaf etdirilməsi, kommunal xidmətlər sisteminin təkmilləşdirilməsi;

7) ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin davamlı idarə olunmasının təmin edilməsi;

8) gender bərabərliyinin dəstəklənməsi;

9) institusional islahatların davam etdirilməsi və dövlət idarəetməsinin təkmilləşdirilməsi.

---

[298] Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin “2003-2011-ci illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı” ilə bağlı hesabatı.

Strateji məqsədlərə nail olmaq məqsədilə həyata keçiriləcək tədbirlər 4 funksional istiqamətdə qruplaşdırılmışdır:

1. makroiqtisadi sabitlik və iqtisadi artım;
2. məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi;
3. insan kapitalının inkişafı və sosial tərəqqi;
4. institusional siyasət və səmərəli idarəetmə.[299]

Bu illər ərzində ölkəmizdə yoxsulluğun səviyyəsinin azaldılması ilə bağlı Azərbaycan Respublikası prezidenti tərəfindən "Yoxsulluğun ləğvi və iqtisadi inkişaf proqramı (2003 - 2005)", "Azərbaycan Respublikasının regionlarında sosial iqtisadi inkişaf proqramı (2004 - 2008)", "2008 – 2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun ləğvi və davamlı inkişaf Dövlət proqramının təsdiq edilməsi haqqında" və "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı (2009 - 2013)" ilə bağlı sərəncamlar qəbul edilib. Azərbaycan Respublikası BMT-nin yoxsulluğun aradan qaldırılması ilə bağlı Bəyannaməsinə qoşulub.

2001-ci ilin əvvəllərində 2003 – 2005-ci illərdə Kasıblığın aradan qaldırılması sahəsində dövlət proqramı hazırlayan xüsusi Hökumət Komissiyası yaradılıb. Komissiya inkişaf məqsədilə qlobal tərəfdaşlığın inkişaf etdirilməsinə və işsizliyin aradan qaldırılmasına çalışır. Hazırda bütün iqtisadi sferada islahatlar keçirilməsi məqsədilə dövlət 250-dən çox qanun və 700-dən çox normativ-hüquqi aktlar qəbul etmişdir.

Prezident İlham Əliyev "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Tədbirlər Planını (2011-2015-ci illər) təsdiq edib. Plana görə 5 istiqamətdə tədbirlərin görülməsi nəzərdə tutulub:

- makroiqtisadi sabitlik və iqtisadi artım;
- məşğulluq siyasəti və əhalinin sosial müdafiəsi;
- insan kapitalının inkişafı və sosial tərəqqi;
- institusional siyasət və səmərəli idarəetmə;
- iştirak və monitorinq.

---

299 «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun ləğvi və davamlı inkişaf Dövlət proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin sərəncamı, Bakı şəhəri, 15 sentyabr 2008-ci il

Azərbaycanda yoxsulluğun aradan qaldırılması, az təminatlı ailələrə kömək üçün 113 min ailəni əhatə edən ünvanlı sosial yardım edilir.[300]

Onu da qeyd etmək lazımdır ki, Azərbaycanda yoxsulluğun azaldılması ilə bağlı müəyyən proqramlar həyata keçirilərkən dövlətin xüsusi vəziyyəti, bir milyon məcburi köçkünün olması nəzərə alınır.[301]

Azərbaycan Respublikası üzrə Minilliyin İnkişaf Məqsədlərinin göstəricilərinə əsasən demək olar ki, dövlət yoxsulluğun azaldılması ilə bağlı məqsədlərə nail olmuşdur.

**Cədvəl 3. Milli yoxsulluq həddindən aşağı yaşayan əhalinin xüsusi çəkisi, faizlə**

| 2001 | 2002 | 2003 | 2004 | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 49.0 | 46.7 | 44.7 | 40.2 | 29.3 | 20.8 | 15.8 | 13.2 | 10.9 | 9.1 | 7.6 | 6.0 | 5.3 | 5.0 |

Cədvəldən göründüyü kimi əgər 2001-ci ildə yoxsulluq həddindən aşağı yaşayan əhali ümumi əhalinin təxminən yarısını – 49%-ni təşkil edirdi. Sosial müdafiə və əmək nazirliyinin apardığı tədqiqatlara görə, kasıblıq həddi 2003-cü ildə 49,2% olmuşdur. 2004-cü ildə Azərbaycanda əhalinin 40,2%-i mütləq yoxsulluq vəziyyətində, 9,6%-i isə nisbi yoxsulluq vəziyyətində yaşayıb.[302] 2005, 2006, 2007-ci illərdə Respublikada iqtisadiyyatın və buna müvafiq olaraq da əhalinin maddi vəziyyətinin yüksələn xətlə inkişaf

---

[300] Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin "2003-2011-ci illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı" ilə bağlı hesabatı

[301] «2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun ləğvi və davamlı inkişaf Dövlət proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin sərəncamı, Bakı şəhəri, 15 sentyabr 2008-ci il

[302] Poverty estimation in Azerbaijan. Оценка статистики бедности в Азербайджане. Доклад Госкомстата Азербайджанской Республики на семинаре по статистике жизненных условий и измерения бедности, Париж, 30 ноября -2 декабря 2005 года.

etdiyini müşahidə etmək olar. Belə ki, 2005-ci ildə bu rəqəm 29,3%, 2006-cı ildə 20,8%, 2007-ci ildə 15,8% olmuşdur.[303]

Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və 2012-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş iclasda prezident bildirib ki, 2011-ci ildə “yoxsulluğun səviyyəsi isə yenə də aşağı düşərək 7,6 faiz təşkil etmişdir”. Prezident onu da vurğulamışdır ki, “köçkünlər arasında olan yoxsulluq 70 faizdən 18 faizə düşmüşdür”. Bu göstərici isə ölkə üzrə yoxsulluq səviyyəsindən “iki dəfədən” çoxdur.[304]

2012-ci ildə yoxsulluq həddi 6%-ə, 2013-cü ildə isə 5,6%-ə enmişdir. 2014-cü ildə yoxsulluq həddindən aşağı yaşayan əhalinin sayı 5%, 2015-ci ildə isə 4,9% olmuşdur ki, bu da Minilliyin İnkişaf Məqsədlərinə və bu istiqamətdə qəbul edilmiş digər proqram məqsədlərə nail olunduğunu göstərir.

**Cədvəl. Yoxsulluq səviyyəsi, sosial transfertlər və minimum əməkhaqqı göstəriciləri[305]**

[303] Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

[304] İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012. 12.Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. http://www. president. az/articles/4098/print

[305] Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.




Cədvəldən göründüyü kimi 2005–2015-ci illər ərzində Yoxsulluq səviyyəsinin aşağı enməsi ilə yanaşı dövlətin sosial müdafiə və təminat xərcləri və minimum əmək haqqı da yüksəlmişdir.[306]

Azərbaycanda yoxsulluğun azaldılması məqsədilə qəbul edilmiş birinci və ikinci yoxsulluq proqramlarının (2003-2015-ci illəri əhatə edən) icrası çərçivəsində əsas diqqət gəlir yoxsulluğunun azaldılmasına yönəldilmişdir. Bu tədbirlər əsasən aktiv və passiv mübarizə tədbirləri olmaqla iki qrupa bölünür:

1) Passiv mübarizə tədbirləri kimi, Ünvanlı dövlət sosial yardımlarının verilməsi, mərhələli şəkildə müavinətlərin, pensiyaların baza hissəsinin artırılması;

2) Aktiv mübarizə tədbirləri kimi əsasən yeni iş yerlərinin yaradılması, mikro-kreditlərin verilməsi vasitəsilə kiçik-orta sahibkarlığın stimullaşdırılması, Aktiv əmək bazarı proqramlarının həyata keçirilməsi və s. tədbirlər.

Həyata keçirilən tədbirlərin effektivliyinin təmin edilməsi və yoxsul insanların artırılmış gəlirlərinin dəyərdən düşməməsi məqsədilə hökumət ötən dövrlərdə makro iqtisadi sabitliyin qorunub saxlanılmasına xüsusi diqqət vermişdir.[307]

---

[306] Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

[307] Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə

Aparılan araşdırmalar göstərir ki, 2004-2014-cü illər ərzində əhalinin sosial rifahının yüksəlməsi müşahidə olunmuşdur. Adambaşına düşən milli gəlir 2004-cü illə müqayisədə 8 dəfə artaraq 7600 ABŞ dollarına çatmışdır. İqtisadi artım məşğulluğun artımı ilə müşayiət olunmuş, 1,3 milyondan çox yeni iş yeri açılmış və bu iş yerlərinin 77,1 faizi daimi iş yerləri olmuşdur ki, onların da 62,9 faizi regionların payına düşmüşdür. Məşğulluğun artımı hesabına bu dövr ərzində əhalinin adambaşına gəlirləri real ifadədə 2,6 dəfə artmışdır.[308]

S.Müslümovun qeyd etdiyi kimi, 2016-cı ildə də Azərbaycan iqtisadiyyatı inkişaf etmiş, qeyri-neft sənayesi 5 faiz, o cümlədən kənd təsərrüfatı 2,6 faiz artmışdır. Son 10 il ərzində isə ölkənin ümumi daxili məhsulu 3 dəfədən çox artmış, 1 milyon 600 mindən artıq yeni iş yeri yaradılmış, əhalinin gəlirləri 5,2 dəfə, minimum əməkhaqqı 3,5 dəfə və orta aylıq nominal əməkhaqqı 3,8 dəfə artmış, işsizlik səviyyəsi 5 faiz səviyyəsində saxlanılmışdır.[309]

2017-ci ildə Azərbaycanda Beynəlxalq Əmək Təşkilatının (BƏT) "Əməyin gələcəyi" təşəbbüsünə uyğun olaraq, əməyin gələcəyi ilə bağlı aktual məsələlərə həsr olunmuş milli dialoqun yekunlarına dair keçirilən konfransda ölkəmizdə işsizliyin səviyyəsinin azaldılması və əməyin mühafizəsi, davamlı insan inkişafının təmin edilməsi məsələləri müzakirə edilib. Burada qeyd edilib ki, Azərbaycan Hökuməti ilə BƏT arasında 2016-2020-ci illər üçün imzalanmış Layiqli Əmək üzrə Ölkə Proqramı sosial inkişaf naminə mühüm məqsədlərin reallaşmasına xidmət edən növbəti bir addımdır. Beynəlxalq əmək normalarının və əmək münasibətləri sahəsində əsas prinsiplərin və hüquqların təşviqi, sosial dialoqun inkişafı, səmərəli aktiv əmək bazar proqramlarının həyata keçirilməsi vasitəsi ilə məşğulluğun artırılması, sahibkarlıq

dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

[308]Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

[309]Azərbaycanda əməyin gələcəyi ilə bağlı aktual məsələlərə həsr olunan milli dialoqun yekunlarına dair konfrans keçirilib. http://azertag.az/xeber/1046254

imkanlarının genişləndirilməsi və sosial müdafiə sisteminin gücləndirilməsi Ölkə Proqramının prioritetlərini təşkil edir.[310]

Göründüyü kimi işsizliyin azaldılması, əhalinin rifah halının yüksəldilməsi dövlətin sosial siyasətinin əsas istiqamətlərindəndir. Belə ki, 1995-ci ildən etibarən hökumət makroiqtisadi sabitliyi təmin etmək, iqtisadiyyatda dəyişikliklər etmək və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində bir sıra proqramlar, konsepsiyalar hazırlamış və həyata keçirmişdir. Bu baxımdan "Azərbaycan - 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasnda işləyən və işsiz əhalinin həyat keyfiyyətinin yaxşılaşdırılması məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur:

- İşləyən vətəndaşların layiqli həyat səviyyəsini təmin etmək məqsədi ilə iqtisadiyyatın inkişafından asılı olaraq minimum əməkhaqqı məbləğinin tədricən minimum yaşayış standartlarına və Avropa ölkələrində müəyyən edilmiş normativə - orta aylıq əməkhaqqının 60 faizi məbləğinə çatdırılması istiqamətində tədbirlər görüləcək;
- əhalinin ümumi gəlirlərində əməyin ödənilməsi payının artırılması üçün işlərin davam etdirilməsi və sosial müdafiə sahəsində müvafiq tədbirlərin həyata keçirilməsi əsasında əhalinin gəlirlər üzrə diferensiasiyasının azaldılmasına nail olunacaqdır.
- İşləyən vətəndaşların təhlükəsiz və sağlam əmək şəraitinin təmin edilməsi sahəsində iş gücləndiriləcək, əməyin mühafizəsi və əmək şəraitinin yaxşılaşdırılması üzrə Dövlət Proqramı hazırlanacaqdır.
- Əmək və məşğulluq sahəsində milli informasiya sistemi yaradılacaq, əmək bazarında yaranan vəziyyətin monitorinqi və təhlili sistemi qurulacaq, qeyri-formal məşğulluğun qarşısının alınması üzrə ciddi tədbirlər görüləcəkdir.[311]

Perspektiv inkişafa yönələn "Azərbaycan - 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasının əsas istiqamətlərindən biri də

---

[310]Azərbaycanda əməyin gələcəyi ilə bağlı aktual məsələlərə həsr olunan milli dialoqun yekunlarına dair konfrans keçirilib. http://azertag.az/xeber/1046254

[311] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

əhalinin həssas qruplarının həyat şəraitinin yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi məqsədilə sosial təyinatlı yardımların genişləndirilməsi ilə bağlıdır. Burada qeyd edilir ki:

- Sosial müavinətlər unifikasiya ediləcəkdir.
- Uşaqlı ailələrə verilən müavinət sistemi təkmilləşdiriləcəkdir.
- Ölkədə müasir sosial müdafiə sisteminin qurulması və yoxsulluğun azaldılması məqsədi ilə ailələrin sosial yardımlara olan ehtiyacının müəyyən edilməsi qaydaları təkmilləşdiriləcək.
- Müasir sosial texnologiyalardan istifadə yolu ilə sosial yardımların səmərəliliyi artırılacaq, mövcud ünvanlı dövlət sosial yardımı sistemi ilə yanaşı fəal sosial yardım proqramları tətbiq olunacaqdır.
- Natamam, aztəminatlı, çoxuşaqlı, valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürmüş ailələrə əlavə dəstək mexanizmləri yaradılacaq.
- Yetkinlik yaşına çatmayanların baxımsızlığının profilaktikası üzrə reabilitasiya mərkəzləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün bölgələrdə icma əsaslı reabilitasiya şəbəkəsi genişlən diriləcəkdir.
- Əlil şəxslərin cəmiyyətdən təcrid olunmasının qarşısının alınması və sosial infrastrukturdan maneəsiz istifadəsi üçün müvafiq layihələr hazırlanacaq.
- "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə dair Dövlət Proqramı (2014-2020-ci illər)" qəbul ediləcəkdir.
- Əmək miqrasiyası proseslərinin tənzimlənməsi sisteminin təkmilləşdirilməsi,...başqa ölkələrdən gələn qaçqınların sosial təminatlardan yararlanmasını tənzimləyən işlək mexanizm yaradılması, ...xarici ölkələrdə çalışan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı müvafiq işlər görüləcəkdir.[312]

[312] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan 8.Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

## 4.3Azərbaycanda sosial sığorta sistemi və qocalığa görə təqaüdlə təmin edilmə

Müasir sosial yönümlü dövlətlərdə sosial yardıma ehtiyacı olan əhalinin təmin edilməsi hökumətin ilkin vəzifəsi kimi qəbul edilir və bunun yerinə yetirilməsi məqsədilə həyata keçirilən tədbirlər sırasında sosial sığorta sisteminin inkişafı dövlətin prioritet məqsədinə çevrilir. Sosial sığorta ilk növbədə əmək qabiliyyəti olmayan və yaşlı insanların, həmçinin işin, əmək qabiliyyətinin itirilməsi, istehsalat prosesində alınan müəyyən zərərlərin kompensasiya edilməsi ilə bağlı əmək qabiliyyətli əhalinin dövlət vəsaiti hesabına sosial müdafiə olunması sistemidir. Sosial sığortanın əsas iqtisadi funksiyalarından biri əmək resurslarının yenidən istehsal olunmasına şərait yaratmaqdır. Bununla yanaşı sosial sığorta dövlətin sosial siyasətinin əsas istiqamətlərindən biri kimi cəmiyyətdə sosial ədalətin bərqərar olmasına, sosial sabitliyin qorunub saxlanmasına yönəlir. Sosial sığorta işçilərin əmək qabiliyyətinin saxlanmasına istiqamətlənir və istehsalat prosesində qabaqlayıcı, bərpa edici, sağlamlığın qorunması ilə bağlı tədbirlərlə həyata keçirilir. Bununla yanaşı sosial sığorta əmək qabiliyyətini itirmiş və ya əmək qabiliyyəti olmayan insanların maddi təminatına zəmanət verir. Sosial sığorta aşağıdakı formalarda təqdim edilir:

1.İnsanların həyat fəaliyyətini saxlamaq üçün olan ödəniş və xidmətlər: yaşa, əlilliyə, ailə başçısının itirilməsinə, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləlik və doğuşla bağlı, qocalar evində saxlanmağa görə təqaüd.

2. Uşaqların anadan olması və tərbiyə edilməsi məqsədilə məzuniyyətlərin verilməsi, müəyyən yaş həddinə qədər onlara ödəniş və xidmətlərlə bağlı çəkilən xərclər, uşaqlara müavinət təyin edilməsi.

3.Əmək qabiliyyətinin tibbi reabilitasiyası məqsədilə, həmçinin əlillərin təlimləndirilməsi, analıq məzuniyyətindən qayıdan qadınlar, işsizlər üçün ayrılan ödənişlər və xidmətlər.[313]

---

[313] Социальное страхование - Экономические основы социальной работы. ...studme.org/10530524/sotsiologiya/sotsialnoe_strahovanie

Bu gün Azərbaycanda sosial sığorta sisteminin inkişaf etdirilməsi dövlətin sosial siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Hazırda sığorta-pensiya sistemi – AR Konstitusiyasında möhkəmlənən müvafiq qanun, "Sosial sığorta haqqında", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "Əmək pensiyaları haqqında" qanunlar əsasında, dövlət sosial yardım sistemi isə ayrıca iki qanun – "Dövlət sosial müavinətləri haqqında" və "Ünvanlı dövlət sosial yardımı haqqında" qanunlar əsasında fəaliyyət göstərir.[314]

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 10 mart tarixli 543-VQD nömrəli Qanununun tətbiqi və "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti Fərman vermişdir. Fərmana əsasən Nazirlər kabinetinin hazırladığı təkliflər paketində pensiya yaşının artırılması, əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması qaydalarında, pensiyanın baza hissəsində dəyişikliklərin edilməsi nəzərdə tututlmuşdur.[315]

Beləliklə, hər iki sistemin fəaliyyətini təmin edəcək qanunvericilik bazası yaradılmışdır.

Azərbaycan Respublikasının Konstitusiyasının Sosial təminatla bağlı 38-ci maddəsində göstərilir ki, "Hər kəsin sosial təminat hüququ vardır" (38.1). Burada sosial təminat dedikdə, həm

---

[314]Sığorta-pensiya sistemi və dövlət sosial yardımı sisteminin ayrı-ayrılıqda beynəlxalq standartlar əsasında fəaliyyət göstərməsi. http://www. sspf.gov. az/view. php?lang=az&menu=85&id=354

[315] "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu. **İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti.** Bakı şəhəri, 10 mart 2017 il. № 543-VQD

də sosial sığorta (38.5) nəzərdə tutulur.[316] Sosial sığorta haqqında Qanunda[317] və AR Əmək Məcəlləsində[318] "Sosial sığorta" — fiziki şəxslərin və işçilərin itirilmis əmlak haqlarının, əmək münasibətləri prosesində itirdikləri gəlirlərinin, əmək haqqına əlavələrin, başqa ödənişlərin, həmçinin digər xərclərin kompensasiya edilməsinə, müəyyən olunmuş qaydada və məbləğdə əvəzinin ödənilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat forması kimi izah olunur.

Sosial sığorta haqqında Qanununda Sosial sığortanın prinsipləri olaraq qeyd edilir ki, dövlət sosial sığortanın müntəzəmliyinə təminat verir, işcilər əmək qabiliyyətinin itirildiyi hər bir halda onlara xüsusi təminatlar müəyyən edilir, sosial sığorta subyektlərinin hüquq bərabərliyi qorunur, dövlət sosial sığortası məcburidir.

AR Əmək Məcəlləsi, «Sosial sığorta haqqında» və «Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında» Azərbaycan Respublikasının qanunları və onların əsasında qəbul edilmiş başqa normativ hüquqi aktlar işçilərin sosial sığorta münasibətlərinin tənzimlənməsinə yönəlmişdir.[319]

Sosial sığorta məcburi dövlət sığortası və könüllü (əlavə) sığorta formalarında olur. Məcburi dövlət sosial sığortası sığorta edənlər tərəfindən bütün əmək müqaviləsi (kontraktı) üzrə işləyənlər barəsində tətbiq edilir.[320] Könüllü sosial sığorta isə əlavə əmək fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən könüllü şəkildə həyata keçirilir.

---

[316]Sığorta-pensiya sistemi və dövlət sosial yardımı sisteminin ayrı-ayrılıqda beynəlxalq standartlar əsasında fəaliyyət göstərməsi. http://www.sspf.gov.az /view.php?lang=az&menu=85&id=354

[317] Sosial sığorta haqqında Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikasinin Qanunvericilik Toplusu, N5, 30 Noyabr, 1997

[318]Azərbaycan Respublikasının Əmək Məcəlləsi. "Hüquq Yayım Evi", Bakı 2015, s.217, 218

[319]Azərbaycan Respublikasının Əmək Məcəlləsi. "Hüquq Yayım Evi", Bakı 2015, s.217, 218

[320] Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı şəhəri, 18 fevral 1997-ci il № 250-IQ, «Azərbaycan» qəzeti 10 aprel 1997-ci il, № 68.

Məcburi sosial sığorta sistemini əhalinin sosial müdafiəsinin və sosial dövlətin formalaşmasının prinsipial əsasları kimi qəbul etmək olar.

Məcburi sosial sığortadan ilk növbədə pensiya yaşına çatan, əlil və ya 18 yaşınadək sağlamlıq imkanları məhdud olanlar, ailə başçısını itirən şəxslər, əmək qabiliyyətini müvəqqəti itirənlər, o cümlədən hamiləlik və doğum, uşağın anadan olması, uşağa qulluqla bağlı analar (qanunvericiliklə müəyyən olunmuş dövr üçün), ölüm, sanatoriya-kurort müalicəsi zərurəti ilə üzləşənlər, işsiz insanlar (qanunvericiliklə müəyyən olunmuş dövr üçün) yararlanırlar. Qeyd edilən hallarda sosial sığorta əmək pensiyaları, əmək pensiyalarına əlavələr, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət (qanunvericiliklə müəyyən olunmus dövr üçün), hamiləliyə və doğuma görə müavinət, uşağın anadan olmasına görə birdəfəlik müavinət, qanunvericilikdə nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşağa qulluqla əlaqədar müavinət, dəfn üçün müavinət, sığorta olunanların sanatoriya-kurort müalicəsi üzrə xərclərinin tam və ya qismən ödənilməsi şəklində həyata keçirilir.[321]

Məcburi sosial sığorta həm də işləyən şəxslər üçün nəzərdə tutulur və onlardan asılı olan və olmayan sosial səbəblərə görə vəziyyətlərinin durğunlaşması ilə bağlı tətbiq edilir. Azərbaycan Respublikasının Əmək məcəlləsində İşçilərin sosial sığorta olunmasının mahiyyəti və əhəmiyyəti açıqlanır və qeyd olunur ki, İşçilər əmək müqaviləsi bağlandığı andan məcburi sığorta olunurlar və bu Əmək müqaviləsində öz əksini tapır.[322]

Azərbaycan hökuməti ehtiyacı olan təbəqələrin sosial ehtiyaclarının təmin edilməsi məqsədilə sosial sığorta sisteminin təkmilləşdirilməsinə xüsusi diqqət yetirir. Sosial sığorta sisteminin təkmilləşdirilməsi ilk növbədə əmək pensiyaları ilə bağlı qanuni əsasların möhkəmləndirilməsi məqsədilə islahatların aparılması məsələsini aktuallaşdırır. Azərbaycan Respublikasının "Əmək

---

[321] Sosial sığorta haqqında Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikasinin Qanunvericilik Toplusu, N5, 30 Noyabr, 1997

[322] Azərbaycan Respublikasının Əmək Məcəlləsi. "Hüquq Yayım Evi", Bakı 2015, 288s.

pensiyaları haqqında" Qanunu vətəndaşların əmək pensiyası hüquqlarının yaranmasının əsaslarını, bu hüquqların həyata keçirilməsi qaydalarını və əmək pensiyası təminatı sistemini müəyyən edir.[323] 2006-cı ildən etibarən ölkəmizdə yeni, beynəlxalq təcrübədə özünü doğrultmuş üçpilləli struktura (baza, sığorta və yığım hissələrindən ibarət) malik əmək pensiyaları sistemi fəaliyyətdədir.[324]

Əmək pensiyasının 3 növü fərqləndirilir:

1.Yaşa görə;

2.Əlilliyə görə;

3.Ailə başçısını itirməyə görə.

63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların azı 12 il sosial sığorta stajı olduqda yaşa görə əmək pensiyası almaq hüquqları vardır.[325] Burada sosial sığorta stajı dedikdə, "əmək pensiyası hüququnun müəyyən edilməsi zamanı nəzərə alınan iş və ya digər fəaliyyət dövrlərinin (müvafiq icra hakimiyyəti orqanına məcburi dövlət sosial sığorta haqları ödəmək şərtilə) və eləcə də müvafiq qanunvericiliklə sığorta stajına daxil edilən digər dövrlərin məcmusu" nəzərdə tutulur.[326]

Sosial sığortanın əsas obyektləri – müəyyən edilmiş yaş həddinə çatmış insanlar, xəstə, əlil, ailə başçısını itirmiş, əmək qabiliyyətini itirmiş şəxslər, işsizlər[327] hesab edilir. Əmək stajına görə sosial pensiyalar alanlar da bu kateqoriyaya aid edilə bilərlər. Pensiya alan insanlar ümumi əhalinin böyük bir qismini təşkil edirlər.

---

[323] Əmək pensiyaları haqqında ətraflı məlumat. http://www.sspf.gov. az/view. php? lang =az&menu=93&id=311

[324] 10 fevral 2010-cu il tarixli 216 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 11 fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)

[325] Əmək pensiyaları haqqında ətraflı məlumat. http://www.sspf.gov. az/view.php?lang=az&menu=93&id=311

[326] Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının Qanunu. , 1.0.2, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 7 fevral 2006-cı il tarixli № 54-IIIQ

[327] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64s.

Hazırda Respublikada müxtəlif istiqamətli pensiyalar alan əhalinin sayı aşağıdakı kimidir:

Cədvəl. Pensiya alanların sayı[328]

| İllər | Pensiyaçıların sayı – cəmi | yaşa görə | əlilliyə görə | Ailə başçısını itirməyinə görə | Sosial pensiyalar və iş stajına görə |
|---|---|---|---|---|---|
| **2001** | **1218656** | 733857 | 167584 | 137058 | 180157 |
| **2002** | **1245079** | 734758 | 179514 | 136189 | 194618 |
| **2003** | **1285026** | 743121 | 199302 | 135927 | 206676 |
| **2004** | **1326833** | 751123 | 229784 | 128428 | 217498 |
| **2005** | **1372698** | 758954 | 251399 | 132471 | 229874 |
| **2006** | **1398839** | 765701 | 266888 | 135315 | 230935 |
| **2007** | **1226772** | 807066 | 280682 | 139024 | X |
| **2008** | **1248683** | 821026 | 291092 | 136565 | X |
| **2009** | **1275138** | 835844 | 301661 | 137633 | x |
| **2010** | **1308432** | 858659 | 311849 | 137924 | x |
| **2011** | **1292155** | 831122 | 324745 | 136288 | x |
| **2012** | **1277596** | 812771 | 331586 | 133239 | x |
| **2013** | **1272136** | 800547 | 338213 | 133376 | x |
| **2014** | **1277053** | 791263 | 349095 | 136695 | x |
| **2015** | **1290882** | 785068 | 365750 | 140064 | X |

Son 15 ildə Azərbaycanda əhalinin sayının artım göstəriciləri aşağıdakı kimi olmuşdur: 2000-ci ildə 8016,2 min nəfər və 2009-cu ildə 8897,0 min, 2010-cu ildə 8997,6 min, 2011-ci ildə 9111,1 min, 2012-ci ildə 9235,1 min, 2013-cü ildə 9356,5 min, 2014-cü ildə

[328] Dövlət Sosial Müdafiə Fondunun məlumatlarına əsasən. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. http://www.stat.gov. az/source/ demoqraphy/ap/

9477,1 min, 2015-ci ildə 9593,0 min nəfər. Əgər təqaüd alanlarla ümumi əhalinin say göstəricilərini müqayisə etsək, görərik ki, ümumi əhalinin təxminən 9%-i sosial müavinətlər alan insanlardan ibarətdir. Ümumi əhalinin təxminən 71,3%-inin (6917,0 min nəfər) əmək qabiliyyətli, yəni 15-64 yaş arası insanlar olduğunu nəzərə alsaq, deyə bilərik ki, sosial müavinətlər alan insanların faiz göstəricisi kifayət qədərdir.[329]

Əhalinin etibarlı sosial müdafiəsinin təşkili və ölkədə sığorta-pensiya sisteminin təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirmək məqsədilə “2009–2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı” qəbul edilmişdir. Burada qeyd edilir ki: “pensiya münasibətlərində köklü dəyişikliklərin başlanğıcı 2001—2005-ci illəri əhatə edən «Azərbaycan Respublikasında Pensiya İslahatı Konsepsiyası»nın reallaşdırılması ilə qoyulmuşdur”.

Dövlət Proqramında nəzərdə tutulan əsas vəzifələr aşağıdakılardır:

- sığorta-pensiya sisteminin fəaliyyətində sığorta prinsiplərinin gücləndirilməsi və qeyri-sığorta xarakterli ödəmələrin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi;

-vətəndaşların 2006-cı il yanvarın 1-dən əvvəlki dövrdə qazanılmış pensiya hüquqlarının yeni əmək pensiyaları sisteminə daha sıx inteqrasiyasının təmin edilməsi;

-məcburi dövlət sosial sığortasının təkmilləşdirilməsi və könüllü pensiya sığortasının inkişaf etdirilməsi;

-əmək pensiyalarının yığım komponentinin fəallaşdırılması və qeyri-dövlət pensiya institutlarının formalaşdırılması və inkişaf etdirilməsi;

-bütövlükdə sığorta-pensiya sisteminin cari ödəmə qabiliyyətinin, habelə orta və uzunmüddətli maliyyə dayanıqlığının təmin edilməsi;

-sığorta-pensiya sisteminin fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqinə nail olunması,

---

[329] Azərbaycanın əhalisi. (statistik bülleten). Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi.2016. S.7. http://www.stat.gov.az/source/demoqraphy/ap/

idarəetmənin tam avtomatlaşdırılması və fərdi uçot sisteminin əhatəli inkişafının təmin olunması.[330]

"Azərbaycan - 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasına əsasən həyata keçirilən pensiya islahatlarını daha da dərinləşdirmək məqsədi ilə 2016–2020-ci illər üçün yeni Dövlət Proqramı hazırlanacaq. Reallaşdırılacaq tədbirlər nəticəsində sığorta-pensiya sistemi daha da təkmilləşdiriləcək, könüllü sosial sığortalanmanın tətbiqi və qeyri-dövlət pensiya fondlarının fəaliyyəti ilə bağlı məsələlər öz həllini tapacaqdır. Sığorta edənlərin qeydiyyatı tam avtomatlaşdırılacaq, sığorta olunanlar dövlət sosial sığorta sistemində avtomatlaşdırılmış qaydada uçota alınacaq, məcburi dövlət sosial sığortası üzrə hesabatlar və sığorta haqqı üzrə sığorta olunanlar haqqında məlumatlar elektron qaydada ötürüləcək və qəbul ediləcək, sığorta edənlərdə audit elektron qaydada aparılacaqdır. Qeyd olunanlarla yanaşı, ölkə vətəndaşlarının pensiya təyinatı üçün hər hansı sənədin təqdim edilməsinə ehtiyac qalmayacaq və müvafiq müraciətin elektron qaydada ünvanlanması, vətəndaşların elektron müraciətləri əsasında pensiya təyinatının avtomatlaşdırılmış qaydada vahid mərkəzdən aparılması tam reallaşdırılacaqdır.[331]

## 4.4Sağlamlığın qorunması və tibbi yardım Azərbaycanda sosial siyasətin əsas istiqaməti kimi

Tibb elmində "sağlamlıq - istənilən canlı orqanizminbədən üzvlərinin hamısının öz funksiyasını tam yerinə yetirdiyi hal, istənilən ağrının və xəstəliyin olmadığı vəziyyət kimi qəbul olunur. Sağlamlıq insanın təkcə xəstə olmaması

---

[330] 2009 - 2015-ci illərdə Azərbaycan Respublikasında sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı.www.sspf.gov.az/upload/file/.../ferman.../number_111.doc

[331] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

ilə ölçülmür, həm də onun fiziki, psixoloji və sosial rifahının öz qaydasında olması ilə müəyyənləşir. Müasir dövrdə sağlamlığın mühafizəsi dövlətin əsas funksiyalarından biridir. Dünya miqyasında bəşəriyyətin sağlamlığının mühafizəsi ilə Ümumdünya Səhiyyə Təşkilatı məşğul olur.[332] Ümumdünya Səhiyyə Təşkilatının Nizamnaməsində "sağlamlıq – yalnız xəstəliklərin və fiziki qüsurların olmadığı vəziyyət deyil, həm də tam fiziki, ruhi və sosial rifah halı" kimi izah edilir.[333]

Beləliklə, əhalinin sağlamlığının qorunması bilavasitə dövlətin sosial siyasəti və səhiyyə sisteminin təkmilləşdirilməsi ilə bağlı məsələdir. Azərbaycanda əhalinin sağlamlığının qorunmasına və səhiyyə xidmətlərinin dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çatdırılmasına yönələn dövlət siyasəti ölkənin uzunmüddətli inkişaf strategiyasının mühüm elementlərindən biridir. Belə ki, sağlam insan və güclü səhiyyə uzunmüddətli, dayanıqlı inkişafı təmin etmək üçün insan resurslarına nail olmağa imkan verir. Bu mənada səhiyyə sisteminin inkişafı və əhalinin sağlamlığının mühafizəsi Azərbaycan Respublikasının sosial və demoqrafik siyasətinin əsas istiqamətlərindəndir. Azərbaycan hökuməti əhalinin fəal və sağlam həyat tərzinin təbliği və təmin edilməsi məqsədinə nail olmaq üçün idman və olimpiya komplekslərinin salınmasına, ölkədə yerli və beynəlxalq səviyyəli idman yarışlarının keçirilməsinə və s. xüsusi diqqət yetirir. Dövlət sosial mənşəli xəstəliklərin qarşısının alınması məqsədilə ölkə ərazisində müxtəlif tipli xəstəxanaların tikilməsi, sağlamlıq mərkəzlərinin yaradılması, yaşıllıqların və parkların genişləndirilməsi, ekoloji təmiz mühitin yaradılması, çirklənmiş su mənbələrinin və torpaq sahələrinin təmizlənməsi, əhalinin təmiz su ilə təchiz edilməsi və digər fəaliyyətini genişləndirir.

XXI əsrdə digər dövrlərdən fərqli olaraq Azərbaycanda sosial ekoloji vəziyyətin və əhalinin həyat şəraitinin yaxşılaşması

---

[332] Энциклопедический словарь медицинских терминов.pdfvk.com/doc16951252_157199440?hash=ffd1c28dfae3, s.463

[333] Стратегия ВОЗ в охране здоровья граждан. http://txtb.ru/109/49.htmlУстав (Конституция)Всемирной ОрганизацииЗдравоохранения. http://www.who.int/governance/eb/who_constitution_ru.pdf

demoqrafik artımla müşahidə edilir. Belə ki, əsrin əvvəlindəki vəziyyətlə müqayisədə 2015-ci ildə ölkədə təbii artım 11,7%-dir. Halbuki, 2000-ci ildə bu rəqəm 8,8% olmuşdur. Eyni zamanda doğulanların sayı artaraq 2000-ci ildə 14,7% idisə, 2015-ci idlə 17,4 % olmuş, ölənləri sayı isə azalaraq 2000-ci ildə 5,9%-dən 2015-ci ildə 5,7%-ə düşmüşdür.[334]

**Cədvəl 1. Əhalinin sıxlığı və təbii hərəkəti[335]**

| | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əhalinin sıxlığı (1 kv.km-ə düşən əhali,nəfər) | 94 | 98 | 100 | 103 | 104 | 105 | 107 | 108 | 109 | 111 | 112 |
| Əhalinin hər1000 nəfərinə: | | | | | | | | | | | |
| Təbii artım | 8,8 | 10,7 | 11,5 | 11,4 | 11,3 | 12,5 | 13,5 | 13,0 | 12,8 | 12,2 | 11,7 |
| Doğulanların sayı | 14,7 | 16,9 | 17,7 | 17,4 | 17,2 | 18,5 | 19,4 | 19,0 | 18,6 | 18,1 | 17,4 |
| Ölənlərin sayı | 5,9 | 6,2 | 6,2 | 6,0 | 5,9 | 6,0 | 5,9 | 6,0 | 5,8 | 5,9 | 5,7 |

Ölənlərin sayının azalmasını həm də həyat tərzinin keyfiyyətinin yüksəlməsi və səhiyyə sisteminin inkişafı ilə əlaqələndirmək olar. Statistik məlumatlara əsasən deyə bilərik ki, ölkə ərazisində ölümün əsas səbəbləri qan dövranı sisteminin xəstəlikləri, yenitörəmələr, tənəffüs orqanlarının xəstəlikləri, həzm sisteminin xəstəlikləri, travmalar, zəhərlənmələr və xarici səbəblərin təsiri və s. olmuşdur.

**Cədvəl. Əhali arasında ölümün əsas səbəbləri (nəfər)[336]**

| Əsas səbəblər | 000 | 005 | 007 | 008 | 009 | 010 | 011 | 012 | 013 | 014 | 015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bütün səbəblər-dən ölənlərin sayı | 6701 | 1962 | 3655 | 2710 | 2514 | 3580 | 3762 | 5017 | 4383 | 5648 | 4697 |

334 Səhiyyə. Əhalinin sayı, sıxlığı və təbii hərəkəti. http://www.stat.gov.az/source/healthcare/

335 Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial təminat, idman.http://www.stat.gov.az/source/healthcare/

336 Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial təminat, idman.http://www.stat.gov.az/source/healthcare/

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| bəzi infeksion və parazitar xəstəliklərdən | 574 | 102 | 95 | 99 | 65 | 013 | 75 | 80 | 97 | 72 | 10 |
| yenitörəmələrdən | 081 | 381 | 650 | 515 | 910 | 633 | 999 | 886 | 383 | 982 | 278 |
| endokrin sistemin xəstəlikləri və qidalanma, maddələr mübadiləsi pozğunluqların-dan | 082 | 373 | 154 | 074 | 076 | 094 | 42 | 20 | 71 | 84 | 264 |
| qan dövranısisteminin xəstəliklərindən | 6205 | 9392 | 0355 | 1128 | 2072 | 2554 | 2835 | 4832 | 4379 | 3291 | 2825 |
| tənəffüs orqanlarının xəstəliklərindən | 207 | 069 | 725 | 851 | 309 | 377 | 185 | 743 | 529 | 971 | 712 |
| həzm sisteminin xəstəliklərindən | 624 | 120 | 206 | 147 | 007 | 137 | 097 | 970 | 806 | 873 | 856 |
| sidik-cinsiyyət sistemininxəstəliklərindən | 09 | 147 | 248 | 211 | 111 | 163 | 023 | 12 | 13 | 157 | 136 |
| travmalar, zəhərlənmələrvə xarici səbəblərin təsirinin digər nəticələrindən | 097 | 698 | 007 | 444 | 369 | 529 | 460 | 467 | 234 | 827 | 646 |

XX əsrin ikinci yarısından etibarən insanların sağlamlığı ilə bağlı şərait sağlamlıq məsələsinin qlobal xüsusiyyət qazanmasına səbəb olub. Müasir dövrdə vərəm, xolera və bir çox ağır xəstəliklərlə mübarizədə böyük uğurlar əldə edilib. Bununla belə, bilavasitə ətraf mühitin ekologiyasının pozulması ilə bağlı olan ürək-damar xəstəlikləri, bəd xassəli şişlər, dəri xəstəlikləri və s. hələ də insanların həyatı üçün təhlükə mənbəyi olaraq qalır. Hər il dünyada bu xəstəliklərdən 15 milyon nəfər həlak olur.[337]

Azərbaycan Respublikasının Konstitutsiyasında vətəndaşların Sağlamlığının qorunması və sağlam ətraf mühitdə yaşamaq hüquqları təsdiq edilmişdir. Sağlamlığın qorunması haqqında 41-ci Maddədə göstərilir ki, hər kəsin sağlamlığını qorumaq və tibbi

---

[337] Глобальные проблемы современности. Нижников С.А. Философия: курс лекций". Лекция 4 из книги Нижников С.А. Философия: курс лекций: учебное пособие для вузов. М.: Изд-во "Экзамен". 2006. 383 С. http://www.ecad.ru

yardım almaq hüququ vardır. Konstitusiyada nəzərdə tutulan tibbi hüquqlar "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda öz geniş əksini tapmışdır. Burada dövlət və özəl tibb müəssisələrinin fəaliyyətinin inkişafı ilə bağlı hökumətin həyata keçirdiyi sosial səhiyyə siyasətinin əsasları açıqlanır, dövlət tərəfindən bu sahədə zəruri tədbirlərin həyata keçirilməsi, sanitariya-epidemiologiya sağlamlığına təminat verilməsi bildirilir.[338]

AR Konstitusiyasının 39-cu Maddəsi Sağlam ətraf mühitdə yaşamaq hüququ ilə bağlıdır. Burada qeyd edilir ki, hər kəsin sağlam ətraf mühitdə yaşamaq və ekoloji hüquqpozma ilə əlaqədar onun sağlamlığına və əmlakına vurulmuş zərərin əvəzini almaq hüququ vardır.[339] Qeyd edilməlidir ki, bu gün ekoloji mühit insanların sağlamlığının ilkin mənbəyi kimi çıxış edir və müasir xəstəliklərin böyük bir qismi əsasən yaşayış məskənlərinin texnogen mənşəli tullantılarla çirkləndirilməsi nəticəsində yaranmışdır."Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu[340] ölkə vətəndaşlarının hər birinin fiziki və ruhi sağlamlığının mühafizəsi, fəal uzun ömürlülüyün artırılması, tibbi yardımla təminata yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirləri nəzərdə tutur. Qanunda insan və vətəndaş hüquqlarına dövlət təminatı və bu təminatla bağlı hüquqi və fiziki şəxslərin məsuliyyəti, profilaktik tədbirlərin həyata keçirilməsi, tibbi-sosial yardımın hamı üçün mümkünlüyü, sağlamlığın itirilməsi zamanı vətəndaşların sosial müdafiəsi əhalinin sağlamlığının qorunmasının əsas prinsipləri kimi müəyyən edilir. Qanuna əsasən bu məsələlərlə bağlı dövlət əhalinin sağlamlığının qorunması sahəsində dövlət siyasətinin əsaslarını müəyyən edir, insan və vətəndaş hüquq və azadlıqlarını müdafiə edir, xüsusi dövlət proqramları hazırlayaraq həyata keçirir, səhiyyə sisteminin təşkili qaydalarını və fəaliyyətini

---

[338] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64s.
[339] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64s.
[340] Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu. http://health.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html
© 2011-2013

müəyyənləşdirir, dövlət və qeyri-dövlət səhiyyə sistemini inkişaf etdirir, səhiyyə sistemini maliyyələşdirir, ətraf mühitin qorunmasını, ekoloji təhlükəsizliyi təmin edir, məcburi sosial sığortanın məbləğini və sığorta haqqının ödənilməsi qaydalarını müəyyən edir, əhalinin xüsusi qrupları üçün tibbi-sosial yardım göstərilməsinə təminat verir, ailənin, valideynlərin və uşaqların mühafizəsini təşkil edir, səhiyyə sahəsində beynəlxalq əməkdaşlığı həyata keçirir.

Qanuna görə tibbi-sosial yardım almaq hüququ olan vətəndaşlar xəstələndikdə, əmək qabiliyyətini itirdikdə və digər hallarda dövlət və qeyri-dövlət səhiyyə sistemi, eləcə də sosial müdafiə sistemi müəssisələrində tibbi-sosial yardım ala, həmçinin tibbi sığorta əsasında tibbi yardımla təmin oluna bilərlər.[341]

Konstitusiyada göstərilir ki, dövlət tibbi sığortanın müxtəlif növlərinin inkişafına imkan yaradır. “Tibbi sığorta haqqında” Azərbayan Respublikasının Qanununda tibbi sığorta “sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması, sığorta olunanların tibbi və dərman yardımı almasına təminat verilməsi” kimi izah edilir. Qanuna əsasən tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir. Könüllü tibbi sığorta icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə könüllü tibbi sığorta müqaviləsi əsasında əhalinin tibbi və digər xidmətlər almasını təmin edir.[342]

“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən xüsusi kateqoriya vətəndaşlar

---

[341]Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu. http://health.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html
© 2011-2013

[342] Tibbi Sığorta Haqqında Azərbaycan Respublikasının Qanunu. Heydər ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 28 oktyabr 1999-cu il. https://az.wikisource.org/wiki/Tibbi_S%C4%B1%C4%9Forta_Haqq%C4%B1nda_Az%C9%99rbaycan_Respublikas%C4%B1n%C4%B1n_Qanunu#I_f.C9.99sil._.C3.9Cmumi_m.C3.BCdd.C9.99alar

əlavə tibbi xidmət növləri və digər reabilitasiya vasitələri ilə təmin olunmaq hüququna malikdirlər.

Əhalinin sağlamlığının təmin edilməsi məsələsi səhiyyə xidmətinin təkmilləşdirilməsini aktuallaşdırır. Səhiyyə sistemində sosial səhiyyə xidmətinin inkişafı etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Belə ki, ilkin tibbi səhiyyə xidməti geniş profilə malik olub, bütün yaş qrupları, bütün coğrafi regionlardan və sosial-iqtisadi təbəqələrdən olan pasiyentləri, keçici və xroniki, fiziki və əqli xəstəliklərdən əziyyət çəkən insanları əhatə edir, dövlət tərəfindən maliyyələşdirilir və ilkin tibbi səhiyyə xidməti sistemində bütün pasiyentlərə konsultasiya və müayinə ilə bağlı tibbi xidmət göstərilir.[343] Sosial səhiyyə xidməti tibbi xidmətdən öz maliyyə əsaslarına və bəzi xüsusiyyətlərinə görə fərqlənir. Amerika İctimai Səhiyyə Assosiasiyası sosial səhiyyənin altı prinsipini fərqləndirir:

1.xalqın sağlamlığının mühafizəsi və təbliği məsələləri ilə bağlı kollektiv məsuliyyətin və dövlətin aparıcı rolunun vurğulanması;

2.bütün əhali qruplarını əhatə etməsi;

3.profilaktikanın, xüsusilə də təməl əsaslarda profilaktika üçün əhaliyə xidmət strategiyasının vurğulanması;

4.sağlamlıq və xəstəliyə təsir göstərən əsas sosial iqtisadi amillərə, həmçinin daha uzaq risk amillərinə qayğı göstərilməsi;

5.özündə kəmiyyət və keyfiyyət metodlarını birləşdirən fənlərarası yanaşma;

6.xidmət göstərilən əhali qrupları ilə qarşılıqlı əməkdaşlıq münasibətləri.[344]

Dövlət tibb müəssisələrində pulsuz tibbi müayinə olunmaq sosial siyasətin əsas tərəflərindən biridir və sosial dövlətin mahiyyəti ilə bağlıdır. "Əhalinin sağlamlığının qorunması haqqında" Qanununa əsasən idmanla məşğul olan uşaqlar, yeniyetmələr, tələbələr, əlillər və pensiyaçılar, məcburi köçkünlər

---

[343] Health and the Millennium Development Goals. 2005, Keep the promise. World Health Organization, 2005.

[344] Общественноездравоохранениеи деятельностьВсемирного банка. Международный банк реконструкциии развития/ВСЕМИРНЫЙ БАНК. 2003 г., s.5

və onlara bərabər tutulan şəxslər pulsuz tibbi nəzarətdən keçmək hüququna malikdirlər. Eyni zamanda hamiləlik dövründə, doğuş və doğuşdan sonrakı dövrdə hər bir qadın, məişət zorakılığında zərər çəkmiş şəxslər, yetkinlik yaşına çatmayan uşaq və yeniyetmələr dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaş dirilmiş tibbi yardımla pulsuz təmin olunur, pulsuz dispanser nəzarətində olaraq müalicə olunurlar. Bununla yanaşı ehtiyacı olan təbəqələrə aid xəstə insanlar büdcə vəsaitləri hesabına müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada güzəştli şərtlərlə qidalanmaq və tibbi sosial yardım almaq hüququna malikdirlər. Sosial dövlətin əsasında duran şərtlərdən biri də fiziki və ya ruhi çatış mazlıqları olan yetkinlik yaşına çatmayan insanların valideynlərinin və ya qanuni nümayəndələrinin müraciəti ilə sosial müdafiə sistemi müəssisələrində saxlanılması imkanlarının hüquqi əsaslarda təmin edilməsidir. Əlil insanlarla yanaşı dövlət pensiyaçıların evdə, dövlət səhiyyə sistemi müəssisələrində tibbi yardımla, eləcə də sosial müdafiə sistemi müəssisələrində tibbi-sosial yardımla pulsuz təmin olunmasın şərait yaratmışdır. Pensiya alan insanların tibbi rəy əsasında sosial sığorta və ya sosial-müdafiə orqanlarının vəsaitləri hesabına güzəştli şərtlərlə sanatoriya-kurort müalicəsi almaq və reabilitasiya olunmaq hüquqları vardır.

Dövlət vətəndaşlara aşağıdakı tibbi yardım imkanlarını yaratmışdır:

- İlkin tibbi-sanitariya yardımı;
-Təcili və təxirəsalınmaz tibbi yardım;
- İxtisaslaşdırılmış tibbi yardım;
- İctimai təhlükəli xəstəliklərə tutulmuş vətəndaşlara tibbi-sosial yardım.[345]

Əhalinin sağlamlığının qorunması bir tərəfdən tibbin və səhiyyənin inkişaf səviyyəsi, o cümlədən səhiyyə işçilərinin savadlılığı, səriştəsi ilə sıx bağlıdır. Digər tərəfdən sağlamlığın təmin edilməsi məskunlaşan təbii mühitlə əlaqədardır. Belə ki, hazırda ekoloji problemlər qlobal xüsusiyyət alıb və bu məsələ

[345] Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu. http://health.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html © 2011-2013

dünyanın bütün ölkələrində olduğu kimi Azərbaycandan da yan ötməyib.

Yaşadığımız post-sənaye cəmiyyətində insanların təbiətə müdaxiləsi genişlənir və bəşəriyyət üçün qarşısı alınmaz təhlükəyə çevrilir. Bərpa olunmayan xammal növlərinin məsrəf olunması, yeni şəhərlərin salınması, yeni zavodların tikilməsi yararlı əkin sahələrinin azalmasına, torpaq səthinin kimyəvi maddələrlə çirklənməsinə və ekosistemin tənəzzülünə gətirir, bu isə öz növbəsində bütövlükdə biosferin mövcudluğu üçün təhlükə yaradır, ekoloji vəziyyətin kəskinləşməsinə səbəb olur. Təbii mühitin kimyəvi maddələrlə – sənaye-məişət xüsusiyyətli qaz və aerozolla çirklənməsi gələcəkdə planetin orta illik temperaturunun yüksəlməsinə səbəb olur. Ekoloqlar Dünya okeanının səthinin 1/5 hissəsinin neft və neft məhsulları ilə çirklənməsi ilə bağlı həyəcan təbili çalırlar. Neftlə çirklənmə hidrosfer və atmosfer arasında qaz və su mübadiləsini pozur. Biosferin əsas tərkib hissəsi olan atmosferin çirklənməsinin əsas mənbələri sənaye, buxar maşınları və nəqliyyat hesab olunur. İstilik elektrik stansiyaları, kimyəvi və sement zavodları, metallurgiya müəssisələri, xüsusilə də əlvan metallurgiya zavodları havanı kükürd və karbon turşusu qazları, azot oksid, hidrogen sulfid, xlor, ftor, ammiak, fosfor birləşmələri, civə və arsen tullantıları ilə çirkləndirir. Zərərli qazlar yanacaq istifadəsi, yaşayış yerlərinin isidilməsi, nəqliyyat, məişət və sənaye tullantılarının yandırılması və yenidən emalı nəticəsində havaya düşür. Atmosferin çirklənməsi nəticəsində onun tərkibində bir sıra zərərli maddələr toplanır. Bu zərərli maddələr canlı orqanizmlər üçün təhlükəlidir və insanlarda xüsusi növ xəstəliklərin yaranmasına gətirir.[346]

Müasir bəşəriyyət üçün ən böyük təhlükə QİÇS xəstəliyidir. XX əsrin bəlası adlandırılan QİÇS xəstəliyi ilk dəfə 1981-ci ildə ABŞ-da aşkar edilib və qısa müddətdə bütün planetə yayılıb. Bu xəstəliyin əsas səbəbləri «sivil» insanın əxlaqi davranışlarında baş

[346] Глобальные проблемы человечества и перспективы их решения с точки зрения современной науки Стерлитамак 1997.http://www.allbest.ru/referat; http://revolution.allbest.ru/upload.html;Барановский В.А.Современные глобальные проблемы Аспект-Пресс 2010. http://www.wwww4. com/w 1502/ 1021550.htm

verən aşınmalar və narkomaniyanın genişlənməsi olmuşdur. 2001-ci ilin əvvəllərində dünyada 40 milyon QİÇS xəstəsi var idi, 16 milyon nəfər insan artıq bu xəstəlikdən məhv olub.

Rəsmi statistikaya görə Azərbaycanda müalicə-profilaktika müəssisələrində qazanılmış immunçatışmazlığı sindromu (QİÇS) iləqeydiyyatda olan insanların sayı 2005-ci ildə – 166 nəfər, 2007-ci ildə – 294 nəfər, 2008-ci ildə – 349 nəfər, 2009-cu ildə – 447 nəfər, 2010-cu ildə – 691 nəfər, 2011-ci ildə – 881 nəfər, 2012-ci ildə – 1114 nəfər, 2013-cü ildə – 1301 nəfər, 2014-cü ildə – 1495 nəfər, 2015-ci ildə – 1682 nəfər olmuşdur. Bu xəstəlik depopulyasiya problemini genişləndirə bilər.

**Cədvəl. İnsanın immunçatışmazlığı virusunun (İİV) törətdiyi xəstəlikləxəstələnənlərin sayı (nəfər)**[347]

| | 2000 | 2005 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| İnsanın immunçatışmazlığı virusunun (İİV) törətdiyi xəstəliklə ilk dəfə qeydə alınmış xəstələrin sayı - cəmi | 3 | 10 | 41 | 36 | 55 | 59 | 37 | 02 | 94 | 86 | 04 |
| Qazanılmış immunçatışmazlıq sindromu (QİÇS) ilə | | 5 | 1 | 9 | 9 | 50 | 90 | 33 | 87 | 94 | 87 |
| onlardan18 yaşa qədər uşaqlar | | | | | | | | | | | |
| Müalicə-profilaktika müəssisələrində qeydiyyatda olan insanın immunçatışmazlığı virusunun ( İİV) törətdiyi xəstəliklə xəstələrin sayı - cəmi | .. | 70 | 320 | 744 | 174 | 621 | 154 | 656 | 149 | 735 | 439 |
| Onlardan qazanılmış immunçatışmazlıq sindromu (QİÇS) ilə | .. | 66 | 94 | 49 | 47 | 91 | 81 | 114 | 301 | 495 | 682 |

Bu gün Azərbaycanda alkoqoloizm və narkomaniya da əsas problemlərdən birinə çevrilib. Müalicə profilaktika müəssisələrində

347 Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial təminat, idman.http://www.stat.gov.az/source/healthcare/

qeydiyyatda duran belə xəstələrin sayı hər il artmaq üzrədir. Belə ki, alkoqolozm və alkoqol psixozlu xəstələrin sayı 2000-ci ildə – 19591 nəfər idisə, 2015-ci ildə – 21777 nəfər olmuşdur. Narkomaniya xəstələrinin sayı 2000-ci ildə 14010 nəfərdən 2015-ci ildə 28555 nəfərə qədər artmışdır.[348]

**Cədvəl. Əhalinin alkoqolizm, narkomaniya və toksikomaniya ilə xəstələnməsi**

| | üali-cə - profila ktika müəssi sələrin də qeydiy yatda olan xəstələ rin sayı, nəfər | | | | bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | halinin hər 100 000 nəfə-rinə | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | lkoqolizm və alko-qol psixo-zu | arkomaniya | oksikomaniya | | | lkoqolizm və alko-qol psixo-zu | arkomaniya |
| 000 | | 9 591 | 4 010 | 04 | … | | 45,1 | 75,2 |
| 005 | | 9 403 | 7 720 | 18 | … | | 30,1 | 10,1 |
| 006 | | 8 637 | 8 711 | 30 | … | | 18,1 | 18,9 |
| 007 | | 9 163 | 0 211 | 63 | … | | 21,3 | 33,4 |
| 008 | | 9 415 | 1 464 | 47 | … | | 21,2 | 44,5 |
| 009 | | 9 786 | 3 213 | 48 | … | | 22,9 | 61,5 |
| 010 | | 9 921 | 4 875 | 30 | … | | 21,6 | 76,7 |
| 011 | | 0 317 | 6 469 | 27 | … | | 22,9 | 90,4 |
| 012 | | 1 103 | 7 910 | 34 | 10 | | 28,5 | 02,2 |
| 013 | | 1 584 | 8 376 | 30 | 12 | | 30,7 | 03,3 |
| 014 | | 2 278 | 8 644 | 52 | 12 | | 35,2 | 02,4 |
| 015 | | 1 777 | 8 555 | 58 | 20 | | 27,2 | 97,9 |

[348] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial təminat, idman.http://www.stat.gov.az/source/healthcare/

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| oksiko maniy a | ,3 | ,4 | ,5 | ,9 | ,7 | ,7 | ,4 | ,4 | ,4 | ,4 | ,6 | ,6 |
| bir neçə narkotik maddənin qəbul edilməsi və digər psixoaktiv maddələrdən istifadə nəticəsində yaranan psixi və davranış pozuntuları | … | … | … | … | … | … | … | … | 0,1 | 0,1 | 0,1 | 0,2 |

Səhiyyə sisteminin təkmilləşdirilməsinin davam etdirilməsi dövlətin əsas fəaliyyət istiqamətlərindən biri kimi çıxış edir. Bu mənada "Azərbaycan - 2020: gələcəyə baxiş" [349] inkişaf konsepsiyasında əhalinin sağlamlığı və səhiyyə sahəsində qarşıda duran başlıca vəzifələr aşağıdakı kimi müəyyənləşdirilmişdir:

- Səhiyyəyə ayrılan vəsaitin ümumi daxili məhsulda payının dinamik şəkildə artırılması və həmin vəsaitin səmərəli və məqsədyönlü istifadəsini təmin edən mexanizmlər yaradılması nəzərdə tutulur.
- Səhiyyənin maddi-texniki bazasının gücləndirilməsi üçün tibb müəssisələrinin tikintisi, əsaslı təmiri və yenidən qurulması, onların müasir tibbi avadanlıqla təchiz edilməsi həyata keçiriləcək, eyni zamanda səhiyyə islahatları planlı şəkildə davam etdiriləcəkdir.
- Səhiyyənin idarə olunmasında həddən artıq mərkəzləşmədən imtina edilməsi, idarəetmədə sırf icraçı funksiyalarının inzibati-iqtisadi formalarla əvəz olunması üçün tədbirlər görüləcək və bununla da müxtəlif səviyyəli idarəetmə strukturlarının səlahiyyətlərinin səmərəli şəkildə ayrılması və onların fəaliyyətinin əlaqələndirilməsi təmin ediləcəkdir.
- İcbari tibbi sığortaya keçilməsi təmin ediləcək və onun əsasında tibbi yardımın keyfiyyətinə, pasiyentlərin hüquqlarının qorunmasına nəzarət mexanizmlərinin təkmilləşdirilməsinə şərait yaradılacaqdır.

[349] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

- Səhiyyə sisteminin islahatları nəticəsində əsasən stasionar yardıma istiqamətləndirilmiş təbabətdən ilkin tibbi-sanitariya yardımının üstünlük təşkil etdiyi təbabətə keçilməsi reallaşdırılacaq, ailə həkimi praktikasının genişləndirilməsinə müvafiq şərait yaradılacaqdır. Eyni zamanda ambulator-poliklinika xidmətinin təkmilləşdirilməsi üçün fəal və məqsədyönlü iş aparılacaqdır.

- Dövlət tərəfindən sosial xəstəliklərə (diabet, hemofiliya, talassemiya, onkoloji xəstəliklər, immunoprofilaktika, hemodializ, vərəm, QİÇS və s.) qarşı mübarizə, əhalinin sağlamlaşdırılması üzrə profilaktik tədbirlər, sanitariya maarifi işi, narkomaniya, alkoqolizmə və tütünçəkməyə qarşı mübarizə müxtəlif dövlət proqramları vasitəsilə həyata keçiriləcəkdir.

- Yoluxucu xəstəliklərin profilaktikası məqsədi ilə profilaktika tədbirləri gücləndiriləcək, müvafiq tədbirləri nəzərdə tutan 2015–2020-ci illər üçün sanitariya-epidemioloji xidmətin İnkişaf Proqramı hazırlanacaqdır.

- Bununla yanaşı, qeyri-infeksion xəstəliklərə (tütünçəkmə, piylənmə, fiziki fəallığın olmaması, spirtli içkilərdən sui-istifadə və s.) qarşı mübarizəyə dair 2013–2020-ci illəri əhatə edən xüsusi Strategiya qəbul ediləcək, sağlam həyat tərzi üçün şərait və imkanlar yaradılması, əhalinin öz sağlamlığı üçün məsuliyyətinin və marağının artırılmasından ötrü maarifləndirmə işlərinin genişləndirilməsi istiqamətində əməli tədbirlər görüləcəkdir.

- Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2013–2020-ci illəri əhatə edən Dövlət Proqramı qəbul ediləcək, uşaq və yeniyetmələr arasında profilaktik müayinələr və dispanserləşdirmə aparılması işi gücləndiriləcəkdir.

- Yoluxucu xəstəliklərə qarşı mübarizənin gücləndirilməsi məqsədi ilə uşaqlar arasında immunoprofilaktika işlərinin aparılması üçün müvafiq tədbirlər həyata keçiriləcəkdir.

- Uşaqlıq dövrünə xas olan əlilliyin erkən profilaktikası və müalicəsi üzrə Milli Fəaliyyət Planı (2014–2020-ci illər) hazırlanacaq, uşaqlara göstərilən stasionar xidmətin daha da yaxşılaşdırılması ilə bağlı uşaq tibb müəssisələri profilləşdiriləcəkdir.

- Əsas həyati vacib dərman preparatlarının bütün əhali qrupları üçün fiziki və iqtisadi cəhətdən əlçatan olmasının, həmçinin dərman preparatlarının keyfiyyəti, səmərəliliyi və təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə onların vahid qeydiyyat sisteminin yaradılması üçün zəruri tədbirlər görüləcəkdir. Dərman bazarına lisenziyalaşmamış və aşağı keyfiyyətli dərman preparatlarının daxil olmasının qarşısının alınması istiqamətində əməli addımlar atılacaqdır.

- Səhiyyə sahəsində kadr təminatının təkmilləşdirilməsi ən vacib məsələ kimi diqqət mərkəzində olacaq, tibb mütəxəssislərinin bilik və bacarıqlarının daim yüksəldilməsi üçün müvafiq mexanizmlər yaradılacaq, o cümlədən xarici ölkələrdə təlimlər təşkil ediləcəkdir.

- Kənd yerlərində işləyən həkim və orta tibb işçiləri üçün uyğun həyat şəraitinin yaradılması üzrə müvafiq işlər görüləcək və təşviqləndirici maddi təminat mexanizmləri müəyyənləşdiriləcəkdir. Tibb işçilərinin əməyinin son nəticəyə görə qiymətləndirilməsi prinsipinin tətbiq olunması üçün tədbirlər görüləcəkdir.

- Əhalinin sağlamlığının monitorinqi üzrə müxtəlif tibbi elektron registrlər, vətəndaşların "elektron sağlamlıq kartı" sistemi və vahid səhiyyə informasiya sistemi
yaradılacaqdır.[350]

Əhalinin sağlamlığının və fəal həyat tərzinin təmin edilməsi bu gün qlobal mahiyyət kəsb edir və bu istiqamətdə Ümumdünya Səhiyyə Təşkilatı "XXI əsrdə hər kəs üçün sağlamlıq" proqramı çərçivəsində 10 əsas məqsədi müəyyən etmişdir:

1.Sağlamlıqla bağlı ədalətin gücləndirilməsi.

2.Sağ qalmaq imkanlarının yaxşılaşdırılması və həyat keyfiyyətinin yüksəldilməsi.

3.Beş əsas pandemiya (infeksion xəstəliklər, qeyri-infeksion xəstəliklər, travmatik xəstəliklər və zorakılıq, alkoqoloizm və narkomaniya, siqaret çəkmə).

---

[350] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

4.Müəyyən xəstəliklərin tam və ya qismən aradan qaldırılması (poliomelit və s.).

5. Su təchizatı, sanitariya, qida məhsulları və yaşayış yeri ilə bağlı imkanların yaxşılaşdırılması.

6.Sağlam həyat tərzinin dəstəklənməsi, qeyri-sağlam həyat tərzinə qarşıdurma.

7.Kompleks, keyfiyyətli tibbi-sanitar yardımın yaxşılaşdırılması.

8.Səhiyyə sahəsində elmi tədqiqatların dəstəklənməsi.

9.Qlobal və milli tibbi informasiyanın və epidemoloji nəzarətin tətbiq edilməsi.

10. Bütün ölkələrdə "Hər kəs üçün sağlamlıq" siyasətinin hazırlanması, həyata keçirilməsi və monitorinq aparılmasına nail olmaq.[351]

"Hər kəs üçün sağlamlıq" ideyası və strategiyası bir daha insanın sağlamlıq hüququnun ayrılmaz olduğunu və həm insanın, həm də cəmiyyətin bu hüququn real təmin edilməsi üçün məsuliyyət daşıdığını, səhiyyənin ümummilli və fərdi planda sistemli inkişafını, qlobal səhiyyə sisteminin yaradılması üçün əməkdaşlığın inkişaf etdirilməsini, həmçinin bu perspektivli məqsədə doğru hərəkətlə bağlı monitorinqin keçirilməsini təsdiq edir. Hər kəs üçün sağlamlığa nail olmaq siyasəti XXI əsrdə uyğun regional və milli strategiyaların həyata keçirilməsi əsasında mümkün ola bilər. Bu proqram əsasında Avropanın yeni "Sağlamlıq – 21" strategiyası qəbul edilmişdir. Hər kəs üçün sağlamlıq" siyasətinin üç etik əsası mövcuddur:

1.Sağlamlığın insanın əsas hüququ kimi etiraf edilməsi.

2.Sağlamlıq və onun müdafiəsi məsələləri ilə bağlı ədalət və ölkələrin və ölkə daxili əhali qruplarının bu məsələ ilə bağlı fəal həmrəyliyi.

3. Cəmiyyətin bütün təbəqələrinin və sahələrinin səhiyyə fəaliyyətində iştirakı və məsuliyyətli münasibəti.[352]

---

[351] Баженов А.М. Б16 Социология здравоохранения: учебное пособие / А.М. Баженов. — ЦСП и М, 2015. — 271 с.

## 4.5 Azərbaycanda təhsil institutunun müasir inkişaf istiqamətləri

Bəşəriyyət bilik cəmiyyətinə keçid mərhələsini yaşayır. Müasir qloballaşma prosesi bilik cəmiyyətinin sərhədlərinin genişlənməsinə və bəlkə də ümumbəşəri miqyas almasına gətirir. Bilik cəmiyyətinin əsasında müasir təhsil və elm sisteminin sürətli inkişafı prosesi dayanır. Bu proses sosial inteqrasiyanın genişlənməsi, yəni hər zaman və hər yerdə daha yaxşı təhsil almış insanlara yüksək tələbatla və miqrasiyanın xüsusi forması kimi "beyin axını" probleminin yaranması ilə müşayiət olunur. Sosial ədalətin ilkin amillərindən hesab edilən təhsil sistemi bu mənada müasir sosial qeyri-bərabərliyin əsası kimi çıxış edir. Belə ki, kütləvi və özəl təhsil müəssisələrində tədrisin fərqli olması biliklərin əldə edilməsi prosesinə təsir göstərir. Biliklərlə bağlı yaranan fərq işlə təmin olunma zamanı özünü göstərir.

İşçi qüvvəsinin zəruri bilik və bacarıqlara yiyələnməsi və bu əsasda sosial strukturun formalaşdırılması və cəmiyyətdə sosial seleksiya prosesi təhsilin ictimai rolu ilə bağlıdır. Beləliklə, sosial mobilliyin əsas amili olan təhsil cəmiyyətdə diferensiasiya və inteqrasiya prosesinə təsir göstərir.

Təhsil sistemi iqtisadi, siyasi, sosial seçim, sosial nəzarət, təlim, tərbiyə və sosiallaşma funksiyalarını yerinə yetirməklə yanaşı, həm də meqasosium olan bəşər sivilizasiyasının həyat davamlılığının və sabitliyinin qorunub saxlanmasına yönəlir. Müasir təhsilin əsas təyinatlarından biri dünyada ümumi mental dəyərlərin yaradılması ilə bağlıdır. Bu istiqamətdə təhsil sistemində müəllim və şagird, motivasiya edən və motivasiya olunan, manipulyasiya edən və manipulyasiyaya məruz qalan arasındakı

---

[352] Стратегия ВОЗ в охране здоровья граждан. http://txtb.ru/109/49.htmlУстав (Конституция)Всемирной ОрганизацииЗдравоохранения. http://www.who. int/governance/eb/who_constitution_ru.pdf

münasibətlərdə təhsil və təlim, sanksiyaların həyata keçirilməsi və manipulyasiya texnologiyalarından istifadə edilir.[353]

Təhsil sistemində müxtəlif istiqamətli innovasiyaların tətbiq edilməsi milli təhsil prosesinin dəyişməsinə, standart xarakter almasına səbəb olur. Milli təhsil sistemlərində yeni xüsusiyyətlərin mənimsənilməsi dövlətlərin təhsil siyasətinin dəyişməsi ilə nəticələnir. Dünyada baş verən demoqrafik dəyişikliklər təhsil sisteminin kütləviləşməsi, onun müxtəlif formalarının (distansion təhsil, fasiləsiz təhsil və s.) yaranması ilə müşayiət olunur. Təhsil sistemində baş verən dəyişikliklər Azərbaycan Respublikasında da milli təhsil sisteminin inkişafı sahəsində daimi islahatların keçirilməsini aktual problemə çevirib. Təhsil sistemində aparılan islahatlar beynəlxalq dəyişiklikləri və dünya təhsil sisteminə inteqrasiya imkanlarını nəzərə alaraq həyata keçirilir. Bu, dünya miqyasında tələb olunan kadrların hazırlanması baxımından müsbət fəaliyyət olsa da, milli dəyərlərin, vətənə bağlılıq və s. hisslərin təbliği baxımından mənfi tendensiyadır.

Məlum olduğu kimi təhsil sistemi özündə müxtəlif səviyyəli və tipli təhsil müəssisələrini, onların təşkilati və struktur quruluşunu birləşdirir. Azərbaycanda təhsil sistemi ilə bağlı səmərəli sosial siyasətin həyata keçirilməsi məqsədilə ictimai və dövlət səviyyəsində çox sayda layihələr həyata keçirilir. Hökumət "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"[354] və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət

---

[353] Губанов Н.И.,Губанов Н.Н.Роль образования в формированииглобалистского менталитета. Вестник Высшей Школы Философия и Социология. № 11 (ноябрь, 2014), s.11-17

[354] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. ("Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev . Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 24 oktyabr 2013-cü il.). http://www.president.az/articles/9779

Planı” [355] qəbul edib. Burada xüsusi olaraq vurğulanır ki, modernləşmə, yaxud müasirləşdirmə, həm də “ölkədə insan kapitalının inkişafı, şəxsin müasir bilik və bacarıqlara yiyələnməsinin təmin edilməsi” ilə bağlıdır və bu əsasda təhsilin beş strateji və fəaliyyət istiqaməti müəyyən edilmişdir:

I.Səriştəyə əsaslanan şəxsiyyətyönlü təhsil məzmununun yaradılması;

II. Təhsil sahəsində insan resurslarının müasirləşdirilməsi, o cümlədən təhsil alanların fərdi xüsusiyyətlərini nəzərə alan innovativ təlim metodları və texnologiyaları vasitəsilə təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən yüksək nüfuzlu təhsil verənin formalaşdırılması;

III. Təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, həmçinin dövlət-ictimai xarakterli və dövlət-biznes partnyorluğuna əsaslanan idarəetmə sisteminin formalaşdırılması;

IV. Müasir tələblərə uyğun və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması;

V. Azərbaycan Respublikasında iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması, həmçinin Təhsilin İnkişafı Fondunun yaradılması.[356]

Göründüyü kim, dövlət təhsilin inkişafı sahəsində xüsusi, milli əsasları və beynəlxalq dəyişiklikləri nəzərə alan təhsil siyasəti həyata keçirir. Bütün dünyada olduğu kimi Azərbaycanda da təhsilin kütləviləşməsi və beynəlmiləlləşməsi prosesi davam edir və bu proses qanuni əsaslar qazanır.

---

[355] “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı”. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 19 yanvar 2015-ci il. http://edu.gov.az/az/page/73/9964

[356] Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmişdir. (“Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 24 oktyabr 2013-cü il.). http://www.president.az/articles/9779

İnsan Haqları ilə bağlı Ümumi Bəyannamənin 26-cı maddəsində göstərilir ki, təhsil almaq insanın qanunla möhkəmlənmiş sosial hüquqlarından biri olub, həm şəxsiyyətin, həm də cəmiyyətin inkişafına yönəlir. Müasir dövrdə təhsil almaq hüququ dedikdə, pulsuz ibtidai və orta təhsil, təhsilin əlçatan olması, valideynin övladı üçün təhsil formasını (dini, dünyəvi) və müəssisəsini (özəl və ya dövlət) seçmək hüququnun olması, azad tədris etmək və təhsil müəssisəsi açmaq hüququnun olması və s. nəzərdə tutulur.[357]

Azərbaycan dövləti İnsan Haqları ilə bağlı Ümumi Bəyannaməyə qoşulub. Buradakı insan hüquqları Azərbaycan Respublikasının Konstitusiyasında yer almışdır. AR Konstitusiyasında göstərilir ki, hər bir vətəndaşın təhsil almaq hüququ vardır, təhsil sistemi dövlətin nəzarəti altındadır, o, minimum təhsil standartlarını müəyyən edir və pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.[358]

“Təhsil haqqında” Qanunda[359] təhsilin ibtidai, orta, ümumi təhsil formaları fərqləndirilir. Təhsil haqqında Azərbaycan Respublikasının Qanununda göstərilir ki, ölkəmizdə təhsil dünyəvi və fasiləsiz xarakter daşıyır.

Humanistlik, demokratiklik, bərabərlik, millilik və dünyəvilik, keyfiyyətlilik, səmərəlilik, fasiləsizlik, vəhdətlik, daimilik, varislik, liberallaşma, inteqrasiya Təhsil sahəsində dövlət siyasətinin əsas prinsipləri kimi müəyyənləşdirilmişdir (Maddə 3).

Dövlət təhsil hüququna, yəni hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına və bu zaman ayrıseçkiliyin heç bir formasına yol verilməməsinə təminat verir. Azərbaycanda icbari ümumi təhsil tətbiq edilir. Dövlət istedadlı şəxslərin və sosial müdafiəyə ehtiyacı olanların təhsil almasına şərait yaradır (maddə 5).

Təhsil əsas sosiallaşma institutlarından biri kimi vətəndaşların adaptasiyası, inteqrasiyası və ixtisaslaşmasına gətirir. Bu zaman

---

[357]Всеобщая декларация прав человекаПринята и провозглашена резолюцией 217 А (III) Генеральной Ассамблеи от 10 декабря

[358] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, “Qanun”, 2005, 64 s.

[359] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri 19 iyun 2009-cu il

təhsilin sosial məsuliyyət problemi meydana çıxır. Belə ki, adaptasiya, inteqrasiya və ixtisaslaşma funksiyaları məhdud imkanlara malik olan insanlara münasibətdə təhsillə bağlı təkmilləşdirilmiş sosial siyasətin həyata keçirilməsini tələb edir. Bunu nəzərə alaraq, "Təhsil haqqında" Qanunda [360] sağlamlıq imkanları məhdud olan şəxslərin təhsil alması üçün xüsusi dövlət standartları müəyyən edilir (maddə 6), onların təhsilini, müalicəsini, sosial adaptasiyasını və ictimai həyata inteqrasiyasını nəzərdə tutan xüsusi ümumtəhsil proqramları həyata keçirilir (maddə 10). Bu qanundan çıxış edərək qeyd ə bilərik ki, hazırda Azərbaycanda inklüziv təhsilin inkişafına xüsusi diqqət yetirilir. İnklüziv, yaxud inteqrativ təhsil kütləvi bağça və məktəblərdə korreksion siniflərin yaradılmasına yönəlmiş, "xüsusi" və "normal" uşaqların tam seqreqasiyası ilə bağlı klassik təhsildən uzaqlaşan, insanlar arasındakı fərqi dəyər və hər bir kəsi təhsil prosesinin tamhüquqlu iştirakçısı kimi qəbul edən təhsil formasıdır. İnklüzüv təhsil bütün təhsil alanların bağçanın, məktəbin, universitetin həyatında tam iştirakına şərait yaradılmasına yönəlir. Bu təhsilin əsas məqsədi hər bir kəs üçün tam sosial həyatın təmin edilməsi ilə bağlıdır.[361]

Ölkəmizdə formal, qeyri-formal, informal təhsil formaları tətbiq edilir (maddə 12). Tətbiq edilən təhsil pillələri və səviyyələri aşağıdakılardır:

- məktəbəqədər təhsil;
- ümumi təhsil;
- ibtidai təhsil;
- ümumi orta təhsil;
- tam orta təhsil;
- ilk peşə-ixtisas təhsili;
- orta ixtisas təhsili;
- ali Təhsil müəssisəsi: bakalavriat, magistratura, doktorantura (maddə 17).

---

[360] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri 19 iyun 2009-cu il

[361] Инклюзивное образование. Выпуск 4. Методические рекомендации по организации инклюзивного образовательного процесса в детском саду. – М.: Центр «Школьная книга», 2010. – 240 с. S.5, 6

Qanunda göstərilir ki, təhsil müəssisəsi aşkarlıq, şəffaflıq, demokratiklik prinsipləri əsasında idarə edilir.

Azərbaycanda dövlət, bələdiyyə, özəl təhsil müəssisələrinin fəaliyyətinə qanuni əsaslarda icazə verilir.

Qanunda təhsil alanların müvafiq qaydada dövlət hesabına dərsliklərlə təmin edilməsi, qanunvericilikdə müəyyən edilmiş qaydada təqaüdlər verilməsi və yardımlar edilməsi, o cümlədən digər sosial müdafiə tədbirləri tətbiq edilməsinə təminat verir (maddə 35). Dövlət təhsil verənlərin sosial müdafiəsinə - onların əmək haqqı, əmək haqqına əlavələr və digər stimullaşdırıcı ödənişlər edilməsinə, təhsil və yaradıcılıq məzuniyyətləri verilməsinə, gənc mütəxəssislər üçün əlavə güzəştlər olunmasına, o cümlədən sağlamlıq imkanları məhdud, valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum, ciddi tərbiyə şəraitinə ehtiyacı olan uşaqlar üçün təhsil müəssisələrinin, istedadlı uşaqlar üçün təhsil müəssisələrinin, eləcə də yüksək dağlıq və sərhədyanı ərazilərdə, ucqar yaşayış məntəqələrində çalışan təhsil işçilərinin əmək haqlarına və vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş qaydada əlavələr edilməsinə təminat verir (maddə 36).[362]

Qeyd edildiyi kimi təhsil Azərbaycanda sosial siyasətin aparıcı istiqamətlərindən biridir. Ölkəmizdə təhsil sahəsində həyata keçirilən islahatlar milli təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasına yönəlib və bu, ali təhsil sistemində təşkilati dəyişikliklərin həyata keçirilməsinə səbəb olur, dövlət təhsil müəssisələrinin tikilməsi və abadlaşdırılması sahəsində geniş fəaliyyət həyata keçirir. Belə ki, dövlət və qeyri-dövlət ali təhsil müəssisələrinin sayı 2000- 2001-ci illərdə 47, 2005-2006-cı illərdə 47, 2010-2011-ci illərdə 51, 2012-2013-cü illərdə 52, 2013-2014-cü illərdə 52, 2014-2015-ci illərdə 53 təhsil müəssisəsi olmuşdur.

Bir çox regionlarda universitetlər mədəni və sosial mərkəzlər rolunu yerinə yetirirlər. Müasir dövrdə çoxpilləli təhsil sisteminin tətbiq edilməsi elmlə təhsilin birləşməsinə və artıq daha hazırlıqlı müəllimlər nəslinin yetişməsinə kömək edir. Ümumilikdə bu illər ərzində ali təhsil müəssisələrini bitirənlərin sayı – 2000-ci ildə

---

[362] Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri 19 iyun 2009-cu il

24 488 nəfər, 2005-ci ildə 32 508 nəfər, 2010-cu ildə 31 071nəfər, 2012-ci ildə 35 128 nəfər, 2013-cü ildə 33 758 nəfər, 2014-cü ildə 32 826 nəfər olmuşdur.

Müasir Azərbaycan cəmiyyətində kütləvi təhsil üstünlük təşkil edir, lakin dövlət tərəfindən özəl təhsil müəssisələrinin inkişafına da xüsusi diqqət yetirilir. Statistik göstəricilərə əsasən, dövlət və qeyri-dövlət orta ixtisas təhsili müəssisələrinin sayı 2000-2001-ci illərdə 71, 2005-2006-cı illərdə 60, 2010-2011-ci illərdə 62, 2012-2013-cü illərdə 59, 2013-2014-cü illərdə 58, 2014-2015-ci illərdə 61 orta təhsil müəssisəsi olmuşdur. Bu müəssisələrdə şagirdlərin sayı isə 2000-2001-ci illərdə 42 612, 2005-2006-cı illərdə 57 896 nəfər, 2010-2011-ci illərdə 53 451 nəfər, 2012-2013-cü illərdə 55 954 nəfər, 2013-2014-cü illərdə 63 273 nəfər, 2014-2015-ci illərdə 60 478 nəfər olaraq dəyişmişdir.[363]

Azərbaycan Ümumi ibtidai təhsil sahəsində yüksək göstəricilərə malik olsa da, son illərdə müvafiq rəqəmlər bir qədər də yaxşılaşdırılmışdır. 2003-2008-ci illər ərzində 15-24 yaşlı şəxslər arasında savadlılıq səviyyəsi 99.9%-dən 100%-ə yüksəlmişdir. Sözügedən göstərici kişilər və qadınlar üçün eyni olmuşdur. 2003-2008-ci illər ərzində ibtidai təhsildə xalis qeydiyyat əmsalı 96%-dən 99.5%-ə yüksəlmişdir. Kişilər arasında sözügedən göstərici 96%-dən 99.6%-ə, qadınlar arasında isə 96%-dən 99.3%-ə yüksəlmişdir. 2003-2008-ci illər arasında ibtidai təhsil pilləsini bitirmək əmsalı 95.8%-dən 100%-ə yüksəlmişdir. Kişilər arasında bu göstərici 95.9%-dən 100%-ə, qadınlar arasında isə 96.7%-dən 99.9%-ə yüksəlmişdir.

Azərbaycanın məqsədi ümumi orta və tam orta təhsilə nail olmaqdır. Təhlillər göstərir ki, ümumi orta və tam orta təhsildə xalis qeydiyyat əmsalı o qədər də yüksək deyildir.[364]

Hazırda orta məktəblərdə təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə təlimin mahiyyətinin dəyişdirilməsi istiqamətində fəaliyyət genişləndirilir. Onu da qeyd etmək lazımdır ki, özəl orta

---

[363] Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

[364] Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

təhsil müəssisələrinin yaradılması keyfiyyətli təhsilin tədirisi istiqamətində uğurlu addımdır. Belə ki, kütləvi təhsil müəssisələrində savadlılıq səviyyəsi daha aşağı göstəricilərə malik olur. Özəl müəssisələrdə övladlarının təhsilinə sərmayə qoyan valideynlər daha yüksək təhsilin verilməsini ümid və tələb edir. Bu proses cəmiyyətdə sosial diferensiasiyanın genişlənməsinə gətirir. Digər tərəfdən məlumdur ki, bilavasitə kütləvi təhsil sistemi milli dəyərlərin, milli ideologiyanın ötürülməsinə yönəlir. Müxtəlif dillərdə (ingilis, fransız) fəaliyyət göstərən özəl təhsil müəssisələri isə bilavasitə həmin ölkələrə xas mədəni dəyərlərin təbliğinə əsaslanır.

Bu gün Azərbaycanda təhsilin humanistləşdirilməsi əsas meyllərdən biri kimi inkişaf etdirilir. Təhsilin humanistləşdirilməsi müəyyən qrup insanlara xüsusi münasibətin həyata keçirilməsinə yönəlir. Bu baxımdan əhalinin daha həssas qrupları olan qaçqınlar və məcburi köçkünlər, əqli və fiziki sağlamlığı ilə bağlı müəyyən məhdudiyyətləri olan şəxslərə xüsusi münasibət tələb olunur. Bu baxımdan dövlət sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi məktəblər və internat məktəblərinin fəaliyyətinə xüsusi diqqət yetirir. Bu tipli müəssisələrin sayı 2000-2001-ci illərdə 20, 2005-2006-cı illərdə 21, 2012- 2013-cü illərdə 18, 2013-2014 cü illərdə 17, 2014-2015-ci illərdə 16 olmuşdur. Sağlamlıq imkanları məhdud uşaqların ümumi sayı 2000-2001-ci illərdə 589 nəfər, 2005-2006-cı illərdə 6 402 nəfər, 2012- 2013-cü illərdə 6 283 nəfər, 2013-2014 cü illərdə 5 638 nəfər, 2014-2015-ci illərdə 5 496 nəfər olmuşdur.[365]

Təhsil sisteminin inkişafı ilk növbədə ölkənin iqtisadi inkişafı ilə bağlıdır. Bunu nəzərə alaraq Azərbaycan hökuməti dövlət büdcəsinin müəyyən hissəsini bilavasitə təhsil sisteminin inkişafı üçün ayırır. Statistik göstəricilərə əsasən 2013 – cü ildə təhsil sisteminə - 1.530.482.591,0 manat, 2014-cü ildə 1.653.445.192,0 manat, 2015-ci ildə 1.711.180.403,0 manat, 2016-cı ildə

---

[365] Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

1.713.500.000 manat, 2017-ci ildə 1.859.499.497.0 manat pul ayrılmışdır.[366]

Sabit sosial institut olan təhsil digər sosial institutlarla (mədəniyyət, siyasət, iqtisadiyyat, hüquq və digər) qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Təhsil insanın imkanlarını genişləndirən və intellekt, mədəniyyət, özününtəyinetməni formalaşdıran institut kimi insanın ən yüksək tələbatına çevrilməlidir. "XXI əsr üçün təhsillə bağlı bəyannamədə" göstərilir ki, təhsilin əsas vəzifələri məsuliyyətli, cəmiyyətin indiki və gələcək tələblərinə uyğunlaşa bilən, özünüinkişaf etdirən, sosial mobil, cəmiyyəti mədəni, sosial və iqtisadi inkişafa dair zəruri biliklərlə təmin edən, mədəni plüralizm və rəngarənglik çərçivəsində milli və regional, beynəlxalq və tarixi mədəniyyətləri qoruyub saxlaya və inkişaf etdirə bilən, ictimai dəyərləri müdafiə edən, humanist vətəndaşların formalaşdırılması ilə bağlıdır.[367]

"Azərbaycan - 2020: gələcəyə baxiş" inkişaf konsepsiyasında [368] Azərbaycanda müasir təhsil sisteminin formalaşdırılması istiqamətləri müəyyən edilmişdir:

---

[366] Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 30 noyabr 2012-ci il № 473-IVQ; Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 22 noyabr 2013-cü il ; Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 28 noyabr 2014-cü il; Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı, Bakı, 2016; Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2016-cı il

[367]Абрахматова Г.А., Орынбекова Д.С. Приоритеты современного образования. Девятые Ковалевские чтения / Материалы научно-практической конференции 14-15 ноября 2014 года. / Отв. редактор: Ю.В. Асочаков. СПб.: Скифия-принт, 2014, s.31-34

[368] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

-Təhsil sahəsinə ayrılan vəsaitlərin ümumi həcminin ÜDM-dəki payı inkişaf etmiş ölkələrin müvafiq göstəricisi səviyyəsinə çatdırılacaq;

-Təhsildə keyfiyyətin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlər yaradılacaq;

-Təhsildə idarəetmənin təkmilləşdirilməsi davam etdiriləcək;

- Ölkə üzrə azyaşlı uşaqların məktəbəqədər təhsilə cəlbolunma səviyyəsi orta Avropa göstəricisi səviyyəsinə çatdırılacaq;

- Məktəblərin tikintisi və əsaslı təmiri sahəsində həyata keçirilən işlər davam etdiriləcək;

- 12 illik ümumi təhsil sisteminə keçid təmin ediləcək;

- Şagirdlərin idrak fəallığını, ümumi inkişafını ləngidən mövcud “yaddaş məktəbi”ndən “təfəkkür və düşüncə məktəbi”nə keçidin təmin olunması məqsədi ilə sistemli tədbirlər görüləcək;

- Tam orta təhsil səviyyəsində təhsil təmayüllər üzrə təşkil olunacaq, istedadlı uşaqlar üçün inkişafetdirici fərdi proqramlar yaradılacaq;

- Xüsusi qayğıya ehtiyacı olan, sağlamlıq imkanları məhdud uşaqlar üçün müxtəlif inkişafetdirici, korreksiya edici və inklüziv təhsil proqramları tətbiq ediləcək;

-Məktəbdaxili qiymətləndirmə sahəsində aparılan islahatlar davam etdiriləcək;

- Məktəbdənkənar təhsilin səmərə və keyfiyyətinin yüksəldilməsi məqsədi ilə

müasir təhsil proqramları hazırlanacaq;

-Peşə təhsili infrastrukturu əsaslı şəkildə müasirləşdiriləcək;

- Bölgələrin inkişafı və mütəxəssislərə tələbatı nəzərə alınaraq, regional çoxprofilli kolleclərin yaradılması istiqamətində tədbirlər görüləcək;

- İKT-nin təhsilin idarə edilməsinə səmərəli inteqrasiyası davam etdiriləcək;

-Azərbaycanda müəllimlərin təkmilləşdirilməsi beynəlxalq standartlarla uzlaşdırılacaq;

- Azərbaycan təhsilinin dünya və Avropa təhsil məkanına inteqrasiyası gücləndiriləcək;

- 2015–2020-ci illər üçün gənclərin xarici ölkələrdə təhsil almasına dair yeni Dövlət Proqramı qəbul ediləcəkdir.[369]

## 4.6 Qaçqınlar və məcburi köçkünlərin vəziyyətinin yaxşılaşdırılması Azərbaycan Respublikasının sosial siyasətinin prioritet istiqaməti kimi

Müasir dövrdə millətlərarası münaqişələr nəticəsində miqrasiya Milli və etnik xüsusiyyətlər qazanıb, hazırda qaçqınlar və məcburi köçkünlərin yerdəyişməsi miqrasiyanın fərqli forması kimi geniş miqyas alaraq, qloballaşmışdır. XXI əsrdə dünya xəritəsində siyasi və ideoloji sərhədlərin yenidən müəyyənləşdirilməsi cəhdləri artıq bir çox ölkələrin məcburən yaşamalı olduğu müharibə şəraitini də qlobal problemə çevirib. Bəzi ölkələrdə müharibə şəraiti hətta bir neçə nəslin dəyişməsindən asılı olmayaraq davam edir və bu, qaçqın və məcburi köçkünlər probleminin davamlı həllini gözləyən bir məsələyə çevrilməsinə gətirib çıxarıb.

Müharibə şəraitində miqrasiya xarici qüvvələrin təsirilə baş verən yerdəyişmə kimi məcburilik xüsusiyyətinə malik olur. Elmi ədəbiyyatda məcburi miqrasiya bir sıra siyasi, iqtisadi, sosial, ekoloji səbəblər və nəticələrlə bağlı yerdəyişmə kimi izah edilir.

Hər bir ölkə müəyyən miqrasiya siyasəti həyata keçirir. Bu siyasət miqrasiya davranışına və bu davranışı əmələ gətirən şəraitə təsir sistemi kimi çıxış edir.Miqrasiya siyasətinin əsas mahiyyəti miqrasiyanın təbii inkişafı ilə bağlı olub, bu prosesə təsir mexanizmlərinin hazırlanmasına və cəmiyyət və dövlətə dair mənfi nəticələrin aradan qaldırılmasına, mühacirlərin potensialının səmərəli istifadə edilməsinə yönəlir. Miqrasiya siyasətinin əsas prinsipi bu siyasətin reallaşdırılması və miqrasiya

---

[369] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 29 noyabr tarixli 1862 nömrəli Sərəncamı. www.mincom.gov.az/media/xeberler/details/352

qanunvericiliyinin hazırlanması gedişində dövlətin maraqlarının üstün mövqeyi ilə bağlıdır.[370]

Diaqram 1. Yeni köçkünlərin orta göstəricisi[371]




BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının statistik məlumatına əsasən, 1994-cü ildən etibarən dünyada qaçqınların və daxili köçkünlərin sayı artmağa başlamışdır. Suriya böhranı isə qlobal yerdəyişmənin ən əsas amillərindən birinə çevrilmişdir. Təşkilatın təqdim etdiyi hesabatda 2012-ci ildə 45,2 milyon insanın qaçqın və onlardan da 28,8 milyonunun daxili məcburi köçkün kimi yaşamağa məcbur olduğu göstərilir. Hesabatda o da vurğulanır ki, hazırda hər 4,1 saniyədə yeni bir qaçqın və ya daxili köçkün qeydə alınır. Onu da qeyd etmək lazımdır ki, dünyada hər 4 qaçqından 1-i əfqandır.[372]

Bu vəziyyətin başlıca səbəblərindən biri ölkələrin məcburən cəlb edildiyi müharibələr, yaxud planlı şəkildə həyata keçirilən "idarə edilən münaqişələr"dir. Qaçqınlıq və məcburi köçkünlük qlobal problem kimi insanların həyatının yaxşılaşdırılması

---

[370] Курбатов В.И. Курбатова О.В. Социальное проектирование: Учебное пособие. Ростовн/Д: «Феникс», 2001

[371] New UNHCR report says global forced displacement at 18 year high. http://www.unhcr.org.uk/news-and-views/news-list/news-detail/article/new-unhcr-report-says-global-forced-displacement-at-18-year-high.html

[372] New UNHCR report says global forced displacement at 18 year high. http://www.unhcr.org.uk/news-and-views/news-list/news-detail/article/new-unhcr-report-says-global-forced-displacement-at-18-year-high.html

istiqamətində, yəni onların yaşayış yeri, məşğulluq, qidalanmaq, səhiyyə, təhsil və s. ilə bağlı bir çox çətinliklərinin həllini tələb edir. Bu sırada vərdiş etdiyi həyat şəraitini (əsasən də müharibə və münaqişə vəziyyəti ilə əlaqədar) tərk etməli olan insanların psixoloji reabilitasiyaya olan ehtiyacları danılmaz fakt kimi qarşıya çıxır.

Müasir dövrdə qaçqın və məcburi köçkünlərlə bağlı problemlərin həllində bütün dünya dövlətləri, o cümlədən beynəlxalq təşkilatlar da maraqlıdırlar. İkinci Dünya müharibəsindən sonra qaçqınlar və məcburi köçkünlərlə bağlı yaranmış problemlərin həlli məqsədilə 1946-cı ildə Qaçqınlarla İş üzrə Beynəlxalq Təşkilat yaradıldı. Bu təşkilat 1952-ci ildə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı ilə əvəz edildi.[373] Hazırda bu istiqamətdə geniş fəaliyyət göstərən təsisatlar sırasında Beynəlxalq Əmək Təşkilatı, Miqrasiya üzrə Beynəlxalq Təşkilat və başqalarını göstərmək olar. Qeyd edilən beynəlxalq təşkilatlar qaçqınların və məcburi köçkünlərin problemləri ilə bağlı müxtəlif istiqamətli sənədlər qəbul etmişlər. 1951-ci ildə BMT Qaçqınların Statusu haqqında Konvensiya qəbul etmişdi ki, burada əsasən qaçqın statusunu müəyyən edərkən nəzərə alınması zəruri olan amillər qeyd edilirdi. 1966-cı ildə qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı Cenevrədə keçirilən regional konfransda qəbul edilmiş Fəaliyyət Proqramında isə qaçqınlarla yanaşı ölkə daxilində köçürülmüş şəxslərin müdafiəsi və bu sahədə beynəlxalq təşkilatların və dünya ölkələrinin əməkdaşlığı məsələləri geniş şəkildə açıqlanırdı. 1967-ci ildə BMT qaçqınların statusu ilə bağlı protokol qəbul etmişdi. 1997-1998-ci illərdə BMT-nin "İnsan hüquqları, kütləvi tərketmə və yerini dəyişmiş şəxslər" başlıqlı məruzəsi və "Ölkə daxilində yerini dəyişmiş şəxslər üzrə rəhbər müddəaları" hazırlanaraq bütün üzv ölkələrə göndərilmişdi.

XXI əsrdə qaçqınlar və məcburi köçkünlər problemi Azərbaycan Respublikası üçün də aktualdır. Azərbaycan Respublikası 1992-ci ildə BMT-yə üzv olduqdan sonra bu ali qurumun Qaçqınların statusuna dair 1951-ci il Konvensiyasına və

---

[373] Международная Организация по делам беженцев. http://ru.wikipedia. org/wiki/

1967-ci il Protokoluna qoşuldu, 1996-cı ildə Azərbaycan Hökuməti ilə BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı arasında saziş bağlandı. 1998-ci ildə BMT-nin tövsiyəsi nəzərə alınaraq qaçqınların və məcburi köçkünlərin məsələləri ilə bağlı ümumrespublika müşavirəsi keçirildi və həmin il Azərbaycan Respublikasının Prezidenti tərəfindən "Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncam imzalandı. BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının köməyi ilə 1992-ci ildə "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qəbul edilmiş Azərbaycan Respublikasının Qanunu 1999-cu ildə yenidən işləndi və Prezident Heydər Əliyev tərəfindən imzalandı.[374]

Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin nəticəsi olaraq, Azərbaycan 2012-ci il aprelin 26-da BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının İcraiyyə Komitəsinə tamhüquqlu üzv seçilmişdir.[375]

Birləşmiş Millətlər Təşkilatının 1951-ci il Konvensiyana görə, *"qaçqın"* "…irqi, dini və vətəndaşlıq əlamətlərinə, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqib olunmasına tamamilə əsaslandırılmış təhlükə yarandığı üçün vətəndaşı olduğu ölkədən kənara çıxan və bu ölkənin müdafiəsindən istifadə edə bilməyən və ya bu təhlükələr səbəbindən belə müdafiədən istifadə etmək istəməyən; və yaxud müəyyən bir ölkənin vətəndaşlığına malik olmayan və belə hadisələr nəticəsində özünün ilkin adi yaşayış yerinin mənsub olduğu ölkədən kənara çıxan, bu cür təhlükələrin qorxusundan ora qayıda bilməyən və ya qayıtmaq istəməyən" şəxsdir.[376]

Qeyd edildiyi kimi, Azərbaycan Respublikasının 1992-ci il tarixli "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında"

---

374 "Qaçqınlar və məcburi köçkünlərlə sosial iş kursu" üzrə ali təhsil məktəblərində (universitetlərdə və institutlarda) bakalavr hazırlığı üzrə proqram. Tərtib edənlər: M.A.Balayev, A.S.Rüstəmov. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2012, s.9

375 Qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti daha da yaxşılaşdırılır. Nazirlər Kabinetində müşavirə keçirildi. R. Kamalqızı, "Səs" qəzeti, 12 yanvar 2013-cü il, , №5, s.4-11

376 İnsan hüquqları və qaçqınlar. Baki, "İnam" plüralizm mərkəzi, 1999 (Tərcüməçi: Tehran Vəliyev), s.10

Qanunu[377] təkmilləşdirilərək 1999-cu ildə “Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında” başlığı ilə imzalanmışdır. Bu Qanunda qaçqın və məcburi köçkünlərin statusu aşağıdakı kimi müəyyənləşdirilib:

- qaçqın - Azərbaycan Respublikasının vətəndaşı olmayıb, irqi əlamətinə, milliyyətinə, dini etiqadına, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqiblərin qurbanı olmaq barəsində tam əsaslı ehtiyat üzündən vətəndaşı olduğu ölkədən kənarda qalan və eyni ehtiyat üzündən həmin ölkənin himayəsindən istifadə edə bilməyən və ya istifadə etmək istəməyən, yaxud müəyyən vətəndaşlığı olmayıb oxşar hallar nəticəsində əvvəl adətən yaşadığı ölkədən kənarda qalan, ehtiyat üzündən oraya qayıda bilməyən və ya qayıtmaq istəməyən şəxsdir;

- məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) - Azərbaycan Respublikası ərazisində hərbi təcavüz, təbii və texnogen fəlakət nəticəsində daimi yaşayış yerini tərk etməyə məcbur olub başqa yerə köçmüş şəxsdir.[378]

1999-cu ildə “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Qanun qəbul edilmişdir. Bu qanuna görə, “məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər” :

- “Xarici hərbi təcavüz, müəyyən ərazilərin işğalı və ya mütəmadi atəş altında saxlanılması nəticəsində Azərbaycan Respublikası ərazisində daimi yaşayış yerlərini tərk etməyə məcbur olub ölkə hüdudlarında başqa yerə köçmüş şəxslər;

- Ermənistan Respublikasında və başqa dövlətlərdə aparılan etnik təmizləmə nəticəsində daimi yaşayış yerlərini tərk edib Azərbaycan Respublikasına gəlmiş və daimi məskunlaşmamış şəxslər” hesab edilir.[379]

---

[377]“Qaçqınların və məcburi köçkünlərin statusu haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə. 29 sentyabr1992-ci il, № 312. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992, №18, s.43

[378]“Qaçqınların və məcburi köçkünlərin statusu haqqında” Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə. 29 sentyabr1992-ci il, № 312. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992, №18, s.32

[379] “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasinin Qanunu. 21 may 1999-cu il, № 669-IQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №7, 37

Bu gün Azərbaycan qaçqınlar və məcburi köçkünlərin öz doğma yurdlarında yerləşdirilməsi problemi ilə üzləşən ölkələrdəndir. Qeyd edildiyi kimi, Azərbaycanda müasir miqrasiya vəziyyətinin formalaşması Sovet İttifaqının dağılması ilə respublikanın siyasi və iqtisadi həyatında baş verən dəyişikliklərlə bağlı olmuşdur. SSRİ-nin süqutu və 1988-ci ildə Qarabağ münaqişəsinin başlanması, millətlərarası münasibətlərin kəskinləşməsi və Ermənistan tərəfindən Azərbaycanın 20% ərazisinin işğal edilməsi kütləvi daxili və xarici miqrasiyaya səbəb oldu. Azərbaycan postsovet məkanında qaçqınlar və məcburi köçkünlər problemi ilə üzləşən ilk ölkə olmuşdur. Bu dövrdə 59,1%-i Dağlıq Qarabağ və yaxın rayonların ərazilərindən, 12,2%-i Ermənistanla sərhəd ərazilərdən, 23,9%-i Ermənistandan, 4,8%-i Orta Asiya ərazisindən olan 1 milyondan çox qaçqın və məcburi köçkün daimi yaşayış yerini tərk edərək Azərbaycan Respublikasının müxtəlif bölgələrində məskunlaşmalı oldular.[380]

Hal-hazırda ölkədə 1 milyon 200 min nəfər qaçqın və məcburi köçkün vardır ki, bunlardan 250 min nəfəri 1988-1993-cü illərdə Ermənistandan qovulmuş qaçqınlar, 50 min nəfəri 1990-cı ildə Orta Asiyadan didərgin salınmış məshəti türkü qaçqınları və 700 min nəfərədək Ermənistan silahlı qüvvələrinin 1988-1993-cü illərdə ölkəmizə hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağdan, eləcə də ona bitişik olan 7 rayondan, həmçinin Ermənistanla və ya Dağlıq Qarabağla həmsərhəd olan yaşayış məntəqələrindən zorla qovulmuş məcburi köçkünlərdir. Bütün qaçqın və məcburi köçkünlər ölkənin 69 şəhər və rayonunda, 1600-dən çox sıx məskunlaşma obyektində müvəqqəti məskunlaşmışlar.[381]

Bu gün Azərbaycan Hökuməti Dağlıq Qarabağ münqaişəsinin həlli istiqamətində davamlı iş aparmaqla yanaşı, qaçqın və məcburi köçkünlərin problemlərinin həllini dövlətin sosial siyasətinin əsas

---

[380] Рагимова З. и Мамедова М. "Миграционная ситуация в Азербайджане". Международная миграция населения на постсоветском пространстве: двадцать лет удач, ошибок и надеж., Научная серия "Международная миграция населения: Россия и современный мир", Выпуск 25, М.: Верди, 2011, стр. 90-102

[381] Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

istiqaməti kimi müəyyənləşdirib. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı əsaslı tədbirlər həyata keçirir. 1999-cu iildə qəbul edilmiş "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda "məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi tədbirləri" aşağıdakı kimi müəyyənləşdirilib:

- müvəqqəti yaşayış sahəsi ilə təmin edilməsi;
- məşğulluğun təmin edilməsi;
- sosial təminat;
- tibbi təminat;
- təhsil hüququnun təmin edilməsi;
- nəqliyyat, mənzil-kommunal və digər güzəştləri".

Qanunda o da qeyd edilib ki, "Azərbaycan Respublikasının qanunvericiliyi ilə məcburi köçkünlərə digər sosial müdafiə tədbirləri də müəyyən edilə bilər".[382]

Azərbaycan Hökuməti 2004-cü ildə *"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"*[383] *və Tədbirlər Planı qəbul etmişdir. Proqramda əsasən "*Ermənistanın Azərbaycan Respublikasına hərbi təcavüzü nəticəsində öz doğma torpaqlarından qovulmuş və didərgin salınmış insanların taleyi, onların mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi" məsələlərinin "daim dövlətin diqqət mərkəzində" olması vurğulanır və qeyd edilir ki, bilavasitə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun, dövlət büdcəsinin, donor dövlətlərin və beynəlxalq humanitar təşkilatların vəsaiti hesabına on minlərlə ailə üçün yeni qəsəbələr salınmış, ayrı-ayrı şəhər və rayonlarda müasir tipli evlər və mənzillər tikilib qaçqınların və məcburi köçkünlərin

---

[382] "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin Qanunu. 21 may 1999-cu il, № 669-IQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №7, 37

[383] "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında. 01 iyul .2004-cü il, № 298. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2004, N7, s.33

istifadəsinə verilmiş, onların sosial müdafiəsi ilə bağlı çoxsaylı humanitar layihələr və digər tədbirlər həyata keçirilmişdir*”*.[384]

Onu da qeyd etmək lazımdır ki, hər il dövlət büdcəsinin müəyyən faizi bilavasitə qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli məqsədi ilə ayrılır. Belə ki, 2001-ci ildə bu məqsədlə dövlət büdcəsindən 954,9 milyon manat[385], 2002-ci ildə 1184,7 milyon manat (3, s.132)[386], 2003-cü ildə 1389,5 milyon manat (4, s.143) [387] ayrılıb. 2005-ci ildə Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə (qaçqınların və məcburi köçkünlərin yemək və məskunlaşdırılması xərcləri) büdcədən ayrılan pul 374 225,6 milyon manat[388], 2006-cı ildə 86 591 354,0 manat[389], 2007-ci ildə - 889 474,0 manat[390], 2009-cu ildə 1 322 079,0 manat[391], 2010-cu

---

[384]Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

[385] “Azərbaycan Respublikasının 2001-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 28 noyabr 2000-ci il, № 422. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2002,12. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,11, s.122

[386] “Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 dekabr 2001-ci il, № 612. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001,12, S.132

[387] “Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 26 dekabr 2002-ci il, № 827. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2002,12, S.143

[388] “Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 2004-cü il, № 161. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2004,12, S.135

[389] “Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 16 noyabr 2005-ci il, № 311. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2005, 11, S.147

[390]“Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 dekabr 2006-cı il, № 494. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2006, 12, S.125

ildə 182 278 354,0 manat[392], 2012-ci ildə 200,9 milyon manat olub.[393]

2012-ci ildə qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi məqsədilə dövlət büdcəsindən ayrılan vəsaitlərin aşağıdakı istiqamətlər üzrə istifadəsi nəzərdə tutulmuşdu:

- Məcburi köçkünlərə adambaşına yemək xərci üçün verilən aylıq müavinətlərin ödənilməsinə 99 milyon manat;

- Məskunlaşmamış qaçqın və məcburi köçkünlərin kommunal xidmət haqlarının büdcə vəsaitləri hesabına kompensasiyasına 95,6 milyon manat. Həmin xidmətlər üzrə büdcə ayırmalarının proqnozlaşdırılan məbləği aşağıdakı kimidir:

- Elektrik enerjisi haqlarının ödənilməsi – 61,1 milyon manat;

- Qaz haqqının ödənilməsi - 14 milyon manat;

- Su və kanalizasiya haqqının ödənilməsi – 11,6 milyon manat;

- İstilik enerjisi haqqının ödənilməsi – 7 milyon manat.[394]

Qaçqınlar və Məcburi Köçkünlərlə İş üzrə Dövlət Komitəsinin sədri Ə.Həsənov "2004-2012-ci illər ərzində qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün 2,8 milyard manat həcmində vəsait, o cümlədən 1,481 milyard manat dövlət büdcəsindən, 1,099 milyard manat Dövlət Neft Fondundan, 219 milyon manat isə beynəlxalq humanitar təşkilatlar tərəfindən xərcləndiyini bildirmişdir. Hazırda fəaliyyətləri Beynəlxalq Humanitar Yardım üzrə Respublika Komissiyası tərəfindən

---

391 "Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 10 dekabr 2008-ci il, № 37. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2008,12, S.154

392 "Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 21 dekabr 2009-cu il, № 187. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2009,12, S.133

393 İnsan hüquqları və qaçqınlar. Baki, "İnam" plüralizm mərkəzi, 1999 (Tərcüməçi: Tehran Vəliyev), s.10

394 Vətəndaşın büdcə bələdçisi. Bakı: "ANS Press" mətbəəsi, 2012, s.42

əlaqələndirilən 49 beynəlxalq, 43 yerli humanitar təşkilatın xətti ilə müxtəlif layihələr həyata keçirilir”.[395]

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 26 fevral 2013-cü il tarixli Sərəncamına əsasən “Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinə Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 14 (on dörd) milyon manat vəsait” ayrılmışdır.[396] 2016-cı ildə bir nəfər məcburi köçkünə xərclənən vəsaitin həcmi təxminən 750 manat təşkil etmişdir ki, bu da dünyanın digər münaqişə zonaları ilə müqayisədə ən yüksək göstəricidir.[397]

Məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı həyata keçirilən əsas tədbirlərdən biri də onların mənzillərlə təmin edilməsidir. Dünya Bankının məlumatına görə, Azərbaycanda 595,000 insan (və ya ümumi əhalinin təxminən 7 %-i) məcburi (ölkə daxili) köçkündür. 2007-ci ilin sonunda Azərbaycan sonuncu məcburi köçkün düşərgələrini bağladı və ən ağır şəraitdə yaşayan təxminən 100,000 məcburi köçkünün xüsusi inşa edilmiş qəsəbələrə köçürülməsini başa çatdırdı. Rəsmi statistik məlumatlara əsasən, Azərbaycandakı məcburi köçkünlərin 86 %-i şəhərlərdə, əsasən Bakı və Sumqayıtda yaşayır. Məcburi köçkünlərin təxminən 35 %-i yeni tikilmiş qəsəbələrdə məskunlaşıb və 10 %-dən az hissəsi isə onlara məxsus olan və ya olmayan evlərdə və ya mənzillərdə yaşayır.[398]

---

[395] Qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti daha da yaxşılaşdırılır. Nazirlər Kabinetində müşavirə keçirildi. R. Kamalqızı, “Səs” qəzeti, 1yanvar 2013-cü il, , №5, s.4

[396] İnsan hüquqları və qaçqınlar. Baki, “İnam” plüralizm mərkəzi, 1999 (Tərcüməçi: Tehran Vəliyev), s.12

[397] PREZİDENTİN PROBLEMƏ MÜNASİBƏTİ. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli dövlətin daim diqqət mərkəzində olmuşdur.http://www.refugees-idps-committee.gov.az/az/pages/3.html

[398] Qureyeva-Əliyeva Y., Hüseynov T. “İyirmi il məcburi köçkünmü olar?” Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarına və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu London İqtisadiyyat İnstitutunun məcburi köçkünlük üzrə birgə layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr 2001-ci il, s.6-7, 13-18, 23-25

Azərbaycan Respublikasının Qaçqınların və məcburi köçkünlərin işləri üzrə Dövlət Komitəsinin məlumatlarına görə “2001-2010-cu illər ərzində qaçqın və məcburi köçkünlərin yaşayış vəziyyətinin yaxşılaşdırılması istiqamətində onların müvəqqəti məskunlaşması üçün 20 min ailəlik 67 yeni qəsəbə və fərdi evlər tikilərək onların istifadəsinə verilmişdir. Bununla belə, hazırda məcburi köçkünlərin 50 min nəfəri yataqxanalarda, 25550 mini fin evlərdə, qalanlar isə ictimai binalarda, tikintisi yarımçıq qalmış binalarda, sanatoriya, pansionat və sair kommunal şəraiti olmayan sanitar normalara cavab verməyən yerlərdə çox ağır, olduqca dözülməz bir şəraitdə yaşayırlar”.[399]

2011-ci ilin oktyabr ayına olan məlumata əsasən, Azərbaycanda 21 600 ailədən (107,000 insan) ibarət olan ikinci ən böyük məcburi köçkün qrupu, əsasən, kənd yerlərində inşa edilmiş və bəziləri tərəfindən ucqar və ya təcrid olunmuş kimi təsvir edilən xüsusi təyinatlı evlərə köçürülmüşlər. Bəzi məcburi köçkünlər özlərinə evlər tikdiriblər, lakin onların çoxu məskunlaşdıqları yerlərdə rəsmi məcburi köçkün statusunu və bununla əlaqədar olan bütün sosial imtiyazları qoruyub saxlamaq üçün bu evləri qohumlarının adına sənədləşdiriblər.[400]

2012-ci ildə 4553 ailə və ya 22765 nəfər məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.[401] 26 fevral 2013-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Sərəncam imzalanmışdır. Burada “məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsi

---

[399]Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

[400] Qureyeva-Əliyeva Y. və Hüseynov T. “İyirmi il məcburi köçkünmü olar?” Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu və London İqtisadiyyat İnstitutunun məcburi köçkünlük üzrə birgə layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr 2011-ci il, s. 6, 7, 13-18, s. 23-25

[401]Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

sahəsində görülən işlərin davam etdirilməsi"nin əsas məqsəd olduğu göstərilir.[402]

Ümumiyyətlə, 2001-2016-cı illər ərzində Dövlət Neft Fondundan və digər mənbələrdən ayrılmış vəsait hesabına 3,2 milyon kvadrat metr sahəsi olan, bütün sosial-texniki infrastruktura malik 95 müasir qəsəbə salınmış, 50 min ailə və ya 250 min nəfər qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırılmışdır.Yeni salınmış yaşayış məntəqələrində 150 məktəb, 6 musiqi məktəbi, 59 uşaq bağçası, 58 tibb məntəqəsi, 50 mədəniyyət mərkəzi, 2 olimpiya İdman kompleksi tikilmiş, 718 kilometr yol, 960 kilometr su, 1605 kilometr hava elektrik, 442 kilometr qaz xətti çəkilmiş, 830 ədəd müxtəlif gücə malik elektrik transformatoru quraşdırılmışdır.Qaçqın və məcburi köçkünlərin sosial problemlərinin həlli üçün son 21 ildə 6,2 milyard manat vəsait sərf edilmişdir.[403]

Azərbaycan hökumətinin qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi istiqamətində həyata keçirdiyi siyasətin əsas hissəsi həm də əhalinin bu qrupunun məşğulluq problemləri ilə bağlıdır. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatlarına əsasən, "Hal-hazırda Azərbaycan Respublikasının ərazisində 378 min 505 nəfər əmək qabiliyyətli məcburi köçkündən 35 min 872 nəfər işsizdir. İş yerlərinin azlığından, maddi vəsait olmadığından yeni iş yerlərinin yaranması sahəsində problemlərin mövcudluğu, aqrar sənayedə görülən işlərə baxmayaraq işsizlik probleminin tamamilə aradan qaldırılması bir sıra maneələrlə üzləşir".

Qaçqınların və məcburi köçkünlərin işlə təmin olunması məqsədilə dövlət tərəfindən bir sıra tədbirlər həyata keçirilir. Belə ki, onların bir qisminə işsizlik statusu və işsizlik müavinəti verilib, bir qismi ünvanlı sosial yardım alır, digər qismi haqqı ödənilən

---

[402] "Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://www.president.az/articles/7446

[403] Prezidentin Problemə Münasibəti. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli dövlətin daim diqqət mərkəzində olmuşdur.http://www.refugees-idps-committee.gov.az/az/pages/3.html

ictimai işlərə cəlb edilir, yaxud peşə-hazırlıq kurslarına göndərilir. 2001-2010-cu illərdə 286 min 739 nəfər qaçqın və məcburi köçkün işlə təmin olunmuş, 3134 nəfər işsizlik statusu almış, 803 nəfərə işsizlik müavinəti verilmiş, 1498 nəfər haqqı ödənilən ictimai işlərə cəlb olunmuş, 1946 nəfər isə peşə-hazırlıq kurslarına göndərilmişdir.

2012-ci ildə 63% əmək qabiliyyətli məcburi köçkündən 52% kişilər (197 322 nəfər) və 48% qadınlar (181 183 nəfər) işlə təmin edilmişdir ki, bunlardan da 42% (160 895 nəfər) daimi, 48 % (181 738 nəfər) isə mövsümü işlərə cəlb olunmuşlar.[404] 2016-cı ildə Sıx müvəqqəti məskunlaşma yerlərində 126 məcburi köçkün daimi, 400 nəfər isə mövsümi işlə təmin edilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və onun struktur bölmələri ilə qarşılıqlı fəaliyyət nəticəsində 1426 nəfər daimi işlə təmin olunmuş, 383 nəfərə işsiz statusu verilmiş, 422 nəfərə işsizlik müavinəti təyin edilmişdir. 310 nəfər əmək bazarının müasir tələbləri əsasında peşə hazırlığı kurslarına və 203 nəfər isə ictimai işlərə cəlb olunmuşdur.[405]

Ümumilikdə, 2016-cı ildə əməkqabiliyyətli 380 min məcburi köçkündən 161 min nəfəri daimi işlə təmin edilmiş, 200 min nəfəri isə mövsümi işlərə cəlb edilmişdir.[406]

Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 1 iyul tarixli 298 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın və ona Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 31 oktyabr tarixli 2475 nömrəli Sərəncamı ilə təsdiq edilmiş əlavələrin icrası nəticəsində məcburi köçkünlər arasında yoxsulluq həddi 75%-dən 23%-ə enmişdir.Azərbaycan RespublikasıNazirlər Kabinetinin

---

[404]Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

[405]Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən 2016-cı il ərzində görülmüş işlər barədə Məlumat.http://www.refugees-idps-committee.gov.az/az/pages/26.html

[406]PREZİDENTİN PROBLEMƏ MÜNASİBƏTİ. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli dövlətin daim diqqət mərkəzində olmuşdur.http://www.refugees-idps-committee.gov.az/az/pages/3.html

2000-ci il 6 noyabr tarixli 204 nömrəli "Kənd təsərrüfatı ilə məşğul olmaq üçün məcburi köçkünlərə kreditlərin verilməsi Qaydalarının və şərtlərinin təsdiq edilməsi haqqında" qərarına uyğun olaraq 2001-2002-ci illərdə büdcədən ayrılmış 2 milyard manat vəsait hesabına 1000 nəfərdən çox məcburi köçkünə kənd təsərrüfatı ilə məşğul olmaq üçün mikrokreditlər verilmişdir. Ötən müddət ərzində MKSİF tərəfindən 950 məcburi köçkün ailəsinə 2,5 mld. manat, Sahibkarlığa Yardım Milli Fondu tərəfindən isə 150 ailəyə 3,4 mld. manat kredit verilmişdir.[407]

Aparılan uğurlu sosial siyasət nəticəsində qaçqın və məcburi köçkünlər arasında yoxsulluq həddi 2006-cı ildə 75 % olduğu halda 2012-ci ilin sonuna bu rəqəm 15 %-ə enmişdir. [408] Məcburi köçkünlər arasında yoxsulluq həddi son 13 ildə (2003 – 2016-cı illər) 75 faizdən 12 faizədək azalmışdır.[409]

Azərbaycan hökumətinin qaçqınlar və məcburi köçkünlərin sosial müdafiəsi istiqamətində həyata keçirdiyi əsas tədbirlərdən biri də bu qrupa aid olan insanların tibbi təminatı ilə bağlıdır. Belə ki, "Əhalinin sağlamlığının qorunması haqqında" Qanunun 10-cu maddəsində göstərildiyi kimi: "Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə tibbi yardım (o cümlədən ixtisaslaşdırılmış tibbi yardım) dövlət tibb müəssisələrində müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş həcmdə dövlət büdcəsinin vəsaiti hesabına göstərilir".[410]

Digər tərəfdən, "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Qanunun məcburi köçkünlərin tibbi təminatı ilə bağlı 10-cu maddəsində göstərilir ki,

---

[407]Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

[408]Qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti daha da yaxşılaşdırılır. Nazirlər Kabinetində müşavirə keçirildi. R. Kamalqızı, "Səs" qəzeti, 12 yanvar 2013-cü il, , №5, s.4

[409] Prezidentin Problemə Münasibəti. Qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli dövlətin daim diqqət mərkəzində olmuşdur.http://www.refugees-idps-committee.gov.az/az/pages/3.html

[410]Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. 26 iyun 1997-ci il, №360-IQ. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1997, 6

"Məcburi köçkünlərə tibbi xidmət bilavasitə məskunlaşdıqları ərazidə yerləşən tibb müəssisələri tərəfindən göstərilir. Yaşayış məntəqələrindən kənarda yaradılmış düşərgələrdə məskunlaşmış məcburi köçkünlərə tibbi xidmət müvafiq icra hakimiyyəti orqanı tərəfindən təşkil edilir.
Məcburi köçkünlər dövlət tibb müəssisələrində birinci növbədə yerləşdirilirlər və tibbi xidmətin bütün növlərindən pulsuz istifadə edirlər. Məcburi köçkünlər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada dərman preparatları ilə pulsuz təmin edilirlər".[411]

Azərbaycan Respublikasında qaçqın və məcburi köçkünlərin səhiyyə xidmətlərindən istifadəsi imkanlarını və səviyyəsini öyrənmək məqsədilə 2011-ci ildə Dünya Bankının apardığı tədqiqatın nəticələri ilə bağlı təqdim edilmiş hesabatda verilən məlumatlara əsasən "əksəriyyətini məcburi köçkünlər təşkil edən böyük icmalar öz doğma torpaqlarında mövcud olmuş poliklinika və məktəblərin təşkilati strukturunu qoruyub saxlayıblar. Bu cür poliklinika və məktəblər çox vaxt yerli poliklinika və ya məktəblərdə onlar üçün ayrılmış bölmələrdə fəaliyyət göstərir. Yeni salınmış məcburi köçkün qəsəbələrində hökumət onları digər sosial müəssisələr kimi yeni binalarla təmin etmişdir. Məcburi köçkünlərə xidmət göstərən bu müəssisələrdə çalışan işçilərin böyük əksəriyyəti məcburi köçkünlərdir, çünki iş üçün müraciət etdikdə onlara münasibətdə imtiyazlı yanaşma tətbiq olunur. Məcburi köçkünlərin ehtiyaclarının qarşılanması üçün xidmət göstərən ayrıca təhsil və səhiyyə müəssisələrinin qorunub saxlanılması hökumətin gələcəkdə məcburi köçkünlərin qayıdış prosesini asanlaşdırmağa yönəlmiş siyasətinin tərkib hissəsidir". Tədqiqatın nəticələri göstərmişdir ki, "məcburi köçkünlər, o cümlədən kənd yerlərində yaşayan ən kasıb və ən müdafiəsiz kiçik icmalar qanunun tələbinə baxmayaraq tibbi xidmətə görə qeyri-rəsmi formada ödəniş edirlər, məcburi köçkünlərin ölkədə mövcud olan digər səhiyyə müəssisələrinin xidmətlərindən istifadə etmələrinə heç bir

---

[411] "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasinin Qanunu. 21 may 1999-cu il, № 669-IQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 7, s.72

məhdudiyyət yoxdur; bu baxımdan onlar qeyri-məcburi köçkün əhali ilə eyni imkanlara malikdirlər. Səhiyyə müəssisələrinə çıxış imkanları baxımından şəhərlərdə yaşayan məcburi köçkün və yerli sakinlərin vəziyyəti kəndlərdə və kiçik məcburi köçkün icmalarında və ya digər ucqar ərazilərdə yaşayanlarla müqayisədə daha yaxşıdır”.[412]

Qaçqın və məcburi köçkünlərin səhiyyə xidmətlərinin yaxşılaşdırılması məqsədilə 2001–2012-ci illərdə onların məskunlaşdığı yeni yaşayış məntəqələrində 51 tibb məntəqəsi istifadəyə verilmişdir.[413]

Azərbaycan Respublikasının qaçqın və məcburi köçkünlərin sosial problemləri istiqamətində həyata keçirdiyi tədbirlərdən biri də təhsil siyasəti ilə bağlıdır. “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Qanunun 11-ci maddəsində göstərildiyi kimi: “Yaşayış məntəqələrindən kənarda yaradılmış düşərgələrdə məskunlaşmış məcburi köçkün uşaqlarının məktəbəqədər və ümumi orta təhsili müvafiq icra hakimiyyəti orqanı tərəfindən təhsil standartlarına uyğun olaraq təşkil edilir. Ümumtəhsil məktəblərində oxuyan məcburi köçkün uşaqlar dərsliklərlə və dərs ləvazimatı ilə pulsuz təmin olunurlar. Dövlət ali və orta peşə-ixtisas təhsili müəssisələrində ödənişli formada təhsil alan məcburi köçkünlər təhsil haqqını ödəməkdən azaddırlar. Qeyri-dövlət ali və orta peşə-ixtisas təhsili müəssisələri məcburi köçkün tələbələrin normal təhsili üçün müəyyən güzəştlər edə bilərlər”.[414]

---

[412] Qureyeva-Əliyeva Y. və Hüseynov T. “İyirmi il məcburi köçkünmü olar?” Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu və London İqtisadiyyat İnstitutunun məcburi köçkünlük üzrə birgə layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr 2011-ci il, s. 6, 7, 13-18, s. 23-25

[413] Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. 26 iyun 1997-ci il, №360-IQ. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1997, 6, s.57

[414] İnsan hüquqları və qaçqınlar. Baki, “İnam” plüralizm mərkəzi, 1999 (Tərcüməçi: Tehran Vəliyev), s.10

BMT-nin məlumatlarına əsasən, dünya üzrə qaçqınların 46%-i 18 yaşına çatmamış uşaqlardır.[415] Azərbaycanda qaçqın statusu ilə yaşayan uşaqların sayı 300 min nəfərə qədərdir.[416] Statistik göstəricilərə görə, qaçqın və məcburi köçkün uşaqların 86.000-dən çoxu məktəbəqədər yaş həddində, 98.000 nəfərdən çoxu isə məktəblidir. Uşaqların məktəbə cəlb edilməsi məqsədi ilə 703 məktəb təşkil olunmuşdur. Bunların bəziləri vaqonlarda, qurma evlərdə, qeyri-münasib obyektlərdə fəaliyyət göstərir.[417]

Qanunda göstərildiyi kimi, Azərbaycan hökuməti qaçqın və məcburi köçkün uşaqların təhsil alması üçün lazımi şəraitin yaradılmasında maraqlıdır və bu qrupa aid olan uşaqların pulsuz dərs ləvazimatları ilə təchiz edilməsinə şərait yaradır. Tədrisin yaxşılaşdırılması məqsədilə 2001-2012-ci illər ərzində qaçqın və məcburi köçkünlərin yeni yaşayış məntəqələrində 134 məktəb, 5 musiqi məktəbi, 48 uşaq bağçası salınmışdır.[418]

Dünya Bankının araşdırmalarına görə, məcburi köçkünlərin yerli məktəblərdə təhsil almalarına heç bir məhdudiyyət yoxdur. Əksər məcburi köçkünlər övladlarının təhsil səviyyəsinin qaneedici olduğunu ifadə etmişlər. Bəziləri hətta onların məktəblərindəki təhsil səviyyəsinin yerli məktəblərdəki təhsil səviyyəsindən daha yaxşı olduğunu iddia etmişdir. Məsələn, Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin rəsmisi qeyd edib ki, 2011-ci ildə Qubadlı məktəblərinin məzunları arasında universitetlərə qəbul göstəricisi 41 faiz təşkil etmişdir.

Məlumdur ki, orta təhsildən sonra ali təhsil almaq imkanları getdikcə çətinləşir  Belə ki, kasıb əhali övladlarının universitetlərdə təhsil ala bilmələrini təmin etməkdə çətinlik çəkirlər. Bununla belə, Tələbə Qəbulu üzrə Dövlət Komitəsinin sədri öz müsahibələrinin

---

415 New UNHCR report says global forced displacement  at 18 year high. http://www.unhcr.org.uk/news-and-views/news-list/news-detail/article/new-unhcr-report-says-global-forced-displacement-at-18-year-high.html

416 Dövlət sektoru və beynəlxalq təşkilatlar. Dövlət Neft Fondu. http://www.refugees-idps-committee.gov.az/

417 Məcburi köçkün qadın və uşaqların hüquqi vəziyyətinə dair təhlil. "PRAKSİS" Sosial İnkişafa Dəstək İctimai Birliyi. Bakı, 2007, s.5

418 Həsənov Ə.: "Torpaqların boşaldılması Füzuli rayonundan başlanmalıdır". "525-ci qəzet". 2010, 22 aprel, N.70, s.1, 5

birində qeyd etmişdir ki, universitetlərə müraciət edən məcburi köçkün məzunların sayı getdikcə artır və son illər onların qəbul imtahanlarında yığdıqları balların sayında da artım müşahidə edilmişdir. Dövlət ali təhsil müəssisələrində təhsil alan məcburi köçkün tələbələr təhsil haqqından azaddırlar. Özəl ali təhsil müəssisələrində isə məcburi köçkünlər üçün təhsil haqlarının azaldılması nəzərdə tutulmur.[419]

Bu gün Azərbaycan hökuməti sosial inkişaf sahəsində zaman-məkan, sosial reallıq amillərini nəzərə alan sosial siyasət həyata keçirir. Qəbul edilən dövlət proqramlarında ölkənin xüsusi vəziyyəti – müharibə şəraiti və qaçqın və məcburi köçkünlərlə bağlı məsələlər xüsusilə nəzərə alınır. Azərbaycan dövlətinin qəbul etdiyi inkişaf proqramları yalnız cari sosial inkişaf imkanlarını deyil, həm də inkişafın gələcək istiqamətlərinin müəyyənləşdirilməsinə yönəlib. Bu baxımdan "Azərbaycan - 2020: gələcəyə baxş" inkişaf konsepsiyasında qaçqın və "məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sıx məskunlaşdığı məkanlarda sosial infrastrukturun təkmilləşdirilməsi, həmçinin məşğulluğun artırılması məqsədi ilə yeni iş yerlərinin yaradılması, mikrokreditlərin verilməsi, məcburi köçkün gənclərin dəstəklənməsi, peşə təlimi və s. kimi tədbirlərlə yanaşı, icmaların inkişafı, təhsil, səhiyyə proqramlarının genişləndirilməsi, yararsız binalarda fəaliyyət göstərən təhsil, səhiyyə müəssisələri üçün yeni binaların tikintisi və müvafiq avadanlıqlarla təchiz edilməsi" məsələlərinin həyata keçirilməsi, həmçinin "Beynəlxalq maliyyə qurumları, BMT-nin agentlikləri, xüsusən BMT-nin QAK-la və digər beynəlxalq humanitar yardım təşkilatları ilə birlikdə Böyük Repatriasiya ("Böyük Qayıdış") proqramının" hazırlanması nəzərdə tutulur.[420]

---

[419] Qureyeva-Əliyeva Y. və Hüseynov T. "İyirmi il məcburi köçkünmü olar?" Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu və London İqtisadiyyat İnstitutunun məcburi köçkünlük üzrə birgə layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr 2011-ci il, s. 6, 7, 13-18, s. 23-25

[420] "Azərbaycan - 2020: gələcəyə baxış" inkişaf konsepsiyasıhttp://azertag.com/sites/default/files/Bolmeler/inkishaf-konsepsiyasi_2020.pdf.

Qaçqınların və məcburi köçkünlərin işi üzrə Dövlət Komitəsinin məlumatına əsasən «Böyük Repatriasiya (Böyük Qayıdış)» proqramının layihəsinin hazırlanması ilə bağlı 32 dövlət orqanından və 14 beynəlxalq təşkilatdan müvafiq təkliflər alınmışdır”.[421]

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənovun qeyd etdiyi kimi münaqişə nəticəsində ölkəmizə dəyən "ümumi ziyan 60 milyard dollardan çoxdur". Böyük qayıdış" proqramına əsasən işğal edilmiş ərazilər "mərhələli şəkildə boşaldıldıqca, bərpa prosesi aşağıdakı ardıcıllıqla, mərhələlərlə aparılacaq:

- minadan təmizləmə əməliyyatları;
- rayonlar üzrə ayrı-ayrılıqda dəymiş ziyanın və aparılacaq bərpa işlərinin yenidən qiymətləndirilməsi;
- üçüncü mərhələdə infrastrukturun – yol, kommunikasiya qurğularının və s. bərpası, sonra isə yeni qəsəbələrin tikintisi başlanacaq.
- Qəsəbələrin tikintisi başa çatdıqdan sonra məcburi köçkünlərin qaytarılması prosesi nəzərdə tutulur.
- Sonuncu mərhələdə isə yeni iş yerlərinin yaradılması həyata keçiriləcək".[422]

Azərbaycanın işğaldan zərər çəkmiş əraziləri, Naxçıvan Muxtar Respublikası da daxil olmaqla, Ermənistanla bütün sərhədboyu uzanır. Buraya 45-i şəhər statusuna malik olmaqla, 1765 yaşayış məntəqəsi daxildir. Bilavasitə, yaxud dolayı yolla zərərçəkmiş 772 yaşayış məntəqəsi hal-hazırda Azərbaycanın nəzarəti altındadır, 993-ü isə işğal altındakı ərazilərində qalmaqdadır. Münaqişənin tənzimlənməsi üzrə yekun qərarlar verildikdən sonra Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonlarından savayı Keçmiş DQMV-nin inzibati sərhədləri daxilində yerləşən daha dörd rayon (Ağdam, Xocalı, Xocavənd və Şuşa) və bir şəhər (Xankəndi), bunlardan

---

[421] Bərpa və Repatriasiya («Böyük Qayıdış») Proqramı Məcburi köçkünlərin repatriasiyası. http://www.refugees-idps-committee.gov.az/az/pages/21.html

[422] Həsənov Ə.: "Torpaqların boşaldılması Füzuli rayonundan başlanmalıdır". "525-ci qəzet". 2010, 22 aprel, N.70, s.1, 5

başqa Qazax rayonu, habelə Qazax və Sədərək rayonlarının Ermənistan ərazisində yerləşən üç anklav bölgəsi konflikt sonrası ərazilər hesab olunacaqdır.

Post-konflikt ərazilərin bərpasına yönəldiləcək dövlət xərcləri inflyasiya amili nəzərə alınmaqla 22,7 mlrd. manat, və ya 28,4 mlrd. ABŞ dolları təşkil edəcəkdir. Bütün gözlənilən xərclərin 58,0%-i həyat təminatı sistemlərinin bərpasının, 39,4%-i infrastrukturun yenidən tikilib-qurulmasının və cəmi 2,6%-i post-konflikt rayonlarda iqtisadiyyatın dirçəldilməsinin payına düşür.[423]

BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının məlumatına əsasən, Azərbaycanda mövcud olan 1,468 milyon qaçqın BMT tərəfindən yardım almışdır. Azərbaycandakı qaçqınların 135 nəfəri BMT-dən sığınacaq istəmişdir. Qaçqınların 600,336 nəfəri BMT tərəfindən müdafiə, yaxud yardım almışdır .

Cədvəl 1. Azərbaycanda qaçqınların vəziyyəti.[424]

| Ölkə /sığınacaq ərazi | Qaçqınlar | Qaçqınlığa bənzər vəziyyətdə olan insanlar | Ümumi qaçqınlar və qaçqınlığa bənzər vəziyyətdə olanlar | Sığınacaq axtaran şəxslər (bəzi hallarda gözləyən) | BMT-nin QAK yardım göstərdiyi şəxslər | BMT QAK-ın Məcburi köçkünlərə və məcburi köçkün vəziyyətində olan insanlara daxil yardımı | Qaygı göstərilən bütün qaçqınlar |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 1,468 | - | 1,468 | 1,468 | 135 | 600,336 | 605,524 |

Bu gün Azərbaycan hökuməti ümummilli problemimiz olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və nəticələrinin aradan qaldırılması istiqamətində geniş iş aparır. Bir tərəfdən dünya ölkələrinin bu münaqişəyə düzgün münasibətinin formalaşdırılması, 1 milyondan artıq qaçqın və məcburi köçkünün

---

[423] Müzəffərli N., İsmayılov E. "Azərbaycanın post-konflikt ərazilərinin bərpası. Konseptual əsaslar", "Qafqaz", Bakı, 2012, s.50, 265

[424] UNHCR 2012 refugee statistics: full data. http://www.guardian.co.uk/news/datablog/2013/jun/19/refugees-unhcr-statistics-data

insan hüquqlarının bərpa olunması, digər tərəfdən isə işğal olunmuş ərazilərimizin geri qaytarılması Azərbaycan dövlətinin yürütdüyü siyasətin əsas məğzini təşkil edir.

Azərbaycan hökumətinin həyata keçirdiyi sosial siyasətin əsas istiqamətlərindən olan qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi ilə bağlı tədbirlər qlobal problemə çevrilmiş bu məsələnin aradan qaldırılmasında nümunə kimi istifadə edilə bilər. Belə ki, ölkə prezidenti tərəfindən həyata keçirilən siyasət həm yerli, həm də beynəlxalq təşkilatların qaçqın və məcburi köçkünlərin probleminə daha həssas yanaşmasına səbəb olub. BMT və Dünya Bankı kimi bir sıra beynəlxalq təşkilatlar bu qrup insanların sosial müdafiəsi istiqamətində kömək göstərməyə çalışırlar.

Azərbaycan ərazilərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalı ilə əlaqədar BMT Təhlükəsizlik Şurası 7 Bəyanat və 4 qətnamə qəbul etmişdir. Lakin Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək, münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunması mövqeyini seçdilər. AŞ PA-nın 2001 – 2010-cu illər arasında keçirilən çoxsaylı plenar sessiyalarında və ayrı-ayrı tədbirlərində Azərbaycan nümayəndəsi Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinin bu və ya digər aspektini əks etdirən onlarla mühüm sənəd yaymışdır. Buna baxmayaraq, Avropa Şurası hələ də Ermənistanı işğalçı dövlət kimi qəbul etməmişdir.

2003- 2010-cu illərdə prezident İlham Əliyev Ermənistan prezidentləri ilə təkbətək, ATƏT-in Minsk qrupunun həmsədrləri, yaxud Rusiya prezidentinin iştirakı ilə 20-dən artıq görüş keçirmiş, Dağlıq Qarabağ münaqişəsinin həlli və Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə bağlı məsələləri müzakirə etmişdir.[425]

Lakin göründüyü kimi ATƏT kimi siyasi təşkilatlar Azərbaycanda qaçqın və məcburi köçkünlərin probleminə ciddi yanaşmır, onların öz doğma yurdlarına qaytarılması üçün işğal

[425] Həsənov Ə. "Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti", "Letterpress" nəşriyyat evi, Bakı, 2011, s.320, 324

edilmiş 20% torpaqlarımızın qaytarılmasında maraqlı olmadıqlarını nümayiş etdirirlər.

# NƏTİCƏ

Bəşəriyyətin müasir inkişafı sosial tərəqqinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi zərurətini yaradır. Hazırda dünyanı əhatə edən sosial, iqtisadi, mənəvi-mədəni böhran vəziyyətindən çıxış yollarının axtarışı ölkəmizdə və dünyada yeni ictimai-siyasi idarəetmə forması olan sosial dövlətin inkişafı xüsusiyyətlərinin müəyyənləşdirilməsi problemini aktuallaşdırır. Sosial dövlət inkişaf etmiş dövlətin müasir forması kimi vətəndaşların yüksək səviyyəli sosial müdafiəsinin təşkilinə yönəlir. Sosial dövlətdə hökumət fəal şəkildə sosial, iqtisadi və digər sahələrin idarə edilməsi prosesində iştirak edir, cəmiyyətdə sosial ədalətin bərqərar olmasına çalışır. Sosial dövlət sosial institutların qarşılıqlı münasibətlərinin tənzimlənməsinə, ümumi məqsədlər istiqamətində qarşılıqlı fəaliyyətin formalaşmasına çalışır. Hazırda ilkin inkişaf mərhələsində olan sosial dövlət quruluşunun tədqiqi xüsusi əhəmiyyət kəsb edir.

Müasir sivilizasiyanın yeni inkişaf mərhələsi olan sosial dövlətin əsas mahiyyəti əldə edilmiş elmi, texniki, mədəni və digər nailiyyətlərin insanların rifah halının yüksəldilməsinə yönəldilməsi ilə bağlıdır. Sosial dövlətin inkişafı tendensiyası ayrı-ayrı ölkələrdə əhalinin sosial təminatı, gəlirlərin səmərəli bölüşdürülməsi, sosial iqtisadi inkişaf strategiyasının yaradılması, sosial əməkdaşlığın və sosial məsuliyyətin inkişafı və kiçik biznesin inkişaf şəraitnin optimallaşdırılmasını əhatə edən səmərəli sosial siyasətin həyata keçirilməsi, sərt dövlət tənzimlənməsi sisteminin formalaşmasını tələb edir. Sosial dövlət hökumətlə xalq arasındakı özgələşməni aradan qaldırmağa, iqtisadi və sosial dayanıqlığı təmin etməyə və sosial bərabərsizliyi və qeyri-mütənasibliyi aradan qaldırmağa, əhalinin minimum həyat tərzinin təmin edilməsinə yönəlir. Sosial dövlətin inkişafı cəmiyyətdə ənənəvi humanist dəyərlərə, kollektivçiliyə, qarşılıqlı yardıma əsaslanan sosial həmrəyliyin təmin edilməsi ilə bağlıdır. Sosial dövlət yüksək iqtisadi inkişaf səviyyəsinə, sosial yönümlü iqtisadiyyata malik olan dövlətdir. Sosial yönümlü bazar iqtisadiyyatı bilavasitə qarşılıqlı sosial məsuliyyətin formalaşdırılması əsasında inkişaf edir. Burada sosial

məsuliyyət dövlət – cəmiyyət – vətəndaş üçlüyünün qarşılıqlı cavabdehliyini, qarşılıqlı inamını nəzərdə tutur.

Sosial dövlət hər bir vətəndaşın minimum yaşayış səviyyəsinin, layiqli həyat şəraitinin təmin edilməsinə yönələn dövlətdir. Dövlət tərəfindən sosial yönümlü siyasətin həyata keçirilməsi bir qədər ziddiyyətli məsələdir, belə ki, bu zaman həm dövlətin, həm də vətəndaşların maraqları nəzərə alınmalı, müəyyən tarazlıq əldə edilməli, sosial ədalətə riayət olunmalı, sosial qeyri-bərabərliyin azaldılmasına çalışılmalıdır. Belə demək olarsa, sosial dövlət bir tərəfdən sosial-demokrat, digər tərəfdən sosial liberal prinsipləri əsas tutaraq fəaliyyət göstərməlidir. Sosial dövlətin formalaşması bir çox amillərdən aslıdır və bir sıra müəlliflər əmindirlər ki, burada yalnız iqtisadi və siyasi amillər deyil, həm də mənəvi amillər əsaslı təsirə malikdir.

Əgər sosial dövləti canlı orqanizm kimi qəbul etsək, onun təkamülünü də canlı orqanizmin təkamülü ilə müqayisəli təhlil etmək olar. Belə ki, canlı orqanizmlərin təkamülündə irsiyyət, dəyişkənlik, təbii seçim və digər amillər – izolyasiya, miqrasiya, xarici mühit - əsaslı rola malikdir.[426] Bu əsasda sosial dövlətin təkamülünü aşağıdakı kimi xarakterizə etmək olar:

I.Sosial dövlət idarəçilik üsulunu hüquqi dövlətdən mənimsəmişdir, yəni mövcud dövlətçilik ənənələri əsasında tərəqqi etmişdir. Bu mənada, sosial dövlət varislik prinsiplərindən çıxış edir.

II.Beynəlxalq aləmdə baş verən yeniliklər, innovasion dəyişikliklər hər bir dövlətin və cəmiyyətin inkişaf xüsusiyyətlərində öz əksini tapır. Məsələn, Avropa İttifaqı ölkələrinin, BMT-nin və digər beynəlxalq təşkilatların sosial siyasətlə bağlı həyata keçirdiyi yeniliklər və onların tətbiqi ilə bağlı hər bir dövlətin qarşısında qoyulan tələblər və reallaşdırılan tədbirlər inkişaf etməkdə olan dövlətlərin sosial yönümlü idarəçiliyinin formalaşmasına səbəb olur.

III.Sosial dövlətlərin müxtəlif ölkələrdə fərqli modellərlə inkişafının əsasında yerli dövlətçilik xüsusiyyətlərindən irəli gələn

---

[426] Левченко В.Ф.Биосфера: этапы жизни. — СПб.: «Свое издательство», 2012 — 264 с.

özünəməxsusluq və öz inkişaf istiqamətini müəyyənləşdirmək və seçmək imkanları dayanır.

IV.Tarixən və indiki zamanda mövcud olan bir sıra sosial dövlət modelləri bilavasitə özünüməhdudlaşdırma və dünya dövlətləri tərəfindən izolyasiyaya məruz qalmaqla fərqli istiqamətlərdə formalaşıb. Bu sırada SSRİ, ÇXR, KXDR və digərlərini göstərmək olar.

V. Sosial dövlətin inkişafında miqrasiya amilləri həm birbaşa, həm də məcazi mənada güclü təsir qüvvəsinə malikdir. Birinci mənada qeyd edə bilərik ki, hazırda dünyada miqrasiya qlobal böhrana çevrilib və miqrantlara münasibətdə sosial ədalət, sosial məsuliyyət, sosial bərabərlik prinsiplərinə əməl edilməsi problemi bir çox sosial dövlətlərin mövcud olması ilə bağlı şübhələrin meydana çıxmasına səbəb olub. Məhz miqrasiya prosesi müasir sosial dövlətlərin öz mahiyyətini dəyişməsinə təsir göstərir, ola bilər ki, bəzilərinin məhvinə gətirib çıxarır. Digər tərəfdən miqrasiyanı "ideya miqrasiyası", yaxud "idarəçiliklə bağlı biliklərin, metodların ötürülməsi, miqrasiyası" kimi də şərh etmək olar. Bu zaman sosial dövlətlə bağlı idarəçilik təcrübəsinin yayılmasından danışmaq olar və məhz bu təcrübə müxtəlif ölkələrdə sosial yönümlü siyasət reallaşdırmaq, sosial dövlət qurmaq təmayülünü prioritet məqsədə çevirmişdir.

VI.Sosial dövlət nəzəriyyəsinin və təcrübəsinin təkamülündə xarici mühitin təsiri danılmazdır. Burada xarici mühit deyərkən, sosial dövlətin inkişaf istiqamətini korrektə edən ekzogen amillər nəzərdə tutulur. Bu zaman dünya iqtisadi böhranı, miqrasiya böhranı, qlobal siyasət, mənəvi aşınma əsas ekzogen amillər kimi qəbul edilə bilər. Sosial yönümlü dövlət quruculuğu istiqamətini tutan dövlətlərin daxili sosial siyasətinin formalaşmasına təsir göstərən fon göstəricilər müəyyən sosial dövlət modelinin inkişafına əsaslı təsir etmək qüvvəsinə malik ola, sosial ziddiyyətlərə və qarşıdurmalara gətirib çıxara, bununla da sosial dövlətin formalaşması prosesinin ləngiməsinə, yaxud yeni templə inkişafına təkan verə bilər.

Sosial dövlətin mövcud olmasına təsir edən fon göstəricilər deyərkən daxili şərait və onun özünəməxsus xüsusiyyətləri nəzərdə tutulur ki, bu da aşağıdakılarla bağlıdır:

1.Dövlət hakimiyyətinin demokratik təşkili.

2.Vətəndaşların və ilk növbədə vəzifəli şəxslərin yüksək mənəvi səviyyəsi.

3.Heç bir sosial təbəqənin maraqlarına xələl gətirmədən gəlirlərin bölüşdürülməsi üçün güclü iqtisadi potensialın olması.

4.Sosial yönümlü iqtisadi struktur.

5.Dövlətin hüquq sisteminin inkişafı.

6.Vətəndaş cəmiyyətinin inkişaf etdirilməsi.

7.Dövlət siyasətinin sosial yönümlü olması və sosial proqramların həyata keçirilməsinə üstünlük verilməsi.

8. Dövlətin əsas məqsədi ümumi rifahın təmin edilməsi, cəmiyyətdə sosial ədalətin bərqərar olması, hər bir vətəndaşın layiqli həyat şəraitinin, sosial müdafiəsinin, özünüreallaşdırması imkanlarının təmin edilməsi ilə bağlı olmalıdır.

9. İnkişaf etmiş sosial qanunvericiliyin olması.

10.Sosial dövlətlə bağlı hüquqi sənədlərin qəbul edilməsi.[427]

Yuxarıda qeyd edilənləri nəzərə alaraq, dünyada və Azərbaycanda sosial dövlətin inkişaf prosesi ilə əlaqədar bəzi təklifləri təqdim etmək istərdik:

1.Sosial dövlətin mahiyyətindən çıxış edərək, onun təkamül tendensiyasına malik olduğunu nəzərə almaq vacib şərtdir. Sosial təkamül prosesinin qəbul edilməsi sosial dövlətin inkişafı ilə bağlı yaranan problemlərin, ziddiyyətlərin yeni mərhələyə keçid prosesinin aparıcı amilləri kimi qiymətləndirilməsinə əsas verir. Belə ki, sosial münaqişələr, sosial böhranlar və sosial xaos hər zaman yeni dirçəlişin əsası kimi çıxış edib.

2. Sosial dövlətin inkişafı innovasion təmayüllü strateji qərarların qəbul edilməsi ilə bağlıdır. Bu məqsədlə Milli innovasiya sisteminin inkişaf etdirilməsi əsas şərt kimi çıxış edir. Milli innovasiya sisteminin inkişafı "bütün maraqlı tərəflərin (biznes, elm, dövlət, vətəndaş cəmiyyəti) iştirakını nəzərə alan... əlavə

---

[427] Чиркин В.Е.Индикаторы социального государства. АНО "Юридические программы". Москва, 2009, s. 103-111

resursların cəlb edilməsinə, elmi-texnoloji, innovasion inkişaf sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsinə yönələn” texnoloji platformanın yaradılmasını tələb edir.Bu zaman texnoloji platformalar iqtisadiyyatın sosial yönümlü innovasion inkişafını nəzərdə tutmalıdır.

3.Sosial dövlətin tərəqqisi ideyası mövcud qloballaşma prosesi və buradan doğan və bütün sosial sahələri əhatə edən böhranların qarşısının alınması ilə bağlı sosial innovativ iqtisadiyyatın formalaşdırılması tələbatını aktuallaşdırır. Sosial innovativ iqtisadiyyat sürətli adaptasiya olunmaq xüsusiyyətlərinə və imkanlarına malik olmalıdır. Bu, isə sosial inkişafın başlıca meyarı olan intellektual potensialın inkişaf etdirilməsini, mobilləşdirilməsini, reallaşması üçün optimal şəraitin yaradılmasını tələb edir.

4. Sosial dövlət vətəndaş cəmiyyətinin inkişafına əsaslanan dövlətdir. Vətəndaş cəmiyyəti bütün maraq qruplarının – elmi birlik, siyasətçilər, biznesmenlər, ictimai təşkilatlar və hərəkatların və s. nümayəndələrinin idarəetmə qərarların hazırlanması və qəbul edilməsinə cəlb edilməsini, beləliklə, dövlətin və cəmiyyətin inkişafında iştirakını nəzərdə tutur. Bu zaman dövlətin sosial siyasətinin əsas meylləri iqtisadi, siyasi, mədəni və sosial sahələrin innovasion inkişafının müəyyənləşdirilməsi və bu istiqamətdə tədbirlər planının reallaşdırılmasına yönələn fəaliyyətlə bağlı olmalıdır.

5.Sosial dövlətin sosial siyasəti əhalinin rifah halının yüksəldilməsi, həyat keyfiyyətinin yaxşılaşdırılması ilə bağlıdır. Bu zaman sosial siyasət əhalinin sosial müdafiəsinin və sosial, mədəni, siyasi təhlükəsizliyinin, ümumilikdə milli təhlükəsizliyin təmin olunmasını əsas məqsəd kimi həyata keçirməyə yönəlir. Milli təhlükəsizliyin qorunması beynəlxalq münasibətlər sistemində dövlətin öz suverenliyini təmin etməsinin əsas şərti kimi qəbul edilə bilər. Dövlət, o cümlədən sosial dövlət həm daxili, həm də xarici siyasətində öz vətəndaşlarının maraqlarının müdafiəçisi, onların himayədarı kimi çıxış etməklə, milli təhlükəsizliyi təmin etməyə nail ola bilər. Milli təhlükəsizliyin təmin edilməsi dedikdə, həm daxili, həm də beynəlxalq məkanda sabit sosial münasibətlərə nail

olunması, yəni hərbi və iqtisadi təhlükəsizlik, sosial və siyasi təhlükəsizlik, beynəlxalq təhlükəsizlik məsələləri nəzərdə tutulur. Beləliklə, milli təhlükəsizliyin təmin edilməsi dövlət – cəmiyyət - vətəndaş münasibətlərində dövlətin üstün mövqeyini təsdiq edir. Bu baxımdan sosial dövlət modeli sırf liberal və ya sırf sosial-demokrat meylli ola bilməz və burada həm fərdi azadlıq, həm də dövlətin müdaxiləsi məsələləri tarazlaşdırılmış şəkildə həyata keçirilməlidir.

Azərbaycanda sosial dövlətin inkişafı uyğun münasibətlər sisteminin formalaşdırılmasını ehtiva edir. Bu münasibətlər sistemi ölkənin dayanıqlı inkişafı və bu inkişafın idarə edilməsi, səmərəli sosial müdafiə sisteminin yaradılması, fərdi azadlığın təmin edilməsinə yönəlib. Azərbaycanda sosial dövlətin qurulması ilə bağlı aşağıdakıları qeyd etmək olar:

I.Azərbaycanda sosial dövlət quruculuğu müəyyən nəzəri-ideoloji əsaslara malikdir. Sosial dövlətin Azərbaycan modelinin nəzəri-ideoloji əsasları azərbaycançılıq konsepsiyası ilə bağlıdır. Bu konsepsiyasının banisi Ümummilli lider H.Əliyev olmuşdur. H.Əliyev azərbaycançılıq ideologiyasının mahiyyətini – «Azərbaycanın suverenliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, ...xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları” kimi müəyyən etmişdir.[428]

II.Konstitusion əsaslara malik olan sosial dövlət müasir sosial inkişafın əsas məqsədi kimi çıxış edir. AR Konstitusiyasında sosial dövlətin hüquqi əsasları möhkəmlənmişdir. Burada sosial dövlətin inkişafı ilə bağlı müəyyən maddələr mövcuddur.Belə ki, Konstitusiyanın 15-ci, 16-cı və 38-ci maddələri bilavasitə sosial inkişaf məsələlərinə həsr edilib. Konstitusiyasının 15.1-ci maddəsində Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafının müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahının yüksəldilməsinə xidmət etdiyi göstərilir ki, bu da sahibkarlığın

---

[428] Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. “Azərbaycan” qəz., № 51(2163), 1999

inkişafını hüquqi əsasları kimi qəbul edilə bilər. Bu maddənin 2-ci bəndində "bazar münasibətləri əsasında sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaradılması, azad sahibkarlığa təminat verilməsi, iqtisadi münasibətlərdə inhisarçılığa və haqsız rəqabətə yol verilməməsi" məsələləri vurğulanır. Bu maddələr sosial dövlətin əsas prinsiplərini özündə əks etdirir.

Konstitusiyanın 16-cı maddəsi Sosial inkişafla bağlıdır. Burada dövlətin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsi qayğısına qaldığı vurğulanır (1, maddə 16). Sosial məsələlərlə bağlı digər 38-ci maddə Azərbaycan vətəndaşlarının sosial təminat hüquqlarını əks etdirir. Sosial dəstək məqsədilə dövlət xeyriyyəçilik fəaliyyətinin, könüllü sosial sığortanın və sosial təminatın başqa növlərinin inkişafı üçün imkanlar yaradır (1, maddə 38.5).[429] Məlum olduğu kimi xeyriyyəçilik fəaliyyəti sosial dövlətin əsas prinsiplərindən birini təşkil edir.

2. Azərbaycanın Milli İnkişaf strategiyası hər bir vətəndaşın sosial rifahının təmin edilməsini, insan kapitalının inkişafını nəzərdə tutur. Təhsil, səhiyyə, sığorta və pensiya sisteminin analizi göstərir ki, Azərbaycanda sosial dövlət davamlı inkişafın əsas xüsusiyyətlərini, mövcud dövlətçilik ənənələrini və təcrübəsini özündə ehtiva edən hüquqi dövlətin yeni mərhələsidir və vətəndaş cəmiyyətinin inkişafına yönəlib.

6. Tədqiqat əsasında qeyd etmək olar ki, müasir Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatına əsaslanan sosial dövlət formalaşır. Sosial dövlətin Azərbaycan modeli bir tərəfdən azad sahibkarlığın və xüsusi mülkiyyətin inkişafına yönələn sosial liberal, digər tərəfdən isə cəmiyyətin iqtisadi, siyasi, mədəni, sosial sahələrində dövlətin müdaxilə imkanlarını nəzərdə tutan sosial demokrat təmayüllərini özündə sintez edir.

7.Ölkəmizdə sosial dövlətin sütunu hesab edilən "orta təbəqə" formalaşma mərhələsindədir və dövlət sahibkarlığın inkişafına dəstək tədbirlərini həyata keçirir.

---

[429] Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64 s.

8. Müasir Azərbaycanın iqtisadi inkişafı bir tərəfdən neft strategiyasının reallaşdırılmasına, digər tərəfdən isə qeyri-neft sektorunun inkişaf etdirilməsinə, infrastrukturun yeniləşməsinə yönəlib. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatına inteqrasiya etməklə, dinamik sosial iqtisadi inkişafa nail olmuşdur. Davamlı sosial iqtisadi inkişafın təmin edilməsilə bağlı həyata keçirilən tədbirlər, qlobal iqtisadi böhranın Azərbaycanda təsiri imkanlarının qarşısının alınmasına və vəziyyətin idarə edilməsinə yönəlib.

9. Sosial dövlətin Azərbaycan modelinin uğurlu tərəqqisini təmin etmək məqsədilə insan kapitalının inkişaf etdirilməsi vacib şərtdir.

10.Azərbaycanda sosial yönümlü bazar iqtisadiyyatı sosial inkişafın dayanıqlığının idarə edilməsi ilə bağlı səmərəli tədbirlər sisteminin həyata keçirilməsini tələb edir.

11.Regionların inkişafına nail olmaq üçün fermer təsərrüfatının inkişaf etdirilməsi, sahibkarlara dövlət dəstəyinin optimallaşdırılması, o cümlədən kooperativ təsərrüfat sahələrinin inkişaf etdirilməsi zəruridir.

# ƏDƏBİYYAT SİYAHISI:

## Azərbaycan dilində

1. Ağayev İ.M. Müasir şəraitdə Azərbaycanda milli-etnik proseslər., Bakı, "MBM", s.134

2. Alıyev Y. "Heydər Əliyev və millimənəvi dəyərlər". Tarixi və milli-mənəvi dəyərlər kontekstində Azərbaycan milli kimliyi (məqalələr toplusu). Bakı, 2014, s.172

3. Allahyarova T.B. Sinergetika –İ. Sinergetik ontologiya. Bakı, "Elm", 2005, s.185-186

4. Allahyarova T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi: Fəlsəfə üzrə elmlər doktoru (ixtisas: 09.00.11 - sosial fəlsəfə) dissertasiyası. Bakı, 2007

5. Allahyarova, T.B. Sosial sinergetika cəmiyyət haqqında elmlərin yeni metodoloji əsası kimi : fəlsəfə elm. dok. ... dis. avtoreferatı: 09.00.11 / T. B. Allahyarova ; Bakı Dövlət Universiteti. – Bakı, 2007. – 53 s.

6. "Azərbaycan - 2020: gələcəyə baxiş" inkişaf konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.s.36-37, http://www.president.az/files/future_az.pdf

7. Azərbaycan Prezidentinin Rəsmi internet səhifəsi. http://www.president.az/articles/4098/print

8. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, "Qanun", 2005, 64 s.

9. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların qanunvericilikdə təsbiti, Bakı, Qanun, 2003, s.58

10. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Səhiyyə, sosial təminat, idman.http://www.stat.gov.az/source/ healthcare/

11. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

12. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin “2003-2011-ci illərdə Azərbaycanın sosial-iqtisadi inkişafı” ilə bağlı hesabatı.

13. Azərbaycan Respublikasının Əmək Məcəlləsi. “Hüquq Yayım Evi”, Bakı 2015, 288s.

14. Azərbaycanin əhalisi. (statistik bülleten). Azərbaycan Respublikasinin Dövlət Statistika Komitəsi.2016. S.7. http://www.stat.gov.az/source/demoqraphy/ap/

15. Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

16. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi http://www.stat.gov.az/source/labour/

17. “Azərbaycan Respublikasının 2001-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 28 noyabr 2000-ci il, № 422. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2002,12. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000,11, s.122

18. “Azərbaycan Respublikasının 2002-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 dekabr 2001-ci il, № 612. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001,12, S.132

19. “Azərbaycan Respublikasının 2003-cü il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 26 dekabr 2002-ci il, № 827. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2002,12, S.143

20. “Azərbaycan Respublikasının 2005-ci il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 29 dekabr 2004-cü il, № 161. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2004,12, S.135

21. “Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsi haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq

edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 16 noyabr 2005-ci il, № 311. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2005, 11, S.147

22. "Azərbaycan Respublikasının 2007-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 22 dekabr 2006-cı il, № 494. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2006, 12, S.125

23. "Azərbaycan Respublikasının 2009-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 10 dekabr 2008-ci il, № 37. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2008,12, S.154

24. "Azərbaycan Respublikasının 2010-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 21 dekabr 2009-cu il, № 187. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2009,12, S.133

25. Azərbaycanda Təhsil, Elm və Mədəniyyət. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Bakı – 2015, s.13

26. Azərbaycan Respublikasının 2013-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 30 noyabr 2012-ci il № 473-IVQ; Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 22 noyabr 2013-cü il

27. Azərbaycan Respublikasının 2015-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 28 noyabr 2014-cü il

28. Azərbaycan Respublikasının 2016-cı ilin dövlət və icmal büdcələri üzrə layihələrin təqdimatı, Bakı, 2016

29. Azərbaycan Respublikası Regionlarının 2014-2018-ci illərdə Sosial-iqtisadi İnkişafi Dövlət Proqramı. Azərbaycan

Respublikası Prezidentinin 27 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanı ilə təsdiq edilmişdir

30. Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 2016-cı il

31. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatları. http://www.refugees-idps-committee.gov.az

32. "Azərbaycan" qəzeti, 25 oktyabr 2001-ci il.

33. Azərbaycançılıq - birliyimizin əsasıdır. (2001-ci il noyabrın 9-10-da Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayında və "Gülüstan " sarayındakı rəsmi qəbulda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi). Azərbaycan Nəşriyyati. BAKI - 2002

34. BabanlıY. Diasporçuluq, Lobbiçilik və onların mahiyyəti. «Qarapapaqlar».2012.-№7.-S.14-17

35. Bərpa və Repatriasiya («Böyük Qayıdış») Proqramı Məcburi köçkünlərin repatriasiyası. http://www.refugees-idps-committee.gov.az/az/pages/21.html

36. Büdcə sistemi haqqındaAzərbaycan Respublikasının Qanunu. Heydər Əliyev, Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 2 iyul 2002-ci il, № 358-IIQ

37. Cəfərov N. Azərbaycançılıq ideologiyasının təkamülündə yeni mərhələ - İlham Əliyev mərhələsi. http://525.az/site/?name=xeber&news_id=48477

38. Dövlət məşğulluq xidməti. http://www.ses.gov.az/az/structure. html

39. Dövlət Sosial Müdafiə Fondunun məlumatlarına əsasən. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. http://www.stat.gov.az/source/demoqraphy/ap/

40. Dövlət sektoru və beynəlxalq təşkilatlar. Dövlət Neft Fondu. http://www.refugees-idps-committee.gov.az/

41. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. 26 iyun 1997-ci il, №360-IQ. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,1997, 6

42. Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının qanunu. http://health.gov.az/ehalinin_saqlamliqi_qorunmasi_haqqinda_qanun.html © 2011-2013

43. Əliyev N.Q. Nikkolo Makiavellinin dövlət konsepsiyası və müasirlik. Bakı, AzTU-nun mətbəəsi, 2012, s.64-65, 104, 107, 109

44. Əmək pensiyaları haqqında ətraflı məlumat. http://www. sspf.gov.az/view.php?lang=az&menu=93&id=311

45. Əmək pensiyaları haqqında Azərbaycan Respublikasının Qanunu. , 1.0.2, İlham Əliyev, Azərbaycan Respublikasının Prezidenti Bakı şəhəri, 7 fevral 2006-cı il tarixli № 54-IIIQ

46. Həsənov Ə.: “Torpaqların boşaldılması Füzuli rayonundan başlanmalıdır”. “525-ci qəzet”. 2010, 22 aprel, N.70, s.1, 5

47. Həsənov Ə. “Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti”, “Letterpress” nəşriyyat evi, Bakı, 2011, s.320, 324

48. Həsənov Ə.M.. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, “Zərdabi LTD”, 2016, 700 s.

49. Heydər Əliyevin 1999-cu ilin fevralında gənclərin ikinci forumundakı çıxışı. “Azərbaycan” qəz., № 51(2163), 1999

50. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. (müəllif-tərtibçi: prof. S.Xəlilov) — Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 2002 — 232 səh.

51. Heydər Əliyev siyasəti: TOLERANTLIQ (çıxışlar, nitqlər, görüşlər, təbriklər). Bakı, "Elm və Təhsil" - 2015. 504 səh.

52. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. (müəllif-tərtibçi: prof. S.Xəlilov) — Bakı, “Azərbaycan Universiteti” nəşriyyatı, 2002 — 232 səh.

53. Həbibbəyli İ. Azərbaycançılıq idealının rəmzi. “Yeni Azərbaycan”.-2013.-11 aprel.-N 62.-S.4. H. Əliyev haqqında

məqalələr(2009 – 2014-cü illər). dq.mia.gov.az/upload/2.pdf, s.895-899

54. Həsənov Ə. “Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti”, “Letterpress” nəşriyyat evi, Bakı, 2011, s.320, 324

55. Həsənov Ə.: “Torpaqların boşaldılması Füzuli rayonundan başlanmalıdır”. “525-ci qəzet”. 2010, 22 aprel, N.70, s.1, 5

56. İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclası keçirilmişdir. 16 yanvar 2012

57. İlham Əliyev: “Multikulturalizm Azərbaycanın dövlət siyasətidir”. http://musavat.com/news/meneviyyat/ilham-eliyev-multikulturalizm-azerbaycanin-dovlet-siyasetidir-foto_171713.html

58. İmanov Q., Əkpərov R. “Sosial sistemlərin keyfiyyətinin qiymətləndirilməsinin qeyri-səlis modelləri. Sosial sistemlərin modelləşdirilməsi”. LAP LAMBERT Academic Publishing, Saarbrücken, Deutschland, 2013, 60s.

59. İnsan hüquqları və qaçqınlar. Baki, “İnam” plüralizm mərkəzi, 1999 (Tərcüməçi: Tehran Vəliyev), s.10

60. İnsan haqları ilə bağlı Bəyannamə

61. İsgəndərli A., Mehdizadə G. Ədliyyə Nazirliyinin qeydiyyat labirinti… http://www.bizimyol.info/news/17103.html

62. Mehdiyev R. “Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti”, Bakı, “Qərb-Şərq” nəşr., 2008

63. “Məcburi köçkün ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. http://www.president.az/articles/7446

64. “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasinin Qanunu. 21 may 1999-cu il, № 669-

IQAzərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, 7, s.72

65. Məcburi köçkün qadın və uşaqların hüquqi vəziyyətinə dair təhlil. “PRAKSİS” Sosial İnkişafa Dəstək İctimai Birliyi. Bakı, 2007, s.5

66. Məmmədzadə İ.R. Vətəndaş cəmiyyəti və milli ideologiya, Azərbaycanda siyasi proseslərin fəlsəfəsi, Bakı, 1995.

67. Məmmədzadə İ.R."Siyasi etika", Bakı, 1997.

68. Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. Maddə 1. Bakı şəhəri, 2 iyul 2001-ci il № 170-IIQ. “Azərbaycan” qəzeti, 26 noyabr 2010-cu il, № 259

69. Milli Kimlik. http://millikimlik.az/info/konsepsiya.html

70. Müzəffərli N., İsmayılov E. “Azərbaycanın post-konflikt ərazilərinin bərpası. Konseptual əsaslar”, “Qafqaz”, Bakı, 2012, s.50, 265

71. Multikultural təhlükəsizlik. II Dəyirmi masa, 2015. Etibar Nəcəfovun çıxışından., BAKI 2015, s.11. http://cdn. bbmm. az/pdf/rt2.pdf

72. Multikulturaltəhlükəsizlik. IIDəyirmimasa, 2015. Etibar Nəcəfovun çıxışından., BAKI 2015, s.11. http://cdn. bbmm. az/pdf/rt2.pdf

a. “Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında” Azərbaycan Respublikasinin Qanunu. 21 may 1999-cu il, № 669-IQ Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999-cu il, №7, 37

73. NəzərliŞ. Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir., İnteraz - 10 Mart 2014, http://www.interaztv.com/ society/13838

74. Nəzərov İ. Yoxsulluğun azaldılması istiqamətində Azərbaycanın əldə etdiyi nəticələrin və gəlir yoxsulluğunun azaldılması üzrə uzunmüddətli, dayanıqlı siyasətə dair baxışların təhlili. Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda tədqiqat

mərkəzləri üçün regional səviyyədə potensialın artırılması. Bakı, YİİM, 2010, s.1-26

75. Rəcəbli H. Azərbaycanda yoxsulluğun azaldılması üzrə tədbirlər planı müəyyən edilib. http://anspress. com/index. php?a=2&lng=az&nid=107358

76. Rüstəmov İ.Ə. "Ümumi sosiologiya"., Bakı, 2007

77. Rüstəmov İ.Ə.– "Gələcəyə istiqamətlənmiş siyasət (Heydər Əliyev – 85)" , Bakı, 2008

78. Rüstəmova A. "Müasir dünya və Azərbaycan reallıqlar: fəlsəfi təhlil". Bakı, 2017

79. Səhiyyə. Əhalinin sayı, sıxlığı və təbii hərəkəti. http://www.stat.gov.az/source/healthcare/

80. Sığorta-pensiya sistemi və dövlət sosial yardımı sisteminin ayrı-ayrılıqda beynəlxalq standartlar əsasında fəaliyyət göstərməsi. http://www.sspf.gov.az/view.php?lang=az&menu=85&id=354

81. Sosial sığorta haqqında Azərbaycan Respublikası Qanunu. Azərbaycan Respublikasinin Qanunvericilik Toplusu, N5, 30 Noyabr, 1997

82. Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu, maddə 2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Bakı şəhəri, 18 fevral 1997-ci il № 250-IQ, «Azərbaycan» qəzeti 10 aprel 1997-ci il, № 68.

83. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti, Bakı şəhəri 19 iyun 2009-cu il

84. Tibbi Sığorta Haqqında Azərbaycan Respublikasının Qanunu.
Heydər ƏLİYEV Azərbaycan Respublikasının Prezidenti. Bakı şəhəri, 28 oktyabr 1999-cu il. https://az.wikisource.org/wiki/Tibbi_S%C4%B1%C4%9Forta_Haqq%C4%B1nda_Az%C9%99rbaycan_Respublikas%C4%B1n%C4%B1n_Qanunu#I_f.C9.99sil_.C3.9Cmumi_m.C3.BCdd.C9.99alar

85. "Qaçqınlar və məcburi köçkünlərlə sosial iş kursu" üzrə ali təhsil məktəblərində (universitetlərdə və institutlarda)

bakalavr hazırlığı üzrə proqram. Tərtib edənlər: M.A.Balayev, A.S.Rüstəmov. Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2012, s.9

86. Qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti daha da yaxşılaşdırılır. Nazirlər Kabinetində müşavirə keçirildi. R. Kamalqızı, "Səs" qəzeti, 12 yanvar 2013-cü il, , №5, s.4-11

87. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi barədə. 29 sentyabr1992-ci il, № 312. Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 1992, №18, s.43

88. "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında. 01 iyul .2004-cü il, № 298. Azərbaycan Respublikasının Qanunvericilik Toplusu,2004, N7, s.33

89. Qureyeva-Əliyeva Y. və Hüseynov T. "İyirmi il məcburi köçkünmü olar?" Azərbaycanda məcburi köçkünlər və yerli əhalinin ehtiyaclarının və məcburi köçkünlük probleminə olan münasibətin müqayisəli təhlili. Brukinqs İnstitutu və London İqtisadiyyat İnstitutunun məcburi köçkünlük üzrə birgə layihəsi tərəfindən nəşr edilmişdir. Bakı, dekabr 2011-ci il, s. 6, 7, 13-18, s. 23-25

90. Vətəndaşın büdcə bələdçisi. Bakı: "ANS Press" mətbəəsi, 2012, s.42

91. 2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun ləğvi və davamlı inkişaf Dövlət proqramının təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası prezidentinin sərəncamı, Bakı şəhəri, 15 sentyabr 2008-ci il; "Azərbaycan regionlarının sosial-iqtisadi inkişafı (2009 - 2013)". Azərbaycan Respublikası prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası, tamtəminatlı elektron nəşr, Bakı, 2010.

92. 2013-cü ilin dövlət və ictimai büdcələrinin layihələrinin təqdimatı. http://www.maliyye.gov.az/sites/default/files/2013-1.pdf

93. 10 fevral 2010-cu il tarixli 216 nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ("Azərbaycan" qəzeti 11

fevral 2010-cu il, № 32, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010-cu il, № 2, maddə 80)

94. Zafer Durdu. Modern devletin dönüşümünde bir ara dönem: sosyal refah devleti. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE) Bahar 2009 Sayı 22, s.38-50

**Rus dilində**

95. Адольф Вагнер — немецкий экономист. http://opisdela.ru/?p=1570

96. Аристотель. Политика // Аристотель. Сочинения: В 4 т. М.: «Мысль», 1983. Т. 4. – С. 376–644. Перевод с древне-греч. С.Жебелева.

97. Баженов А.М. Б16 Социология здравоохранения: учебное пособие / А.М. Баженов. — ЦСП и М, 2015. — 271 с.

98. Барановский В.А.Современные глобальные проблемы Аспект-Пресс 2010. http://www.wwww4.com/w1502/1021550.htm

99. Баранов Н.А. Ведущие геополитические парадигмы и современная методология геополитики. http://nicbar.ru/ geoproblemy_lekzia2.htm

100. Баренбойм П., Захаров А. Флорентийская утопия:государство как произведение искусства. Москва, ЛУМ., 2012

101. Бедалова Н. Ч. Толерантность и формы ее проявления в условиях глобализации. http://psychology.az/tolerantnost.php

a. Белов В.Г. "Социальное государство и гражданское общество".М., 2009

b. БеляковичН.Н.Лоббистские группы как институты гражданского общества.Право и демократия: Сборник научных трудов / Белорусский государственный университет; Редкол.: В.Н. Бибило (гл. ред.) и др. – Минск: Право и экономика, 1999. – Вып. 10

c. Бессонова О.Э. “Сущность социального государствав контексте общей теорииинституциональных трансформаций”.

102. Большой толковый социологический словарь. Т.1, А – О, Вече – АСТ, М., 1999, с.445

103. Боме М. Международная миграция и регуляция коллективных форм социальной идентичности в национальных государствах [Электронный ресурс] //Центр независимых социологических исследований. <http://www.cisr.ru/files/publ/Migr_Bommes.pdf>.Дата доступа: 26.03.2006.

104. Бранский В.П. Социальнаясинергетика как постмодернистская философия истории. Общественные науки и современность 1999 • № 6, s.117-127

105. Белякович Н.Н. Лоббистские группы как институты гражданского общества.

106. Васильцова В.М., Третышный С.А. Институциональная экономика: Учебное пособие. Стандарт третьего поколения. Спб.: Питер, 2014, с..224-240; Основные концепции неоинституционализма: теория эволюционного неоинституционализма. http://studopedia.org/6-37923.html. Студопедия.Орг - 2014-2016 год.

107. Веблен, Т. Теория праздного класса / Т. Веблен. - М.: Прогресс, 1984. -С.202.

a. Вильгельм фон Гумбольдт. Язык и философия культуры. М.: Прогресс, 1985. 452 с.

b. Волков Ю.Е. Сущность, основа и главные черты социального государства / Волков Ю.Е.// Теоретико-методологические основы социологического анализа общественных систем и процессов. – М. : Совет. спорт, 2001. – 360 с.

c. Второе Десятилетие ООН по борьбе за ликвидацию нищеты (2008–2017 годы). Веб-услуги Департамента общественной информации ООН | © 2008–

2009 Организация Объединенных Наций.http://www.un.org/russian/conferen/socsum/socsum.htm

d. Гафуров З.Ш.,НиколаенкоИ.Н. Социально-правовое государство: Генезис, объективные основы, социальная природа. Журн. «Ученые записки российского государственного социального университета», № 4, 2008, с.64-67

e. Глобальные проблемы современности. Нижников С.А. Философия: курс лекций". Лекция 4 из книги Нижников С.А. Философия: курс лекций: учебное пособие для вузов. М.: Изд-во "Экзамен". 2006. 383 С. http://www.ecad.ru

f. Глобальные проблемы человечества и перспективы их решения с точки зрения современной науки Стерлитамак 1997.http://www.allbest.ru/referat; http://revolution.allbest.ru/upload.html;

g. Гончаров П.К. Социальное государство: сущность, мировой опыт, российская модель. – Социально-гуманитарные знания (М.), 2000, № 2

108. Гросфельд Е.В. Лоббизм и government relations: контуры теории.грані політологія, № 6 (80) листопад - грудень `2011

a. ГражевскаяН.И."Теоретико-методологические новации институционализма в исследовании экономических трансформаций".жр." Європейський вектор економічного розвитку". 2012. № 2 (13), 48 – 49

b. Громыко А. Метаморфозы американского неоконсервативизма: идеология на излете. Внешнепоитический аспект. Жн. Observer – Аброзователь, 8/2008, s.57

c. Гросфельд Е.В. Лоббизм и Government Relations: контуры теории.Грані Політологія, № 6 (80) Листопад - Грудень `2011

d. Гулъбина Н.И.Теория институциональных изменений Д. Норта. «Экономические науки» 15 марта 2004 г., s.123-127

e. Две концепции столкновения цивилизаций. http://deyerler.org/; /islamnews/

f. Дробязко, С.Г. Соотношение правового государства и правового гражданского общества / С.Г. Дробязко //

g. Европейская модель социальной экономики - econominfo.ru

h. Иншаков О.В., Фролов Д.П. Институционализм в российской экономической мысли: В 2 т. Т. 2. Волгоград: Изд-во Волгоградск. гос. университета, 2002, с.39-44

i. Калашников С.В. Функциональная теория социального государства М., 2006. с.65.

j. КалашниковС.В. "Очерк теории социального государства". М., 2006. С. 67—68

109. Калашников С.В. "Социальное государство: эволюция и этапы становления. Журн. «Человек и труд», № 10, 2002; http://www.allbest.ru/

110. Каменецкий В. А., Патрикеев В. П. Лекции по экономике. Проблемы становления социального государства. – М.: АТиСО, 2001. - С. 314

111. Кирдина С. Г. "Теория институциональных матриц (пример российского институционализма)", В монографии "Постсоветский институционализм" /Под ред. Р.М. Нуреева, В.В. Дементьева. - Донецк: Каштан, 2005, с. 75-101.

112. Колосова О.Ю. Социальная синергетика в управлении социальными системами. Исторические, философские, политические и юридические науки, культурология иискусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011. № 1 (7). С. 118-120. ISSN 1997-292X. www.gramota.net/materials/3/2011/1/

113. КоммонсДж. “Институциональная эканомика” (Перевод Курышевой А.А). История экономической мысли. Экономический вестник Российского государственного университета, 2007, №4, стр.59-70

a. Конституционно-правовые проблемы формирования социального правового государства : материалы Межд. науч.-практ. конф., 30–31 матра 2000 г. – Минск, 2000. – С. 386–390

114. Копташкин С. В. Социальное государство. Научные публикации КФ РГСУ © 2008

a. Кочеткова Л.Н. Философский дискурсо социальном государстве

115. Кочеткова Л. Н.Теория социального государства Лоренца Фон Штейна//Философия и общество, №3,2008, с. 69-79

a. Леонов И.В., Социальное государство как предмет теоретико-правового исследования : дис. … канд юрид. наук. – М., 2006. – С. 73

b. «Лоббизм как явление политической жизни»

c. Макиавелли Н. Государь. М.: Планета, 1990

116. Медведева О.О.“Дискуссия о мультикультурализме и актуальные проблемысоциальной политики государства”. «Политика и политические науки», 2009. cyberleninka.ru

117. Международная Организация по делам беженцев. http://ru.wikipedia.org/wiki/

118. Митчел У. «Экономические циклы. Проблема и его постановка». М.-Л., 1930.

i. Мосдорф Зигмар («Нами правит пятая власть?», Internationale Politik №5, 19.12.2005г.

b. Мюллер Д.Г. «Новый консерватизм» в современной России(реальность и перспективы)Казанский государственный университет, 2001, s. 190-195

119. Наумова Е.Н., Социальное государство в России: проблемы теории и практики : дис. … канд. юрид. наук – Владимир, 2006. – С. 49

120. Наумов Е.А. Устойчивое развитие и теория институционального конструктивизма. Электронное научное издание «Международный электронный журнал. Устойчивое развитие: наука и практика» www.yrazvitie.ru вып. 2 (9), 2012, ст. 3 Выпуск подготовлен по итогам Второй Международной конференции по фундаментальным проблемам устойчивого развития в системе «природа – общество – человек» (29 и 30 октября 2012 г., проект РФФИ №12-06-06085-г)

121. Норт Д. Институты и экономический рост: историческое введение // Тезис. Т.1. Вып.2. М., 1993. С.73.

122. Норт Д. Институты, идеология и эффективность экономики // от плана к рынку: будущее посткоммунистических республик., М., 1993, с.307

123. Общественное здравоохранение и деятельность Всемирного Банка. Международный банк реконструкциии развития/ВСЕМИРНЫЙ БАНК. 2003 г., s.5

124. Осейчук В.И., Конституционно-правовые проблемы строительства в России демократического правового социального государства : автореф. … дис. д-ра юрид. наук. – Тюмень, 2009. – С. 22

125. Осипова Е., Соколова Р., “Кризис цивилизации и неоконсерватизм”, 1993. ecsocman.hse.ru/data/986/771/1217/008ons3-93-0094-106.pdf

126. Полтавская Е.И. " Проблема «социальный институт и организация» и её решение с помощью схем понятий" Философия. Культуралогия. Вестник Нижненовгородского Университета им.Н.И.Лобачевского. Серия Социальные науки, 2012, №3 (27), с.132-137

127. Пономарева Ю.Е.Возможности и ограничения социальной синергетики при исследовании прогресса реформирования. Общество Вчера, Сегодня, Завтра.,s.31-33. http://www.novapdf.com

128. Платон. Сочинения в четырех томах. Т. 3. Ч. 1 / Подобщ. ред. А.Ф.Лосева и В. Ф. Асмуса; Пер. с древне-

греч. — СПб.: Изд-во С.-Петерб. ун-та; ≪Изд-во ОлегаАбышко≫, 2007, s.224, 228, 235

129. Рагимова З. и Мамедова М. “Миграционная ситуация в Азербайджане”. Международная миграция населения на постсоветском пространстве: двадцать лет удач, ошибок и надеж., Научная серия “Международная миграция населения: Россия и современный мир”, Выпуск 25, М.: Верди, 2011, стр. 90-102

130. СадоваяГ. Германия: от кайзеровской империи к демократической республике (1914 – 1922 гг.). Самара, изд. «Самарский университет», 2008, s.62-67

131. Смирнова В.И. “Консерватизм: между прошлым и будущим”. Вісник СевНТУ: зб. наук. пр. Вип. 112/2010. Серія: Політологія. — Севастополь, 2010, s.143-146

132. Современная глобалистика об угрозе смерти человечества. Тексты // Косов Ю.В. // Современная глобалистика об угрозе смерти человечества (в альманахе «Фигуры Танатоса №5») Фигуры Танатоса. Философский альманах. Пятый специальный выпуск. СПб., 1995 (web – кафедра философской антропологии)

133. Социальное страхование - Экономические основы социальной работы. ...studme.org/10530524/sotsiologiya/sotsialnoe_strahovanie

134. Стратегия ВОЗ в охране здоровья граждан. http://txtb.ru/109/49.html

135. Теория государства и права /Под ред. М.Н. Марченко. М., 1996. С.2

136. Токарева С.Б. Методология социального конструирования и социальный конструктивизм. Социальная философия и социальное проектирование. ISSN 1998-9946. Вестн. Волгогр. гос. ун-та. Сер. 7, Филос. 2011. № 2 (14) 11330

137. Толерантность как результат межкультурной коммуникации. http://www.grandars.ru/college/sociologiya/tolerantnost.html

138. Томас Мор. УтопияГ. Кудрявцев. Утопия: Academia; 1935, s.104-112

139. Томмазо Кампанелла. Город Солнца. http://bookz.ru/ authors/kampanella-tommazo/suntown/1-suntown.html

140. Файзуллин Т.Ф., Файзуллина А.И. "Сущность институализма и его значение в исследовании социально-экономических явлений". Вестник ОГУ №9/сентябрь, 2007, с.37

141. Философский энциклопедический словарь, М., «Советская энциклопедия», 1983, с.201

142. Фихте И. Г. Сочинения в 2-х томах. СПб.: Мифрил, 1993. 1485 с.

143. Фролова Т.А. История экономических учений: конспект лекций. Таганрог: ТРТУ, 2004; http://www.rostinv.ru/teoreticheskaj_sistema_i_ykonomicheskaj_programma-1.html

144. Храмцов А.Ф., Социальное государство: Россия и европейский опыт : автореф. … дис. д-ра полит. наук. – М., 2007. – С. 22

145. Уильямсон О. Экономические институты капитализма. СПб., 1996. С.48.

146. Устав (конституция)всемирной организациииздравоохранения. http://www.who.int/governance/eb/who_constitution_ru.pdf

147. Эволюция теории и практики «государство благосостояния» в 80-годы. – Сб. обзоров, М.: ИНИОН АН СССР. С.22.

148. Эйдукене Д.Д. Социальный реализм Лоренца фон Штейна. Вестник ТГПУ. Выпуск 7 (58), 2006. Серия: Гуманитарные науки.с.58-60

149. Энциклопедический словарь медицинских терминов.pdfvk.com/doc16951252_157199440?hash=ffd1c28dfae3, s.463

150. Этьен Кабе. Путишествие в Икарию. Перевод Э.Л.Гуревича. М., Vive Liberta и Век Прсвещения, 2011, с.18-23

151. ШамоваЛ.Г. Социальное государство. История. Современность.

152. ШвецА. Платон об идеальном государстве. Публикуется в эл.журнале «ЗОВУ РИТМ», ноябрь-декабрь 2010г.

**İngilis dilində**

153. Braun H., Niehaus M. Sozialstaat Bundesrepublik Deutchland auf dem Weg nach Europa. Frankfurt am Main; 1990. s. 152.

154. Briggs A. The Welfare State in Historical Perspective. Concepts and Issues.

155. John Maynard Keynes. The General Theory of Employment, Interest and Money. Transcribed for M.I.A., corrected and formatted by Andy Blunden; This Edition: marxists.org 2002, s.163-169

156. Geißler, R. Multikulturalismus in Kanada — Modell fuer Deutschland? [Elektronische Ressource] // Bundeszentrale fuer politische Bildung. <http://www.bpb.de/publikationen/XPXZV2.html>. Datum des Zugangs: 26.03.2006

157. Health and the Millenium Development Goals. 2005, Keep the promise. World Health Organization, 2005.

158. Kristol I., 'The Neoconservative Persuasion', Weekly Standard, 2003 (August 25), Vol. 8, Issue 47.

159. New UNHCR report says global forced displacement at 18 year high. http://www.unhcr.org.uk/news-and-views/news-list/news-detail/article/new-unhcr-report-says-global-forced-displacement-at-18-year-high.html

160. Pederson, William D. ed. A Companion to Franklin D. Roosevelt (Blackwell Companions to American History) (2011)

161. Poverty estimation in Azerbaijan.Paris, 30 Novovmber -2 December, 2005

162. The Sage Dictionary of Sociology. SAGE Publications Ltd1 Oliver's. London EC1Y 1SP © Steve Bruce and Steven Yearley 2006. P.154

163. Tom G. Palmer, After the welfare state. Printed in the United States of America, 2012

164. UNHCR 2012 refugee statistics: full data. http://www.guardian.co.uk/news/datablog/2013/jun/19/refugees-unhcr-statistics-data

165. Wagner Adolph. The state in economic perspective. Jena, 1901

## İnternet resurslar

166. http://opisdela.ru/?p=1570

167. http://files.preslib.az/site/diaspora/gll.pdf